İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## OTUZ YEDDİNCİ KİTAB

## İYUL 2009 - SENTYABR 2009

AZƏRNƏŞR
BAKI - 2017

# İLHAM ƏLİYEV

ÇIXIŞLAR • NİTQLƏR

BƏYANATLAR • MÜSAHİBƏLƏR

MƏKTUBLAR • MƏRUZƏLƏR

MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI - 2017

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına, Qazaxıstana və Rumıniyaya səfəri, həmçinin Suriya və Latviya prezidentlərinin ölkəmizə səfərləri zamanı bu ölkələrin dövlət və hökumət başçıları ilə ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişafına dair materiallar dərc olunmuşdur. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda Ermənistanın işğalçılıq siyasətini önə çəkmiş, dünyanı Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları çərçivəsində həllinə dəstək olmağa çağırmışdır.

Bu cilddə, həmçinin dövlət başçısının bölgələrə səfərləri, regionların sosial-iqtisadi inkişaf proqramının həyata keçirilməsi, ölkənin sosial, iqtisadi, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına həsr olunmuş nitqləri, bölgələrdə ictimaiyyətin nümayəndələri ilə görüşləri, bir sıra orta məktəblərin, zavodların, sənaye müəssisələrinin açılışında iştirakına dair çıxışları və digər sənədlər dərc edilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Ə** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07) – 2017}}$ **BBK - 32**

© Azərnəşr, 2017

## TƏZƏPİR MƏSCİD KOMPLEKSİNİN ƏSASLI YENİDƏNQURMA VƏ GENİŞ TİKİNTİ İŞLƏRİNDƏN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ*

*6 iyul 2009-cu il*

*İyulun 6-da əsaslı yenidənqurma və geniş tikinti işlərindən sonra Təzəpir məscid kompleksi istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Uzun illər aparılan cari təmir işlərinə baxmayaraq, məscidin kommunikasiyaları dəyişdirilmədiyindən köhnəlmiş və yararsız hala düşmüşdü. Məscidin ətrafını köhnə, qarmaqarışıq tikililər əhatə etmiş, gediş-gəliş yollarında tıxaclar yaranmış, yuxarı məhəllələrdən axıb gələn çirkab suları binanın özülünü qismən zədələmişdi. Günbəzdə çatlar əmələ gəlmiş, iç dekorativ naxışları pozulmaq təhlükəsinə məruz qalmışdı.*

*İkinci böyük problem məscid kompleksi ərazisində yerləşən Qafqaz Müsəlmanları İdarəsinin inzibati və Bakı İslam Universitetinin tədris binalarının tamamilə yararsız olması idi. Bu tikililər praktiki baxımdan müasir tələblərə cavab vermir, texniki qüsurları ilə normal iş fəaliyyətinə əngəl törədirdi.*

---

* Təzəpir məscid kompleksinin əsaslı yenidənqurma və istifadəyə verilməsi mərasimində Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə, Bakı və Xəzəryanı Yeparxiyanın Yepiskopu Aleksandr ata, Dağ Yəhudiləri icmasının sədri Semyon İxiilov, Vatikanın Azərbaycandakı Apostol nunsisi Klaudio Qucerotti, Küveyt Dövlətinin islam və vəqf nazirinin müavini Adil əl-Fəllah və Şimali Qafqaz Müsəlmanları Şurasının sədri İsmayıl Berdiyev çıxış etdilər.

*Ulu öndər Heydər Əliyevin prinsipial mövqeyi, iradəsi, milli mənəvi dəyərlərimizə dərindən bağlılığı sayəsində ölkəmizdə dini etiqad və vicdan azadlığı daim inkişaf edir. Heydər Əliyev ideyalarına sadiq qalan və onu uğurla davam etdirən prezident İlham Əliyevin maddi mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Təzəpir məscid kompleksinin yenidən qurulması da əksini tapmışdır. Son illər Azərbaycanın bütün dini ocaqlarında yüksək səviyyədə aparılan yenidənqurma işləri dövlətimizin başçısının xalqın milli mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin ən gözəl nümunəsidir.*

*Prezident İlham Əliyevin göstərişi əsasında 2005-ci ildə məscidin bərpası və ətraf ərazilərin yenidən qurulması layihəsi hazırlandı. Layihədə Təzəpir məscidinin ilkin görkəminə qaytarılması məqsədi ilə yenidən bərpası və əzəli memarlığına xələl gətirməyən elementlərin əlavə edilməsi öz əksini tapmışdı. Layihənin memarlıq işləri Ə.Məmmədova, bərpa F.Miralayevə, interyer tərtibatı E.Mikayılzadəyə həvalə olundu. «Azərlayihə» İnstitutu tərəfindən işlənib hazırlanan layihənin icrasını «İnam-AŞ» şirkəti həyata keçirdi.*

*Dövlətimizin başçısı üç dəfə burada olmuş və fikirlərini bölüşmüş, tövsiyələrini vermiş, tikintinin gedişini daim diqqətdə saxlamış, qarşıya çıxan problemlər dərhal həll olunmuş, qısa müddətdə Təzəpir məscidi tanınmaz dərəcədə dəyişmiş, nəfis və möhtəşəm görkəm almışdır.*

*Prezident İlham Əliyev xanımı Mehriban Əliyeva və qızı Leyla ilə birlikdə Təzəpir məscid kompleksinə gəldi.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə dövlət başçısına burada aparılan əsaslı yenidənqurma və tikinti işləri barədə ətraflı məlumat verdi.*

*Bildirildi ki, məscid kompleksində ən yüksək səviyyədə yenidənqurma, tikinti və tərtibat işləri görülmüşdür.*

*Kompleksin ərazisində məscid kompleksinin Azərbaycan prezidenti İlham Əliyevin təşəbbüsü əsasında yenidən qurulmasını bildirən lövhə qoyulmuşdur.*

*Daha sonra Prezidentə məlumat verildi ki, XX əsrin əvvəllərində kinoteatr və anbar kimi istifadə olunmuş binada yenidənqurma işlərinin gedişi zamanı məscidin ətrafı sonradan tökülmüş torpaq qatlarından təmizlənmiş, kürsü hissəsi üzə çıxarılmış, divarın sınmış və çatlamış daşları yeniləri ilə əvəz olunmuş, divarlar kimyəvi maddələrlə yuyulmuşdur. Deformasiyaya uğramış və əksəriyyəti çürümüş qapı və pəncərələr qırmızı şam ağacından olan təzə qapı və pəncərələrlə, minarənin çürümüş məhəccəri döymə üsulu ilə hazırlanmış yenisi ilə əvəzlənmişdir. Məscidin daxilində müasir texnologiya ilə işləyən havalandırma sistemləri quraşdırılmış, döşəmə 30 santimetrə qədər dərinliyə salınmış, döşəməaltı istilik sistemi qurulmuşdur. Döşəməyə 720 nəfərlik «Namazgah» xalı döşənmişdir.*

*Qadınlar üçün ibadət hissəsi fıstıq ağacından hazırlanmış şəbəkə ilə ayrılmış, metal pilləkən sökülərək üstü taxta ilə örtülmüş dəmir-beton pilləkən quraşdırılmışdır.*

*Məscidin interyerində ümumi sahəsi 1400 kvadratmetr olan divarlarda və günbəz altında Azərbaycan nəqqaşlıq məktəbinin və Şərq oriyentalistikasının nadir nümunələrindən istifadə olunmuşdur. Mehrab kaşı və mərmərdən yığılmış, günbəzin pəncərə konstruksiyaları təzələnərək şəbəkəli taxta pəncərələrlə əvəzlənmişdir. Günbəzə ağırlıq gətirən iki tonluq çilçıraq ləğv olunaraq müasir texnologiyalı işiqlandırma sistemləri quraşdırılmışdır. Əsas zalda 52, qadınların ibadət etdiyi hissədə 5 divar çilçırağı asılmışdır.*

*Məscidin tamamlayıcı dekorativ elementlərinin üstü, minarələrin başı və kəmərbənd yazıları ən yüksək əyarlı qızıl lövhələrdəndir. Günbəzin üstü isə Qızılqaya daşı ilə üzlənmiş, dekorativ elementlərlə bərabər, yuxarı hissədə «La İlahə İlləllah» kəlməsi 6 dəfə təkrar olunmuşdur. Dekorativ oyma detallarının və yazılı kəlmələrin üzəri yüksək əyarlı qızıl*

*təbəqə ilə örtülmüşdür. Günbəzin üstü hündürlüyü 1,6 metr olan daş sancaqla tamamlanmışdır.*

*Günbəzin tən ortasında Qurani-Kərimdən «Nas», dairələrdə «Ayətül-kürsü», kiçik günbəzlərdə isə «Həmd» surələri həkk olunmuşdur.*

*«Qurani-Kərim»dən ayələr oxundu.*

*Sonra dövlətimizin başçısı kompleksin mərasim zalları yerləşən korpusuna baxdı. Bildirildi ki, burada müxtəlif dini mərasimlər yerinə yetiriləcək, o cümlədən ehsan və kəbin mərasimləri icra olunacaqdır. Ümumilikdə binada 1600 nəfərə xidmət etmək üçün 6 mərasim zalı yaradılmışdır. Bu korpusda xarici qonaqların qəbulu, yerləşdirilməsi üçün otaqlar da vardır.*

*Prezident İlham Əliyev Bakı İslam Universitetinin tədris korpusu ilə də tanış oldu.*

*Korpusun hər mərtəbəsində 10 sinif otağı olmaqla 250 tələbənin təhsil alması üçün hər cür şərait yaradılmışdır. Binanın yarımzirzəmi hissəsində yeməkxana və kitabxana yerləşir. Korpusun bir hissəsində müasir tələblərə cavab verən qazanxana, damında isə «Çiller» havalandırma sistemi quraşdırılmışdır.*

*Təzəpir məscid kompleksinin ərazisindəki birmərtəbəli yöndəmsiz tikililər sökülərək yerində Qafqaz Müsəlmanları İdarəsi üçün beşmərtəbəli inzibati bina inşa edilmişdir.*

*Ümumi sahəsi 4100 kvadratmetr olan inzibati binada xidməti otaqlar, 50 yerlik kiçik konfrans zalı yerləşir. Birinci mərtəbədə sahəsi 340 kvadratmetr olan 6000 kitablıq kitabxana vardır. Kitabxananın interyeri ağac materialı ilə bəzədilmiş, tavanda 32 çilçıraq quraşdırılmışdır. Kitabxananın bir hissəsində dini verilişlərin hazırlanması üçün ministudiya yaradılmışdır. Kompyuterlərlə təchiz edilmiş kitabxananın zəngin kitab fondu vardır.*

*Dövlətimizin başçısı burada nümayiş olunan qədim kitablara, Təzəpir məscidi haqqında CD-lərə baxdı, Xatirə kitabına ürək sözlərini yazdı.*

*Binanın vestibülünün interyerində ağac üzərində oyma detallardan geniş istifadə olunmuşdur.*

*Kompleksin ərazisində 820 kvadratmetr sahəsi olan kiçik mərasim zalları, 80 kvadratmetrlik qurbangah, 200 kvadratmetrlik qadın və kişi dəstəmazxanaları və s. tikilmişdir.*

*Torpağın altında 480 kubmetr həcmində su çəni quraşdırılmış, yüksək gücə malik generator və əlavə elektrik tənzimləyicisi qoyulmuşdur. Kompleksin ətrafında 4500 kvadratmetr sahəyə Ukrayna və Hindistandan gətirilmiş qranit-mərmər piltələr döşənmişdir.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi*

**Azərbaycan prezidenti İlham Əliyevin nitqi**

Hörmətli Şeyx həzrətləri!

Hörmətli din xadimləri!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən sizin hamınızı səmimiyyətlə salamlayıram və Azərbaycan üçün bu əlamətdar tarixi gündə hər birinizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bu gün həqiqətən tarixi bir gündür. Əsaslı təmirdən və yenidənqurma işlərinin aparılmasından sonra Təzəpir məscidi yenidən fəaliyyətə başlayır. Məscid əsaslı təmir edilib, ərazisi genişləndirilib, ətrafdakı bir neçə ev köçürülüb. Burada – tarixi bir yerdə həm milli və dini dəyərlərimizi əks etdirən gözəl kompleks, həm də ən müasir standartlara cavab verən yeni gözəl şərait yaradılıb, mərasimlər korpusu, ruhani idarəsinin iqamətgahı, konfrans zalı, universitet binası tikilmişdir. Əminəm ki, bu gözəl tarixi yerdə dinlərarası dialoqun dərinləşməsi, Azərbaycan xalqının, Azərbaycandakı bütün xalqların nümayəndələrinin normal yaşaması üçün müxtəlif tədbirlər, simpoziumlar, konfranslar və başqa tədbirlər keçiriləcəkdir.

Azərbaycanda din dövlətdən ayrıdır. Azərbaycan dünyəvi dövlətdir. Bununla bərabər, biz öz milli və dini ənənələri-

mizə, dəyərlərimizə sadiqik və ümumbəşəri dəyərləri bölüşürük.

Bütün dövrlərdə Azərbaycanda xalqlar mehribanlıq şəraitində yaşayıblar. Müstəqil Azərbaycan dövləti bundan sonra da bu gözəl ənənəni yaşatmaq üçün əlindən gələni edəcəkdir. Baxmayaraq ki, Azərbaycanda din dövlətdən ayrıdır, Təzəpir məscid kompleksinin yenidən qurulması üçün vəsait dövlət tərəfindən ayrılıbdır. Bir il əvvəl əsaslı təmirdən və genişləndirmə işlərinin aparılmasından sonra yenidən istifadəyə verilmiş Bibiheybət məscid-ziyarətgah kompleksinin və Əjdərbəy məscidinin yenidən qurulmasına da Azərbaycan dövləti vəsait ayırmışdı. Bu onu göstərir ki, Azərbaycan dövləti öz dini və milli ənənələrinə çox sadiqdir, islam dinini yaşatmaq, həmrəyliyini genişləndirmək üçün əlindən gələni edir. İslam dini dostluq, qardaşlıq dinidir, həmrəylik dinidir.

Əfsuslar olsun ki, bəzi hallarda islam dini haqqında qəsdən yalan məlumatlar yayılır, islamofobiya siyasəti aparılır. Bu gün dünyada dinlərarası dialoqdan çox danışılır və buna böyük ehtiyac vardır. Ancaq bəzi hallarda dini ayrı-seçkilik meyilləri də görünür. Biz islam dininə qarşı aparılan kampaniyanı və əsassız ittihamları rədd edirik. İslam dini dostluq dinidir. İslam dövlətləri arasında çox geniş mənada əməkdaşlığa və dostluğa ehtiyac var. İslam Konfransı Təşkilatı çərçivəsində Azərbaycanda çoxsaylı mötəbər tədbirlər keçirilmişdir. İslam Konfransı Təşkilatında həmrəyliyin və əməkdaşlığın dərinləşməsi üçün Azərbaycan dövləti öz siyasətini aparır və təsadüfi deyil ki, gənc müstəqil Azərbaycan dövləti islam aləmində böyük hörmət qazana bilmişdir. İslam aləmi məhz bu səbəbdən Azərbaycan dövlətinin paytaxtı Bakı şəhərini islam dünyasının mədəni paytaxtı seçmişdir. Biz bu adı böyük qürur hissi ilə daşıyırıq. Bu münasibətlə Azərbaycanda bir neçə ay əvvəl böyük mərasim keçirilmişdir və Bakı bu gün islam dünyasının mədəni paytaxtıdır. Biz bundan sonra da həm siyasi addım-

larımızla, həm də dini icmaların birgə fəaliyyəti nəticəsində bu məsələlərin həllinə daha da böyük diqqət göstərəcəyik.

Azərbaycanda bütün millətlərin, dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda milli və dini zəmində ayrı-seçkilik olmamışdır, yoxdur və olmayacaqdır. Azərbaycanda yaşayan bütün insanlar bizim dəyərli vətəndaşlarımızdır və Azərbaycanda hökm sürən dini tolerantlıq əminəm ki, başqa yerlərdə də öyrənilə bilər.

Biz öz siyasətimizi və öz gələcəyimizi möhkəm tarixi, mədəni, milli və dini əsaslar üzərində qururuq. Azərbaycanda yaşayan bütün başqa dinlərin nümayəndələri də özlərini burada rahat hiss edirlər. Biz qədim mədəniyyətə malik xalqıq və bununla haqlı olaraq qürur hissi keçiririk. Bizim çox qədim ənənələrimiz vardır, eyni zamanda, dünyəvi ölkə olaraq irəliyə doğru gedirik. Biz Azərbaycanda müasirliyin və ənənələrin sintezini görürük və yəqin ki, bu amil ölkəmizin ümumi uğurlu inkişafında öz rolunu oynamışdır.

Azərbaycan son illər çox sürətlə inkişaf edir. Ölkə qarşısında duran bütün vəzifələr icra edilmiş, siyasi müstəvidə Azərbaycan bölgədə özünəlayiq yerini tuta bilmişdir. Beynəlxalq təşkilatlarda ölkəmiz böyük hörmətə malikdir. Ölkəmiz iqtisadi artım templərinə görə son 5 ildə dünya çapında birinci yerdədir. Azərbaycanda yaşanan iqtisadi inkişaf və iqtisadiyyatın artımı heç bir başqa ölkədə bu vaxta qədər müşahidə olunmamışdır. Ölkə qarşısında duran sosial məsələlərin həlli, iqtisadi islahatların dərinləşməsi, bölgədəki mövqelərimizin möhkəmləndirilməsi istiqamətində böyük nailiyyətlər əldə edilibdir. Azərbaycanda vətəndaş birliyi, həmrəyliyi olmasaydı, bunları əldə etmək mümkün olmazdı. Azərbaycan xalqında bu məsələlərlə bağlı heç bir fikir ayrılığı yoxdur. Biz möhkəm milli və dini əsaslar üzərində irəliyə gedirik, müasirliyə gedirik.

Bu gün bu gözəl mərasimdə bizimlə bərabər hörmətli Şeyx həzrətlərinin dəvəti ilə qonşu bölgələrdən gələn müsəlman qardaşlarımız da iştirak edirlər. Mən onların Azərbay-

cana gəlişini alqışlayır, səmimiyyətlə salamlayıram. Müsəlman ölkələrini və Şimali Qafqaz respublikalarını təmsil edən nümayəndələrin iştirakı bu mərasimə əlavə əhəmiyyət verir. Biz hamımız çalışmalıyıq ki, Qafqazda sülh tam bərqərar olunsun. Çünki Qafqaz – mən bunu dəfələrlə demişəm – vahid orqanizmdir. Cənubi Qafqaz ölkələri müstəqil dövlətlərdir, Şimali Qafqaz respublikaları Rusiya dövləti tərkibində fəaliyyət göstərirlər. Ancaq bu təkcə coğrafi ərazi deyil. Qafqaz xalqları bir-birinə çox bağlıdır, çox yaxındır və biz çox istəyirik ki, bütün Qafqazda sülh bərqərar olunsun. Müharibələrə, qarşıdurmalara son qoyulsun və nəhayət, uzun illər, onilliklər, əsrlər ərzində Qafqazda yaşayan insanların əziyyətinə son qoyulsun.

Bu gün Cənubi Qafqazda münaqişələrin mövcudluğu bizim ümumi inkişafımıza böyük maneədir, böyük təhlükədir. Təkcə bizim üçün yox, bütün bölgə üçün böyük təhlükədir. Ən böyük təhlükə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Atəşkəs rejimindən sonra 15 ildir ki, məsələ öz həllini tapmır.

Azərbaycanın 20 faiz torpaqları işğal altındadır. Bu etnik təmizləmə siyasətindən əziyyət çəkən 1 milyon vətəndaşımız qaçqın, köçkün şəraitində yaşayır. İşğal edilmiş torpaqlarda erməni silahlı qüvvələri tərəfindən hər şey – binalar, evlər, məktəblər, xəstəxanalar, məscidlər dağıdılıbdır. Buna son qoyulmalıdır və bu münaqişə beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Bu normalar hamıya bəllidir və dünyanın ən birinci beynəlxalq təşkilatı olan BMT və onun Təhlükəsizlik Şurası erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından çıxarılmasına dair 4 qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, Ermənistan tərəfi buna məhəl qoymur. ATƏT, İslam Konfransı Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatlar bu məsələ ilə əlaqədar ədalətli mövqe tuturlar. Bu mövqe ondan ibarətdir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, bütün işğalçı qüvvələr bizim

torpaqlarımızdan çıxarılmalıdır və ondan sonra sülh sazişi imzalana bilər.

Mən tam əminəm ki, əgər Ermənistan–Azərbaycan münaqişəsi tezliklə öz həllini taparsa, bu nəticənin müsbət təsirini biz bütövlükdə Qafqazda görə bilərik. Çünki Qafqaz vahid orqanizmdir. Azərbaycan həm Xəzər ölkəsidir, həm Qafqaz ölkəsidir. Rusiya həm Xəzər ölkəsidir, həm Qafqaz ölkəsidir. Bu gün Rusiyanı təmsil edən nümayəndələr bizim qonaqlarımızdır. Yaxşı bilirlər ki, bu yaxınlarda Rusiya ilə Azərbaycan arasında çox vacib sazişlər imzalandı. Rusiya–Azərbaycan münasibətlərinin inkişafı bütün Qafqazda sülhün, təhlükəsizliyin təmin edilməsində çox mühüm rol oynayır və oynayacaqdır. Bizim digər qonşularımızla münasibətlər də eyni qaydada qarşılıqlı hörmət, bir-birimizin işinə qarışmamaq və qarşılıqlı etimad prinsipləri əsasında qurulur və dövlətlərarası münasibətlər gələcəkdə də yalnız bu çərçivədə davam etdirilməlidir.

Mən bugünkü gözəl tədbirdə olmağımdan məmnunam. Təzəpir məscidinin yenidən qurulması və təmir işlərinin aparılması ilə vaxtaşırı maraqlanmışam, gəlmişəm, özüm görmüşəm, bəzi hallarda müəyyən tövsiyələrimi də vermişəm və çox şadam ki, Bakının mərkəzində, ölkəmiz üçün, xalqımız üçün tarixi olan bir yerdə gözəl, müasir kompleks yaradılıbdır. Bu münasibətlə sizi və bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.

## TƏZƏPİR MƏSCİD KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 iyul 2009-cu il*

*İyulun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təzəpir məscid kompleksinin açılışında iştirak edən xarici ölkələrin din xadimlərini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Təzəpir məscid kompleksinin açılış mərasimində iştirak etdiklərinə görə qonaqlara minnətdarlığını bildirərək dedi ki, bizim müxtəlif xalqlarla, o cümlədən din xadimləri ilə yaxşı münasibətlərimiz vardır. Qafqazda sülh həm regionda yaşayan xalqlara, həm də bütün dünyaya lazımdır. Təəssüflər olsun ki, regionumuzda həmişə münaqişələr, müharibələr olub və bu gün də vardır. Bunlara ancaq birgə səylərlə son qoymaq olar.*

*Azərbaycan prezidenti vurğuladı ki, biz öz dinimizi dünyaya olduğu kimi təqdim etmək üçün maarifləndirmə işlərini gücləndirməliyik. Müxtəlif təşkilatlar çərçivəsində tədbirlər də keçirilməlidir. Azərbaycan dinlərarası dialoqun mərkəzi olmaq imkanına malikdir, çünki ölkəmizin islam ənənələri çox möhkəm və qədimdir. Azərbaycan həm Avropanın, həm də Asiyanın bir hissəsidir.*

*Müsəlman dövlətləri ilə yaxşı əlaqələr qurmaqla yanaşı, Avropa Şurasının üzvü olan və digər Avropa qurumları ilə əməkdaşlıq edən Azərbaycanın çoxmillətli və çoxkonfessiyalı ölkə olduğunu vurğulayan prezident İlham Əliyev qeyd etdi ki, respublikamızın hər bir vətəndaşı özünü cəmiyyətin bir hissəsi kimi hiss edir. Hakimiyyətlə din xadimləri arasında möhkəm*

*dostluq əlaqələri vardır. Bunun əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün də davam etdirilir.*

*Dövlətimizin başçısı bu məsələlərdə Qafqaz Müsəlmanları İdarəsinin və MDB Müsəlmanları Məsləhət Şurasının sədri şeyxülislam Allahşükür Paşazadənin xidmətlərindən də danışdı. Prezident İlham Əliyev respublikamızın iqtisadi inkişafı barədə xarici ölkələrin din xadimlərinə məlumat verərək bildirdi ki, dünyada mövcud olan iqtisadi böhrana baxmayaraq, son 5 ayda Azərbaycanın iqtisadiyyatında 4,5 faiz artıma nail olunmuşdur. Bütövlükdə son 5 il ərzində iqtisadiyyat 2,6 dəfə artmışdır. Yoxsulluq 49 faizdən 13 faizə enmiş, 800 minə yaxın yeni iş yeri yaradılmışdır. Regionlarda sosial məsələlərin həllinə böyük diqqət yetirilir.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zamanı doğma yurdlarından didərgin düşmüş məcburi köçkünlərin, eləcə də Ermənistandakı qədim torpaqlarından qovulmuş soydaşlarımızın və Orta Asiyadan Azərbaycana köçmüş mesxeti türklərinin problemlərinin həlli istiqamətində görülən işlərdən danışmış və qonşu ölkələrdən fərqli olaraq bu problemlərin kənardan yardım almadan, Azərbaycanın öz gücü ilə həll edildiyini bildirmişdir.*

*Daha sonra Azərbaycan prezidenti Rusiyanın regionları, xüsusilə də Şimali Qafqaz respublikaları ilə əlaqələrdən, bütövlükdə qonşu Rusiya Federasiyası ilə münasibətlərin bugünkü vəziyyətindən danışmış, Azərbaycan ilə Rusiya arasında ticari-iqtisadi və humanitar sahələrdə əlaqələrin genişləndirilməsinin hər iki ölkə xalqlarının mənafeyinə xidmət etdiyini əsaslandırmışdır.*

*Şimali Qafqaz Müsəlmanları Şurasının sədri İsmayıl Berdıyev Təzəpir məscid kompleksinin əsaslı yenidənqurmadan sonra dindarların istifadəsinə verilməsini mühüm hadisə kimi dəyərləndirmiş və demişdir ki, bu dünyada məscid tikənə Allah-təala cənnətdə saray tikir. İsmayıl Berdıyev ulu öndər Heydər Əliyev haqqında xoş xatirələrini də dilə gətirmiş, Azərbaycanda dinlə dövlət arasındakı dostluğun digər ölkələr*

*üçün nümunə olduğunu söyləmiş, bu amilin respublikada gedən inkişaf prosesinə təsirindən danışmışdır.*

«Mən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin din xadimlərinə və ümumiyyətlə, müsəlmanlara gözəl münasibətinin şahidiyəm» *– deyən Azərbaycan–İran Dostluq Cəmiyyətinin sədri Əhəd Qəzai bildirmişdir ki, bu qayğı prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və Təzəpir məscid kompleksinin yenidən qurularaq dindarların istifadəsinə verilməsi bunun əyani təzahürüdür. Əhəd Qəzai Azərbaycanda digər məscidlərin, müqəddəs ocaqların da bərpasına diqqət yetirilməsini müsbət hal kimi səciyyələndirmişdir.*

*Küveyt Dövlətinin islam və vəqf nazirinin müavini Adil əl-Fəllah prezident İlham Əliyevi və Azərbaycan xalqını Təzəpir məscid kompleksinin açılışı ilə əlaqədar təbrik etmiş və din xadimlərinin belə formatda görüşünün təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirmişdir. Bakı barədə təəssüratlarını danışan qonaq yüksək inkişafda Azərbaycan prezidentinin xüsusi xidmətləri olduğunu söyləmişdir.*

*Bu yaxınlarda Küveytdə səfərdə olduğunu vurğulayan prezident İlham Əliyev Küveyt Əmiri ilə səmərəli danışıqlar apardığını və onu Azərbaycana səfərə dəvət etdiyini bildirmişdir. Dövlətimizin başçısı Adil əl-Fəllahdan xahiş etmişdir ki, onun salamlarını və dəvətini bir daha Küveyt Əmirinə çatdırsın.*

## BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*7 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 7-də Belarusun Baş naziri Sergey Sidorskini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə etdi. Prezident İlham Əliyev əlaqələri inkişaf etdirmək, inteqrasiya olunmaq və əməkdaşlığı genişləndirmək üçün hər iki tərəfdə ümumi istəyin olduğunu vurğuladı. Qısa vaxt ərzində birgə istehsal sahələrinin yaradılmasını yaxşı təcrübə kimi dəyərləndirən prezident İlham Əliyev bu təcrübəni digər sahələrə də tətbiq etməyin zəruriliyini bildirdi. Dünyadakı mövcud iqtisadi və maliyyə böhranı şəraitində əməkdaşlığın əhəmiyyətini qeyd edən dövlətimizin başçısı ümidvar olduğunu bildirdi ki, Belarusun Baş naziri Sergey Sidorskinin Azərbaycana səfəri ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da genişləndirilməsi işinə xidmət edəcəkdir.*

*Belarusun Baş naziri Sergey Sidorski Belarus prezidenti Aleksandr Lukaşenkonun salamlarını dövlətimizin başçısına çatdırdı. Sergey Sidorski bildirdi ki, dünyadakı maliyyə böhranına baxmayaraq dövlətlərimizin başçılarının müəyyənləşdirdiyi uğurlu siyasət nəticəsində əlaqələrimiz inkişaf edir və bu siyasət əməkdaşlığımızın daha da genişlənməsi üçün yaxşı imkan yaradır.*

*Azərbaycan prezidenti İlham Əliyev prezident Aleksandr Lukaşenkonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Belarus dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*8 iyul 2009-cu il*

*İyulun 8-də Azərbaycan Respublikasına rəsmi səfərə gələn Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsədin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Suriya prezidenti Bəşşar əl-Əsədi və xanımı Əsma əl-Əsədi səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Suriya prezidentinə raport verdi.*

*Suriyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları İlham Əliyev və Bəşşar əl-Əsəd Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Suriya prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Bəşşar əl-Əsədə, Suriya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*8 iyul 2009-cu il*

*İyulun 8-də rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd və xanımı Əsma əl-Əsəd ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Suriya prezidenti Bəşşar əl-Əsədin təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə dövlət başçıları ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluqlarını ifadə etdilər.*

*Prezidentlər dövlətlərimiz arasında əlaqələrin bundan sonra da genişlənəcəyinə ümidvar olduqlarını bildirdilər, bu səfərin Azərbaycan–Suriya ikitərəfli münasibətlərinin yeni mərhələyə yüksəlməsinə təkan verəcəyini vurğuladılar.*

*Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Prezident sarayı*

*8 iyul 2009-cu il*

*İyulun 8-də təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Suriya prezidenti Bəşşar əl-Əsədin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İlham Əliyev**: Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən bir daha sizi ürəkdən salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Bu Sizin Azərbaycana ilk rəsmi səfərinizdir, əminəm ki, səfər uğurlu keçəcəkdir. Səfər çərçivəsində imzalanacaq sənədlər iki ölkə arasında münasibətlərin yeni səviyyəyə qalxmasına xidmət göstərəcəkdir.

Biz çox istəyirik ki, Suriya–Azərbaycan əlaqələri bütün sahələrdə genişlənsin və iki xalqa fayda versin. Əminəm ki, səfəriniz uğurlu keçəcək və gələcək münasibətlərə güclü təkan verəcəkdir.

**Bəşşar əl-Əsəd:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Mən öz adımdan və məni müşayiət edən nümayəndə heyəti adından Sizə minnətdarlığımı bildirirəm. Səfər başlayandan bəri hiss edirik ki, iki ölkə arasında əməkdaşlıq üçün qapılar açıqdır və bu bizi daha da güclü gələcəyə inandırır. Keçən əsrin 90-cı illərində prezident Heydər Əliyev və prezident Hafiz Əsədin də münasibətlərimizin inkişafı barədə böyük niyyətləri var idi. Ölkələrimiz dünya səviyyəsində strateji mövqelərə malikdir. Əminəm ki, bu münasibətlərin ümumən bizim vəziyyətimizə çox müsbət təsiri vardır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 iyul 2009-cu il*

*İyulun 8-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Suriya prezidenti Bəşşar əl-Əsədin iştirakı ilə Azərbaycan–Suriya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında diplomatik, xidməti və ya xüsusi pasportlara malik olan şəxslərin viza tələblərindən azad olunması haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Suriyanın Xarici İşlər naziri Valid əl-Muallem imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş»i, «Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında iqtisadi, elmi, texniki və mədəni əməkdaşlıq üzrə birgə komissiyanın yaradılması haqqında Anlaşma Memorandumu»nu, «Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında sənaye və energetika sahəsində əməkdaşlıq haqqında Saziş»i, «Azərbaycan Respublikasının Hökuməti və Suriya Ərəb Respublikasının Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Suriyanın Baş nazirinin iqtisadi məsələlər üzrə müavini Abdullah əl-Dərdəri imzaladılar.*

# AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*8 iyul 2009-cu il*

*İyulun 8-də sənədlərin imzalanma mərasimi başa çatdıqdan sonra dövlət başçıları mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və nümayəndə heyətinizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Bu səfər Suriya prezidentinin Azərbaycana ilk rəsmi səfəridir. Əminəm ki, səfər çox uğurlu keçəcək və bu səfər sayəsində Suriya–Azərbaycan əlaqələri daha da inkişaf edəcəkdir. Buna nail olmaq üçün bütün imkanlar vardır. Biz bu gün çox geniş fikir mübadiləsi apardıq. Həm ikitərəfli münasibətlər müzakirə edildi, həm regional məsələlərə vaxt ayrıldı. Əminəm ki, imzalanmış sənədlər münasibətlərimizin inkişafında çox mühüm rol oynayacaqdır.

Suriya–Azərbaycan münasibətlərinin çox gözəl perspektivləri vardır. Keçən ildən başlayaraq Suriyada Azərbaycanın səfirliyi fəaliyyət göstərir. Biz beynəlxalq təşkilatlarda çox uğurlu əməkdaşlıq edirik. BMT və İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığımız ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsinə xidmət göstərir.

Biz Azərbaycanda islam həmrəyliyinin möhkəmlənməsi üçün əməli tədbirlər həyata keçiririk. Bakı şəhəri bu il İslam Mədəniyyətinin paytaxtı elan edilibdir. Gələcəkdə bu istiqamətdə atılacaq müştərək addımlar islam dünyasının birləşməsinə xidmət göstərəcəkdir.

Əminəm ki, siyasi əlaqələr gələcəkdə sürətlə inkişaf edəcəkdir. İqtisadi sahədə yaxşı perspektivlər vardır və sabah keçiriləcək birgə biznes-forum iş adamları arasında əməkdaşlığın dərinləşməsinə xidmət göstərəcəkdir.

Regional məsələlərin müzakirəsinə də bu gün vaxt ayrıldı və mən cənab Prezidentə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyət haqqında fikirlərimi bildirdim. Bildiyiniz kimi, Azərbaycan torpaqları uzun illərdir işğal altındadır, 15 ildən artıqdır ki, atəşkəs elan olunubdur, ancaq hələ ki, məsələ öz həllini tapmamışdır.

Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti və hərbi təcavüzü ölkəmizin ərazisinin 20 faizinin işğal altına düşməsinə gətirib çıxarıbdır, bir milyondan artıq qaçqın, köçkün yaranmışdır.

Biz məsələnin beynəlxalq hüquq normalarına uyğun həll olunmasına tərəfdarıq və BMT Baş Məclisinin qərarları və Təhlükəsizlik Şurasının 4 qətnaməsi erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılmasını tələb edir. Digər beynəlxalq təşkilatların qərarları da bizim mövqeyimizi müdafiə edir. Bu işğala son qoyulmalıdır və Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. O ki qaldı Ermənistan tərəfinin bəzən səsləndirdiyi tezislərə – xalqların öz müqəddəratını təyin etmək hüququna, qeyd etmək istəyirəm ki, erməni xalqı öz müqəddəratını artıq müəyyən edib.

Cənab Prezident, mən bu gün çox şadam ki, bizim aramızda şəxsi münasibətlər də yaranır. Əminəm ki, bu münasibətlərin də çox yaxşı gələcəyi vardır və şəxsi münasibətlər tarixdə mühüm rol oynayır. Bu gün qeyd edildi ki, bizim atalarımız da əməkdaşlıq edirdilər, bir-birini tanıyırdılar,

onları dostluq münasibətləri bağlayırdı. Əminəm ki, biz də bu gözəl ənənəni davam etdirəcəyik.

Hörmətli cənab Prezident, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Sizə və bütün Suriya xalqına xoşbəxtlik arzulayıram.

**Suriya prezidenti Bəşşar əl-Əsədin bəyanatı**

Çox sağ olun, cənab Prezident, qardaşım İlham Əliyev!

Bu gözəl sözlərə görə minnətdaram. Bu sözlər bizim aramızda, Suriya ilə Azərbaycan arasında münasibətləri tam ifadə edir. Azərbaycan xalqına, Azərbaycan hökumətinə və dost Azərbaycana minnətdarlığımı bildirirəm.

Mən və nümayəndə heyətim çox isti qarşılandıq. Bu səfərin həyata keçirilməsi yolunda atılan bütün addımlara görə minnətdarlığımı bildirirəm və əminəm ki, bu səfər çox uğurlu olacaqdır.

Ölkələrimiz arasında münasibətlərin tarixi qədimdir. Azərbaycan şairi Nəsiminin həyat və yaradıcılığı ölkələrimiz arasındakı münasibətlərin dərinliyinə dəlalət edir. Bu şair altı əsr əvvəl Suriyada yaşayıb-yaratmışdır. O, böyük şair və böyük filosof idi. Suriyada dəfn olunmuş Nəsiminin məqbərəsinin daha da gözəlləşdirilməsi, yenidən bərpası barədə hökumətlər arasında razılıq əldə olunmuşdur.

Azərbaycana bu səfərim iki dost ölkə arasında bu qəbildən olan birinci səfərdir. Bu səfərin əsasını güclü bünövrə təşkil edir. Bu əlaqələrimizin, münasibətlərimizin strateji əhəmiyyəti vardır. Bu münasibətlər gələcəyə istiqamətlənib və bütün sahələri əhatə edəcəkdir. Bir sıra sənədlər imzalanmışdır və yaxın saatlarda digər sənədlər – ticarət, gömrük, maliyyə, sənaye, informasiya, təhsil sahələrinə və digər sahələrə dair bir sıra anlaşma memorandumları imzalanacaqdır. Bu səfərin əsas məqsədi ondan ibarətdir ki, həm ölkələrimiz arasında, həm də özəl sektor, Suriya və Azərbaycan iş adamları arasında qapıları tam açaq.

Cənab prezident İlham Əliyev də mənə ətraflı məlumat verdi, mən də ona ətraflı məlumat verdim. Ölkələrimizin yaşadığı problemlər, tarixi təcrübələrimiz barədə fikir mübadiləsi apardıq. Şübhəsiz ki, Qafqaz və Yaxın Şərq regionları dünyanın ürəyini təşkil edir və bu regionlar arasında birbaşa əlaqələrin yaradılması və bütün problemlərin həlli olduqca vacibdir. Biz Yaxın Şərq regionunda sabitlik və sülh prosesi, 1991-ci ildən bəri başladığımız sülh danışıqları və üzləşdiyimiz problemlər barədə danışdıq.

Bütün işğal olunmuş ərazilər azad olunmalı, ələlxüsus Suriyanın işğal olunan əraziləri – Holan təpələri sahiblərinə qaytarılmalıdır. Mən cənab Prezidentə sülhlə bağlı bizim mövqeyimiz barədə ətraflı məlumat verdim və bildirdim ki, bizim tərəfdən heç bir güzəşt ola bilməz. Cənab Prezidentə Fələstinin Qəzzə zolağının blokadası, Fələstindəki ağır vəziyyət barədə də məlumat verdim. Bildirdim ki, bu blokada aradan qaldırılmalıdır. Fələstinlilər öz aralarında müəyyən razılığa gəlməlidirlər. Bundan sonra fələstinlilərlə israillilər arasında razılıq əldə olunmalıdır və sülh prosesi kamil şəkildə həyata keçirilməlidir.

Azərbaycanın mövqeyi beynəlxalq qanunlar çərçivəsinə söykənir. Təbii ki, problem nə qədər tez həll olunarsa, bir o qədər faydalı olar. Çünki problemlər xroniki xəstəliklər kimi nə qədər uzanırsa, onların həll olunması da o qədər çətin olur. Böyük xəstəliklər qəflətən gəlir. Lakin xəstəlikləri müalicə etmək lazımdır, problemləri tez həll etmək lazımdır. Suriyanın həm Azərbaycan, həm də erməni tərəfi ilə yaxşı münasibətləri vardır. Suriya bu məsələnin həllinə öz töhfəsini verə bilər.

Biz Sizinlə tam razıyıq və fikirləşirik ki, problemlərə dair mövqelərimiz üst-üstə düşür. Üzləşdiyimiz problemlər, hər iki regionun problemləri bir-birinə oxşayır. Əminəm ki, bu səfərin nəticələri uğurlu olacaqdır və əməkdaşlıq üçün qapıları daha geniş açacaqdır.

Bir daha qardaşım Prezidentə xoşbəxtlik və dost Azərbaycan xalqına əmin-amanlıq, çiçəklənmə arzulayıram.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*8 iyul 2009-cu il*

*Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsəd və xanımı Əsma əl-Əsəd iyulun 8-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Suriya prezidentini və xanımını Azərbaycan prezidenti və xanımı qarşıladılar. Ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədləri və fəaliyyəti barədə məlumat verildi.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Suriya prezidentini və xanımını ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid eksponatlar və fotoşəkillərlə tanış etdilər.*

*Dövlətimizin başçısı bildirdi ki, bugünkü qüdrətli və zəngin Azərbaycan ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi yol ilə uğurla irəliləyir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Suriya prezidenti və xanımı fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, müxtəlif ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar.*

*Suriya prezidenti Bəşşar əl-Əsəd fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı. Suriya prezidentinə və xanımına hədiyyələr təqdim olundu.*

*Dövlət başçıları və xanımları Heydər Əliyev Fondunun fəaliyyəti haqqında filmə baxdılar.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*«Gülüstan» sarayı*

*8 iyul 2009-cu il*

*İyulun 8-də «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Suriya Ərəb Respublikasının Prezidenti Bəşşar əl-Əsədin və xanımı Əsma əl-Əsədin şərəfinə rəsmi ziyafət təşkil edilmişdir.*

*Dövlət başçıları ziyafətdə nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!

Hörmətli xanım Əsma əl-Əsəd!

Xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, mən Sizi və rəhbərlik etdiyiniz nümayəndə heyətini Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz! Bu Sizin Azərbaycana ilk səfərinizdir. Düşünürəm ki, bu səfəriniz ikitərəfli münasibətlərimizdə mühüm hadisə olacaq və əlaqələrimizin inkişafına güclü təkan verəcəkdir.

Mən bu gün keçirilmiş görüşlərə, aparılmış danışıqlara və fikir mübadiləsinə, habelə imzalanmış sənədlərə, sabah təşkil olunacaq biznes-foruma xüsusi əhəmiyyət verirəm və onları yüksək qiymətləndirirəm. Suriya ilə Azərbaycan arasında əlaqələrin dərin tarixi kökləri vardır. Bizi uzun əsrlər ərzində təşəkkül tapmış münasibətlər bağlayır. İslam dini xalqlarımızın tarixində çox mühüm rol oynamış, müştərək mənəvi dəyərlər formalaşdırmışdır. Azərbaycanın və Şərqin böyük

mütəfəkkir şairi İmadəddin Nəsimi Hələb şəhərində yaşayıb-yaratmışdır. Nəsiminin əsərləri xalqlarımızın mənəvi sərvətidir. Ümummilli liderlərimiz, mərhum prezidentlər Heydər Əliyev və Hafiz əl-Əsəd arasındakı görüşlər və şəxsi dostluq münasibətləri ölkələrimizin yaxınlaşmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən İslam Konfransı Təşkilatı çərçivəsində əməkdaşlığımızdan razıyam.

Bu gün Azərbaycanın neft və qaz ehtiyatlarının istismarı və enerji daşıyıcılarının dünya bazarlarına nəqli böyük əhəmiyyətə malikdir. Artıq fəaliyyət göstərən Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərlərinin bütün regionun inkişafına və beynəlxalq enerji təhlükəsizliyinə töhfəsi heç kimdə şübhə doğurmur. İnanıram ki, Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin həyata keçməsi əməkdaşlığımızın genişlənməsinə və ticarət dövriyyəsinin artmasına şərait yaradacaqdır.

Bizim regionda ən böyük təhlükə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həll olunmamasıdır. Ermənistanın hərbi təcavüzü və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizi işğal olunmuş, ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində qədim tarix və mədəniyyət abidələri, məktəblər, muzeylər, məscidlər dağıdılmış, dünya və islam sivilizasiyasının nadir inciləri yer üzündən silinmişdir. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, İKT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edir, Sizə və bütün Suriya xalqına xoşbəxtlik, səadət, firavanlıq arzulayıram.

## Suriya prezidenti Bəşşar əl-Əsədin nitqi

Hörmətli cənab Prezident!

Xanım Mehriban Əliyeva!

Xanımlar və cənablar!

İcazə verin mənim, xanımımın və nümayəndə heyətinin Azərbaycanda səmimiyyətlə qarşılanmasına görə dərin minnətdarlığımı və təşəkkürümü bildirim. Bu gün dost və qədim ölkənizdə olmağımdan çox məmnunam.

Suriya ilə Azərbaycanı bir-birinə tarix, sivilizasiya, mədəniyyət və əməkdaşlıq telləri bağlayır. Bu münasibətlərin bünövrəsi hələ İpək yolu əsrində, müstəqillik qazandığımızdan əvvəlki və sonrakı dövrlərdə qoyulmuşdur. Ölkələrimiz hələ İpək yolu dövründə Asiya ilə Avropanı birləşdirən iki mühüm körpü rolunu oynamış, mədəniyyətlərin yaxınlaşması prosesini gücləndirmiş, bölgəmizdəki sivilizasiyaları tanıtmış, bu da öz növbəsində ölkələrimizə və xalqlarımıza böyük təcrübə qazandırmışdır, xalqların adətləri, ənənələri və mədəniyyətlərindən ibarət maarif bazası yaratmışdır.

Əminik ki, Suriya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın, xüsusən də yerüstü, dəniz və hava nəqliyyatı yollarının inkişaf etdirilməsi, neft və qaz sahələrindəki strateji layihələrin birgə qurulması vasitəsilə iki ölkə arasındakı ticarət mübadiləsinin və sərmayə qoyuluşunun artırılması üçün real fürsət vardır. Əminəm ki, Azərbaycanın Qafqaz, Suriyanın isə Yaxın Şərq bölgələrində mühüm strateji mövqelərə malik olması ölkələrimizə Asiya ilə Avropa arasında, Yaxın Şərqlə Qafqaz arasında birləşdirici körpü olmaq imkanı verir.

Əziz dost prezident İlham Əliyev!

Xanımlar və cənablar!

İqtisadi münasibətlərə diqqət yetirməyimizlə bərabər, deməliyəm ki, Yaxın Şərq, Qafqaz və Balkan bölgələrindəki siyasi münasibətlər və sabitlik dünyada təhlükəsizlik və sabitlik üçün daim böyük önəm kəsb etmişdir.

Yaxın Şərq bölgəsindəki təcrübəmiz birmənalı şəkildə onu sübut etdi ki, regiondakı problemlərin həlli üçün vaxt o qədər də yetərli amil deyildir. Bunun üçün xoş məram, bütün tərəflər arasında səylərin birliyi tələb olunur və bu, çözüm yollarının tapılmasının bölgə xalqlarına və dünyaya nə dərəcədə müsbət təsir edəcəyinin vacibliyinə inamdan irəli gəlir. Yaxın Şərqdə sülhün və sabitliyin bərqərar olunması yolunda Suriya da öz gücünü əsirgəmir.

Suriya «sülh əvəzinə torpaq» prinsipinə deyil, beynəlxalq norma və qanunlara, hüquqların öz sahiblərinə qaytarılması prinsipinə uyğun sülhün bərqərar olunması üçün çalışacaqdır.

Qafqazda və Orta Asiyadakı hadisələrin gedişini, xüsusən də Dağlıq Qarabağ probleminin, Ermənistan–Azərbaycan münasibətlərinin beynəlxalq norma və qanunlar əsasında və bütün tərəflərin hüquqlarının qorunması şərti ilə həlli yollarının dialoq vasitəsilə tapılması istiqamətində göstərdiyiniz səyləri biz böyük diqqətlə izləyirik. Təcrübəmiz göstərir ki, problemin həlli müddəti uzandıqca, onu çözmək imkanları da mürəkkəbləşir.

Bu prizmadan yanaşaraq və hər iki tərəflə əla münasibətlərimiz olduğu üçün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı lazımi yardım göstərməyə hazır olduğumuzu bildiririk.

Sonda ümidvar olduğumu bildirirəm ki, bu səfər dost ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin bütün səviyyələrdə gücləndirilməsinə təkan verəcək və fürsətdən istifadə edərək Sizi Suriya ilə Azərbaycan arasındakı münasibətlərin daha da inkişaf etdirilməsi məqsədi ilə ən yaxın vaxtda Suriyaya səfərə dəvət edirəm.

Bir daha qonaqpərvərliyinizə görə öz təşəkkürümü bildirir, Sizə cansağlığı, xoşbəxtlik, dost Azərbaycan xalqına davamlı tərəqqi və çiçəklənmə arzulayıram.

## AZƏRBAYCAN–SURİYA BİZNES-FORUMU

*9 iyul 2009-cu il*

*İyulun 9-da Bakıda Azərbaycan–Suriya biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Suriya prezidenti Bəşşar əl-Əsəd forumun açılışında iştirak etmişlər.*

*Biznes-forumda Azərbaycandan 120-yə yaxın şirkət nümayəndələri və Suriyadan 70-ə yaxın iş adamı iştirak etmişdir. Biznes-forumda hər iki ölkənin prezidenti çıxış etmişdir*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident, əziz dostum!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi və Sizinlə bərabər Azərbaycana gəlmiş dostlarımızı Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Səfərinizin ikinci günüdür və deyə bilərəm ki, birinci gün çox uğurlu keçdi. Bütün sahələri əhatə edən çox mühüm sənədlər imzalanmışdır. Əminəm ki, sənədlərin və əldə edilmiş razılaşmaların icrası nəticəsində Suriya–Azərbaycan əlaqələri gələcəkdə sürətlə inkişaf edəcəkdir. Biz buna çox maraqlıyıq, bunu arzulayırıq və əminəm ki, iki ölkəni təmsil edən iş adamları da belə gözəl siyasi ab-havadan, bu fürsətdən səmərəli istifadə edəcəklər.

Mən çox şadam ki, hörmətli cənab Prezident, Azərbaycana Suriyadan Sizinlə bərabər iş adamlarından ibarət böyük bir qrup gəlmişdir. Ümid edirəm ki, bugünkü biznes-forum və Azərbaycan–Suriya iş adamları arasında yaranacaq əlaqələr iqtisadi sahədə əməkdaşlığın dərinləşməsinə

xidmət göstərəcəkdir. Dövlətlərimiz arasında ticarət dövriyyəsi ölkələrimizin potensialına cavab vermir və əlbəttə ki, siyasi əlaqələr gücləndikcə iqtisadi sahədə də daha böyük işlər görmək mümkün olacaqdır. Deyə bilərəm ki, bugünkü tarixi görüş iki ölkə arasında iqtisadi sahədə canlanmaya gətirib çıxaracaqdır. Bunu etmək üçün gözəl imkanlar, yaxşı potensial vardır. Ölkələrimizin iqtisadiyyatları inkişaf edir və bir-birini tamamlayır.

Dünən müzakirə etdiyimiz məsələlər əsasən iqtisadi sahəyə aid idi. Biz turizm, əczaçılıq, energetika, kənd təsərrüfatı sahəsində – bütün sahələrdə geniş əməkdaşlığın tərəfdarıyıq və ümid edirəm ki, bu gün yaranan ilkin əlaqələr yaxın gələcəkdə konkret müqavilələrin, sazişlərin imzalanmasına gətirib çıxaracaqdır.

XX əsrin 90-cı illərinin ortalarından Azərbaycanda geniş iqtisadi islahatlar aparılmağa başlanmışdır. Xüsusilə Azərbaycanın energetika, neft-qaz sahələrinə qoyulan sərmayələr bu gün də iqtisadiyyatımıza böyük təkan verir.

Azərbaycan özünü tam şəkildə təmin edən bir ölkədir və iqtisadi sahədə görülən işlər bunun bariz nümunəsidir. Azərbaycan bu bölgədə birinci yerdədir. Biz iqtisadiyyatımızın əsas sahəsi olan neft-qaz amilindən asılılığımızı xeyli dərəcədə azaltmağa çalışmışıq və buna nail olmuşuq. Hətta neftin qiyməti 140 dollardan 35 dollara düşəndə belə, nə Azərbaycan iqtisadiyyatı, nə də Azərbaycan əhalisi bu asılılığı hiss etmədi. Gələcəkdə şaxələndirmə siyasətinin gücləndirilməsi üçün xüsusilə qeyri-neft-qaz sektoruna daha da böyük diqqət göstəriləcəkdir. Bizdə bu gün buna nail olmaq üçün çox yaxşı imkanlar vardır və Suriya–Azərbaycan iş adamları arasında bu istiqamətdə müxtəlif formada əməkdaşlıq mümkündür.

İş adamlarımız bir-birini yaxşı tanımalı və ölkələrimizin imkanlarını yaxşı bilməlidirlər ki, hansı sahədə işləməyin onlar üçün daha sərfəli olduğunu müəyyən etsinlər. Biz prezidentlərin vəzifəsi ondan ibarətdir ki, bu gün sizə öz

tövsiyəmizi verək. Biz çox istəyirik ki, iş adamları da bizdən geridə qalmasınlar və iqtisadi əlaqələri siyasi əlaqələrin səviyyəsinə gətirib çıxarsınlar.

Bizim dünən müzakirə etdiyimiz məsələlərdən biri də neft-qaz sahəsi olmuşdur. Bu sahədə çox gözəl imkanlar vardır. Biz dünən konkret məsələlər haqqında danışmışıq və istisna olunmur ki, gələcəkdə Suriya ilə Azərbaycan arasında qaz sahəsində əməkdaşlıq yaransın. Biz görürük ki, bunun üçün qarşılıqlı maraq vardır. Azərbaycan zəngin neft-qaz yataqlarına malik olan ölkədir və nəinki bu yataqlar mövcuddur, bu yataqlarda böyük işlər aparılır, hasilat aparılır, bütün nəqliyyat infrastrukturu yaradılmışdır. Azərbaycanda 7 neft və qaz kəməri fəaliyyət göstərir. Bizim ehtiyatlarımız dünya və Avropa bazarlarına bu kəmərlərlə çıxarılır. Bütün istiqamətlərə ixrac etmək üçün bizim imkanlarımız vardır və hesab edirəm ki, Suriyanın Bakı–Tbilisi–Ərzurum qaz kəmərinə qoşulması layihəsi də çox real layihədir. Biz bu layihənin üzərində çox böyük məmnuniyyətlə işləyəcəyik.

Bu il Azərbaycanda qaz hasilatı təxminən 25-27 milyard kubmetr səviyyəsində olacaqdır, Azərbaycan qazı müxtəlif ölkələrə – Gürcüstana, Türkiyəyə, Yunanıstana, İrana nəql edilir. Gələn ildən bu yaxınlarda imzalanmış sazişə əsasən Rusiyaya da Azərbaycan qazı ixrac ediləcəkdir. Coğrafi məkan nə qədər çox genişlənsə, həm bizim üçün, həm istehlakçılar, həm də istehsalçılar üçün bir o qədər yaxşıdır. Ona görə əminəm ki, energetika sahəsində yaxın zamanlarda ciddi irəliləyiş olacaqdır.

Mən Suriya və Azərbaycan iş adamlarına birgə fəaliyyətdə uğurlar arzulayıram.

## Suriya prezidenti Bəşşar əl-Əsədin çıxışı

Əziz qardaşım İlham Əliyev!

Mən prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm. Həqiqətən cənab Prezident doğru buyurdu ki, bu tarixi səfər çərçivəsində əlaqələrimizin yeni əsası qoyulacaqdır.

Cənab Prezident, ilk növbədə, demək istərdim ki, iş adamları çox həssas olurlar. Biz çox istərdik ki, iş adamlarının həssaslığından istifadə edək və onları ölkələrimizin maraqlarına xidmət edən məsələlərə istiqamətləndirək. İş adamları siyasi əlaqələrin səviyyəsini bilmək istəyirlər. Prezident Əliyevin sözlərini bir daha təsdiq etmək istərdim və mətbuata bəyanatımda da demişəm ki, bizim aramızda çox gözəl dostluq münasibətləri vardır. Biz, şübhəsiz ki, ölkələrimiz arasında da əlaqələrin yüksək səviyyədə olmasına çalışırıq. Prezident İlham Əliyevin bu foruma gəlməsi də onu göstərir ki, biz bu istiqamətdə səylərimizdə qətiyyətliyik və iş adamları da bu münasibətlərdən səmərəli istifadə etməlidirlər.

Dünən biz qaz məsələsi barədə danışdıq. Təbii ki, Azərbaycan ilə İran, Gürcüstan və Türkiyə arasında qaz kəmərləri vardır. 2 il əvvəl biz Türkiyədən Suriyaya qaz ötürülməsi və ya qaz kəməri çəkilməsi barədə danışıqlara başladıq. Azərbaycan qazı bu kəmərlə Suriyaya, oradan isə cənuba – İordaniyaya və Misirə çatdırıla bilər. Bizdə təbii qaz alınması çox böyük əhəmiyyətə malikdir, çünki bizim ehtiyatlarımız çox azdır. Şübhəsiz ki, həmin marşrutla nəql olunacaq qazın çox hissəsini Azərbaycan qazı təşkil edəcəkdir. Qaz kəmərləri Xəzər dənizi, Qara dəniz və Ərəb körfəzi regionları arasında əlaqələrin inkişafına təkan verəcəkdir. Biz Azərbaycandan qaz almaq barədə danışıqlar apardıq. Bu qaz Suriyaya Türkiyə vasitəsilə çatdırılmalıdır. Azərbaycan Suriyaya müasir qiymətlərlə ildə təqribən 1 milyard kubmetr qaz satmağa razılıq vermişdir. Türkiyə tərəfi də bu məsələyə rəğbətlə baxır. Heç şübhəsiz ki, bu kəmər Azərbaycan,

Türkiyə və Suriya münasibətlərinə yeni ab-hava gətirəcəkdir. Suriya ilə Türkiyə arasında siyasi münasibətlər əvvəllər pis olmuşdur. Hazırda Türkiyə bizə sözün əsl mənasında qardaşdır. Hesab edirəm ki, Azərbaycanı Suriya ilə coğrafi baxımdan Türkiyə bağlayır. Çünki Türkiyə vasitəsilə məsafə o qədər də böyük deyildir.

Suriya ilə İran arasında, həmçinin əla münasibətlər vardır. Azərbaycan ilə İran arasında münasibətlər də inkişaf etməkdədir. İraq şübhəsiz ki, daim qeyri-sabit qalmayacaqdır. Biz görürük ki, artıq İraqdakı siyasi vəziyyət normallaşmağa başlamışdır.

Azərbaycan iqtisadiyyatı bütün sahələrində qapıları üzümüzə açmışdır, əlaqələrimiz üçün heç bir problem yoxdur. Biz qaz sahəsində, dəmir yolu sahəsində səmərəli əməkdaşlıq edə bilərik. Bizim böyük dəmir yolu şəbəkəmiz vardır. Suriya–Aralıq dənizi və Ərəb körfəzi arasında ilk qatar – «XXI əsrin qatarı» iki ay bundan əvvəl İraqdan keçməklə yola düşmüşdür. Bilirik ki, Azərbaycan ilə Türkiyə arasında da Gürcüstandan keçməklə dəmir yolu tikilir. Azərbaycan planlı iqtisadiyyatdan özəl iqtisadiyyata, yəni bazar münasibətlərinə keçən bir ölkəyə çevrilmişdir. Biz bir neçə il bundan əvvəl böyük islahatlara, özəlləşdirmə prosesinə başlamışıq və ən əsası da digər ölkələrlə münasibətləri inkişaf etdirmək niyyətindəyik. Suriya iqtisadiyyatının fərqləndirici cəhətləri ondan ibarətdir ki, bizdə sənaye güclü inkişaf etmişdir. Suriyada sənaye tədricən Avropa standartlarına yaxınlaşır. Biz şübhəsiz ki, beynəlxalq bazarda çox güclü rəqabətlə rastlaşırıq. Lakin bu rəqabətə davam gətirməyə çalışırıq. İstəyirik ki, gələcəkdə Suriya–Azərbaycan iş adamlarının birgə fəaliyyətini tənzimləyən bir mexanizm yaradılsın. İş adamlarımız bugünkü imkandan istifadə edib öz təkliflərini verməlidirlər, biz irəliyə getməliyik.

Hörmətli dostum prezident İlham Əliyev də, mən də ölkələrimizin iqtisadi münasibətlərinin inkişafına diqqətimizi artıracağıq.

Bizə belə bir formatda görüşə imkan yaradıldığına görə prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm və hamıya müvəffəqiyyət arzulayıram.

Çox sağ olun!

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – İnqilab günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Misir arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bugünkü inkişaf səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, münasibətlərimizin xoş ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Misir xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2009-cu il*

## BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

Əlahəzrət!

Ölkənizin milli bayramı – Kralın andiçmə günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Belçika arasındakı dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi, ikitərəfli əlaqələrimizin, beynəlxalq strukturlar çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi istiqamətində bundan sonra da birgə səylər göstərəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Belçika xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 iyul 2009-cu il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ ŞEYX ABDULLAH BİN ZAİD ƏL-NƏHƏYYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 9-da Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər naziri şeyx Abdullah bin Zaid əl-Nəhəyyanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Şeyx Abdullah bin Zaid əl-Nəhəyyan Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafından məmnunluğunu bildirdi. Birləşmiş Ərəb Əmirliklərinə səfərini və prezident şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanla səmimi və dostluq ruhunda keçən görüşünü xatırladan dövlətimizin başçısı ikitərəfli əməkdaşlığımızın çox fəal olduğunu dedi. Ölkələrimizin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini vurğulayan prezident İlham Əliyev ötən il BMT-nin Baş Məclisində «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair» məsələnin müzakirəsi zamanı ölkəmizin mövqeyini müdafiə etdiyinə görə Birləşmiş Ərəb Əmirliklərinə təşəkkür etdi.*

*Dövlətimizin başçısı Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını BƏƏ-nin dövlət başçısına çatdırmağı xahiş etdi.*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ NÜMAYƏNDƏSİ ANJİ KASPİRŞİK İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzəni (ABŞ), Bernar Fasyeni (Fransa), Yuri Merzlyakovu (Rusiya) və ATƏT-in hazırkı sədrinin xüsusi nümayəndəsi Anji Kaspirşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.*

## ABŞ DÖVLƏT DEPARTAMENTİ KATİBİNİN BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 10-da ABŞ Dövlət Departamenti katibinin birinci müavini Ceyms Staynberqi qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və energetika sahələrində uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu. Bundan əlavə, görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Ceyms Staynberq Birləşmiş Ştatların Dövlət katibi Hillari Klintonun salamlarını dövlətimizin başçısına çatdırdı. Prezident İlham Əliyev xanım Klintonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını ABŞ-ın Dövlət katibinə çatdırmağı xahiş etdi.*

*Sonra görüş nümayəndə heyətinin iştirakı ilə davam etdirildi. ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Filip Qordon da görüşdə iştirak edirdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA RƏSMİ SƏFƏRİ

*12 iyul 2009-cu il*

*İyulun 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Londonun «Stansted» hava limanında Azərbaycan prezidentinin şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Böyük Britaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla qarşıladılar.*

*Azərbaycan prezidentinin xanımına gül dəstələri təqdim edildi.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ QORDON BRAUNUN GÖRÜŞÜ

*London*

*13 iyul 2009-cu il*

*İyulun 13-də Azərbaycan prezidenti İlham Əliyevin və Böyük Britaniyanın Baş naziri Qordon Braunun görüşü olmuşdur.*

*Britaniyanın Baş naziri Azərbaycan prezidentini ölkəmizdə əldə olunan iqtisadi uğurlar münasibətilə təbrik etdi. O, Azərbaycanla müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı.*

*Azərbaycanın antiterror koalisiyasında iştirakına toxunan Qordon Braun ölkəmizin bu istiqamətdə fəaliyyətinin Böyük Britaniya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.*

*Prezident İlham Əliyevi demokratiya sahəsində əldə edilmiş uğurlar münasibətilə də təbrik edən Qordon Braun Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin genişlənməsini müsbət hal kimi dəyərləndirdi. Bildirdi ki, Böyük Britaniya bundan sonra da Azərbaycanı beynəlxalq aləmdə müxtəlif sahələrdə dəstəkləyəcəkdir. «Biz Azərbaycanla siyasi, iqtisadi və digər sahələrdə əlaqələri genişləndirmək əzmindəyik» – deyən Baş nazir Azərbaycanda iqtisadi inkişaf proseslərinin gedişini xəbər aldı və bunun Böyük Britaniyada da maraqla izlənildiyini vurğuladı.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlər siyasi, iqtisadi və digər sahələrdə uğurla inkişaf edir. Enerji sahəsi qarşılıqlı*

*əlaqələrin çox mühüm istiqamətlərindən biridir. Uzun illərdir Azərbaycanla bp arasında əməkdaşlıq sürətlə inkişaf edir. Əlaqələrin digər sahələrdə də inkişafı üçün yaxşı perspektivlər var.*

*Azərbaycanın Avropa ailəsinə sürətlə inteqrasiya etdiyini bildirən dövlətimizin başçısı bu baxımdan Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın yeni mərhələyə daxil olduğunu vurğuladı.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev Ermənistanın Azərbaycana qarşı davam edən təcavüzünün regional inkişafa böyük əngəl törətdiyini bildirdi. Azərbaycanın antiterror koalisiyasında iştirakı ilə bağlı dövlətimizin başçısı dedi ki, ölkəmiz bu işdə fəal iştirak edir, regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasına öz töhfəsini verir. Azərbaycan prezidenti Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolundan da danışdı və vurğuladı ki, bu rol getdikcə daha da artır.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## *bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ

*London*

*13 iyul 2009-cu il*

*İyulun 13-də Azərbaycan prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda bp şirkətinin icraçı direktoru Toni Hayvordu qəbul etmişdir.*

*Söhbət zamanı bp şirkəti ilə Azərbaycan arasında əməkdaşlığın yüksək səviyyədə davam etdirildiyi bildirildi, əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə «Şahdəniz» layihəsinin işlənilməsinin gedişi və perspektivləri ilə bağlı məsələlər müzakirə edildi.*

## KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ

*13 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 12-dən 15-dək Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olmuşdur.*

*İyulun 13-də dövlətimizin başçısı Londonda məşhur siyasətçilərin, diplomatların, mətbuat nümayəndələrinin, Avropanın tanınmış publisistləri və ictimai xadimlərinin üzvü olduqları Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüş keçirmişdir.*

*Prezident İlham Əliyevi binanın önündə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ser Brayan Fol qarşıladı.*

*Ser Brayan Fol görüşü açaraq, Azərbaycan prezidentini təqdim etdi. Azərbaycan prezidentini burada görməkdən məmnun olduğunu bildirən Brayan Fol dedi ki, prezident İlham Əliyev Azərbaycanın xarici siyasətindən danışacaq və görüş iştirakçılarını maraqlandıran suallara cavab verəcəkdir.*

*Prezident İlham Əliyev görüşdə «Azərbaycan üçün xarici siyasət çağırışları» («Foreign policy challenges for Azerbaijan») mövzusunda çıxış etdi.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli xanımlar və cənablar!

Dəvətə görə minnətdaram. Burada yenidən olmağımdan şərəf hissi duyuram. Xatirimdədir, təxminən 5 il əvvəl mən «Chatham House»də olmuşam. Həmin vaxt əsasən planlarımız haqqında danışırdım, çünki ilk dəfə prezident

seçildiyim vaxtdan cəmi bir il ötürdü. 5 ildən sonra biz artıq nailiyyətlər haqqında danışa bilərik. Lakin ölkəmizdə görüləcək işlər hələ də çoxdur. Hesab edirəm ki, son beşillik dövr ölkənin gələcəyinin inkişafı üçün mühüm olmuşdur.

Bu illər göstərdi ki, Azərbaycan müstəqil ölkə kimi uğurla inkişaf edə bilər, öz milli maraqlarını qorumağa, tərəfdaş ölkələrlə səmərəli münasibətlər qurmağa qadirdir. Xüsusən də maliyyə və iqtisadi böhran zamanı. Cari il bir daha nümayiş etdirdi ki, iqtisadiyyatımız davamlı və şaxələndirilmiş formadadır. Son 5 ildə əsas diqqətimizi ölkə daxilindəki məsələlərə və xarici siyasətə aid olan məqamların həllinə yönəltmişdik. Əlbəttə, güclü iqtisadiyyat, siyasi sabitlik və cəmiyyətdə birlik olmadan xarici siyasətdə müstəqilliyə nail olmaq çox çətindir. Enerji siyasəti iqtisadiyyatımızın əsas hissəsidir və bu səylərin nəticələri nailiyyətlərimiz barədə rəqəmlərdə görünə bilər.

Son 5 ildə iqtisadiyyatımız 2,6 dəfə artmış, 3 il ərzində isə Azərbaycan dünyada ən sürətlə inkişaf edən ölkə hesab edilmişdir. Sənaye istehsalı 2,5 dəfə, büdcə xərcləri 12 dəfə artmışdır. Yoxsulluğun səviyyəsi 4 dəfə azalmışdır. Son 5 ildə təhsil və səhiyyə sahəsində böyük işlər görülmüşdür. Azərbaycanda 1600 məktəb tikilmişdir. İqtisadi inkişaf nəinki paytaxtı, rayonlarımızı da inkişaf etdirməyə imkan yaradır.

Bəzən iqtisadi göstəricilərimizi neftə və neft qiymətlərinə bağlayırlar. Bu belə deyil, çünki neft digər ölkələrdə də hasil olunur. Qonşularımızdan bir neçəsi bizdən də çox neft hasil edir. Əgər siz rayonlarımızın iqtisadi inkişafına nəzər yetirsəniz, eyni vəziyyəti görəcəksiniz. Neft rayonlarımızda deyil, Bakıda, Xəzərdə hasil edilir. Buna görə də iqtisadiyyatın şaxələndirilməsi, sahibkarlığa dəstək və iqtisadi islahatlar neftdən asılılığı aradan qaldırır. Bu bizim əsas məqsədlərimizdən biridir: neftdən asılılığı azaltmaq, böhran və aşağı neft qiymətləri, hətta hasilatın azalması zamanı sabit olacaq güclü iqtisadiyyat yaratmaq.

Sosial məsələlər ciddi şəkildə həll olunur. Qeyd etdiyim kimi, yoxsulluğun azaldılması Azərbaycanda ən böyük nailiyyətlərdən biridir. Bu onu göstərir ki, neft gəlirləri ədalətli şəkildə bölüşdürülür. Belə olmasaydı, yoxsulların sayı azalmazdı, əksinə, çoxalardı. Biz neft hasil edən digər ölkələrin təcrübəsini də bilirik. Azərbaycanın həyata keçirdiyi islahatlar Dünya Bankı tərəfindən də qeyd edilmişdir. Bu təşkilat Doing Business hesabatında 2008-ci ildə Azərbaycanı bir nömrəli islahatçı ölkə kimi elan etmişdir. Bu, həmçinin gündəliyimizi çox aydın şəkildə nümayiş etdirir. Azərbaycanda siyasi və iqtisadi islahatlar paralel şəkildə həyata keçirilir. Hesab edirəm ki, bu, ölkədə islahatların aparılması üçün yeganə mümkün formatdır. 18 il bundan öncə ölkəmiz Sovet İttifaqının bir hissəsi idi. Bazar iqtisadiyyatı sıfır səviyyəsində idi. Bu gün iqtisadiyyatımızın 85 faizini bazar iqtisadiyyatı təşkil edir.

Müstəqillikdən öncəki tariximizdə bizim siyasi sistemimiz olmamışdır. Lakin bu gün siyasi sistem inkişaf edir. Buna görə də diqqət yetirdiyimiz daxili məsələlər regionda özümüzü rahat hiss etməyə, müstəqil siyasət aparmağa imkan verir. Çünki heç kəsdən asılı olmayanda, müstəqil siyasəti rahat həyata keçirmək olar. Biz xalqımızın maraqlarından irəli gələn əməkdaşlığa, tərəfdaşlığa, qonşularla və ənənəvi tərəfdaşlarla normal əlaqələrə yönəlmiş siyasəti həyata keçiririk.

Enerji siyasəti bizim mövqeyimizin mühüm hissəsi olub və ola bilsin ki, bu amil artıq nəinki Azərbaycanda, o cümlədən bölgədə mühüm rolunu davam etdirəcəkdir. Həyata keçirdiyimiz neft və qaz layihələri bu gün dünyada gələcək enerji inkişafının möhkəm bünövrəsidir. Azərbaycan Xəzər dənizinə xarici sərmayədarları dəvət edən ilk ölkədir. Strateji tərəfdaşımız *bp* şirkəti bizim üçün ən mühüm layihələrdə və regional inkişaf məsələlərində liderdir. Hazırda neft və qaz yataqlarında hasilatın artması, sərmayələr nəticəsində yaratdığımız boru kəmərləri, Azərbaycandakı əlverişli sər-

mayə mühiti və qeyri-enerji sektoruna sərmayələrin cəlb edilməsi kimi məsələlər ümummilli lider Heydər Əliyevin müdrikliyi sayəsində baş tutmuşdur. O, 1994-cü ildə «Əsrin müqaviləsi»nin imzalanması ideyasını irəli sürdü. Bu gün isə bizim şaxələndirilmiş təchizat infrastrukturumuz var. 7 boru kəmərinə malikik. Onlardan 3-ü nefti, 4-ü isə qazı müxtəlif istiqamətlərdə nəql edir. Hasilata milyardlarla dollar sərmayə qoyulmuşdur. Bu il neft hasilatı 50 milyon tona yaxın olacaq, qaz hasilatı isə 25-27 milyard kubmetrə çatacaqdır. Aşkar olunmuş ehtiyatlar ən azı 100 il ərzində Azərbaycana beynəlxalq bazarlarda etibarlı qaz təchizatçısı olmağa imkan verəcəkdir. Yeni sərmayələr, o cümlədən *bp* ilə ARDNŞ arasında bu gün səhər imzalanmış Anlaşma memorandumu Azərbaycanın hətta böhran illərində, neftin qiymətlərinin aşağı düşdüyü dövrdə nə dərəcədə cəlbedici olduğunu nümayiş etdirir. Bu onunla bağlıdır ki, ölkəmizdə proqnozlaşdırılan vəziyyət, siyasi sabitlik mövcuddur və bütün sərmayələrin qorunması təmin edilir. Neft şirkətləri ilə enerji əməkdaşlığımızı başladığımız vaxtdan etibarən heç vaxt hər hansı hüquqi çəkişmə və ya mübahisə, yaxud şərtləri dəyişdirmək cəhdi olmamışdır. Biz müqavilə şərtlərinə sadiqik və bütün əsas neft müqavilələri parlamentdə ratifikasiya ediləndən sonra prezident tərəfindən imzalanır və qanun qüvvəsi alır. Beləliklə, onları heç kəs dəyişə bilməz. Bu, etimad deməkdir və həmin etimad digər sahələrə də sərmayələr cəlb etməyə imkan yaradır. Azərbaycan kimi gənc müstəqil ölkələrə sərmayələri cəlb etmək məqsədi ilə biz etimadı davamlı şəkildə möhkəmləndirməli, lazımi siyasi və iqtisadi mühit yaratmalıyıq.

Əvvəllər xəyal kimi görünən Bakı–Tbilisi–Ceyhan neft boru kəməri reallığa çevrilmişdir. Artıq 3 ildir ki, həmin boru kəməri uğurla istismar olunur və böyük həcmdə neft nəql edir. Kəmər işə düşdükdən sonra onunla nəinki Azərbaycan, həm də Qazaxıstan nefti nəql olunur. Bu o deməkdir ki, gələn illər ərzində nəql olunan həcmlər artacaq-

dır. Belə olan halda, boru kəmərinin buraxıcılıq qabiliyyəti ola bilsin ki, gündə 1,6 milyon barreldən 1,8 milyon barrelə çatdırılacaqdır. Hətta yenisi də layihələndirilib tikilə bilər. Azərbaycan Xəzərin digər sahilində yerləşən qonşuları üçün artıq tranzit ölkəyə çevrilmişdir. Biz nəhəng qaz yataqlarını aşkar etdikdən sonra qonşu ölkələrə ixraca başladıq. Bunun vacibliyi get-gedə artır və Avropa üçün hər hansı mümkün gələcək artırma və ya şaxələndirmə layihəsi Azərbaycanda yaratdığımız və qazımızı Avropa bazarlarına çıxaran mövcud infrastruktura söykənir. Üstünlüyümüz ondan ibarətdir ki, biz bir təchizat marşrutu ilə məhdudlaşmırıq. Bizim müxtəlif istiqamətlərdə gedən 4 qaz kəmərimiz var: Avropaya uzadıla biləcək Bakı–Tbilisi–Ərzurum kəməri, bizi Gürcüstanla birləşdirən boru kəməri, Rusiyaya və İrana gedən boru kəmərləri, demək olar ki, hazırda onların hamısı istismar olunur, ya da ediləcəkdir. Azərbaycan özünü etibarlı təchizatçı, hüquqi öhdəliklərinə hörmətlə yanaşan tərəf və hər zaman öz vəzifələrini yerinə yetirən ölkə kimi göstərmişdir.

İndi enerji siyasətinin əhəmiyyəti daha da artır. Qeyd etmək istəyirəm ki, enerji bazarında olan vəziyyəti regionda ümumi siyasi inkişafdan ayırmaq mümkün deyil, çünki enerji məsələləri siyasi inkişafa təsir göstərir. Bəzən enerji siyasəti məsələləri prosesin siyasiləşdirilməsinə aparır. Biz bu yanaşmanın əleyhinəyik. Hesab edirik ki, hər bir iş milli maraqlara, kommersiya şərtlərinə və azad bazar prinsiplərinə, azad rəqabətə əsaslanmalıdır. Fikrimcə, vəziyyəti təhlil etməkdə yeganə yanaşma belədir. Potensial diktə hallarının qarşısını almaq üçün hasilatçı, tranzit ölkələr və istehlakçıların maraqları arasında tarazlıq olmalıdır. Diktə etmə nəinki hasilatçı, bəzən tranzit ölkələrə və ola bilsin, istehlakçılara da aid ola bilər. Buna görə də enerji formatının bütün iştirakçıları vahid heyət kimi çalışmalıdır. Yalnız bu halda biz uğura nail ola bilərik.

Əminəm ki, gələn illər ərzində Azərbaycan öz enerji potensialını artıracaq, çünki mövcud potensial və həyata keçirilən kəşfiyyat layihələri 3-5 il ərzində yeni ehtiyatların tapılması ilə nəticələnəcəkdir. Bu isə enerji potensialımızı ciddi şəkildə artıracaqdır. Coğrafi mövqeyimiz və mövcud olan infrastruktur bütün tərəfdaşlarımız üçün vacib olacaqdır.

Biz həmçinin nəqliyyat infrastrukturuna böyük sərmayələr yatırırıq. Coğrafi mövqeyimizi nəzərə alsaq, bu tamamilə məntiqlidir. Azərbaycanın maliyyələşdirdiyi, Avropa ilə Asiyanı birləşdirən dəmir yolu xəttinin çəkilməsi regional əməkdaşlıq məsələlərində və bölgəmizdə biznes mühitinin və imkanlarının yaxşılaşdırılmasında olduqca mühüm rol oynayacaqdır. Bizi qonşularımızla birləşdirən infrastruktura böyük sərmayələr qoyuruq. Bu gün Azərbaycan nəinki neft və qaz ixracatçısına, o cümlədən qonşu ölkələrə elektrik enerjisi təchizatçısına çevrilmişdir. Biz hər zaman qonşularımız və tərəfdaşlarımızla əməkdaşlıq etməyə, işgüzar münasibətlər qurmağa hazırıq.

Azərbaycanın xarici siyasəti olduqca aydın və proqnozlaşdırılandır. Biz bütün ölkələrlə səmərəli ikitərəfli münasibətlərin tərəfdarıyıq. Qarşılıqlı maraqlar, ortaq dəyərlər, qarşılıqlı hörmət, daxili işlərə müdaxilə etməmək prinsipinə əsaslanan və tərəfdaşlıq ruhunda olan münasibətlərin qurulması bizim üçün vacibdir. Hesab edirəm ki, bu yanaşma artıq müsbət nəticələrini nümayiş etdirmişdir. Bir daha qeyd etmək istəyirəm ki, xarici siyasətimiz müstəqildir. Bu siyasətə heç bir xarici amil təsir göstərmir. O, iqtisadi potensiala və müstəqilliyə əsaslanır.

Böyük Britaniya ilə münasibətlərimiz uğurla inkişaf edir. Bu mənim ölkənizə ikinci rəsmi səfərimdir. Bu gün səhər Baş nazir Braun ilə səmərəli müzakirələrim oldu. İkitərəfli, regional məsələləri, eləcə də sülhməramlı əməliyyatlarda göstərdiyimiz səyləri müzakirə etdik. Biz ilk günlərdən İraq və Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etməyə başlamışıq. Əfqanıstana gəldikdə, koalisiya qüvvələrinə dəs-

tək olaraq, biz hərbçilərimizin sayını iki dəfə artırmışıq. Həmçinin enerji siyasətinə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə aid məsələləri müzakirə etdik. Birləşmiş Krallıq bizim üçün strateji tərəfdaş, mühüm ölkə və Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Biz münasibətlərimizi yüksək dəyərləndiririk və əminəm ki, bu əlaqələr daha geniş gündəliyi əhatə edəcəkdir: siyasi əlaqələr, iqtisadi əməkdaşlıq, informasiya texnologiyaları və təhsil sahələri. Azərbaycan gənclərinin dünyanın aparıcı universitetlərində təhsili üçün böyük təhsil proqramını həyata keçiririk. Bu, Azərbaycan Dövlət Neft Fondundan maliyyələşdirilən xüsusi proqramdır. Adətən, bu fondun vəsaitləri strateji məqsədlər üçün sərf edilir. Neft fondundan ayrılan vəsaitlər qaçqınların və məcburi köçkünlərin yeni yerlərə köçürülməsi, su kəmərinin tikintisi, Ermənistanın işğalından əziyyət çəkmiş insanların problemlərinin həlli, təhsil məqsədləri üçün istifadə olunur. Həmin məsələlər bizim üçün çox önəmlidir. Hazırda biz bacarıqlı, gənc, yaxşı təlim və təhsilli, geniş dünyagörüşü olan və Azərbaycana, dövlətçiliyə və gələcəyimizə sadiq şəxslərə ehtiyac duyuruq.

Azərbaycan xalqı uzun əsrlər boyu müstəqillikdən məhrum olmuşdur. Buna görə də müstəqilliyin bizim üçün xüsusi mənası var. Biz müstəqilliyimizi gücləndirmək və sonrakı nəsillərə xoşbəxt gələcəyi təmin etmək üçün hər gün fəal çalışmalıyıq.

Birləşmiş Krallıqla əlaqələrimiz Avropa İttifaqı ilə tərəfdaşlıq məsələlərini də əhatə edir. Bu yaxınlarda Azərbaycan Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramına qoşulmuşdur. 3 il əvvəl Azərbaycan Avropa İttifaqının Yeni qonşuluq siyasətinə qoşulmuşdur. Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlər çox müsbət və səmərəlidir. Bu, əsl tərəfdaşlar arasında olan münasibətlərdir. NATO ilə də əməkdaşlığımız uğurla inkişaf edir. Azərbaycan Fərdi tərəfdaşlıq üzrə əməliyyat planının fəal iştirakçısıdır. Biz bu əməkdaşlığı gələcəkdə də inkişaf etdirəcəyik.

Xarici siyasətimizin əsas çağırışlarından biri və ümumiyyətlə, ölkəmizin qarşısında duran əsas vəzifə Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin həllidir. Artıq 15 ildir ki, biz nə hərb, nə sülh şəraitindəyik. 1994-cü ildə atəşkəs əldə edilib, lakin həmin vaxtdan etibarən beynəlxalq ictimaiyyətin müxtəlif səylərinə baxmayaraq, biz sülhə nail olmamışıq. Düzdür, hazırda danışıqlar prosesi daha fəal, vədedici şəkildə aparılır və artıq müəyyən nəticələr var. Lakin bu, beynəlxalq hüququn normaları və prinsiplərinə əsaslanan həllin tapılması və yekun razılaşma üçün kifayət deyildir.

Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bu münaqişə yalnız beynəlxalq hüquq və beynəlxalq təşkilatların qərarları əsasında həll olunmalıdır. Ermənistan rəhbərliyi də buna hazırdır. Belə olmasaydı, onlar Moskva bəyannaməsini imzalamazdılar. Orada aydın şəkildə deyilir ki, münaqişə beynəlxalq təşkilatların qətnamələri əsasında həll olunmalıdır. Həmin qətnamədə bildirilir ki, Ermənistan qüvvələri işğal olunmuş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxmalıdırlar. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası bu barədə 4 qətnamə qəbul etmişdir. Həmçinin BMT-nin Baş Məclisinin qətnaməsi bu mövqeni dəstəkləyir. ATƏT-in, xüsusən də Lissabon zirvə görüşünün qərarlarında münaqişənin hansı yolla həll olunacağı aydın şəkildə göstərilir.

Azərbaycanın ümumi ərazisinin 20 faizini təşkil edən zəbt olunmuş bütün torpaqlar erməni işğalından azad olunmalıdır. Ermənistanın etnik təmizləmə siyasətindən əziyyət çəkmiş bir milyon azərbaycanlı qaçqın və məcburi köçkünlərin öz torpaqlarına qayıtmaq hüququ var. Biz hər zaman – keçən əsrin 90-cı illərində də demişik və indi də deyirik ki, Dağlıq Qarabağa suveren Azərbaycan dövlətinin hüdudları daxilində mümkün qədər ən yüksək muxtariyyət statusu verməyə hazırıq. Bu, yeganə mümkün yanaşmadır. Biz Ermənistanın bəzi narahatlığını, Ermənistan ilə Dağlıq Qarabağ arasında yerüstü əlaqə məsələsi, təhlükəsizlik zəmanəti

və sülhməramlı əməliyyatlar kimi məsələləri anlayırıq. Bu məsələləri konstruktiv şəkildə həll edə bilərik. Regionda sülh hamıya bir çox üstünlüklər gətirəcəkdir. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək və insanlarımız yenidən öz doğma yerlərində, ulu babalarının torpaqlarında yaşamaq imkanına malik olacaqlar. Ermənistan digər suveren ölkənin ərazisini zəbt edən ölkə imicinə son qoymalıdır. Azərbaycanın daxilində yerləşən və Ermənistanla heç vaxt əlaqəsi olmamış Dağlıq Qarabağ Ermənistana dəhliz vasitəsilə çıxış əldə edə bilər. Regiondakı bütün kommunikasiyalar açılar və tammiqyaslı regional əməkdaşlıq baş tutar. Qafqazdakı bütün ölkələr və tərəflər bundan yalnız fayda görəcəkdir. Nə hərb, nə sülh vəziyyəti münaqişənin dondurulmuş olması haqda səhv mesaj göndərir. Bu, dondurulmuş münaqişə deyil, atəşkəs Ermənistan və Azərbaycan orduları tərəfindən təmin edilir. Burada heç bir sülhməramlı qüvvələr yoxdur. Sülh şəraiti çox kövrəkdir. Buna görə də hazırda irəliyə doğru getmək və artıq bəlli olan məsələlər üzərində razılığa gəlmək lazımdır. Çünki işğalçılıq siyasəti heç vaxt Dağlıq Qarabağın tanınmasına gətirib çıxarmayacaqdır. Dağlıq Qarabağ heç vaxt müstəqil ölkə kimi tanınmayacaqdır. Bunu gözləmək cəfəngiyatdır. Suveren Azərbaycan dövləti daxilində cəmi 60 min əhalisi olan ərazi müstəqil ola bilməz. Fakt ondan ibarətdir ki, Dağlıq Qarabağ bu günə qədər heç bir ölkə tərəfindən, o cümlədən Ermənistan tərəfindən tanınmamışdır. Bu, aydın şəkildə onu göstərir ki, müstəqillik mümkün deyildir. Azərbaycan Dağlıq Qarabağın müstəqillik statusunu öncədən müəyyənləşdirən sülh planı ilə heç vaxt razılaşmayacaqdır. Bu haqda söhbət belə gedə bilməz. ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən verilmiş və hazırda müzakirə etdiyimiz təkliflər aydın şəkildə göstərir ki, müstəqilliyə nail olmaq üçün mexanizmlər yoxdur. Nəyə nail olmaq olar? Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarının sülh şəraitində birgə yaşamasına nail olmaq olar. Biz keçmişdə sülh şəraitində yaşamışıq və yenə də bu

şəkildə yaşayacağıq. Biz coğrafiyanı dəyişə bilmərik. Ona görə də biz bu cür mühüm beynəlxalq məsələnin həllinə nail olmalıyıq. Bunun dünya üçün vacibliyi bizə yardım edən ölkələrin göstərdiyi diqqətdə əks olunubdur.

Mən giriş sözümü bununla yekunlaşdırıram ki, müzakirələr üçün də vaxt qalsın. Dəvətə görə bir daha təşəkkürümü bildirmək istəyirəm.

«Chatham House»də görüş iştirakçılarının suallarına cavab verməyə hazıram. Hesab edirəm ki, sizin üçün də əhəmiyyətli olardı ki, regionumuza aid olan mühüm məsələlər haqqında məlumatı ilk mənbədən alasınız. Çox sağ olun.

* * *

*Dövlətimizin başçısı daha sonra görüş iştirakçılarının suallarına cavab verdi.*

**S u a l: Cənab Prezident, bildiyiniz kimi, bu gün səhər Türkiyədə Nabukko layihəsi ilə bağlı hökumətlərarası saziş imzalanmışdır. Azərbaycan bu tədbirdə Energetika naziri ilə təmsil olunmuşdur. Azərbaycanın bu layihəyə münasibəti barədə fikirlərinizi bildirsəydiniz, minnətdar olardım. Çünki bilirik ki, ölkəniz bu yaxınlarda Rusiya ilə qaz müqaviləsi imzalamışdır.**

**İ l h a m Ə l i y e v:** Bildiyiniz kimi, Azərbaycan həmişə Nabukko layihəsinin tərəfdarı olmuşdur. Nabukko ideyası Azərbaycan ilə Türkiyə arasında çəkilmiş qaz boru kəmərinə əsaslanaraq layihə kimi irəli sürülmüşdür. Əgər Azərbaycan 1996-cı ildə *bp* və digər şirkətlərlə «Şahdəniz» qaz yatağında hasilatla bağlı saziş imzalamasaydı və tərəfdaşları ilə Bakı–Tbilisi–Ərzurum qaz kəmərini tikməsəydi, onda Nabukko ilə əlaqədar imzalanmış bugünkü razılaşma mümkün olmazdı. Ona görə ki, biz bu işin nəinki başlanğıcında durmuşduq, bir ölkə kimi şaxələndirməni və nəql infrastrukturunun inkişafını fəal şəkildə dəstəkləmişik. Nabukko ideyası ortaya çıxanda, elan ediləndə Azərbaycan potensial təchizatçı hesab edilmirdi, çünki həmin vaxt bizim kifayət qədər qazımız yox idi. Digər ölkələr potensial təchizatçı

hesab edilirdi. Lakin sonra Azərbaycan ixracatçıya çevrildi. Misal üçün, bu il Türkiyəyə 7 milyard kubmetr qaz ixrac etmək fikrindəyik. Biz tələbatdan asılı olaraq, Gürcüstana 1 milyard kubmetr qaz verməyi planlaşdırırıq. Türkiyə bizim göndərdiyimiz qazın müəyyən hissəsini yenidən Yunanıstana ixrac edir. Biz həmçinin mübadilə əsasında İrana qaz ötürürük. «Qazprom»la bu yaxınlarda imzalanmış müqavilə bizim təchizat imkanlarımızın tam şaxələndirilməsinə yönəldilibdir. Nə qədər çox bazar olsa, biz bir o qədər yaxşı kommersiya şərtləri əldə etmiş olarıq. «Qazprom»la Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasındakı müqavilə sırf iqtisadi, azad bazar prinsipləri və ədalətli qiymətlər əsasında imzalanmışdır və zənnimcə bu, gələcək potensial sazişlər, razılaşmalar üçün yaxşı bir misaldır.

Mən çox şadam ki, tranzit ölkələr arasında saziş imzalanmışdır. Bu vacibdir. Ümid edirəm ki, Azərbaycan ilə Türkiyə arasında tranzit haqqında saziş mümkün qədər tez imzalanacaqdır. Əfsuslar olsun, bu günə qədər həmin saziş imzalanmayıbdır. Təbii ki, bu gün imzalanmış saziş və gələcək sazişlər ədalətli şərtlərlə, azad iqtisadiyyat, rəqabət prinsiplərinə, eləcə də beynəlxalq səviyyədə tanınmış şərtlərə əsaslanmalıdır. Bu ilin may ayında Azərbaycan Nabukkonu dəstəkləyən siyasi bəyannaməni imzalayıb və əgər layihə həyata keçərsə və bizə yaxşı kommersiya şərtləri təklif olunarsa, təbii ki, biz də həmin boru kəməri ilə qazımızı ixrac edərik. Nəzərə alsaq ki, bu gün Azərbaycanda aşkar edilmiş qaz ehtiyatlarının minimum həcmi 2 trilyon, maksimum isə 5 trilyon kubmetrə bərabərdir və yeni yataqlar da aşkarlanacaqdır, zənnimcə, bizim istənilən istiqamətdə qaz ixrac etmək imkanımız olacaqdır.

**S u a l: Mənim adım Tomas de Valdır. Dağlıq Qarabağ haqqında kitab yazmışam. Cənab Prezident, bu gün Sizin Dağlıq Qarabağla bağlı söylədiyiniz fikirləri diqqətlə dinlədim. Mövzu ilə bağlı Sizin son müsahibələrinizi də izləmişəm, xüsusən də Rusiyanın «Vesti v subbotu» kanalına verdiyiniz**

**müsahibəni nəzərdə tuturam. Keçmişdə Siz bəyan etmisiniz ki, nəzəri baxımdan gələcəkdə münaqişənin hərbi yolla həllini istisna etmirsiniz. Bilmək istərdim, danışıqların belə bir mühüm mərhələsində daha yaxşı etimad mühitini yaratmaq məqsədi ilə Siz bəyan edə bilərsinizmi ki, hər hansı hərb variantı istisna olunur və Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız siyasi yolla ola bilər?**

**İ l h a m Ə l i y e v:** Bilirsiniz ki, 15 ildir Azərbaycan danışıqlar prosesindədir. Hesab edirəm ki, bu bizim sülhsevər siyasətimizin ən yaxşı göstəricisidir. Çünki 20 ilə yaxındır ki, bizim torpaqlarımız işğal altındadır, qaçqınlar və məcburi köçkünlər bu işğaldan əziyyət çəkir. Buna baxmayaraq, biz yenə də danışıqlar prosesindəyik. Bu, aydın şəkildə bizim yanaşmamızı göstərir.

Əfsuslar olsun ki, mən bu gün hərb variantını istisna edə bilmərəm. Çünki birincisi, Azərbaycan BMT-nin Nizamnaməsi əsasında özünü müdafiə etmək hüququna malikdir. Dünyanın istənilən digər ölkəsi kimi, Azərbaycanın da öz ərazi bütövlüyünü bərpa etmək hüququ var. Tarixdən də bilirik ki, bəzi hallarda ölkələr uzaq yerlərdəki ərazilərində də suverenliyini bərpa etmişlər. Zənnimcə siz də bu təcrübəni bilirsiniz. Dağlıq Qarabağ Azərbaycanın daxilində yerləşir. Bu, Azərbaycanın tarixi torpağıdır. Dağlıq Qarabağa ermənilər XIX əsrin əvvəlində köçürülmüşlər. Onlar orada 1978-ci ildə ermənilərin İrandan Qarabağa köçmələrinin 150 illiyinə həsr olunmuş abidə qoymuşdular.

Danışıqlar prosesində irəliləyiş əldə etdikdən sonra, təbii ki, biz heç bir hərb yoluna əl atmayacağıq və üzərimizə siyasi öhdəliklər də götürəcəyik. Lakin indiki halda biz hərb yolunu istisna edə bilmərik. Əgər biz bunu etsək, ermənilər işğal olunmuş torpaqlardan, ümumiyyətlə, çıxmaq istəməyəcəklər.

Hazırda bizim əlimizdə iki mühüm alət var. Birincisi, Azərbaycanın ordusunun artan potensialıdır, o, ərazi bütövlüyümüzü bərpa etməyə qadir olan ordudur. Biz hərbi

məqsədlər üçün Ermənistanın bütün büdcəsi qədər vəsait ayırmışıq. İkincisi isə iqtisadi məsələdir. Bəzi hallarda biz ittiham olunuruq ki, Ermənistanı təcrid edirik. Amma biz bunu etməyə məcburuq. Ermənilər işğal etdikləri ərazilərdəki dəmir yolu keçən yerlərdən öz qoşunlarını çıxarsalar, biz həmin dəmir yolunu aça bilərik. Əgər onlar Dağlıq Qarabağ ərazisindən cənub-şərqdə yerləşən beş rayondan çıxsalar, kommunikasiyalar dərhal açıla bilər.

Ona görə 2009-cu ilin reallığını və gələcəyi nəzərə alaraq bəyan edirəm ki, Ermənistanla Azərbaycan müqayisə edilməzdir. Onların tam fərqli iqtisadi, siyasi vəziyyəti var və əgər 5 ildən, 10 ildən sonraya baxsanız, bu fərq daha da artacaqdır. Buna görə onlar onsuz da edəcəkləri seçimi etməlidirlər – öz qoşunlarını işğal olunmuş ərazilərdən çıxarmalıdırlar. Bundan sonra biz gücdən istifadə olunmaması haqqında öhdəlik götürə bilərik.

**S u a l: Cənab Prezident, Dağlıq Qarabağ probleminin həllində Rusiyanın ciddi marağı varmı?**

**İ l h a m  Ə l i y e v:** Rusiya prezidenti cənab Medvedev şəxsən bu prosesdə çox fəaldır, onun iştirakı ilə Ermənistan prezidenti və mən siyasi bəyannaməyə imza atdıq. Mən öz çıxışımda bu bəyannaməni də xatırlatdım. Biz Sankt-Peterburqda görüşdük. Rusiya prezidenti tərəfindən təklif olunan digər görüş bir həftədən də az vaxtda Moskvada baş tutacaqdır. Rusiya tərəfi prosesdə çox fəaldır və digər həmsədrlərlə birgə mühüm rol oynayır.

**S u a l: Mən BBC World Service radiosunu təmsil edirəm. Siz ölkənizin Böyük Britaniya ilə əla münasibətlərini tam təfərrüatı ilə təsvir etdiniz. Ölkəniz ATƏT-in, Avropa Şurasının üzvüdür, Avropa İttifaqının tərəfdaşıdır. Britaniyanın ən nüfuzlu təsisatlarından biri sayılan BBC World Service radiosunun milli tezliklərdə yayımlanmaması faktının həmin münasibətlərə uyğun gəlməməsi ilə razılaşa bilərsinizmi?**

**İ l h a m  Ə l i y e v:** Siz bilirsiniz ki, hər bir ölkə öz qanunlarına hörmət etməlidir. Bizim ölkənin qanununa uyğun

olaraq, xarici yayımçılar milli tezliklərdə yayım fəaliyyəti ilə məşğul ola bilməz. Əgər bu qanun mövcud olmasaydı, onda təbii ki, BBC – söhbət təkcə BBC-dən getmir – eləcə də Azadlıq, Amerikanın səsi, Rusiyanın Avropa plyus radiolarının fəaliyyəti mümkün olardı. Bunlar hüquqi prosedurlar əsasında baş vermişdir. Yəni biz BBC-nin yayımını qadağan etməmişik. Hər bir ölkədə olduğu kimi, biz də öz qanunvericiliyimizə əməl edirik. Əgər həmin radiolarla Azərbaycan arasında əməkdaşlıq davam edərsə, biz bundan şad olarıq və yayımın başqa formalarını tapa bilərik: internet, qısa dalğalar və s. Biz Azərbaycanda azad mətbuatı məhdudlaşdırmırıq. Son 5 il ərzində Azərbaycanda 1600 məktəb tikilmişdir və kompyuterlə təchiz olunub və internetə çıxışları var. Əgər biz mətbuatı məhdudlaşdırsaydıq, onları internetlə təchiz etməzdik. Biz, sadəcə istəyirik ki, qanunvericiliyimizə əməl edilsin və işlər hər hansı digər inkişaf etmiş və demokratik ölkələrdə olduğu kimi tənzimlənsin.

**S u a l: Çox sağ olun, cənab Prezident, əhatəli çıxışınıza görə Sizə olduqca minnətdaram. Mən London Universitetini təmsil edirəm. Sualım Türkmənistanla münasibətlərinizə, o cümlədən Xəzər dənizinə və bu ölkə ilə layihələrin həyata keçirilməsinə aiddir.**

**İ l h a m Ə l i y e v:** Türkmənistanla münasibətlərimiz uğurla inkişaf edir. Bizim çox yaxşı siyasi əməkdaşlığımız var. Son vaxtlarda dövlət səfərləri – Türkmənistan prezidentinin Azərbaycana və Azərbaycan prezidentinin Türkmənistana səfərləri baş tutmuşdur. Biz iqtisadi, siyasi əməkdaşlığın vacib məsələlərini, o cümlədən Xəzər dənizinin hüquqi statusu məsələsini nəzərdən keçirmişik. Prinsip etibarilə ziddiyyətlərimiz yoxdur. Türkmənistanla Azərbaycan arasındakı sərhəddə yerləşən yataqlarla bağlı məsələlər var. Biz bunu da konstruktiv yolla həll etməyə hazırıq. Hesab edirəm ki, əgər biz öz türkmən dostlarımızla bu məsələnin həllinə nail olsaq, onda ümumiyyətlə, Xəzər dənizinin

hüquqi statusunun müəyyənləşdirilməsi daha asan olacaqdır.

**S u a l: Mənim sualım əvvəlki sualın davamıdır. Mən «Sərdar–Kəpəz» yatağı ilə bağlı sual vermək istəyirəm. Siz bu yatağın birgə işlənilməsi ehtimalı haqqında son iki il ərzində bəyanat vermisiniz. Dövlət Neft Şirkəti ilə Türkmənistan tərəfinin bu yataqda birgə işlərin aparılması ehtimalı nə dərəcədə realdır?**

**İ l h a m Ə l i y e v:** Bəli, bu bizim yanaşmamızdır və biz mövqeyimizi açıq şəkildə elan etmişik ki, qeyd etdiyiniz yatağın birgə işlənilməsinin tərəfdarıyıq. Yeri gəlmişkən deyim ki, sovet vaxtında həmin yatağın adı başqa idi, nə Kəpəz deyildi, nə də Sərdar. Rus dilində, «Promejutoçnaya» adlanırdı. Rus dilini bilən insanlar başa düşür ki, onun mənası nədir. «Promejutoçnaya» aralıqda olan deməkdir. Əgər aralıqdadırsa, bu o deməkdir ki, mübahisə obyekti ola bilər. Biz öz türkmən dostlarımıza təklif etdik ki, bu yatağın işlənilməsi üçün birgə əməliyyat şirkətini yaradaq. Çünki bizim infrastrukturumuz və boru kəmərlərimiz bu yatağa çox yaxındır və əgər lazım gələrsə, birlikdə beynəlxalq əməliyyatçıları dəvət edək və onlar gəlib sərmayə qoya bilərlər. Biz payların da müxtəlif proporsiyalarına baxmağa hazırıq və bu da həmin yataqdan keçən sərhədə uyğun olan bir pay bölümü olacaqdır. Əgər türkmən dostlarımız bu yanaşmaya razılaşarsa, onda Xəzər dənizinin ümumi hüquqi statusunun müəyyən edilməsi daha da asanlaşacaqdır.

**S u a l: Mən «Chatham House»də Rusiya və Avrasiya proqramı çərçivəsində çalışıram. Sizin fikrinizcə, Buş administrasiyasından fərqli olaraq, ABŞ-ın yeni administrasiyası Cənubi Qafqazda daha fəal işləyirmi? Bir tərəfdən, regionun Rusiyanın təsiri altına düşməməsinə və digər tərəfdən, Rusiya ilə Qərb arasında münasibətlərin tənzimlənməsinə cəhd edirmi?**

**İ l h a m Ə l i y e v:** Təcrübəmizə əsaslanaraq biz görürük ki, yeni administrasiya Cənubi Qafqazın regional məsələlərində çox mühüm və fəal rol oynayır. İlk anlardan

biz bir çox mesajlar almışıq. Mənimlə prezident Obama və Dövlət katibi xanım Klinton arasında bir neçə telefon danışıqları olubdur. Bu yaxınlarda Dövlət katibinin birinci müavininin rəhbərliyi ilə yüksək səviyyəli nümayəndə heyəti Bakıya səfər etmişdir. Aldığımız mesajlar, ünsiyyət və danışıqlar göstərir ki, yeni administrasiyanın regional məsələlərdə böyük marağı var. Ermənistan–Azərbaycan münaqişəsində sülh prosesinə güclü dəstək, enerji siyasəti, regional inkişaf və təhlükəsizlik məsələləri – bütün bunlar Birləşmiş Ştatlarla ikitərəfli münasibətlərimizin gündəliyindədir. Biz bu yanaşmanı görməyimizdən çox şadıq. Ümid edirik ki, Birləşmiş Ştatlarla Azərbaycan arasında strateji tərəfdaşlıq gələn illərdə daha da güclənəcəkdir.

**S u a l: Cənab Prezident, mən Britaniya–Ermənistan parlament qrupunu təmsil edirəm. Zati-aliləri, icazənizlə yenidən Dağlıq Qarabağ məsələsinə qayıdaq. Dağlıq Qarabağ məsələsinin sırf insan hüquqları məsələsi olmasına baxmayaraq, Azərbaycan bu problemi ərazi iddiası kimi təqdim etmək üçün əlindən gələni edir və münaqişənin digər əsas tərəfi, Dağlıq Qarabağın özü ilə danışmaqdan imtina edir. Bu, Dağlıq Qarabağın münaqişə tərəfi kimi, ATƏT-in sənədlərində tanınması faktına baxmayaraq baş verir. Azərbaycan Dağlıq Qarabağın seçilmiş nümayəndələrini danışıqlarda tərəf kimi tanımır. Əgər Azərbaycan həqiqətən sülhdə maraqlıdırsa, onda birbaşa Dağlıq Qarabağla danışmalı deyilmi? Sağ olun.**

**İ l h a m Ə l i y e v:** Biz bu münaqişədə insan hüquqları barədə danışdıqda, ilk növbədə qaçqınlar və məcburi köçkünlərin, Azərbaycan vətəndaşlarının həyatı haqqında danışmalıyıq. Bu vətəndaşlar Ermənistanın etnik təmizləmə siyasətinin qurbanına çevrilmişlər. Azərbaycanın rayonlarında – Dağlıq Qarabağ ərazisində, onun ətrafında yaşamış 700 min insanın hüquqları var. Onların əllərində olan hər bir şey itirilib, mülkiyyətləri dağılıb, oğurlanıb, talan edilib. Tarixi abidələr dağıdılıb, orada hər bir şey yerlə yeksan olunmuşdur. Azərbaycanın zəbt olunmuş torpaqları ölü bir

zonadır və bu ölü zona bizim tərəfimizdən yox, ermənilər tərəfindən yaradılmışdır. Bu yaxınlarda Azərbaycan və Ermənistanın ziyalılar və deputatlar qrupu Dağlıq Qarabağda, Şuşa, İrəvan və Bakıda olmuşlar. Onlar Şuşaya getdikdə Azərbaycan məscidini ziyarət ediblər. Bu məscid dağıdılıb və demək olar, 20 ildir ki, xarabalığa çevrilibdir. Lakin onlar Bakıya səfər etdikdə erməni kilsəsinə getdilər. O bizim tərəfimizdən bərpa olunub və bir tarixi abidə kimi saxlanılıbdır. Bu münaqişəyə gəldikdə, insan hüquqları aspekti Ermənistanın xeyrinə işləmir. Qeyd edim ki, Ermənistan prezidenti Sarkisyan Moskva bəyannaməsini münaqişənin tərəfi kimi imzaladı. Əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, o bunu imzalamazdı. Əgər Dağlıq Qarabağ münaqişə tərəfi olmaq istəyirsə, bunu etmək çox asandır. Birincisi, Ermənistan ordusu Dağlıq Qarabağdan çıxarılmalıdır. Bu gün tam aydındır ki, Ermənistan ordusu Dağlıq Qarabağda yerləşdirilibdir. Ermənistan prosesdən tamamilə çıxmalıdır. Sonra isə 60 min əhalisi olan Dağlıq Qarabağ və Azərbaycan nə etməli olduqlarını qərarlaşdıracaqlar. Danışıqlar Ermənistanla Azərbaycan arasında aparılır. Bu, beynəlxalq formatdır. Bizim üçün heç bir səbəb yoxdur ki, bu formatı dəyişək. Əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə danışıqlara gedə bilərlər. O azərbaycanlı icması ki, zorakılıqla Dağlıq Qarabağdan qovulub və qeyd etdiyim kimi, onların bütün abidələri yerlə yeksan edilibdir.

**S u a l: Mən türkiyəliyəm, Şeffild Universitetində təhsil alıram. Cənab Prezident, Ermənistan–Türkiyə münasibətlərində baş vermiş son hadisələr barədə rəyinizi bilmək istərdim. Azərbaycanın həmin diplomatik addıma münasibəti necədir?**

**İ l h a m Ə l i y e v:** Azərbaycan heç vaxt digər ölkələrin ikitərəfli münasibətlərinə müdaxilə etmir. Türkiyə ilə Ermənistan arasındakı münasibətlər həmin ölkələrə aid münasibətlərdir. Azərbaycan bəzi məsələlərə regional inkişaf nöqteyi-nəzərindən yenidən baxmaq hüququna malikdir. Siyasi

baxımdan bu bizim işimiz deyildir. Bildiyiniz kimi, Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın olan ölkələrdir, müstəqilliyimizin ilk vaxtlarından bir yerdə olmuşuq. Kəlbəcərin Ermənistan tərəfindən işğalından sonra Ermənistanla Türkiyə arasındakı sərhəd bağlanmışdır. Bununla Türkiyə Azərbaycanla öz həmrəyliyini göstərib. Baş nazir Ərdoğan Bakıda birgə mətbuat konfransımızdakı və parlamentdəki çıxışında bəyan etmişdir ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmadan Türkiyə Ermənistanla sərhədlərini heç vaxt açmayacaqdır. Bu, bir dövlət xadiminin, dostumuzun yanaşması və mövqeyi idi. Biz bu cür yanaşmalarına görə Baş nazirə və Türkiyənin prezidentinə çox minnətdarıq.

**S u a l: Mən Ərəb–İran Tədqiqatlar Mərkəzinin təmsilçisiyəm. İranla bağlı rəyinizi bilmək istərdim. Xüsusən də İranın nüvə enerjisi sahəsində tədbirləri müəyyən narahatlıq doğurur. Bu məsələ Azərbaycanı da narahat edirmi? Əhmədinejadın yenidən prezident seçilməsi ilə bağlı onu təbrik etmisinizmi?**

**S u a l: Mən Caspian and Gulf Consultants təşkilatını təmsil edirəm. Bu gün Nabukko layihəsinə dair hökumətlərarası saziş imzalandı. Bildiyiniz kimi, Türkmənistan qazının Rusiyaya nəqli aprelin 8-dən sonra dayandırılmışdı, 197 qaz quyusu bağlanmışdır. Hazırda Türkmənistan qazının yalnız 8 faizi Rusiyaya ötürülür. Cümə günü Aşqabadda prezident Obamanın Xəzər dəniz regionu üzrə elçiləri Makfol, Börns və Morninqstar ölkə rəhbərliyi ilə görüşlər keçirmişlər. Onlar ARDNŞ-in prezidenti Abdullayevlə də görüşmüşlər. Bildiyiniz kimi, Almaniya şirkəti Türkmənistandan başla yaraq, Xəzər dənizinin dibi ilə qaz boru kəmərini tikmək istəyir. Bu baxımdan Transxəzər boru kəməri layihəsinin baş tutacağı barədə və cədvəli ilə bağlı nə deyərdiniz?**

**S u a l: Mən Avropa Bankını təmsil edirəm. İranla münasibətləriniz haqqında nə deyə bilərsiniz? Bu ölkə ilə münasibətlərinizin inkişaf perspektivlərini necə görürsünüz?**

**İ l h a m  Ə l i y e v:** Bizim İranla münasibətlərimizin çox uzun tarixi var, xalqlarımız bir-biri ilə çox yaxındır. Müstəqil ölkələr kimi, müxtəlif məsələlərdə əməkdaşlıq edirik. İqtisadi əməkdaşlığımız, insanlar arasında ünsiyyət çox yaxşıdır. Enerji sahəsi münasibətlərimizin bir hissəsidir. Azərbaycan İrana neft məhsulları ixrac edir və qaz mübadiləsi əməliyyatlarında iştirak edir. Enerji əməkdaşlığının çox yaxşı gələcəyi var. Biz İranla Azərbaycan arasında elektrikötürmə xətlərinin tikintisi layihəsini yekunlaşdırırıq və bu, İrana 700 meqavat elektrik enerjisi ixrac etmək imkanı yaradır. Əlaqələrimiz dostluğa, bir-birimizin işlərinə qarışmamaq prinsipinə əsaslanır. Bu, qonşular arasında olan ən yaxşı bir yanaşmadır.

İranın nüvə proqramına gəldikdə, biz mövqeyimizi dəfələrlə bildirmişik. Hər bir ölkənin sülh məqsədləri üçün nüvə proqramını həyata keçirmək hüququ var. Lakin əgər beynəlxalq ictimaiyyəti narahat edən məsələlər varsa, onlar da öz həllini tapmalıdır.

Mənim iranlı həmkarıma təbrikim Azərbaycan mətbuatında çap edilmişdir. Mən onu seçkilərdə qalib gəlməsi ilə bağlı təbrik etdim və yeni prezidentlik dövründə ona uğurlar arzuladım.

Transxəzər layihəsinin reallaşdırılması ehtimalına və cədvəlinə gəldikdə, bunu demək çətindir, çünki bu bizim layihəmiz deyildir. Azərbaycan tərəfindən başlanmış bütün layihələr – bəziləri vaxtından gec olsa da – həyata keçirilibdir. Hər halda, olmaq olmamaqdan daha yaxşıdır. Transxəzər layihəsinə gəldikdə, Azərbaycan bunu irəli sürən ölkə deyildir. Bu, Türkmənistan qazını Azərbaycandan keçməklə Avropaya çatdırmaq üçün nəzərdə tutulubdur. Ona görə bu baxımdan Azərbaycan yalnız tranzit ölkə kimi çıxış edə bilər. Bildiyiniz kimi, Transxəzər layihəsi haqqında qərar hələ qəbul olunmayıbdır. Əgər qərar qəbul olunarsa, biz bunu dəstəkləyəcəyik, amma biz özümüz təşəbbüs göstərməyəcəyik.

**S u a l: Mənim qısa şəxsi sualım var. Cənab Prezident, Siz seçilən liderlər qrupuna aidsiniz, çünki Sizin kimi rəhbərlərin ataları vaxtilə dövlət sükanı arxasında olmuşlar. Bilmək istərdim, Siz ölkə rəhbəri kimi fəaliyyətə başlayanda sabitlik və davamlılıq baxımından hansı üstünlükləri hiss etdiniz? Atanızın üzərinizə qoyduğu məsuliyyəti necə dərk edirsiniz?**

**İ l h a m Ə l i y e v:** Sağ olun. Atamın başladığı bütün işlərin uğurla davam etməsindən qürur hissi keçirirəm. Sabitlik və davamlılıq Azərbaycana etimadı gücləndirdi. Atam tərəfindən həyata keçirilən siyasət Azərbaycanı fəlakətdən, böhrandan, müstəqilliyin itirilməsindən xilas etdi. Tarixdə acı təcrübəmiz olub: 1918–1920-ci illərdə Azərbaycan 2 il ərzində müstəqil olmuşdu, lakin daxili və xarici amillərə görə o vaxt müstəqilliyi itirdik. Eyni ssenari 1993-cü ildə də baş verə bilərdi. Yəni ikiillik müstəqillikdən sonra ölkə dağılmaq təhlükəsi qarşısında idi. Heydər Əliyev müstəqilliyi möhkəmləndirdi.

Atamın oğlu kimi, mən hər zaman bu məsuliyyəti dərk edirəm və 2003-cü ildə mənə etimad göstərən şəxsləri məyus etmərəm. 2003-cü ildə onlar Heydər Əliyevin siyasətinə, sabitliyə və davamlılığa səs verdilər. 2008-ci ildə onlar son 5 il ərzində əldə edilmiş nailiyyətlərə əsaslanaraq səs verdilər. 5 il ərzində planlaşdırılmış bütün işləri həyata keçirdik, ölkəmizi möhkəmləndirə, müasir Azərbaycanı yarada bildik. Zənnimcə, gələcəkdə də biz bu uğurlu inkişafı davam etdirəcəyik, Azərbaycan regional və beynəlxalq işlərdə daha fəal rol oynayacaqdır.

## BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ MÜNASİBƏTLƏR KOMİTƏSİNDƏ GÖRÜŞ

*London*

*14 iyul 2009-cu il*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev səfərinin ikinci günü Böyük Britaniya parlamentinin Xarici münasibətlər komitəsinin üzvləri ilə görüşmüşdür.*

*Komitənin sədri Maykl Qeyps Azərbaycan prezidentinin Britaniyaya rəsmi səfərinin ikitərəfli əlaqələrin inkişafı baxımından əhəmiyyətini vurğuladı və dövlətimizin başçısını yenidən Lordlar palatasında görməkdən məmnun olduqlarını dedi. Maykl Qeyps Azərbaycanın enerji sektorunda əldə etdiyi uğurların önəmini vurğulayaraq, bu sahədə də əlaqələrin perspektivləri baxımından Azərbaycan prezidentinin fikirlərini öyrənmək istədiklərini söylədi.*

*Prezident İlham Əliyev iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi və Azərbaycanda gedən inkişaf prosesləri barədə danışdı. Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin daim genişləndiyini bildirdi.*

*Azərbaycanla Böyük Britaniya arasında siyasi dialoqun fəal aparıldığını deyən prezident İlham Əliyev enerji və təhlükəsizlik, antiterror koalisiyasında iştirak və digər sahələrdə uğurlu əməkdaşlığın olduğunu vurğuladı. Azərbaycanın Avropanın enerji təhlükəsizliyindəki rolundan və perspektivlərindən danışan dövlətimizin başçısı dedi ki, Azərbaycan Avropa üçün mühüm enerji təchizatçısına çevrilmişdir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan prezident İlham Əliyev problemin həlli ilə bağlı aparılan danışıqlar prosesi barədə də məlumat verdi.*

## «BRİTİSH COUNCİL»İN HAZIRKI SƏDRİ SER CERARD LEMOS İLƏ GÖRÜŞ

*London*

*14 iyul 2009-cu il*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev iyulun 14-də Londonda «British Council»in hazırkı sədri ser Cerard Lemos ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev «British Council»in ölkəmizdəki işini müsbət qiymətləndirdi və təşkilatın Azərbaycanda fəaliyyətini davam etdirməsi üçün bütün imkanların olduğunu vurğuladı.*

*Ser Cerard Lemos «British Council»in Azərbaycandakı gələcək planları haqqında məlumat verdi və bildirdi ki, əsas fəaliyyət istiqaməti ingilis dilinin tədrisi olan «British Council» Azərbaycanda mədəniyyət sahəsində də layihələr həyata keçirməyi planlaşdırır.*

# BÖYÜK BRİTANİYANIN ENERGETİKA VƏ ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT KATİBİ ED MİLİBƏND İLƏ GÖRÜŞ

*London*

*14 iyul 2009-cu il*

*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev iyulun 14-də Böyük Britaniyanın Energetika və ətraf mühit məsələləri üzrə Dövlət katibi Ed Milibənd ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edildi.*

*Bildirildi ki, Azərbaycan prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında rəsmi səfəri çərçivəsində Dövlət Neft Şirkəti ilə bp arasında sənədin imzalanması iki ölkənin energetika sahəsində əməkdaşlıqda etibarlı tərəfdaş olduğunu və işbirliyi üçün yaxşı perspektivlərin mövcudluğunu nümayiş etdirir.*

*Görüşdə energetika sahəsində əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparıldı.*

## BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABET İLƏ GÖRÜŞ

*14 iyul 2009-cu il*

*İyulun 14-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bukingem sarayında Böyük Britaniya və Şimali İrlandiya kraliçası ülyahəzrət II Elizabet ilə görüşmüşlər.*

* * *

*Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Yorq hersoqu Şahzadə Endryu ilə birgə nahar etmişlər.*

### Səfər başa çatdı

*İyulun 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Böyük Britaniyanın dövlət bayraqlarının dalğalandığı Londonun «Hitrou» hava limanında prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Böyük Britaniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri böyük hörmət və ehtiramla yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya gəldi.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

«Caspian Airlines» şirkətinə məxsus Tu-154 təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda həmvətəninizin həlak olması xəbəri məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 iyul 2009-cu il*

**MALDİV RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MƏHƏMMƏD NAŞİDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan ilə Maldiv arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin bugünkü səviyyəsi məmnunluq doğurur. Əminəm ki, xalqlarımızın iradəsinə uyğun olaraq əlaqələrimizin hərtərəfli inkişafı, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Maldiv xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 iyul 2009-cu il*

## ATƏT-in BAŞ KATİBİ MARK PERREN DE BRİŞAMBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 16-da ATƏT-in Baş katibi Mark Perren de Brişambonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla ATƏT arasında əməkdaşlığın uğurla inkişaf etdiyi vurğulanmış, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə olunmuşdur.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏRİ

*17 iyul 2009-cu il*

*İyulun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasına işgüzar səfərə yola düşmüşdür.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan dövlətinin başçısını Moskvanın «Vnukovo-2» hava limanında Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*Moskva*

*17 iyul 2009-cu il*

*İyulun 17-də Moskvada, «Prezident-otel»də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair görüşü olmuşdur.*

*Görüşdə Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Ermənistanın Xarici İşlər naziri Edvard Nalbandyan, ATƏT-in Minsk qrupunun həmsədrləri Mətyu Brayzə (ABŞ), Bernar Fasye (Fransa), Yuri Merzlyakov (Rusiya), habelə ATƏT-in hazırkı sədrinin şəxsi nümayəndəsi Anji Kaspirşik iştirak etmişlər.*

## AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*Moskva*

*18 iyul 2009-cu il*

*İyulun 18-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin və Ermənistan Respublikasının Prezidenti Serj Sarkisyanın üçtərəfli görüşü olmuşdur.*

## QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*Moskva*

*18 iyul 2009-cu il*

*İyulun 18-də Moskvada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Qazaxıstan Respublikasının Prezidenti Nursultan Nazarbayevin görüşü olmuşdur.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi. Dövlət başçıları bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə əminliklərini bildirdilər.*

*Söhbət zamanı ikitərəfli münasibətlər, regional əməkdaşlıq və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

**RUSİYA PREZİDENTİNİN MÜKAFATI UĞRUNDA CIDIR YARIŞLARI**

*Moskva*

*18 iyul 2009-cu il*

*İyulun 18-də Moskva Mərkəzi cıdır meydanında «Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı» uğrunda cıdır yarışları keçirilmişdir.*

*Yarışı Rusiya prezidenti Dmitri Medvedevlə birlikdə Azərbaycan prezidenti İlham Əliyev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Moldova prezidenti Vladimir Voronin, Tacikistan prezidenti Emoməli Rəhmon və Ermənistan prezidenti Serj Sarkisyan da izləmişlər.*

*«Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı» uğrunda cıdır yarışlarında Rostov vilayətindəki «Donskoy» atçılıq zavodunun «Monomax» ləqəbli kəhər ayğırı qalib gəlmişdir. Azərbaycan Respublikası Atçılıq Federasiyası həmin yarışlarda çıxış etmək üçün İrlandiyadan gətirilmiş «Leyk Poet» ləqəbli ayğırı göndərmişdi.*

*«Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı» uğrunda cıdır yarışları 2004-cü ildən başlayaraq hər il keçirilir. Bu tədbir həm də MDB-nin üzvü olan ölkələrin dövlət başçılarının qeyri-rəsmi ünsiyyəti üçün bir fürsətə çevrilmişdir.*

*Builki cıdır yarışları Moskva Mərkəzi cıdır meydanının 175 illik yubileyinə həsr edilmişdi.*

*«Rusiya Prezidentinin 2009-cu il üçün mükafatı» uğrunda cıdır yarışlarının ümumi mükafat fondu 7 milyon rubl idi. Bu məbləğin yarısı yarışların qalibinə çatmışdır.*

## Səfər başa çatdı

*İyulun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasına işgüzar səfəri başa çatmışdır.*

*Moskvanın «Vnukovo-2» hava limanında prezident İlham Əliyevi Rusiyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya gəldi. Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## LONDON SİTİNİN MERİ ALDERMAN İAN LUDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də London Sitinin meri Alderman İan Luderin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Alderman İan Luder Azərbaycanda böyük qonaqpərvərliklə qarşılandığına görə prezident İlham Əliyevə təşəkkürünü bildirdi. Qonaq ölkəmizə səfəri zamanı müxtəlif dövlət strukturlarında keçirdiyi səmərəli görüşlər barədə dövlətimizin başçısına məlumat verdi.*

*Prezident İlham Əliyev ötən həftə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığına uğurlu səfərini və orada keçirdyi səmərəli göruşlərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı London Sitinin merinin ölkəmizə bu səfərinin Azərbaycanda gedən inkişaf prosesləri ilə yaxından tanış olmaq və Azərbaycanla Böyük Britaniya arasında əlaqələrin daha da genişləndirilməsi üçün imkanların öyrənilməsi baxımından əhəmiyyətli olduğunu vurğuladı.*

## İSVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KARL BİLDT VƏ ONUN BAŞÇILIQ ETDİYİ AVROPA İTTİFAQI «ÜÇLÜYÜ»NÜN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*20 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 20-də İsveç Krallığının Xarici İşlər naziri Karl Bildti və onun başçılıq etdiyi Avropa İttifaqı «üçlüyü»nün nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə iki ölkə arasında münasibətlərin inkişafından məmnunluq ifadə olundu, siyasi dialoqun genişləndirilməsinin zəruriliyi, ikitərəfli əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş imkanların olduğu vurğulandı. Azərbaycan–İsveç ikitərəfli münasibətlərinin Avropa İttifaqı əməkdaşlığı çərçivəsində genişləndirilməsi baxımından vacibliyi bildirildi.*

*Azərbaycanla Avropa İttifaqı arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnun olduğunu deyən prezident İlham Əliyev Şərq tərəfdaşlığı proqramının bu əməkdaşlığın daha da möhkəmlənməsinə xidmət edəcəyinə əminliyini vurğuladı, Avropaya inteqrasiya məsələsinin ölkəmizin strateji məqsədlərindən biri olduğunu və bu siyasətin 15 ildir uğurla davam etdirildiyini dedi.*

*Nümayəndə heyətinin rəhbəri, İsveç Krallığının Xarici İşlər naziri Karl Bildt Avropa İttifaqı ilə ölkəmiz arasında enerji, terrorizmə qarşı mübarizə və digər sahələrdə əməkdaşlığın yüksək səviyyədə olduğunu vurğuladı. Karl Bildt Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqlar prosesinin Avropa İttifaqı tərəfindən yaxından izləndiyini bildirdi.*

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HANS-RUDOLF MERTSƏ**

Hörmətli cənab Prezident!

İsveçrənin milli bayramı – Konfederasiyanın yaranması günü münasibətilə Sizə və xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan–İsveçrə münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin daha da möhkəmlənməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi istiqamətində qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2009-cu il*

**MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Makedoniyanın milli bayramı – Respublika günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Makedoniya əlaqələrinin hərtərəfli inkişafı, əməkdaşlıq zəminində mövcud imkanların gerçəkləşməsi ölkələrimiz və xalqlarımız üçün hər cəhətdən faydalı olacaqdır.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Makedoniya xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 iyul 2009-cu il*

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ *

*22 iyul 2009-cu il*

Bugünkü iclasda biz ilin altı ayının sosial-iqtisadi yekunlarını müzakirə edəcəyik. Bildiyiniz kimi, bir ilə yaxındır ki, dünyanı qlobal maliyyə və iqtisadi böhran bürüyübdür. Keçən il altı ayın yekunlarını müzakirə edərkən biz gələn böhranın ilkin görüntülərini qeyd etmişdik. Görülən tədbirlər və ümumiyyətlə, Azərbaycanda son illər aparılan islahatlar nəticəsində biz nail ola bilmişik ki, böhranın Azərbaycana təsiri minimum dərəcədə hiss olunur. Azərbaycan iqtisadiyyatı uzun illər uğurla inkişaf edir, iqtisadiyyatımız çoxşaxəlidir və bu əsas amildir ki, bizi çətin sınaqda qoruya bilmişdir.

Bir ilə yaxındır ki, dünyanın əksər ölkələrində ciddi iqtisadi problemlər yaşanır. Azərbaycanda isə iqtisadiyyat uğurlu inkişafında davam edir. Bu ilin birinci yarısında ümumi daxili məhsul 3,6 faiz artmışdır. Çox sevindiricidir ki, qeyri-neft sektorunda artım 4,1 faiz təşkil etmişdir. Bu çox gözəl göstəricidir və onu göstərir ki, iqtisadiyyatımız və ümumiyyətlə, ölkəmizin gələcəyi neft amilindən daha az

---

* Respublika Nazirlər kabinetinin 2009-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclasında Maliyyə naziri Samir Şərifov, Kənd Təsərrüfatı naziri İsmət Abasov, Ekologiya və Təbii Sərvətlər naziri Hüseynqulu Bağırov və Dövlət Gömrük Komitəsinin sədri Aydın Əliyev çıxış etdilər.

asılıdır. Əlbəttə, neft-qaz sektorunun inkişafı və bu sahədə görülən işlər iqtisadi imkanlarımızı böyük dərəcədə genişləndirmişdir. Biz də bu gözəl imkanlardan səmərəli istifadə etdik və iqtisadiyyatımızın digər sektorlarının inkişafı üçün əməli-praktik işlər görülmüşdür.

İlin birinci yarısında sosial məsələlərin həlli də uğurla davam edir, sosial proqramlar həyata keçirilir. Məktəb, xəstəxana tikintisi, digər sosial proqramlar icra edilir. Ünvanlı sosial yardımı alan insanların sayı 800 minə çatmışdır və orta hesabla hər bir ailəyə 100 manat yardım göstərilmişdir. Bu da çox böyük məbləğdir və çətin vəziyyətdə yaşayan soydaşlarımızın sosial vəziyyətinin yaxşılaşdırılması üçün dövlət tərəfindən görülən konkret tədbirdir.

Bu il inflyasiyanın səviyyəsi çox aşağıdır. Altı ayda inflyasiya 3,7 faiz təşkil etmişdir. Ərzaq malları üzrə inflyasiyanın 2,1 faiz olduğunu nəzərə alsaq görərik ki, inflyasiya insanların sosial vəziyyətinə təsir etməmişdir. Əgər nəzərə alsaq ki, bu il əhalinin pul gəlirləri 19 faiz artmışdır, onda görərik ki, real gəlirlər təxminən 15-16 faiz təşkil edir. Orta əməkhaqqı bu il təxminən 15 faiz artmışdır. Rəqəmlər onu göstərir ki, Azərbaycan iqtisadiyyatı möhkəm iqtisadiyyatdır, aparılan iqtisadi islahatlar davam etdirilməlidir. Dövlət sosial məsələlərin həlli və insanların həyat səviyyəsinin yaxşılaşdırılması, dünyada hökm sürən böhrandan maksimum dərəcədə müdafiəsi üçün hər şeyi edir.

Regionların inkişafında ümidverici meyillər davam edir. Baxmayaraq ki, son 5 ildə, demək olar, işsizliyin böyük əksəriyyətini aradan götürdük, konkret tədbirlər yenə də davam edir. Ötən altı ayda Azərbaycanda 35 min yeni iş yerləri açılmışdır ki, onlardan 25 mini daimidir. Regional inkişaf proqramının ikinci mərhələsi başlanmışdır. Bu, böyük və çox konkret proqramdır. Proqramın icrası nəticəsində 2013-cü ilə qədər Azərbaycanın regionlarında mövcud olan bütün problemlər öz həllini tapmalıdır.

Bu il sahibkarlığın inkişafı üçün daha da böyük vəsait nəzərdə tutulur. Dövlət tərəfindən ayrılan kreditlərin məbləği artır, ənənəvi olaraq kənd təsərrüfatının inkişafı üçün subsidiyalar nəzərdə tutulubdur. Onu da deməliyəm ki, birinci altı ayda həm sənaye istehsalı, həm də kənd təsərrüfatı sahəsində artım müşahidə olunur. Azərbaycanda elə bir sahə yoxdur ki, orada tənəzzül müşahidə edilsin. İndiki vəziyyət çox ürəkaçandır və şübhə etmirəm ki, bizim uğurlu inkişafımız ilin sonuna qədər davam edəcəkdir.

Enerji təhlükəsizliyi məsələlərinin həlli ilə mütəmadi qaydada məşğuluq və bu sahədə qarşıda duran bütün vəzifələr icra edilmişdir. Azərbaycanda görülən tədbirlər nəticəsində neft-qaz hasilatı ilbəil artır. Azərbaycan nəinki neft, eyni zamanda, qaz ixracı ilə də ciddi məşğuldur. Demək olar ki, bütün qonşu ölkələrə qaz ixrac edirik və gələn ildən bu proqram tam şəkildə təmin olunacaqdır. Ölkə əhalisini keyfiyyətli qazla təmin etmək üçün əlavə tədbirlər görülüb və əlavə investisiyalar hesabına bu sahədə də çox ciddi irəliləyiş olacaqdır. Biz elektrik enerjisinin ixracı ilə də məşğuluq. Baxmayaraq ki, bir neçə il əvvəl Azərbaycan elektrik enerjisini xaricdən idxal edirdi.

Bu gün biz yenə də bütün qonşu ölkələrə elektrik enerjisi ixrac edirik. Bu il istifadəyə veriləcək Sumqayıt və Quba elektrik stansiyalarının fəaliyyəti nəticəsində bu ixrac daha da böyük rəqəmlərlə ölçüləcəkdir. Bu həm Azərbaycanın bölgədə mövqelərini möhkəmləndirir, iqtisadi potensialını gücləndirir, həm də onu göstərir ki, biz milli sərvətimiz olan neft və qazdan səmərəli şəkildə istifadə edirik, onları emal edirik. Həm bütün dünyaya xam neft, həm də qonşu ölkələrə neft məhsulları ixrac edilir. Baxmayaraq ki, Azərbaycan bu bölgədə, demək olar, ən az neft-qaz hasil edən ölkədir, biz qonşu ölkələrə emal olunmuş məhsullar ixrac edirik. Nəqliyyat sektorunda birinci altı ayda nəzərdə tutulmuş proqramlar icra edilmişdir. Azərbaycanın nəqliyyat infrastrukturu – istər avtomobil yolları, istərsə də hava nəqliyyatı, dəniz nəqliyyatı, dəmir yolu yeniləşir, müasirləşir və dünya

standartlarına cavab verir. Metro tikintisinə böyük vəsait qoyulur.

Demək olar ki, birinci altı ayda nəzərdə tutulmuş bütün vəzifələr öz həllini tapıbdır. Baxmayaraq ki, dünyada yaşanan böhran və neftin qiymətinin kəskin şəkildə aşağı düşməsi nəticəsində bizim də gəlirlərimiz azalıbdır. 2009-cu ilin büdcəsində neftin qiyməti 70 dollar səviyyəsində nəzərdə tutulmuşdu. Reallıq onu göstərir ki, orta hesabla təxminən 40–50 dollar civarındadır. Buna baxmayaraq, bizim kifayət qədər imkanlarımız, resurslarımız var. Son illərdə özümüzü böyük dərəcədə gücləndirə bilmişik və belə olan halda, təbii ki, Azərbaycan bu böhrandan üzüağ çıxacaqdır.

Ordu quruculuğu məsələlərinə diqqətimizi əsirgəmirik. Azərbaycan müharibə şəraitində yaşayır, buna görə də ilk növbədə bu məsələlərə böyük diqqət göstərilməlidir. Keçən ay ordu günü ərəfəsində keçirilmiş genişmiqyaslı hərbi təlimlər bir daha bizim gücümüzü göstərdi. Keçən il biz hərbi parad keçirməklə hərbi texnikamızı nümayiş etdirdik, bu il döyüş qabiliyyətimizi nümayiş etdirdik. Bu gün Azərbaycan ordusunun vəziyyəti elədir ki, qarşıda duran istənilən vəzifəni uğurla icra edə bilər. Bizim səylərimiz bir məqsədə xidmət edir – Azərbaycanın ərazi bütövlüyü bərpa olunsun, işğalçı qüvvələr ölkəmizin zəbt edilmiş torpaqlarından çıxarılsın.

Bildiyiniz kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar davam edir, danışıqlarda bizim mövqeyimiz birmənalıdır, dəyişməzdir. Mövqeyimiz beynəlxalq normalara əsaslanır, beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş qətnamələr və qərarlar əsasında qurulubdur və məsələ bu hüquqi müstəvidə öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir, zəbt olunmuş bütün torpaqlar işğalçılardan azad edilməlidir. Dağlıq Qarabağdakı insanlar və oraya qayıdacaq azərbaycanlılar muxtariyyət şəraitində yaşamalıdırlar. Budur bizim prinsipial mövqeyimiz və bu mövqe beynəlxalq hüquq norma-

larına əsaslanır. Əgər Ermənistan tərəfi real vəziyyəti və Azərbaycanın artan imkanlarını – hərbi, iqtisadi, siyasi, diplomatik uğurlarını – təhlil edərək nəzərə alsa, məsələ tezliklə öz həllini tapa bilər. Biz çox istəyirik və çalışırıq ki, məsələ tez öz həllini tapsın ki, vətəndaşlarımız doğma torpaqlarına qayıda bilsinlər. Ancaq bu razılaşma ədalətli olmalıdır, beynəlxalq normalara əsaslanmalıdır və Azərbaycanın ərazi bütövlüyü tam şəkildə təmin edilməlidir. Hesab edirəm ki, danışıqlar masasında mövcud olan təkliflər bu məsələni dediyim şəkildə həll edə bilər.

Növbəti altı ayda da səmərəli işimizi davam etdirməliyik. Azərbaycan həm iqtisadi sahədə, həm də beynəlxalq müstəvidə öz mövqelərini möhkəmləndirməlidir. Uzun illərdir ki, dünyada etibarlı tərəfdaş kimi qəbul edilirik. Biz bütün ölkələrlə münasibətlərimizi qarşılıqlı maraqlar, qarşılıqlı hörmət, bir-birimizin daxili işlərinə qarışmamaq prinsipləri əsasında qururuq və əminəm ki, bu, beynəlxalq əlaqələrdə yeganə mümkün olan prinsipdir. Bir daha demək istəyirəm ki, biz öz işimizi sistemli, planlı şəkildə aparırıq və belə olan halda, əlbəttə, istənilən məsələ öz həllini tapa bilər.

## YEKUN NİTQİ

Altı ayın yekunları onu göstərir ki, Azərbaycanın əldə edilmiş uğurları bizə istənilən çətin vəziyyətdən şərəflə çıxmağa imkan yaradır. Keçən ilin ortalarından bu günə qədər dünyada ciddi maliyyə və iqtisadi böhran hökm sürür və ola bilsin ki, bundan sonra da hələ müəyyən müddət davam etsin. Heç kim heç bir proqnoz verə bilmir.

Bu böhran nəyi göstərdi? Birincisi, qlobal maliyyə bazarlarında gedən əməliyyatlar və dünyanın inkişafı ilə əlaqədar səslənən müxtəlif fikirlər, tədbirlər göstərir ki, iqtisadi vəziyyət nə qədər həssasdır. Bir də onu göstərir ki, bütün ölkələr bir-birinə bağlıdır. Baxmayaraq ki, inkişaf etmiş ölkələrin maliyyə əməliyyatları nəticəsində böhran bütün dün-

yanı bürüyüb, böhranın yaranmasında, mövcudluğunda heç bir təsiri, iştirakı olmayan ölkələr də bu böhrandan əziyyət çəkirlər. Belə olan halda, hər bir ölkə öz iqtisadi təhlükəsizliyi haqqında fikirləşməlidir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dünya iqtisadiyyatına sürətlə inteqrasiya etməklə yanaşı, milli maraqlarımızı heç vaxt unutmamışıq. Ancaq o sahələrdə inteqrasiya etmişdik ki, daxili iqtisadi sabitliyimizə problemlər yaratmasın. Son bir ilin təcrübəsi onu göstərir ki, Azərbaycanın seçdiyi yol ən düzgün yoldur.

Bəzi hallarda Azərbaycanda maliyyə sektorundakı müəyyən konservativ meyillər beynəlxalq maliyyə qurumları tərəfindən tənqid edilirdi. Bizə tövsiyə olunurdu ki, inteqrasiya meyillərinə daha da sürətlə qoşulaq, beynəlxalq ticarət qurumlarına inteqrasiya edək. Ancaq bizim mövqeyimiz çox ehtiyatlı idi. Bəzi ölkələr kimi, xarici yardımlardan asılı deyilik. Bizim zəngin neft-qaz yataqlarımız, əlverişli coğrafi mövqeyimiz, müasir və möhkəm enerji və nəqliyyat infrastrukturumuz var. Biz neft gəlirlərindən səmərəli istifadə etməklə iqtisadiyyatımızı böyük dərəcədə şaxələndirə bilmişik və Azərbaycanda iqtisadi artım sürəti bunun bariz nümunəsidir. Ona görə biz beynəlxalq iqtisadi əməkdaşlıq məsələlərinə həmişə öz mövqeyimizdən yanaşmışıq.

Elə ölkələr var ki, öz hesabına yaşaya bilmir, başqa ölkələrin yardımına möhtacdır və bu yardımları alırlar. Bəzi hallarda beynəlxalq maliyyə qurumlarından kreditlər şəklində yardımlar alırlar. Ancaq o da həqiqətdir ki, bu kreditlər gec-tez qaytarılmalıdır və bu yardımı edənlər də müəyyən şərtlər irəli sürür. Azərbaycan o nadir ölkələrdəndir ki, nəinki heç kimə yardım üçün müraciət etməyib, əksinə, bizə dəfələrlə başqa yerlərdən kreditlərin verilməsi ilə əlaqədar müraciətlər daxil olmuşdur.

Bizim iqtisadi vəziyyətimiz sabitdir, sosial vəziyyət yaxşıdır. Baxmayaraq ki, təbii olaraq gəlirlərimiz azalıb və neftin qiymətinin aşağı düşməsi ilə bağlı müəyyən investisiya layihələri bir az yubadılıb, ancaq biz bütün sosial pro-

qramları icra edirik. Çünki insanların sosial vəziyyəti yaxşılaşmalı, sosial proqramlar – pensiyalar, əmək haqları, ünvanlı sosial yardım proqramları icra edilməlidir.

Azərbaycanda makroiqtisadi vəziyyət çox yaxşıdır. Qeyd etdiyim kimi, inflyasiya cəmi 3,7 faiz təşkil edir. Manat sabitdir. Başqa ölkələrdən fərqli olaraq, milli valyutamız devalvasiyaya uğramayıbdır. Bəzi ölkələrdə süni şəkildə devalvasiya etməklə, yerli istehsalçıların imkanlarını təşviq etmək məqsədləri güdülürdü. Biz də buna gedə bilərdik, ilk növbədə, insanların həyat səviyyəsi haqqında düşündük və buna getmədik. Azərbaycan iqtisadiyyatı və milli valyutamız sabit qalmaq üçün kifayət qədər güclüdür və əminəm ki, gələcək aylarda bu sahədə heç bir dəyişiklik olmayacaqdır.

Əhalinin pul gəlirləri, orta əməkhaqqı 15–19 faiz artmaqla yanaşı, inflyasiyanın 3,7 faiz səviyyəsində olması çox gözəl göstəricidir. Əvvəlki illərdə inflyasiya daha böyük rəqəmlərlə ölçülürdü. Keçən il 20 faiz təşkil edirdi. Düzdür, keçən il iqtisadi artım da daha yüksək idi. Əminəm ki, növbəti illərdə, uzunmüddətli perspektivdə Azərbaycan iqtisadiyyatı daha da yüksək sürətlə artacaqdır. Çünki bizim kifayət qədər maliyyə resurslarımız var. Bu il və növbəti illər ərzində infrastruktur layihələrinə sərmayələr qoyulur və qoyulacaqdır, kreditləşmə siyasəti aparılır.

Azərbaycan Dövlət İnvestisiya Şirkətinin gələcək fəaliyyəti nəticəsində ölkəmizə böyük həcmdə xarici sərmayələr, daxili sərmayələr qoyulacaqdır. Bu yaxınlarda imzalanmış yeni neft-qaz layihələri üzrə əməli-praktik işlər gələn ildən başlanacaqdır. «Şahdəniz» layihəsinin ikinci mərhələsinin başlanması ilə bağlı konkret tədbirlər görülür. Dünya miqyasında bu böyük, nəhəng layihənin icrası nəticəsində təkcə «Şahdəniz» qaz yatağına 20 milyard dollara yaxın vəsait qoyulacaqdır. Bunlar real proqramlardır, real işlərdir. Biz gündəlik fəaliyyətlə bu nəticələri təmin edirik.

Biz öz enerji potensialımızı maksimum səviyyədə realizə etməliyik. Xarici investisiyaların cəlb edilməsi üçün Azər-

baycanın çox gözəl imkanları var. Biz özümüzü etibarlı tərəfdaş kimi göstərdik və Azərbaycan xarici investisiyalar üçün çox cəlbedici ölkədir.

Böhran heç kimi sevindirə bilməz. Amma digər tərəfdən kimin nəyə qadir olduğunu çox açıq şəkildə göstərdi. İlk növbədə onu göstərdi ki, Azərbaycan dövləti istənilən iqtisadi sınaqlardan şərəflə çıxa bilər və bu iqtisadi sınaqlar Azərbaycan əhalisinə heç bir təsir göstərməmişdir. Belə olan halda, sosial proqramların davam etdirilməsi ilə bağlı bütün lazımi tədbirlər görüləcəkdir. Yoxsulluğun azaldılmasına dair bu vaxta qədər görülən tədbirlər davam etdirilməlidir. Azərbaycanda yoxsulluğun azaldılması meyilləri davam etdirilməlidir. Sosial infrastrukturun yeniləşdirilməsi və tikintisi, xəstəxanaların, məktəblərin tikintisi və s. bağlı proqramlar, büdcədə nəzərdə tutulmuş investisiya layihələri icra olunmalıdır.

Bu gün Kənd Təsərrüfatı naziri bildirdi ki, Azərbaycanın tarixində ilk dəfə olaraq, özümüzü taxılla təmin edəcəyik. Bu il 3 milyon ton taxıl istehsal ediləcək, bu, böyük göstəricidir. Bir il ərzində Azərbaycanda 500 min ton əlavə taxıl istehsal olunacaqdır. 2,2 milyon ton buğda istehsalı bizim, demək olar ki, ərzaq təhlükəsizliyimizin əsas hissəsinin təmin edilməsinə xidmət göstərir. Nəyin hesabına biz buna nail ola bilmişik? Mütəmadi qaydada görülən işlərin, regional inkişaf proqramının, infrastruktur layihələrinin icrası, «Aqrolizinq»in yaradılması hesabına. Bu gün deyildi ki, «Aqrolizinq» xətti ilə nə qədər texnika, kombayn, traktorlar alınıb, digər lazımi məsələlər həll olunubdur. Əgər biz «Aqrolizinq»i yaratmasaydıq, fermerlər hansı vəsaitlə o texnikanı ala bilərdilər? Bu gün Azərbaycanda istehsal olunan traktorlar iş yerlərinin açılmasına, yeni sənaye sahəsinin yaranmasına xidmət göstərir. «Aqrolizinq»in yaradılması kənd təsərrüfatının inkişafında ciddi dönüş etdi. Ondan sonra əlavə tədbirlərin görülməsi nəticəsində, subsidiyaların verilməsi nəticəsində əkin sahələrini xeyli dərəcədə genişləndirə

bilmişik. Gübrənin, yanacağın, toxumların alınması Azərbaycan dövləti tərəfindən həll olunur. Çalışmalıyıq ki, kənd təsərrüfatımız daha intensiv inkişaf etsin. Əkin sahələrinin genişlənməsi prosesi çox müsbət haldır və bunu etmək üçün ciddi meliorasiya tədbirləri görülür və görüləcəkdir. Bu barədə mən öz fikirlərimi deyəcəyəm. Çalışmalıyıq ki, kənd təsərrüfatımızın intensiv xarakter alan inkişafı bundan sonra da uğurla getsin.

Biz özümüzü bütün ərzaq məhsulları ilə tam şəkildə təmin etməliyik. Buna çatmaq üçün artıq az vaxt qalıb və öz ixrac potensialımızı realizə etməliyik. Nəzərə almalıyıq ki, bizim ətrafımızda kifayət qədər böyük istehlak bazarları var və qonşu ölkələrlə Azərbaycanın çox gözəl, işgüzar münasibətləri var, bütün qonşu bazarlar bizim üçün açıqdır, məhsulumuz həmin bazarlara sərbəst şəkildə daxil olur. Azərbaycanda nə qədər çox emal müəssisələri yaranarsa, Azərbaycanın kənd təsərrüfatı məhsullarının ixracı da bir o qədər çox artacaqdır. Yəni bunlar kompleks tədbirlər nəticəsində – ciddi düşünülmüş siyasət, maliyyə resursları, sahibkarlığın inkişafı, «Aqrolizinq»in yaradılması, subsidiyaların, kreditlərin verilməsi və əlbəttə ki, meliorasiya və suvarma tədbirlərinin gücləndirilməsi nəticəsində qısa müddət ərzində mümkün olmuşdur.

Sovet dövründə Azərbaycan heç vaxt özünü ərzaq məhsulları ilə təmin etmirdi. İndi ərzaq təhlükəsizliyi məsələlərini həll etmişik. Növbəti illərdə əldə edilmiş uğurlar əsasında daha da geniş işlər aparılmalıdır. Bölgələrdə böyük anbarların, soyuducu kombinatların tikintisi nəzərdə tutulur. Bu həm sahibkarların öz vəsaiti hesabına olmalıdır, eyni zamanda, Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılmış kreditlər hesabına bunu etməliyik. Bu sahədə Azərbaycan Dövlət İnvestisiya Şirkətindən fəaliyyət gözləyirik. Düzdür, Azərbaycan Dövlət İnvestisiya Şirkəti daha çox xarici investisiyaların cəlb edilməsi üçün yaradılmışdır. Eyni zamanda, bu şirkət Azərbaycan iqtisadiyyatında daha çox

prioritet xarakter daşıyan sahələrdə yerli investorlarla da uğurlu əməkdaşlıq edə bilər. Hesab edirəm ki, növbəti ildə dövlət büdcəsində Azərbaycan Dövlət İnvestisiya Şirkətinin nizamnamə kapitalının artırılması məsələləri də öz həllini tapmalıdır. Çünki bu vaxta qədər ayrılmış vəsaitin böyük hissəsi xərclənib, bir hissəsi də xərclənəcəkdir. Azərbaycan Dövlət İnvestisiya Şirkətinin hər il əlavə maliyyə resursları olmalıdır ki, biz bu vəsaiti lazımi sahələrə yönəldək.

Xüsusilə qeyd etmək istəyirəm ki, son illər ərzində Azərbaycanda dövlət tərəfindən ayrılmış vəsait hesabına Xəzər Dəniz Gəmiçiliyi bir neçə böyük tanker almışdır. Bu tankerlər müasir standartlara cavab verir və Xəzərdə yükdaşımalarının artırılması üçün onların çox böyük əhəmiyyəti var. Nəzərə alsaq ki, bir neçə ildən sonra Xəzərin şərq sahilindən böyük həcmdə neft və neft məhsullarının daşınması gözlənilir, növbəti illər ərzində həm Xəzər Dəniz Gəmiçiliyi üçün, həm də Dövlət Neft Şirkətinin donanması üçün çoxsaylı gəmilər – yük gəmiləri, tankerlər alınmalıdır. Bu məqsədlə bir neçə ildir xarici şirkətlərlə danışıqlar aparılır ki, Azərbaycanda, Bakıda ən müasir standartlara cavab verən gəmiqayırma zavodu tikilsin.

Artıq xarici investorlar seçilib və onlarla bərabər Azərbaycan Dövlət Neft Şirkəti və Azərbaycan Dövlət İnvestisiya Şirkəti də bu işlərdə iştirak etməlidir. Elə etmək lazımdır ki, gələn ildən biz gəmiqayırma zavodunun tikintisinin başlanmasına nail olaq. Bu elə zavod olmalıdır ki, istənilən gəmiləri inşa edə bilsin. O cümlədən zavodda hərbi təyinatlı gəmilər də inşa edilməlidir.

Azərbaycan Dövlət İnvestisiya Şirkətinin digər layihələri də nəzərdən keçirilir. Təqdim ediləndən sonra biz onları təsdiqləyərək tezliklə işə başlamalıyıq.

Sahibkarlığa Kömək Milli Fondundan ayrılan kreditlərin verilməsi davam edir. Bildiyimə görə, nəzərdə tutulmuş məbləğin təxminən 40 faizi artıq xərclənibdir. Çalışın ki, tezliklə qalan hissə də xərclənsin, çünki kreditlər nə qədər tez

verilərsə, sahibkarlar da bir o qədər tez işə başlaya bilərlər. Bu il 130 milyon manat vəsait nəzərdə tutulur.

Ekoloji tədbirlərin gücləndirilməsi üçün nə lazımdırsa, onu edirik. Bildiyiniz kimi, mən bu sahəyə xüsusi diqqət göstərirəm. Xüsusilə Abşeron yarımadasında ekoloji vəziyyətin ciddi şəkildə sağlamlaşdırılmasına böyük ehtiyac var. Elə etməliyik ki, Bakı və Abşeron yarımadası ekoloji cəhətdən ən təmiz bölgəyə çevrilsin. Nə üçün məhz bu əraziyə diqqət göstərilir? Çünki Azərbaycanın digər bölgələrində ekoloji vəziyyət çox yaxşıdır, təbiətimiz çox gözəldir. Bakıda və Abşeronda isə neft-qaz hasilatı nəticəsində yaranmış ciddi ekoloji problemlər təxirəsalınmaz tədbirləri gözləyir.

Bu məqsədlə müvafiq proqramlar başlanmışdır. Milyonlarla yeni ağacın əkilməsi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə bərabər Dövlət Neft Şirkətinin iştirakı ilə neftlə çirklənmiş bütün yerlərin təmizlənməsi, onların yerində parkların salınması, Xəzər dənizinin Bakı buxtasının təmizlənməsi – bütün bunlar təxirəsalınmaz tədbirləri nəzərdə tutur.

Beləliklə, biz bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılmasına nail ola bilərik. Keçən müşavirədə ciddi xəbərdarlıqdan sonra Bakıda ağacların kəsilməsi, demək olar ki, dayanıbdır, tək-tək hallar var. Onlar da dərhal nəzərə alınır və bu qanunsuz işlərlə məşğul olan insanlar cəzalandırılır. Bu nəzarət yerli icra orqanları tərəfindən, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən və bütün ictimaiyyət tərəfindən daim olmalıdır. Mən çox şadam ki, ictimaiyyət də bu məsələlərə çox müsbət yanaşır və nəinki yanaşır, ictimaiyyət tərəfindən verilmiş siqnallar dərhal tədbirlərin görülməsinə səbəb olur. Bakı şəhərində ağacların qanunsuz kəsilməsi dayandırılmalıdır və şadam ki, qısa müddət ərzində biz bu sahədə ciddi dönüşə nail ola bildik.

Yol tikintisi ilə əlaqədar, məcburi qaydada yolların genişləndirilməsi ilə bağlı bəzi ağacların kəsilməsi labüddür,

amma onların yerinə əlavə ağaclar əkilməlidir. Bu istiqamətdə işlər gedir.

Bakıda tezliklə məişət tullantıları zavodunun tikintisi başlanmalıdır. Biz bu məsələ ilə bağlı uzun illərdir ki, məşğuluq. Müxtəlif şirkətlərin təklifləri daxil olubdur. Bildiyimə görə, bütün tədbirlər görülüb və biz tezliklə zavodun tikintisinə başlamalıyıq. Bu zavodun olmaması şəhərin havasının çirklənməsinə çox mənfi təsir göstərir. Balaxanıda yandırılan məişət tullantılarının tüstüsü bütün şəhəri bürüyür. Ona görə işə nə qədər tez başlasaq, bir o qədər yaxşıdır.

İçməli su təchizatı ilə əlaqədar görülən tədbirlər gözəl nəticəsini verir. Ekologiya və Təbii Sərvətlər naziri qeyd etdi ki, 200 mindən artıq əhali içməli su ilə təmin edilibdir. Görüləcək tədbirlər nəticəsində Kür–Araz çayları boyu və digər çaylar ətrafında yerləşən kəndlərdə yaşayan insanların hamısı təmiz içməli su ilə təmin ediləcəkdir. Bununla bərabər, Oğuz–Qəbələ–Bakı su kəmərinin tikintisi gedir və inşaat daha da sürətlə getməlidir. Bakıda müxtəlif yerlərdə su anbarları tikilməlidir. Bu proses də başlanmışdır. Gələn ilin büdcəsi hesabına daha böyük su anbarlarının tikintisi nəzərdə tutulubdur. Əgər su anbarları tikilməsə, o zaman Oğuz–Qəbələ kəməri ilə gələn suyu saxlamaq mümkün olmayacaq və onun səmərəsi aşağı düşəcəkdir.

Bir müddət bundan əvvəl Azərbaycanda çox böyük Şəmkirçay su anbarının təməli qoyuldu. Bu, böyük, ölkəmiqyaslı layihədir. Layihənin icrası nəticəsində on minlərlə hektar torpaq suvarılacaq və kənd təsərrüfatı istehsalına böyük təkan veriləcəkdir. Qərb bölgəsində içməli su probleminin böyük hissəsi də həll ediləcəkdir. Hesab edirəm ki, bu layihəyə çox ciddi fikir verilməlidir. Gələn ilin büdcəsində də vəsait nəzərdə tutulacaqdır. Çalışmalıyıq ki, maksimum 3 il ərzində Şəmkirçay su anbarı istifadəyə verilsin.

Bu yaxınlarda mən alternativ enerji mənbələri ilə əlaqədar agentliyin yaradılması haqqında müvafiq sərəncam imzaladım. Biz bu sahəyə çox ciddi fikir verməliyik.

Düzdür, bu vaxta qədər biz bu işlərlə ciddi məşğul olmurduq. Çünki bizim üçün ilk prioritet enerji təhlükəsizliyimizi təmin etmək idi. Azərbaycanda son illər ərzində tikilən yeni elektrik stansiyaları bu məsələni həll edibdir. Biz bu gün artıq nəinki xarici enerji mənbələrindən asılı deyilik, qonşu ölkələrə – Rusiyaya, İrana, Gürcüstana və Türkiyəyə elektrik enerjisi ixrac edirik. Naxçıvandan Türkiyəyə 20 meqavata yaxın elektrik enerjisi ixrac edilir.

Biz bundan sonra mütləq alternativ enerji mənbələrinin yaranmasına çalışmalıyıq. İlk növbədə, kiçik çaylarda mini su elektrik stansiyaları tikilməlidir. Mənə verilən məlumata görə, Tovuzçay su elektrik stansiyasının tikintisi ilə bağlı müəyyən işlər görülür. Hesab edirəm ki, yaxın aylarda biz bu məsələni ciddi müzakirə etməliyik və lazım gələrsə gələn ilin büdcəsindən Tovuzçay su anbarının və elektrik stansiyasının tikintisi ilə bağlı müəyyən vəsait nəzərdə tutmalıyıq. Çünki bu tikinti 3-4 il davam edə bilər. Tovuzçay elektrik stansiyasının enerji potensialı 400 meqavata yaxın ola bilər. Bu həm çox böyük qənaət olacaq, həm də ki, alternativ enerji mənbələrinin yaranmasına xidmət göstərəcəkdir.

Külək və günəş enerjisindən də səmərəli şəkildə istifadə etməliyik. Bizdə həm külək kifayət qədərdir, həm də günəş. Belə gözəl təbii imkanlardan yararlanmalıyıq. Bu sahəyə yerli və xarici özəl şirkətləri də cəlb etmək olar. Əgər belə bir maraq olarsa – bildiyimə görə, həm xarici, həm də yerli şirkətlər maraq göstərir – bu sahədə özəl qurumlar da fəaliyyət göstərə bilərlər. Hesab edirəm ki, Azərbaycan dövləti gələn ildən başlayaraq dövlət büdcəsi hesabına pilot layihələr kimi həm külək, həm də günəş elektrik enerjisinin istehsalı üçün əməli-praktik işlər görməlidir.

Enerji təhlükəsizliyi məsələlərinə gəldikdə, bir daha demək istəyirəm ki, Azərbaycan tam şəkildə özünü təmin edib və bizim digər layihələrdə iştirakımız imkanlarımızı daha da genişləndirə bilər. Biz enerji təhlükəsizliyi məsələlərində beynəlxalq təşkilatlarla və dost ölkələrlə əməkdaşlıq

edirik. Bu əməkdaşlıq qarşılıqlı maraq əsasında qurulur. Enerji sahəsində gələcək əməkdaşlıqda bazar iqtisadiyyatı prinsipləri üstün olmalı, azad rəqabət prinsipləri tam şəkildə təmin edilməli və dünyada mövcud olan presedentlər və praktika bütün gələcək layihələrə də şamil edilməlidir. Qaz ehtiyatlarımız bizə ən azı 100 il kifayət edəcəkdir. Əlbəttə ki, biz bu işləri maksimum səmərə ilə görməliyik.

Azərbaycanda mövcud olan qaz anbarlarının genişləndirilməsi üçün əlavə tədbirlər görülməlidir. Son illər ərzində müəyyən işlər görülüb, bu gün bizim yeraltı qaz anbarlarımızın tutumu bir milyard, bir milyard yarım kubmetr həcmindədir. Bu bizə imkan verir ki, yay aylarında kifayət qədər ehtiyat yaradaq. Ancaq məqsədimiz ondan ibarətdir ki, qaz anbarlarımızın tutumu 3-5 milyard kubmetrə çatdırılsın. Belə olan halda, qaz ixrac edən ölkə kimi, Azərbaycan öz əhəmiyyətini birə on artırmış olacaqdır. Çünki qaz anbarlarının həcmi çox böyük iqtisadi və digər məsələlərin həllinə xidmət göstərəcəkdir. Bütün müvafiq göstərişlər verilib və Dövlət Neft Şirkəti bu işlərlə məşğuldur. Hesab edirəm ki, yaxın zamanlarda bu işlər başlanacaq və tezliklə başa çatacaqdır.

Əhalinin keyfiyyətli qazla təmin edilməsi üçün əlavə tədbirlər görülməlidir. Ölkədə smartkart tipli sayğaclar quraşdırılmalıdır. Artıq Gəncə şəhərində gözəl təcrübə var. Gəncədə yaradılmış zavod həmin sayğacları istehsal edir. Əhali də bunu çox alqışlayır. Çünki burada nəzarətçi ilə istehlakçı arasında lazım olmayan ünsiyyət kəsilir. Hamımız yaxşı bilirik ki, bəzən xoşagəlməz halların yaranmasına məhz bu ünsiyyət səbəb olur. Ona görə smartkart çox sadə bir üsuldur, müasir bir yanaşmadır. Hər vətəndaş müəyyən pul ödəyib kart alır, kartı sayğaca salır, ondan sonra qazdan istifadə edir, limit bitəndən sonra yenidən pul köçürür. Çox gözəl sistemdir. Çalışmalıyıq ki, ölkəmizin hər bir yerində bu tipli sayğaclar quraşdırılsın.

Növbəti aylarda digər sosial məsələlər, mədəniyyət, idman obyektlərinin tikintisi davam etməlidir. Yeni olimpiya komplekslərinin tikintisi nəzərdə tutulur. Muzeylər, teatrlar təmir edilir, bu sahə də həmişə diqqət mərkəzindədir.

Yolların tikintisi uğurla gedir. Həm magistral yollar, həm şəhərlərarası yollar. Bakının nəqliyyat problemlərinin həlli üçün Dövlət Proqramında nəzərdə tutulmuş məsələlər öz həllini tapır və görülən tədbirlər nəticəsində tıxac probleminin həllində də uğurlar qazana bilmişik. Yeni alınmış çox gözəl avtobuslar artıq işləyir. Bütün bunlar insanların rahat yaşaması üçün nəzərdə tutulmuşdur.

Bakı şəhərinin və digər şəhər və rayonların abadlıq işlərinə bundan sonra da diqqət göstəriləcəkdir. Bakı bu gün dünyanın ən gözəl şəhərlərindən biridir. Bu, birmənalı belədir və hər bir Azərbaycan vətəndaşı qürur hissi ilə bunu deyə bilər. Bakının tarixi simasını saxlamaq, bərpa etmək şərtilə yeni müasir infrastrukturun yaradılması, əlbəttə ki, şəhərimizə əlavə gözəllik verir. Bizim tarixi yerlərimiz – İçərişəhər bu gün öz tarixi simasını özünə qaytarır. Görülən tədbirlər nəticəsində İçərişəhər YUNESKO-nun qara siyahısından çıxarılıbdır. İçərişəhər öz tarixi simasını qorumalıdır. Orada təmir-bərpa işləri ancaq o tarixi irsimizi nəzərə almaqla aparılmalıdır. İçərişəhər turistlər üçün də rahat yer olmalıdır və turizmi inkişaf etdirmək üçün orada əlavə infrastrukturun yaradılması nəzərdə tutulur. Ancaq orada yaradılan, inşa edilən hər bir obyekt ümumi tarixi irsimizə uyğun şəkildə olmalıdır.

Bulvarda geniş abadlıq-quruculuq işləri aparılır. Bir neçə il bundan əvvəl bulvarı zülmət, qaranlıq bürümüşdü, heç kim oraya getmirdi, dağılmış infrastruktur, yararsız vəziyyətə salınmış əyləncə yerləri. İndi görün, bulvar nə qədər gözəlləşibdir. On minlərlə Bakı sakini hər gün orada dincəlir, istirahət edir. Bulvarın genişləndirilməsi və abadlaşdırılması yenə də tarixi əlamətləri nəzərə almaqla həll olunur. Bu il bulvarın 100 illik yubileyi qeyd edilir. Əminəm ki, bulvarın

yeni, gözəl, müasir siması bu yubileyə ən gözəl hədiyyədir. Onu da bilirsiniz ki, bizim planlarımızda bulvarın uzadılması məsələsi də dayanır: həm İdman Sarayından Dövlət Bayrağı Meydanına qədər, həm də Dəniz vağzalından Nobel prospektinə qədər. Orada lazım olmayan, yararsız vəziyyətə düşmüş köhnə tikililər sökülməlidir. Əlbəttə ki, kompensasiya ödənilməlidir. O sahə təmizlənməlidir. Bizim planlarımızda yeni gözəl bulvarların salınması da var və yaxın zamanlarda Azərbaycan vətəndaşları bunu da görəcəklər.

Yenə demək istəyirəm, bu ilin altı ayı bir daha onu göstərdi ki, Azərbaycan düzgün yolla inkişaf edir. Bizim bütün addımlarımız özünü doğrultdu – həm iqtisadi sahədə, həm də siyasi sahədə, beynəlxalq məsələlərdə. Bu yaxınlarda gələn ilin büdcəsi üzərində ciddi iş başlanacaqdır. Artıq ilkin təkliflər irəli sürülübdür. Gələn ilin büdcəsi, əlbəttə ki, reallığı nəzərdə tutmalıdır. Həm sosialyönümlü, həm də investisiyayönümlü olmalıdır. Bizim siyasətimiz bu iki amilin sintezindən ibarətdir. Güclü iqtisadiyyat, bazar iqtisadiyyatı prinsiplərinin tam şəkildə tətbiq edilməsi və sosial məsələlərin uğurla həlli bizim sosial-iqtisadi siyasətimizin əsas istiqamətidir.

Növbəti aylarda hökumət üzvlərinə uğurlar arzulayıram. Ciddi işləmək və ölkəmizi bundan sonra da irəliyə aparmaq lazımdır.

Sağ olun.

## ÇEXİYANIN MALİYYƏ NAZİRİ EDUARD YANOTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 iyul 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 23-də Çexiyanın Maliyyə naziri Eduard Yanotanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Çexiya münasibətlərinin son vaxtlar dinamik inkişaf etdiyini, yüksək səviyyəli qarşılıqlı səfərlərin iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsi baxımından əhəmiyyətli olduğunu bildirdi. Dövlətimizin başçısı siyasi sahədə əlaqələrin inkişafından məmnunluğunu söylədi və iqtisadi əməkdaşlığın genişləndirilməsinin zəruriliyini vurğuladı. Prezident İlham Əliyev Çexiyanın Maliyyə nazirinin Azərbaycana bu səfərinin iki ölkə arasında əlaqələrin daha da inkişafına xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Eduard Yanota ölkəsinin Azərbaycanla münasibətlərinin strateji tərəfdaşlıq xarakteri daşıdığını vurğulayaraq, Çexiya ilə Azərbaycan arasında iqtisadi sahədə, o cümlədən maliyyə sektorunda əlaqələrin inkişafı üçün geniş potensialın olduğunu söylədi. O bildirdi ki, Bakıya səfərinin əsas məqsədlərindən biri bu sahədə əməkdaşlığın gələcək perspektivlərinə dair müzakirələr aparmaqdır.*

## BAKI–QUBA–RUSİYA SƏRHƏDİ AVTOMOBİL MAGİSTRALINDA KÖRPÜNÜN AÇILIŞI MƏRASİMİ

*23 iyul 2009-cu il*

*İyulun 23-də Azərbaycan prezidenti İlham Əliyev Bakı–Quba–Rusiya dövlət sərhədi avtomobil magistralında tikilmiş körpünün açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, «Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 6-cı və 16-cı kilometrlik hissəsinin yenidən qurulması» layihəsinə 3 körpünün yenidən qurulması və bir yeni körpünün tikintisi daxildir. Yolun 12-ci kilometrində inşa edilən altı zolaqlı körpünün uzunluğu 84 metr, eni 24,5 metrdir. Hərəkət zolaqlarının hər birinin eni 3,75 metrdir. Körpünün hər iki kənarı boyunca piyadaların hərəkəti üçün səki salınmışdır. Yerdən hündürlüyü 9 metr olan körpünün tikintisində yüksək təzyiqə davamlı tirlərdən istifadə edilmişdir. Çexiya İxrac Bankının maliyyələşdirdiyi layihənin sifarişçisi Nəqliyyat Nazirliyidir. İnşaat işlərini «Azərinşaatservis MMC» həyata keçirmişdir.*

*Xırdalandan və Masazırdan gələn avtomobil yollarını magistralla birləşdirən yeni körpü bu ərazidə nəqliyyat vasitələrinin hərəkət rahatlığının təmin edilməsi baxımından böyük əhəmiyyətə malikdir.*

*Prezident İlham Əliyev körpünün açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı görülən işləri yüksək qiymətləndirdi, əlavə tapşırıq və tövsiyələrini verdi.*

## PAYTAXTIN DƏMİRYOL VAĞZALININ QARŞISINDAKI YERALTI PİYADA KEÇİDİNDƏ GÖRÜLMÜŞ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 iyul 2009-cu il*

*İyulun 23-də Azərbaycan prezidenti İlham Əliyev paytaxtın dəmiryol vağzalının qarşısındakı yeraltı piyada keçidində görülmüş əsaslı yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Nəqliyyat naziri Ziya Məmmədov əvvəlcə ərazidə görülmüş yenidənqurma və təmir işləri haqqında dövlətimizin başçısına məlumat verərək bildirdi ki, dəmiryol vağzalının binası mükəmməl layihə əsasında yenidən qurulur. Dilarə Əliyeva küçəsindəki 235 və 237 nömrəli binalarda təmir işləri başa çatdırılmış, 235 nömrəli binada 3 müasir lift quraşdırılmışdır. Cəfər Cabbarlı meydanı da görkəmini tamamilə dəyişmişdir.*

*Yeraltı keçiddə görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev obyektin sxemlərinə, layihələrinə, keçidin əvvəlki və indiki vəziyyətini əks etdirən fotoşəkillərə baxdı.*

*Məlumat verildi ki, bir il əvvəl başlanmış əsaslı yenidənqurma işlərini «Azəryolservis» ASC-nin sifarişi əsasında «Sanur Holdinq» şirkətlər qrupuna daxil olan «Azərtikintibərpa» MMC həyata keçirmişdir. Pilləkən çıxışları da daxil olmaqla, 750 metr uzunluğundakı keçiddə yenidənqurma işlərində təxminən 1000 nəfər çalışmışdır. Tamamilə müasir görkəm almış keçidin divarları və döşəməsi İtaliya və Türkiyə istehsalı olan mərmər və qranitlə üzlənmişdir. Burada Yaponiya texnologiyası əsasında havalandırma, yanğından mühafizə və videomüşahidə sistemləri quraşdırılmışdır.*

*Keçidin 9 çıxışı vardır. Ən müasir standartlara cavab verən keçiddə 150 nəfərdən çox adamın işlə təmin olunduğu 77*

*mağaza və kafe fəaliyyət göstərir. Fasiləsiz elektrik enerjisi vermək üçün 2 yardımçı stansiya vardır.*

*Prezident İlham Əliyevə dəmiryol vağzalı binasının yenidənqurma layihəsi barədə də məlumat verildi ki, bina tezliklə müasir görkəm alacaq, burada müasir kassalar, istirahət guşələri və mehmanxana fəaliyyət göstərəcəkdir.*

*Hazırda Bakıda daha 4 yeraltı piyada keçidində yenidənqurma işləri davam edir və yaxın vaxtlarda başa çatdırılacaqdır. İnşaatçılar prospektindəki keçiddə isə işlər tamamlanmışdır.*

*Prezident İlham Əliyev ətrafda həyata keçirilən yenidənqurma işləri ilə də maraqlandı. Cəfər Cabbarlının heykəlinin ətrafı abadlaşdırılmış, yaşıllıqlar salınıb, müasir işıqlandırma sistemi quraşdırılmışdır.*

*Dövlətimizin başçısına 1926-cı ildə istifadəyə verilmiş Bakı–Sabunçu elektrik dəmiryol vağzal binasında görülən yenidənqurma işləri haqqında da məlumat verildi. Binada təmir işlərində milli və müasir memarlıq üslubları peşəkarlıqla uzlaşdırılır.*

*Prezident İlham Əliyev Bakının yol-nəqliyyat kompleksinin yenidən qurulması ilə bağlı əlavə tapşırıq və tövsiyələrini verdi.*

## BAKI DAİRƏVİ AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 iyul 2009-cu il*

*İyulun 23-də Azərbaycan prezidenti İlham Əliyev Bakı dairəvi avtomobil yolunun tikintisi ilə tanış olmuşdur.*

*Nəqliyyat Nazirliyinin sifarişi ilə «Azərinşaatservis» MMC-nin tikdiyi Bakı dairəvi yolunda işlərə 2006-cı ilin oktyabrından başlanılmışdır. Əsas yolun uzunluğu 21,5 kilometr, köməkçi yolların uzunluğu isə Biləcəri enişi ilə birlikdə 11,65 kilometrdir. Altı hərəkət zolaqlı yolun torpaq yatağının eni 33,5 metr, əsas yolun hərəkət hissəsinin eni 22,5 metr, hərəkət zolaqlarının hər birinin eni 3,75 metr olacaqdır.*

*Dövlətimizin başçısı Bakı–Rusiya, Bakı–Gürcüstan və Bakı–İran sərhədləri avtomagistrallarını birləşdirəcək bu layihə üzrə tikinti işlərinin keyfiyyətlə yerinə yetirilməsi barədə tapşırıqlarını verdi.*

*Sonra prezident İlham Əliyev Bakı dairəvi yolunun Bakı–İran sərhədi avtomagistralı ilə birləşəcək hissəsinə gəldi. Dövlətimizin başçısına məlumat verildi ki, layihə çərçivəsində 6 körpü, 1 yeraltı avtomobil keçidi, 1 yeraltı piyada keçidi və 4 avtobus dayanacağının inşası nəzərdə tutulmuşdur. Artıq körpülərin tikintisinin 80 faizi, yeraltı keçidlərin tikintisinin isə 96 faizi başa çatdırılmışdır. Tikinti işlərinə 400 nəfərdən çox işçi qüvvəsi və 300-dək texnika və avadanlıq cəlb edilmişdir. Ümumilikdə, işlərin 63 faizinin başa çatdırıldığı Bakı dairəvi yolunun 2010-cu ilin avqustunda istifadəyə verilməsi nəzərdə tutulur.*

*Prezident İlham Əliyev işlərin yüksək keyfiyyətlə və vaxtında başa çatdırılmasını tapşırdı və müvafiq tövsiyələrini verdi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatoleviç!

Rostov vilayətində baş vermiş avtomobil qəzası nəticəsində çoxlu insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi.

Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi başsağlığı verir, zərərçəkənlərin hamısının tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2009-cu il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

Məşhəd şəhərinin beynəlxalq hava limanında baş vermiş təyyarə qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün İran xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 iyul 2009-cu il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Qırğızıstan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Qırğızıstan dostluğunun möhkəmləndirilməsi, dövlətlərarası münasibətlərimizin hərtərəfli inkişafı, əməkdaşlığımızın əhatə dairəsinin genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Qırğızıstan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2009-cu il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, dost ölkələrimiz və xalqlarımız arasında əlaqələrin daha da genişləndirilməsi sahəsində səylərimizi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızı bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost İndoneziya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 iyul 2009-cu il*

## BAKIDA APARILAN ABADLIQ İŞLƏRİ VƏ YENİ YOLLARIN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*27 iyul 2009-cu il*

*İyulun 27-də Azərbaycan prezidenti İlham Əliyev Bakıda aparılan abadlıq işləri və yeni yolların tikintisi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyev əvvəlcə paytaxtın «Azneft» meydanından Bilgəh qəsəbəsinə qədər olan yolun kənarlarında aparılan abadlıq-quruculuq işləri ilə tanış oldu.*

*Bakı şəhərinin əsas magistrallarından biri olan Heydər Əliyev prospektində aparılan yenidənqurma işləri bu yolda avtomobillərin rahat və sürətli hərəkətinə imkan yaratmış, tıxacları aradan qaldırmış, piyadaların təhlükəsizliyini təmin etmişdir.*

*Dövlətimizin başçısının tapşırığına əsasən burada görülən genişmiqyaslı işlər ən müasir standartlara cavab verir. Prospekt boyunca yerləşən binaların fasadı zövqlə yenidən qurulur.*

*Prezident İlham Əliyevin «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı ilə əlaqədar yerli əhəmiyyətli avtomobil yollarının tikintisi və təmiri ilə bağlı əlavə tədbirlər haqqında» 2005-ci il 26 noyabr tarixli, həmçinin «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planı»nın təsdiq edilməsi haqqında» 2006-cı il 1 fevral tarixli sərəncamları, «Azərbaycan Respublikasının avtomobil yolları şəbəkəsinin yeniləşdirilməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı» bu sahədə əsaslı islahatların aparılmasına geniş imkanlar yaratmışdır.*

*Heydər Əliyev prospektinin digər hissələrində də yenidənqurma işləri davam edir. Hava limanı istiqamətində yolun sağ*

*və sol tərəflərində aparılan abadlıq işləri diqqəti çəkir. «Bakı şəhərinin qəsəbələrinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair Tədbirlər Proqramı» isə bu sahədə daha genişmiqyaslı tədbirlərin reallaşdırılmasına təkan vermişdir.*

*Dövlətimizin başçısı Sabunçu dairəsindən Bilgəh qəsəbəsinə qədər çəkilən yeni yolda aparılan tikinti işlərinin gedişi ilə də maraqlandı. Bildirildi ki, bu yol hər iki istiqamətdə dörd zolaqdan ibarətdir. Sabunçu dairəsindən Heydər Əliyev Beynəlxalq Aeroportuna gedən yol artıq istifadədədir. Uzunluğu 6 kilometr 850 metr olacaq Mərdəkan dairəsi–Heydər Əliyev Beynəlxalq Aeroportu yolunda isə tikinti işləri davam edir. Bundan sonra Mərdəkan–Bilgəh yolunun tikintisi başlanacaqdır. Heydər Əliyev Beynəlxalq Aeroportu–Bilgəh yolunun üzərində üç yol ötürücüsü, dörd piyada keçidi inşa ediləcəkdir. Mərdəkan dairəsindən Zuğulbaya gedən yolun uzunluğu 7 kilometr 650 metr, Zuğulba–Bilgəh yolunun uzunluğu isə 4 kilometr 250 metr olacaqdır.*

*Prezident İlham Əliyevə Bakıxanov qəsəbəsi, Zabrat, Buzovna, Mərdəkan və Qala istiqamətində elektrik qatarlarının yollarında aparılacaq yenidənqurma işləri haqqında da məlumat verildi.*

*Bildirildi ki, yaxın gələcəkdə bu dəmir yolu xəttinin sökülməsi, onun yerində yeni magistral yolun çəkilməsi planlaşdırılır. Bu da paytaxtın kənd və qəsəbələrinə gediş-gəlişi asanlaşdıracaqdır. Bu yolda iritutumlu avtobuslardan istifadə olunacaqdır.*

*Dövlətimizin başçısı işlərin vaxtında və yüksək keyfiyyətlə görülməsi ilə bağlı tapşırıqlarını verdi.*

## FƏVVARƏLƏR MEYDANINDA YENİDƏNQURMA VƏ NİZAMİ KÜÇƏSİNDƏKİ TARİXİ BİNALARDA APARILAN BƏRPA İŞLƏRİ İLƏ TANIŞLIQ

*29 iyul 2009-cu il*

*İyulun 29-da Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakının Fəvvarələr meydanında yenidənqurma və Nizami küçəsindəki tarixi binalarda aparılan bərpa işləri ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına məlumat verildi ki, ötən əsrin 80-ci illərinin ortalarında istifadəyə verilən Fəvvarələr meydanı uzun illər Bakının rəmzlərindən biri olmuşdur. Lakin xeyli müddət təmir-bərpa işlərinin görülməməsi burada yenidənqurma tədbirlərinin başlanması zərurətini yaratmışdı. Bir neçə ay əvvəl başlanan yenidənqurma işləri indi sürətlə davam etdirilir.*

*Prezident İlham Əliyevin Bakıda park və xiyabanların əsaslı təmiri və yenidən qurulması ilə bağlı tapşırıqlarına əsasən yenilənən Fəvvarələr meydanı paytaxt sakinlərinin istirahətinin yüksək səviyyədə təşkilinə xidmət edəcəkdir. Müasir tələblər səviyyəsində qurulacaq və paytaxtın bu hissəsinin görkəminə yaraşıq verəcək meydanda aparılan yenidənqurma işləri zamanı orijinal görkəm saxlanılmaqla, ümumi ansambla özəl elementlər və formalar da əlavə ediləcək, yaşıllıq sahələrinə xüsusi diqqət yetiriləcək, dekorativ bitkilər əkiləcək, yeni oturacaqlar qoyulacaq, işıqlandırma sistemi quraşdırılacaqdır.*

*Dövlətimizin başçısı Fəvvarələr meydanında yenidənqurma işlərinin yüksək səviyyədə və keyfiyyətlə aparılmasına dair tapşırıqlarını verdi.*

*Prezident İlham Əliyev daha sonra paytaxtın Nizami küçəsindəki tarixi binalarda aparılan təmir-bərpa işlərinin gedişi ilə maraqlanmışdır.*

*Avropa və Şərq memarlığının sintezi əsasında tikilmiş bu nadir binalar Bakının təkrarsız görkəmə malik müasir şəhərə çevrilməsində mühüm rol oynamışdır. Lakin tarixi-memarlıq abidələrinin bəzi hallarda lazımınca qorunmaması, onlardan bir çoxunun baxımsızlıq üzündən yararsız hala düşməsi çoxəsrlik memarlıq irsi ənənələrinə ciddi xələl gətirirdi. Prezident İlham Əliyevin «Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi-memarlıq abidələrinin bərpası və qorunması haqqında» 2006-cı il 18 avqust tarixli Sərəncamı isə bu sahədə əsaslı dönüş yaratmışdır. Sərəncamda Bakı şəhərindəki tarixi-memarlıq abidələrini milli-mədəni sərvət kimi qoruyub saxlamaq, yetişməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında onların rolunu gücləndirmək və ölkəmizə gələn çoxlu qonaqlar arasında lazımi səviyyədə təbliğini təmin etmək məqsədi ilə müvafiq qurumlara tapşırıqlar verilmişdir. Hətta paytaxtdakı tarixi-memarlıq abidələrinin bərpası ilə bağlı Dövlət Proqramının layihəsi də hazırlanmışdır.*

*Ərazi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, paytaxtın mərkəzindəki bu qədim binalarda aparılan təmir-bərpa işləri yüksək səviyyədə həyata keçirilir.*

*Dövlətimizin başçısı gələcəkdə də tarixi abidələrin qorunması ilə bağlı tapşırıqlarını verdi.*

**UKRAYNANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VİKTOR YUŞŞENKOYA**

Hörmətli Viktor Andreyeviç!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün Ukrayna xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Dərin tarixi köklərə və xoş ənənələrə malik Azərbaycan–Ukrayna münasibətləri bu gün dostluq və əməkdaşlıq məcrasında müvəffəqiyyətlə inkişaf etməkdədir. Ölkələrimizin istər ikitərəfli qaydada, istərsə də beynəlxalq və regional qurumlar çərçivəsində səmərəli işbirliyi münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəltmişdir.

Əminəm ki, qarşılıqlı maraq doğuran konstruktiv əməkdaşlığımızın dərinləşməsinə, işgüzar əlaqələrimizin hərtərəfli inkişafına dair niyyətlərimizi gerçəkləşdirmək yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Hörmətli Viktor Andreyeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Ukrayna xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**MACARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB LASLO ŞOYOMA**

Hörmətli cənab Prezident!

Macarıstanın milli bayramı – Müqəddəs İştvan günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Azərbaycan–Macarıstan əlaqələrinin hazırkı inkişaf səviyyəsi məmnunluq doğurur. Əminəm ki, dost ölkələrimiz arasında ikitərəfli münasibətləri bütün sahələrdə inkişaf etdirmək, Avropa strukturları çərçivəsində əməkdaşlığımızı müvəffəqiyyətlə davam etdirmək üçün bundan sonra da qarşılıqlı səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ**

Hörmətli Kurmanbek Saliyeviç!

Qırğızıstanın milli bayramı – Dövlət müstəqilliyi günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Qırğızıstan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə, hörmətli Kurmanbek Saliyeviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Qırğızıstan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB SELLAPAN RAMANATANA**

Hörmətli cənab Prezident!

Sinqapur Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Sinqapur arasındakı münasibətlər xalqlarımızın rifahı naminə bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ**

Hörmətli cənab Prezident!

Əfqanıstanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, tarixi ənənələrə malik Azərbaycan–Əfqanıstan dostluğunun qorunub saxlanması və möhkəmləndirilməsi, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əfqanıstan xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ASİF ƏLİ ZƏRDARİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Pakistan dostluğu və əməkdaşlığının xoş ənənələrinin qorunub saxlanması və inkişaf etdirilməsi, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM PRATİBHA DEVİSİNQH PATİLƏ**

Hörmətli xanım Prezident!

Hindistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Hindistan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

**İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ YUDHOYONOYA**

Hörmətli cənab Prezident!

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə İndoneziya arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İndoneziya xalqına sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

## MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

Əlahəzrət!

Malayziyanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan ilə Malayziya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin hərtərəfli inkişafı yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Malayziya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 iyul 2009-cu il*

## RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 1-də Rusiya Federasiyasının Müdafiə naziri Anatoli Serdyukovu qəbul etmişdir.*

*Rusiya Federasiyasının Müdafiə naziri prezident Dmitri Medvedevin salamlarını dövlətimizin başçısına çatdırdı. O qeyd etdi ki, Rusiya Federasiyası və Azərbaycan Respublikası prezidentlərinin tapşırıqlarına əsasən ölkələrimiz arasında hərbi və hərbi-texniki sahədə əməkdaşlıq genişlənməkdədir. Anatoli Serdyukov səfərinin bu sahədə əməkdaşlığın perspektivlərinə dair səmərəli fikir mübadiləsinin aparılması baxımından əhəmiyyətini vurğuladı.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı hərbi və hərbi-texniki sahədə əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev Rusiya prezidenti ilə keçirdiyi görüşlər zamanı digər sahələr kimi, bu sahədə də əməkdaşlığa dair məsələlərin daim müzakirə olunduğunu dedi. Dövlətimizin başçısı Rusiya Federasiyasının Müdafiə nazirinin ölkəmizə səfərinin hərbi və hərbi-texniki sahədə əməkdaşlığın daha da möhkəmlənməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Rusiya prezidenti Dmitri Medvedevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*3 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 3-də Naxçıvan Muxtar Respublikasına səfərə gəlmişdir.*

*Dövlətimizin başçısının şərəfinə Naxçıvan Beynəlxalq Aeroportunda Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər ehtiramla qarşıladılar.*

*Milli geyimli qızlar prezident İlham Əliyevə və xanımına gül dəstələri təqdim etdilər.*

*Dövlətimizin başçısı Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Prezident İlham Əliyev Naxçıvan MR-in rəhbər şəxsləri ilə görüşdü.*

### Ulu öndərin abidəsini ziyarət

*Avqustun 3-də Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzindəki abidəsini ziyarət edərək, önünə gül dəstələri qoydular.*

## Heydər Əliyev sarayının əsaslı yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva avqustun 3-də Naxçıvan şəhərində Heydər Əliyev sarayının əsaslı yenidənqurmadan sonra açılışı mərasimində iştirak etmişlər.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar. Milli geyimli uşaqlar prezident İlham Əliyevə və Mehriban xanım Əliyevaya gül dəstələri təqdim etdilər.*

*Prezident İlham Əliyev sarayın açılışını bildirən lenti kəsdi və bu mədəniyyət ocağı ilə tanış oldu.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov dövlətimizin başçısına məlumat verdi ki, Heydər Əliyev sarayının yenidən qurulması işlərinə 2008-ci ilin yanvarında başlanılmışdır. Tikintinin ümumi ərazisi 1,8 hektar, binanın ümumi sahəsi isə 14 min 920 kvadratmetrdir. Zirzəmi qatı ilə birlikdə bina 4 mərtəbədən ibarətdir. İnşaatda yerli materiallarla yanaşı, Almaniya və Türkiyədən gətirilmiş tikinti materiallarından istifadə edilmişdir. Tikintidə 405 nəfər çalışmışdır.*

*Sarayda 943 yerlik konsert və 276 yerlik konfrans salonları vardır. Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Naxçıvan Dövlət Filarmoniyası, rəsm qalereyası və film fondu da sarayın binasında yerləşir.*

*«Gəmiqaya» şirkətinin yenidən qurduğu sarayın ikinci mərtəbəsindəki 198 nəfərlik konfrans zalında üç dildə sinxron tərcümə aparmaq üçün texniki vasitələr quraşdırılmışdır. Sarayda xüsusi qonaqlar üçün ayrılmış otaq da vardır. Bundan əlavə, ikinci mərtəbədəki iki foyedə də minə qədər tamaşaçının mənalı istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*1982-ci ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə yaradılmış qalereyada Azərbaycan, o cümlədən Naxçıvan, həmçinin Rusiya rəssamlarının 300 əsəri nümayiş etdirilir.*

*Azərbaycanın xalq rəssamlarının əl işlərinin toplandığı ekspozisiya zalında yağlı boya ilə kətan üzərində işlənən «Ulu öndər», «Zərifə Əliyeva», «21-ci əsr – Heydər Əliyev» əsərləri ölkəmizin müasir tarixini göz önündə canlandırır. Qalereyadakı digər maraqlı əsərlər də Azərbaycan rəssamlıq məktəbinin zəngin ənənələrini və müasir inkişaf istiqamətlərini, müstəqil Azərbaycanın reallıqlarını dolğun əks etdirir.*

*Bildirildi ki, sarayın ətrafında abadlıq işləri aparılmış, xüsusi zövqlə salınmış parkda şəhər sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Sarayın qarşısında ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərinin nümayiş olunduğu monitor quraşdırılmışdır.*

*Dövlətimizin başçısı burada yaradılmış şəraiti yüksək qiymətləndirdi.*

## Yeni səhiyyə müəssisəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 3-də Naxçıvan şəhərində yeni səhiyyə müəssisəsinin DB – Doğum Mərkəzinin açılışı mərasimində iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev Doğum Mərkəzinin açılışını bildirən rəmzi lenti kəsdi, yeni səhiyyə müəssisəsindəki şəraitlə tanış oldu.*

*Təməli 2008-ci ilin iyununda prezident İlham Əliyev tərəfindən qoyulan Mərkəzin tikintisi bir ilə başa çatdırılmışdır. Müasir üslubda tikilən Doğum Mərkəzinin binasında nümunəvi şərait yaradılmışdır. Bu bir daha göstərir ki, Azərbaycanda səhiyyənin inkişafı, onun maddi-texniki bazasının gücləndirilməsi daim diqqət mərkəzində saxlanılır. Ölkəmizdə səhiyyə sisteminin yenidən qurulmasını, əhalinin sağlamlığının daha yaxşı təşkilini, bu sahədə yeni texnologiyaların tətbiqini və yeni kadr potensialının hazırlanmasını özündə əks etdirən*

*dövlət proqramları tibbi xidmətin səviyyəsini də yüksəltmişdir. Ana və uşaq sağlamlığının qorunması istiqamətində görülən işlər bu sahədə keçmişdə ciddi narahatlıq doğuran problemlərin həllinə imkan yaratmışdır. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genofondun qorunmasına, mövcud problemlərin əsaslı surətdə həllinə yönəlmişdir. Fondun uşaqların sağlamlığının qorunması istiqamətində gördüyü işlər cəmiyyətdə yüksək razılıqla qarşılanır. Bildirildi ki, mərkəzin ümumi ərazisi 1,26 hektardır, binanın sahəsi isə 14.520 kvadratmetrdir. Altımərtəbəli tibb müəssisəsi 100 çarpayılıqdır. Mərkəzdəki 7 şöbədə perinatal diaqnostika və poliklinika, ekstrakorporal mayalanma, fizioloji doğuş, ginekologiya, hamiləliyin patologiyası, anesteziologiya, reanimasiya və intensiv terapiya, kliniki laboratoriya bölmələri fəaliyyət göstərir. Mərkəzdə daha iki bölmə – yeni doğulanların reanimasiyası və intensiv terapiya bölməsi, yarımçıq doğulanların reanimasiyası şöbələri yaradılmışdır. Səhiyyə ocağında əməliyyat bloku da vardır. Doğum Mərkəzində fizioterapiya kabinəsi, embrioloji və androloji kabinetlər, 2 böyük və 2 kiçik əməliyyat otağı, stomatoloji, ginekoloji müayinə kabinələri şəhər sakinlərinin istifadəsinə verilmişdir. Tibb müəssisəsində 65 həkim, 102 orta, 61 kiçik tibb işçisi, 42 xidməti işçi, ümumilikdə 270 nəfər çalışır.*

*Burada yaradılan şəraitdən də görünür ki, Azərbaycan dövləti öz vətəndaşlarının qayğısına qalmaq üçün ölkədə səhiyyə sisteminin təkmilləşdirilməsini, fəaliyyətdə olan tibb müəssisələrinin müasir avadanlıqla təmin olunmasını diqqətdə saxlayır. Təbii ki, ölkəmizin gələcəyi olan uşaqların sağlam böyüməsi bu sahədə təməl prinsiplərdən biridir. Bu tibb mərkəzinin istifadəyə verilməsi «Uşaq ili» çərçivəsində Azərbaycan analarına və uşaqlarına ən gözəl töhfədir.*

*Prezident İlham Əliyev Mərkəzlə tanışlıqdan sonra tibb ocağının kollektivi ilə görüşdü.*

*Baş həkim vəzifəsini icra edən Hafizə Mirzəyeva dövlətimizin başçısının Azərbaycan xalqının firavanlığı naminə göstərdiyi əvəzsiz xidmətlərinin Naxçıvan əhalisində də böyük qürur hissi doğurduğunu bildirərək dedi:*

– Hörmətli Prezident!

Naxçıvan bu torpağın adını yüksəldən, şöhrətləndirən, onu dünyaya tanıtdıran, dahilik, ucalıq rəmzi olan bir insanın vətənidir. Ulu öndər Heydər Əliyevin vətəninə, ata yurdunuza, doğma Naxçıvanımıza xoş gəlmisiniz! Sizinlə hər bir görüş bizdə gələcəyə inam hissi yaradır, qurub-yaratmaq əzmimizi yüksəldir. Bu gün açılışını etdiyiniz bu möhtəşəm Doğum Mərkəzi tibbin ən son nailiyyətlərini özündə əks etdirir, müasir avadanlıqla zəngindir. Bu bütün Naxçıvan əhalisinə əvəzsiz bir töhfədir. Naxçıvan Doğum Mərkəzinin kollektivi adından əmin edirəm ki, bizə etimadınızı layiqincə doğruldacaq, gələcəyimiz olan körpələrin dünyaya sağlam, gümrah göz açmaları üçün əlimizdən gələni edəcəyik.

*Dövlət başçısı tibb ocağının kollektivini Mərkəzin istifadəyə verilməsi münasibətilə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bu gözəl doğum evinin açılışı münasibətilə sizi təbrik edirəm. Çox qısa müddətdə, yəni bir il ərzində belə gözəl bina, Naxçıvan üçün çox dəyərli bir tibb ocağı tikilibdir. Hər bir insanın həyatı doğum evindən başlayır və biz də istəyirik ki, burada ən yüksək standartlar tətbiq edilsin. Körpələrin sağlam doğulması və gənc nəslin sağlam böyüməsi üçün çox böyük əhəmiyyəti olan bu doğum evi yüksək keyfiyyətlə tikilibdir, ən gözəl avadanlıqlar quraşdırılıbdır.

Bilirsiniz ki, Azərbaycanda son illər uşaq ölümünün səviyyəsi nəzərəçarpacaq dərəcədə aşağı düşmüşdür. Bütün dövrlərə xas olan bu mənfi statistika görülən tədbirlər, yeni səhiyyə ocaqlarının yaradılması nəticəsində yaxşılığa doğru dəyişmişdir. Bu Mərkəzin imkanları o qədər genişdir ki,

Naxçıvanda hər bir körpə dünyaya gözünü bu doğum evində açą bilər.

Doğum Mərkəzinin tikilməsi, bir də demək istəyirəm ki, Azərbaycanın bugünkü imkanlarını göstərir. Əgər bizim iqtisadi imkanlarımız, maliyyə resurslarımız olmasaydı, bəlkə də bunu etmək mümkün olmazdı. Güclü iqtisadiyyat güclü sosial siyasət deməkdir və biz bu siyasətə sadiqik. Bu, Heydər Əliyev siyasətidir, onun bizə qoyduğu siyasi mirasdır. Bu gün Azərbaycanın inkişafı elədir ki, biz istənilən vəzifəni həll edə bilərik.

Naxçıvan da gündən-günə gözəlləşir, abadlaşır. Mən hər il Naxçıvanda oluram. Keçən ilin iyun ayında bu Doğum Mərkəzinin təməl daşını bərabər qoyduq. Keçən bir il ərzində Naxçıvanda çox böyük, gözəl, müsbətə doğru dəyişikliklər baş vermişdir. Həm yeni müəssisələr yaradılır, tibb məntəqələri açılır, həm də şəhər gözəlləşir, abadlaşır. Naxçıvanda yaşayan insanlar əminəm ki, bu gözəl dəyişikliklərdən böyük qürur hissi duyurlar.

Mən gələcək fəaliyyətinizdə sizə uğurlar arzulayıram. Sizin simanızda Azərbaycanın bütün tibb ictimaiyyətini bu gözəl Doğum Mərkəzinin istifadəyə verilməsi münasibətilə təbrik edirəm və sizə cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Sonra prezident İlham Əliyev yeni alınmış təcili tibbi yardım avtomobillərinə baxdı.*

*Məlumat verildi ki, bu texnika əhaliyə səyyar tibbi xidmətin göstərilməsində etibarlı vasitədir. Ən müasir avadanlıqla təchiz olunmuş bu avtomobillər çağırışlara vaxtında çatmağa və mükəmməl ilkin tibbi yardım göstərməyə imkan verir. Səyyar tibbi xidməti təcrübəli heyətlər yerinə yetirəcəkdir.*

## Şahmat Mərkəzinin açılışı mərasimi

*Avqustun 3-də prezident İlham Əliyev Naxçıvan şəhərində yeni inşa olunmuş Şahmat Mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, bina ilə tanış oldu.*

*Dövlətimizin başçısına məlumat verildi ki, inşasına 2007-ci ilin sentyabrında başlanılan bina üçmərtəbəlidir. Tikintinin ümumi ərazisi 1,2 hektar, binanın sahəsi isə 4254 kvadratmetrə bərabərdir. Ən müasir avadanlıqlarla təchiz edilmiş Mərkəzdə 192 və 54 tamaşaçı yeri olan iki beynəlxalq yarış salonu, 6 sinif otağı və kompyuter otağı vardır.*

*Böyük yarış salonundakı 65 şahmat masasından 12-si internetə qoşulmuşdur. Bundan əlavə, salonda quraşdırılan monitorlar vasitəsilə beynəlxalq yarışların videoyazısını izləmək olar. Kiçik yarış salonunda isə 25 masa vardır.*

*Hazırda Mərkəzdə 600 şagird şahmatın sirlərinə yiyələnir. Onların təlimi ilə 15 müəllim məşğul olur. Naxçıvanda şahmat məktəbi 1982-ci ildə yaradılmışdır. Uzun illər köhnə binada fəaliyyət göstərmiş Naxçıvan şahmat məktəbinin yeni bina ilə təmin olunması burada dərslərin daha mükəmməl formada təşkilinə imkan yaradacaqdır. Mərkəzin şagirdləri müxtəlif vaxtlarda beynəlxalq və yerli yarışlarda uğurlu nəticələr qazanmışlar. 2003-cü ildə 20 yaşlı şahmatçılar arasında dünya çempionatında Mərkəzin iki yetirməsi iştirak etmişdir. Avropa məktəblilərinin Kiprdə keçirilən şahmat festivalında Mərkəzin nümayəndəsi birinci mükafata layiq görülmüşdür.*

*Binanın zirzəmisində kompyuter təlim-tədris və internet mərkəzi də fəaliyyət göstərir. Mərkəzin Culfa və Şərur rayonlarında filialları yaradılmışdır. Burada kompyuterlərə texniki servis xidmətləri də göstərilir.*

## «Badamlı» mineral sular zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 3-də Naxçıvan şəhərində «Badamlı» mineral sular zavodunun açılışında iştirak etmişdir.*

*Mərasimə toplaşanlar dövlətimizin başçısı İlham Əliyevi və xanımını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev zavodun işə düşməsini bildirən düyməni basdı.*

*Müəssisə ilə tanışlıq zamanı prezidentə məlumat verildi ki, Badamlı təbii mineral suyunun mənbəyi Şahbuz rayonunun Badamlı kəndində, dəniz səviyyəsindən 1274 metr yüksəklikdə yerləşir. Qida üçün yararlı polietilen borularla zavoda gətirilən su burada süzgəcdən keçirilərək ionlaşdırıldıqdan sonra avtomatik üsulla butulkalara doldurulur.*

*Zəngin tarixə malik «Badamlı» zavodu 1947-ci ildən Şahbuz rayonunda fəaliyyət göstərmişdir. Hələ sovet dövründə bu müəssisənin şöhrəti İttifaq miqyasında dolaşırdı. 1970–80-ci illərdə həmin müəssisə yenidən qurulduqdan sonra məhsulun 90 faizi respublikamızdan kənara göndərilirdi. 1990-cı ildə «Badamlı» zavodu fəaliyyətini yenidən bərpa etmişdir. 2004-cü ildə özəlləşdirilən müəssisə tədricən əvvəlki şöhrətini özünə qaytarmışdır. Naxçıvan şəhərində tikintisinə 2008-ci ilin avqustunda başlanılmış zavod 2,1 hektar ərazidə yerləşir. Binanın ümumi sahəsi 9 min 590, istehsal sahəsi isə 3 min 600 kvadratmetrdir.*

*Müəssisəyə iki boru xətti çəkilmişdir. Qazlı mineral süfrə suyunu Badamlı yatağından nəql edən xəttin uzunluğu 25 kilometr, bu cür qazsız süfrə suyu istehsalı üçün Batabat–Salvartı yaylağından çəkilən boru xəttinin uzunluğu isə 35 kilometrdir.*

*Zavodda Fransanın məşhur «SİDEL» şirkətinin avadanlığı quraşdırılmışdır. «SİDEL» mineral suların qablaşdırılması xətlərinin dünyada bir nömrəli istehsalçısıdır. İlkin mərhələdə*

*aparılan marketinq və menecment axtarışları nəticəsində Badamlı suyu Rusiya və bir sıra ərəb ölkələrinə ixrac oluna bilər. Bu barədə ilkin danışıqlar aparılmışdır. Məhsullar alıcılara şüşə və polietilen butulkalarda çatdırılır. Polietilen və şüşə xətlərinin hər birinin istehsal gücü saatda 15 min butulkadır. Hazırda müəssisədə bir növbədə 62 nəfər çalışır. Tələbat artdıqca iş üç növbədə aparılacaq, işçilərin sayı 200-ə çatacaqdır.*

*Zavodun Almaniya avadanlığı ilə təchiz edilmiş laboratoriyaları məhsulun keyfiyyətinə tam zəmanət verir.*

*Müəssisə ilə tanışlıqdan sonra dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.*

## Naxçıvan–Sədərək avtomobil yolunun açılışı mərasimi

*Avqustun 3-də Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan–Sədərək avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Yolun Duzdağ qovşağında inşaatçılar dövlətimizin başçısını və xanımını mehribanlıqla qarşıladılar.*

*Prezident İlham Əliyev yolun sxeminə baxdı. Məlumat verildi ki, muxtar respublikanın əsas strateji magistrallarından olan Naxçıvan–Sədərək yolunun yenidən qurulması, burada əsaslı tikinti işlərinin aparılması xüsusi əhəmiyyət kəsb edir. Çünki bu yol Azərbaycanı qardaş Türkiyə ilə birləşdirən yeganə quru yoludur.*

*Burada tikinti işlərinə 2008-ci ilin martında başlanılmışdır. Yolun ümumi uzunluğu 78,5 kilometr, eni 23 metr, asfalt hissəsinin eni 17,2 metrdir. Yolun 55,5 kilometri artıq hazırdır, qalan hissədə tikinti işləri davam etdirilir. Magistral yolun kənarlarında xüsusi suötürücüləri və arxlar çəkilmişdir. Dördzolaqlı yolun üzərində inşa olunan altı körpüdən dördü artıq hazırdır.*

*İnşaat işlərini Naxçıvan MR Tikinti və Arxitektura Komitəsinin sifarişi ilə «Gəmiqaya» şirkəti həyata keçirir. Magistral yol muxtar respublikanın Kəngərli, Şərur və Sədərək rayonlarını birləşdirməklə yanaşı, Böyük İpək yolunun bir hissəsi sayılır.*

*Prezident İlham Əliyevə ətrafda aparılan abadlıq işləri barədə də məlumat verildi.*

*Dövlətimizin başçısı yolun açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyev yolun yenidən qurulmasında iştirak edən inşaatçılarla görüşdü, magistralın qalan hissəsinin də yenidən qurulmasının vaxtında və keyfiyyətlə yerinə yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## «N» hərbi hissəsi ilə tanışlıq

*Avqustun 3-də Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində «N» saylı hərbi hissəsində olmuşdur.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı hərbi hissənin yataqxanası ilə tanış oldu. Yataqxanada hərbçilərin hərtərəfli istirahəti üçün hər cür şərait yaradılmışdır. Burada səliqə-sahman göz oxşayır.*

*Hərbi hissənin yeməkxanası da müasirliyi ilə seçilir. Yeməkxanada hərbçilərin dolğun qidalanması üçün hərtərəfli imkan vardır.*

*Sonra Ali Baş Komandan İlham Əliyevə bu hərbi hissəyə gətirilən yeni müasir silahlar təqdim olundu.*

*Müdafiə naziri Səfər Əbiyev həmin silahlar barədə dövlət başçısına ətraflı məlumat verdi.*

*Son illərdə ölkəmizdə ordu quruculuğuna xüsusi əhəmiyyət verilir. Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinə qayğısını əsirgəmir, ordunun müdafiə potensialının durmadan gücləndirilməsinə xüsusi diqqət yetirir. Ordumuzun qüdrətlənməsi, Vətənin müdafiə qabiliyyətinin möh-*

*kəmləndirilməsi üçün kompleks tədbirlər həyata keçirilir. Azərbaycan Ordusunun peşəkarlıqla yanaşı, maddi-texniki bazası da möhkəmlənir. Ölkəmizdə hərbi potensialın gücləndirilməsi, müasir ordunun yaranması üçün çox böyük işlər görülmüşdür. Azərbaycan Silahlı Qüvvələri bu gün müasir texnika ilə təchiz edilmiş, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik bir quruma çevrilmişdir. Respublikanın bütün hərbi hissələrində şəxsi heyətin üzərinə düşən müqəddəs vəzifəni hərtərəfli yerinə yetirməsi və mənalı istirahəti üçün ən yüksək səviyyədə şərait yaradılır.*

## ŞƏRURDA OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*3 avqust 2009-cu il*

*Avqustun 3-də prezident İlham Əliyev Şərur rayonunda Olimpiya İdman Kompleksinin açılışında iştirak etmişdir.*

*Şərur ictimaiyyətinin və Naxçıvan MR idman ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar. Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Son illər muxtar respublikada inşa olunan nəhəng infrastruktur obyektləri sırasında Şərur Olimpiya İdman Kompleksi də vardır. Azərbaycanda idman hərəkatının geniş vüsət aldığı bir vaxtda bölgələrdə olimpiya idman komplekslərinin inşası xüsusi əhəmiyyət daşıyır. Dövlətimizin başçısının tapşırığına əsasən təkcə 2008-ci ildə ölkədə 8 Olimpiya İdman Kompleksinin açılışı olmuşdur. Hazırda 20-dən çox kompleks inşa olunur. Prezident İlham Əliyevin regionlara səfərləri çərçivəsində yeni olimpiya idman komplekslərinin açılışında, bəzilərinin isə təməlqoyma mərasimində iştirak etməsi bu sahəyə qayğının daha da artdığını göstərir. Yeni idman obyektləri dünya standartlarına cavab verməklə yanaşı, həm də ölkəmizdə yaradılan idman infrastrukturunun güclü əsaslara söykəndiyini təsdiqləyir. Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyevanın idmançılara diqqət və qayğısı da idmanın inkişafına mühüm töhfələr verir. Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi, Mehriban xanım Əliyevanın uğurlu fəaliyyəti bu sahədə ölkəmizin ciddi nailiyyətlər əldə etməsi ilə müşayiət olunur.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi, Olimpiya İdman Kompleksi ilə tanış oldu.*

*Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin idmana diqqət və qayğısını, habelə Şərur idmançılarının uğurlarını əks etdirən guşə də yaradılmışdır.*

*Olimpiya İdman Kompleksi Şərur rayonunda idmanın müxtəlif sahələrinin müasir tələblər səviyyəsində inkişaf etdirilməsi üçün lazımi avadanlıqla təchiz olunmuşdur.*

*Prezident İlham Əliyev mehmanxanada, idman kompleksində, qapalı meydançada, stadionda şəraitlə tanış oldu.*

*Sonra dövlətimizin başçısı 2400 tamaşaçı yeri olan süni örtüklü stadiona gəldi, burada idmançılarla görüşdü, onlara hədiyyələr verdi.*

*İdmançıları təbrik edən prezident İlham Əliyev dedi:*

– Bu gün gözəl olimpiya kompleksinin açılışı münasibətilə idmançıları təbrik edirəm. Bütün idmançılara idmanda yüksək nailiyyətlər qazanmaq arzulayıram.

## RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 avqust 2009-cu il*

*Avqustun 3-də prezident İlham Əliyev Olimpiya İdman Kompleksinin açılışından sonra Şərur rayon ictimaiyyətinin nümayəndələri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı şərurluları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Əziz şərurlular, sizi təbrik edirəm! Gözəl olimpiya mərkəzi tikilib. Mən çox şadam ki, Şərurda belə gözəl, müasir Olimpiya-İdman Kompleksi yaradılıb və ən yüksək standartlar tətbiq olunub. Azərbaycanın indi bütün bölgələrində belə gözəl komplekslər tikilir. Birincilərdən biri də Naxçıvanda tikilmiş, 2002-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən açılmışdır. Bu gün Şərurda belə gözəl idman qurğusu açılıb. Həm idmançılar üçün, həm rayon sakinləri üçün burada bütün şərait yaradılıb. İdman mərkəzi, istirahət zonası, üzgüçülük hovuzu, gözəl mehmanxanası, açıq meydançaları, yəni hər cür şəraiti vardır. Bu kompleks həm rayonun hərtərəfli inkişafı, həm də Naxçıvan Muxtar Respublikası üçün böyük bir töhfədir.

Azərbaycanda idman ən yüksək səviyyədədir. Biz haqlı olaraq dünyada idman dövləti kimi tanınırıq. Azərbaycanın idman uğurları dünya tərəfindən yüksək qiymətləndirilir. Naxçıvanda idmanın inkişafına böyük dəstək verilir. Burada vaxtilə beynəlxalq yarışlar keçirilibdir, yəqin ki, yenə də keçiriləcək.

Bütövlükdə, Naxçıvan Muxtar Respublikasında gedən quruculuq-abadlıq işləri məni çox sevindirir. Mən hər il Naxçıvanda oluram və özüm bu gözəl hadisələrin şahidiyəm. Quruculuq-abadlıq işləri aparılır, yeni müəssisələr, zavodlar,

səhiyyə ocaqları istifadəyə verilir. Bu gün Doğum Mərkəzinin açılışını qeyd etdik. Bu Mərkəz dünya standartları səviyyəsindədir.

Sənaye müəssisələri muxtar respublikanın iqtisadi inkişafına töhfə verir. Yəni, hərtərəfli inkişaf bundan ibarətdir – Naxçıvanda sənaye potensialı artır, iqtisadiyyat artır və sosial obyektlər – məktəblər, xəstəxanalar, idman qurğuları, yollar tikilir. Görün nə gözəl yol çəkilir. Ən yüksək dünya standartlarına cavab verir. Mən özüm Naxçıvandan avtomobili sürə-sürə gəlmişəm. Doğrudan da bu, bir keyfiyyət nümunəsidir. Hər bir inkişaf etmiş ölkə belə gözəl yollarla fəxr edə bilər. Bu yolun tikintisi hələ davam edir – Sədərəyə qədər, Türkiyə sərhədinə qədər. Ondan sonrakı mərhələdə, yəqin ki, gələn ildən başlayaraq Naxçıvan şəhərindən digər istiqamətlərə aparan yollar da yenidən qurulacaqdır. Bu, bölgəyə həm gözəllik verir, həm insanlara rahatlıq gətirir.

Mən arzu edirəm ki, bundan sonrakı illərdə də Naxçıvan Muxtar Respublikasının bütün rayonlarında belə gözəl quruculuq-abadlıq işləri aparılsın. Bir daha sizi bu gözəl idman kompleksinin açılışı münasibətilə təbrik edirəm, bütün şərurlulara, bütün naxçıvanlılara xoşbəxtlik və cansağlığı arzu edirəm. Sağ olun.

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*4 avqust 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev avqustun 4-də Naxçıvan Muxtar Respublikasının 85 illiyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir.*

*Naxçıvan şəhərindəki Heydər Əliyev sarayının salonuna toplaşanlar – Azərbaycanın, o cümlədən muxtar respublikanın tanınmış hökumət nümayəndələri, elm, mədəniyyət və incəsənət xadimləri, müxtəlif dövlətlərdən gəlmiş çoxsaylı qonaqlar, ölkəmizdəki diplomatik korpusun, Naxçıvan ictimaiyyətinin nümayəndələri prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz naxçıvanlılar, əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram və sizi Naxçıvan Muxtar Respublikasının 85-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

Naxçıvan qədim Azərbaycan torpağıdır. Bu gözəl torpaqda əsrlər boyu xalqımız yaşayıb yaratmışdır. Naxçıvanda yerləşən tarixi və memarlıq abidələri Azərbaycan xalqının nə qədər böyük istedada malik olduğunu əyani şəkildə göstərir. Naxçıvan Azərbaycana böyük şəxsiyyətlər bəxş et-

mişdir. Naxçıvan Azərbaycana ulu öndər Heydər Əliyevi bəxş etmişdir.

1924-cü ildə Naxçıvan Muxtar Respublikası yarandı. Respublika yarananda biz tamamilə başqa ictimai-siyasi quruluşda yaşayırdıq və o vaxt sovet rəhbərliyi tərəfindən Azərbaycanın qədim torpağı olan Zəngəzur mahalı Ermənistana verilmişdir. Nəticədə Naxçıvan ilə Azərbaycanın əsas hissəsi arasında coğrafi əlaqə pozuldu. Sovet İttifaqı dağılandan sonra və hətta ondan bir qədər əvvəl Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində Naxçıvan blokadaya düşdü. Ermənistan Azərbaycanı müxtəlif beynəlxalq təşkilatlarda həmişə ittiham etməyə çalışır ki, Azərbaycan Ermənistana blokada tətbiq edir. Əslində isə uzun illərdir Naxçıvan blokada şəraitində yaşayır və blokada bu gün də davam edir. Buna baxmayaraq Naxçıvan yaşayır, inkişaf edir, Naxçıvanda böyük quruculuq işləri aparılır.

Sovet İttifaqının dağıldığı ərəfədə və ondan sonra Naxçıvan çox ağır günlər yaşayıb. O illərdə yalnız ulu öndər Heydər Əliyevin əzmkarlığı, qətiyyəti və siyasi bacarığı Naxçıvanı böyük bəlalardan qorudu. Azərbaycana edilmiş hərbi təcavüzdən – 1990-cı ilin 20 Yanvar faciəsindən sonra Heydər Əliyev sovet rəhbərliyini kəskin şəkildə ittiham etdi və Sovet İttifaqı Kommunist Partiyasından çıxdı. Bundan sonra ona qarşı böyük təzyiqlər başlandı. O, məcbur olub Moskvadan Bakıya döndü. Ancaq Bakıda o vaxtkı rəhbərlik təzyiqləri davam etdirirdi və Heydər Əliyev öz vətəninə, doğulduğu yerə – Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı böyük bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu.

Demək olar ki, ölkəmizin müstəqilliyinin bünövrəsi məhz o illərdə qoyulmuşdur. 1990-cı ildə Heydər Əliyevin rəhbərliyi altında Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarlar Azərbaycanın dövlət müstəqilliyini şərtləndirdi. Məhz o

sessiyada – hələ Sovet İttifaqının dağılmasına təxminən 2 il vaxt qalmışdı – Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, «Sovet Sosialist» sözləri çıxarıldı və Naxçıvan Muxtar Respublikası elan edildi. Məhz o sessiyada Azərbaycanın üçrəngli bayrağı Dövlət bayrağı kimi qəbul edildi. O vaxt Azərbaycanda hələ Sovet Azərbaycanının bayrağı dalğalanırdı və Sovet İttifaqının dağılması haqqında heç kim düşünmürdü. O ağır, o çətin anlarda bu qətiyyətli qərarlar həm Naxçıvanı qorudu, həm də Azərbaycanın gələcək müstəqilliyini şərtləndirdi.

O da həqiqətdir ki, Sovet İttifaqında, o cümlədən Azərbaycanda 1991-ci ilin mart ayında Sovet İttifaqının saxlanmasına dair keçirilmiş referendum Naxçıvanda keçirilmədi. Naxçıvan o vaxt da öz qətiyyətini göstərdi və Heydər Əliyevin rəhbərliyi altında naxçıvanlılar öz milli xüsusiyyətlərini ortaya qoydular.

Naxçıvan üçün o illər çox ağır, çətin keçirdi. Siz, naxçıvanlılar bunu yaxşı xatırlayırsınız. İqtisadi vəziyyət çox ağır idi. Ermənistanın Azərbaycana qarşı apardığı təcavüz və işğalçılıq siyasəti nəticəsində Naxçıvan da çox ağır vəziyyətə düşmüşdü. Sənaye müəssisələri dayanmışdı. Ancaq Heydər Əliyevin rəhbərliyi, onun qətiyyəti, naxçıvanlıların səfərbərliyi o çətin anlardan çıxmağa imkan verdi.

Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçiləndən bir neçə gün sonra Naxçıvanda Dövlət Müdafiə Komitəsi yarandı və məhz o tədbirlər nəticəsində Naxçıvan özünü qoruya bilmişdir. Azərbaycanın o vaxtkı rəhbərliyi Naxçıvana qarşı çox ədalətsiz siyasət aparırdı.

Ancaq Heydər Əliyevin amalı tam başqa idi. Onun məqsədi naxçıvanlıları qorumaq, Naxçıvanı qorumaq, erməni hücumlarının qarşısını almaq və muxtar respublikanın uğurlu inkişafını təmin etmək idi. Naxçıvanlılar da Heydər Əliyevin rəhbərliyi altında böyük qəhrəmanlıq və şücaət göstərmişdilər. Ermənistan tərəfindən edilən bütün hücumlara çox layiqli cavablar verilmiş və düşmən yerinə oturdul-

muşdu. Tarixə nəzər salaraq görürük ki, əgər Heydər Əliyev o vaxt Naxçıvanda olmasaydı, yəqin ki, Naxçıvanın taleyi çox acınacaqlı ola bilərdi.

Naxçıvanın o ağır illərini yada salmaqla bir daha vurğulamaq istəyirəm ki, ulu öndər Heydər Əliyev bütün dövrlərdə, çalışdığı bütün vəzifələrdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, həmişə Azərbaycan xalqını müdafiə edirdi, doğma Azərbaycanın inkişafına səy göstərirdi. Bu inkişaf bütün sahələrdə – həm iqtisadi, həm sosial məsələlərin həllində, həm də müdafiə potensialının gücləndirilməsində, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsində özünü büruzə verir. Naxçıvanın bugünkü siması bunun əyani sübutudur.

Naxçıvanın hərbi potensialı çox yüksək səviyyədədir. Dünən hərbi hissədə olarkən mən bir daha gördüm ki, Naxçıvanın müdafiəsi üçün hər şey edilib və Naxçıvan özünü istənilən hücumlardan tam şəkildə müdafiə etməyə, istənilən hərbi vəzifəni icra etməyə qadirdir.

1993-cü ildə Azərbaycanda vətəndaş müharibəsi və erməni işğalı nəticəsində vəziyyət çox gərginləşmişdi. O vaxt xalqın tələbi ilə Heydər Əliyevin Bakıya qayıtması və Azərbaycana rəhbərlik etməsi nəticəsində ölkəmiz öz müstəqilliyini qoruya bilmişdir. Çünki müstəqilliyimiz əldən gedirdi. 1991-ci ildən başlayaraq 1993-cü ilin yay aylarına qədər Azərbaycanda baş vermiş qanlı və faciəli hadisələr müstəqilliyimizi sual altına qoymuşdu. Biz o acı tarixi yaşamışdıq. Eynilə 1918–1920-ci illərdəki kimi, cəmi iki illik müstəqillikdən sonra ölkəmizin müstəqilliyi əldən getdi. Əgər Heydər Əliyev Azərbaycana rəhbərliyə gəlməsəydi, keçən əsrin 90-cı illərində də bu, təkrar oluna bilərdi. Onun səyləri nəticəsində Azərbaycan o çətin, ağır vəziyyətdən çıxa bilmişdir və 1993–2003-cü illər Azərbaycanın dirçəliş və inkişaf illəri olmuşdur. Azərbaycanın qarşısında duran əsas vəzifələr məhz o illər ərzində öz həllini tapdı. Siyasi, hərbi, iqtisadi böhran aradan qaldırıldı, Azərbaycanda sabitlik yarandı, inkişaf üçün çox

mühüm addımlar atıldı. Azərbaycan xarici investisiyaları böyük həcmdə cəlb edə bilmişdir ki, bu da Azərbaycanın indiki uğurlu inkişafının təmin olunması üçün mühüm rol oynayır.

Azərbaycanda Heydər Əliyev tərəfindən başlanmış və bu gün uğurla davam etdirilən neft strategiyası ölkəmizi çox böyük dərəcədə inkişaf etdirmişdir. Məhz 1993–2003-cü illər Azərbaycanın müstəqilliyi üçün həlledici illər olmuşdur. Məhz o illərdə bugünkü Azərbaycanın – güclü Azərbaycanın yaradılması mümkün olmuşdur.

O illərdə başlanmış və uğurla davam etdirilən siyasi və iqtisadi islahatlar, ölkəmizdə gedən demokratikləşmə prosesləri, hüquqi dövlətin qurulması, qanunun aliliyi bu gün Azərbaycanı dünya birliyinə uğurla inteqrasiya etmək üçün öz rolunu oynayır. Azərbaycanın çox güclü iqtisadi potensialı vardır. Bu iqtisadi potensial təkcə enerji amillərindən asılı deyildir. Bu il dünyada yaşanan iqtisadi və maliyyə böhranı bunu bir daha nümayiş etdirdi. Böhrana baxmayaraq Azərbaycan iqtisadiyyatı uğurla inkişaf edir. Bu il iqtisadi artım müşahidə olunur. Qeyri-neft sektorunda 4 faizdən çox artım olmuşdur. Ümumiyyətlə, Azərbaycanın ümumi daxili məhsulu (ÜDM) birinci altı ayda 3,6 faiz artmışdır. Bu gün Azərbaycan istənilən iqtisadi, siyasi və sosial məsələni həll edə bilər.

Ölkəmizin beynəlxalq mövqeləri möhkəmləndirilir. Azərbaycan dünya birliyində etibarlı tərəfdaş kimi tanınır və bizimlə dostluq münasibətlərində olan ölkələrin sayı artır. Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir. Biz bütün ölkələrlə öz münasibətlərimizi qarşılıqlı maraq, qarşılıqlı hörmət əsasında qururuq və bu, Azərbaycana böyük uğurlar gətirir. Azərbaycanın iqtisadiyyatı o qədər güclənibdir ki, biz özümüzü tam şəkildə təmin edirik. Biz heç kimdən asılı deyilik, heç bir maliyyə yardımına ehtiyacımız yoxdur və bu böhranlı aylar bir daha onu göstərdi ki, Azərbaycan öz hesabına yaşaya bilər və yaxşı yaşaya bilər.

Azərbaycanın bütün bölgələri bu gün inkişaf edir. Son illər ərzində qeyri-neft sektorunun inkişafı üçün böyük investisiyalar qoyulmuşdur. O investisiyaların böyük əksəriyyəti dövlət tərəfindən qoyulmuşdur. Həm sənaye potensialının inkişafı, həm yeni iş yerlərinin açılması, həm də idxalın azalması və yerli istehsalın artırılması üçün görülən əməli tədbirlər nəticəsində biz bu gün özümüzü, demək olar ki, bütün cəhətlərdən təmin edirik. Enerji təhlükəsizliyimiz, nəqliyyat təhlükəsizliyimiz, ərzaq təhlükəsizliyimiz təmin edilib. Bu üç amil hər bir ölkənin inkişafı üçün mühüm rol oynayır. Bu üç istiqamətdə Azərbaycan çox böyük uğurlarla fəxr edə bilər. Biz iqtisadi və siyasi islahatları bundan sonrakı illərdə davam etdirəcəyik.

Azərbaycanda sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Bu da ulu öndər Heydər Əliyevin siyasətidir: güclü iqtisadiyyat, güclü sosial siyasət və insanların rifah halının yaxşılaşdırılması üçün atılmış konkret addımlar. Bizim siyasət konkret işlər deməkdir. Bizim siyasət insanların gündəlik həyatında özünü göstərir. Bizim siyasət Azərbaycanın iqtisadi gücündə özünü göstərir. Bu siyasət müstəqil ölkəmizi çox böyük dərəcədə gücləndirir və bir daha demək istəyirəm ki, beynəlxalq mövqelərimizi təmin edir. Bölgədə Azərbaycanın iştirakı olmadan istər siyasi, istər iqtisadi, energetika və başqa sahələrdə heç bir layihə, heç bir təşəbbüs icra edilə bilməz. Azərbaycan enerji təhlükəsizliyi üçün çox önəmli ölkəyə çevrilibdir. Biz özümüzü tam şəkildə təmin edirik. Azərbaycanın enerji potensialı çox böyükdür və biz bu potensialdan çox səmərəli şəkildə istifadə edirik.

Mən dünən Naxçıvanda yeni tikilmiş, yaxud da ki, təmir edilmiş bir neçə obyektin, o cümlədən, Heydər Əliyev sarayının yenidən qurulmasından sonra açılışında iştirak etdim. Bu gün Heydər Əliyev sarayında əsaslı təmirdən sonra birinci tədbirdir. Əlbəttə ki, bu tədbir məhz Naxçıvan Muxtar Respublikası ilə bağlı olmalı idi. Mən çox şadam ki, Naxçıvan Muxtar Respublikasının 85-ci ildönümünü biz bu gözəl

sarayda – ulu öndər Heydər Əliyevin adını daşıyan sarayda qeyd edirik.

Dünən Naxçıvanda həm sənaye müəssisələrinin, həm də sosial obyektlərin açılışı olub. Çox gözəl Doğum Mərkəzinin açılışı olub. Şərurda yeni, müasir Olimpiya Kompleksinin açılışında iştirak etdim. Şahmat məktəbi, «Badamlı» zavodu, Heydər Əliyev sarayı – bir gündə bir neçə gözəl, müasir obyektin açılması bir daha onu göstərir ki, Naxçıvan çox uğurla, çox sürətlə inkişaf edir.

Bunu Naxçıvan sakinləri görürlər, bilirlər, Bakıdan gəlmiş qonaqlar bu gün bunu görə biləcəklər. Mən hər il Naxçıvanda oluram və hər dəfə Naxçıvanda gördüyüm dəyişikliklər məni ürəkdən sevindirir. Naxçıvan Muxtar Respublikasında ən müasir infrastruktur yaradılır, sosial obyektlərin tikintisi geniş vüsət alıbdır. Məktəblər, xəstəxanalar tikilir. Bu gün Şahbuz rayonunda mərkəzi xəstəxananın açılışında iştirak edəcəyik. Naxçıvanda sənaye obyektlərinin tikintisi uğurla gedir və artıq muxtar respublikanın çox önəmli ixrac potensialı yaradılır.

Kənd təsərrüfatının inkişafında böyük işlər görülübdür. Naxçıvan özünü taxılla təmin edir. Burada son illər ərzində istifadəyə verilən emal müəssisələri Naxçıvanın tələbatını ödəyir və eyni zamanda, böyük ixrac potensialını yaradır. Vayxır su elektrik stansiyasında istehsal olunan elektrik enerjisi Naxçıvanın enerji potensialını gücləndirir. Orada yaradılmış dəryaça Naxçıvanın suvarma problemlərini həll edir. Muxtar respublikada yaradılmış elektrik stansiyaları həm daxili tələbatı tam şəkildə ödəyir, eyni zamanda, Naxçıvan bu gün qonşu Türkiyəyə elektrik enerjisi ixrac edir. O Naxçıvan ki, əvvəllər qaranlıq, zülmət içində yaşayırdı. Bu gün Naxçıvan nurlu, işıqlı şəhərdir. Naxçıvanın ixrac potensialı gündən-günə artacaqdır.

Naxçıvanda qazlaşdırma prosesi tamamilə başa çatıb. 13 illik fasilədən sonra 2005-ci ilin sonunda Naxçıvana qazın verilməsi bərpa edildi. Biz dünən Naxçıvanın enerji təhlükə-

sizliyinin təmin edilməsi üçün əlavə tədbirlərin görülməsi haqqında konkret qərarlar qəbul etdik. Naxçıvanda tikiləcək böyük həcmli qaz anbarları qış aylarında muxtar respublikanı dayanıqlı qazla təmin etmək üçün imkan yaradacaqdır.

Bütün bunlar muxtar respublikanın iqtisadi və sənaye potensialını gücləndirir, Naxçıvanda çox geniş quruculuq, abadlıq işləri aparılır, şəhər gözəlləşir, yeni binalar tikilir, köhnə binalar təmir edilir. Bir sözlə, hər bir Naxçıvan sakini əldə edilmiş bu uğurlarla haqlı olaraq fəxr edə bilər. Mən bütün naxçıvanlıları bu böyük uğurlar münasibətilə təbrik etmək istəyirəm. Naxçıvan rəhbərliyinə və Naxçıvanın rəhbəri Vasif Talıbova öz minnətdarlığımı bildirmək istəyirəm.

Əziz dostlar, bu gün bayram günüdür. Biz bu bayramı birlikdə qeyd edirik. Gələcəkdə belə bayramlar çox olacaq – muxtar respublikanın yubileyləri, burada yaradılmış hər bir böyük müəssisə, səhiyyə, təhsil ocağı bizim üçün bayramdır. Naxçıvanın güclü olması Azərbaycanın güclü olması deməkdir. Naxçıvan strateji ərazidə yerləşir. Naxçıvanın çox böyük siyasi və strateji əhəmiyyəti vardır. Azərbaycanın müstəqilliyinin əldə edilməsində Naxçıvanın və naxçıvanlıların çox böyük əməyi olmuşdur. Mən əminəm ki, həmişə olduğu kimi, naxçıvanlılar bundan sonra da Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, müasir dövlət kimi inkişaf etməsinə öz dəyərli töhfələrini verəcəklər.

Əziz dostlar, mən bu gözəl yubiley münasibətilə sizi bir daha ürəkdən təbrik etmək istəyirəm, sizə cansağlığı, işlərinizdə yeni-yeni uğurlar arzulayıram.

Yaşasın Naxçıvan Muxtar Respublikası!

Eşq olsun Azərbaycan xalqına!

* * *

*Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov çıxış etdi.*

Möhtərəm Prezident!

Hörmətli iştirakçılar!

85 il bundan əvvəl – 1924-cü il fevral ayının 9-da Azərbaycanın dövlətçilik tarixində özünəməxsus mərhələ təşkil edən mühüm bir hadisə baş verdi: Naxçıvan Muxtar Respublikası təşkil olundu.

Naxçıvanın muxtariyyəti böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxmış, gərgin, ağır və şərəfli bir yol keçmişdir. Ötən 85 il ərzində çox hadisələr olmuşdur. Ümummilli lider Heydər Əliyevin aşağıdakı fikirləri bütün dövrlər üçün ciddi aktuallıq kəsb edir: «Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq».

Bu əlamətdar gündə Naxçıvanın və onun muxtariyyətinin böyük hamisi, müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini yad edir, ruhu şad olsun, deyirik.

Xalqımızın böyük oğlunun siyasi xəttinin davamçısı cənab İlham Əliyev Azərbaycanın, o cümlədən Naxçıvan Muxtar Respublikasının tarixinə və müasir inkişafı ilə bağlı məsələlərə böyük həssaslıq, əsl dövlətçilik münasibəti göstərir. Qədim və zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Azərbaycanın Naxçıvan diyarının muxtariyyət tarixinin diqqətlə öyrənilməsi və təbliğ olunması vacibliyini bir vəzifə kimi qarşıya qoyan dövlətimizin başçısı demişdir: «Ermənistanın apardığı təcavüzkarlıq siyasəti nəticəsində Azərbaycandan qismən təcrid olunmuş vəziyyətdə, blokada şəraitində yaşamaq məcburiyyətində qalan, tez-

tez bədnam qonşuların ərazi iddiaları obyektinə çevrilən Naxçıvanın tarixinin hələ də tədqiq edilməyə ehtiyacı olan səhifələri açılmalı, bu diyarın tam dolğun, obyektiv tarixi xalqımıza, habelə dünya ictimaiyyətinə olduğu kimi çatdırılmalı, erməni siyasətçilərinin tarixi saxtalaşdırmaq cəhdlərinə tutarlı cavab verilməlidir».

Naxçıvan ölkəmizin dövlətçilik tarixində də mühüm rol oynamışdır. Min illər boyunca Azərbaycanın ayrılmaz tərkib hissəsi olan bu torpaqda X əsrdə «Naxçıvan şahlığı» adlı xüsusi feodallıq yaranmış, Naxçıvan şəhəri XII əsrdə qüdrətli Atabəylər dövlətinin paytaxtı olmuşdur. 1747-ci ildə Azərbaycan ərazisində yaranmış 18 xanlıqdan biri olan Naxçıvan xanlığı bölgənin inkişafına, müdafiə qabiliyyətinin gücləndirilməsinə, inzibati idarəçiliyin formalaşmasına özünəməxsus töhfələr vermişdir. Bu dövrdə Naxçıvan xanlığının oynadığı rolu dövlətçilik tarixi baxımından müstəsna xidmət kimi dəyərləndirən ulu öndərimiz demişdir: «Azərbaycanın bir parçası olan Naxçıvanda dövlətçilik sonrakı dövrlərdə, orta əsrlərdə də olubdur. Azərbaycanın xanlıqlara bölünən dövründə də Naxçıvan xanlığı yaranıbdır. Naxçıvan xanlığı Atabəylər dövlətçiliyinin davamı kimi özünü göstəribdir. İrəvan xanlığı, Naxçıvan xanlığı, Azərbaycanın başqa bölgələrinin xanlıqları – bu xanlıqlar Azərbaycan dövlətçiliyini təmsil ediblər, Azərbaycanı qoruyub yaşadıblar. O dövrdə ayrı-ayrı ölkələr tərəfindən Azərbaycanı, o cümlədən Naxçıvanı ələ keçirmək cəhdləri olmuşdur. Azərbaycan xalqı bunlara sinə gərmiş, o cümlədən naxçıvanlılar Naxçıvanı qoruyub saxlamışlar».

Naxçıvanın xarici müdaxilələrdən qorunmasında Araz–Türk Respublikasının da mühüm xidmətləri olmuşdur. 1918-ci ildə Naxçıvan şəhəri bir milyondan çox əhaliyə malik olan Araz–Türk Respublikasının paytaxtı idi. Tarixi proseslərin sonrakı inkişafının nəticəsi olaraq Naxçıvan 1921-ci ilin martından Naxçıvan Sovet Sosialist Respublikası, 1923-cü il iyunun 16-dan Naxçıvan Diyarı, 1924-cü il fevralın 9-dan

Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı il noyabrın 17-dən isə Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

*«Naxçıvanın muxtariyyət qazanması Azərbaycan xalqının ən mühüm nailiyyətlərindən biridir» deyən Ali Məclisin sədri Vasif Talıbov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikasının taleyi 1921-ci ildə imzalanan 2 mühüm beynəlxalq sənədlə təyin edilmişdir. Bunlar Moskva və Qars müqavilələridir. Həmin sənədlərdəki müvafiq bəndlərdə Naxçıvana verilən muxtariyyətin əsasları göstərilmişdir. Həmin sənədlərdə Naxçıvan ərazisinin beynəlxalq müqavilələrlə qorunan toxunulmazlıq hüququ da təsbit edilmişdir. 1924-cü il fevralın 9-da isə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılmışdır. Ali Məclisin sədri demişdir:*

– Ümummilli liderimizin dediyi kimi, «Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi ən böyük tarixi nailiyyət idi». Qeyd olunanlar onu göstərir ki, ötən dövr ərzində ölkəmizdə muxtariyyətin möhkəm siyasi və hüquqi bazası formalaşmış, böyük bir inkişaf yolu keçmişdir. Naxçıvanın muxtar respublika statusu bu bölgənin 85 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malikdir.

Ötən əsrin 90-cı illərində – bölgəyə erməni hücumlarının aramsız xarakter aldığı bir dövrdə, Azərbaycanın əsas ərazisi ilə əlaqələrin kəsildiyi şəraitdə Naxçıvanın muxtariyyət statusu çevik siyasi, iqtisadi və humanitar xarakterli addımların atılmasına, muxtariyyətin ərazisinə edilən qəsdlər barədə beynəlxalq ictimaiyyətin məlumatlandırılmasına, beləliklə də, Azərbaycanın tarixi ərazisinin qorunub saxlanmasına imkan yaratmışdır.

Bu dövrdə ölkəmizin müstəqilliyi ilə bağlı qanunvericilik təşəbbüsü hüququ istisnasız olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məxsus olmuşdur. Belə ki,

1990-cı il noyabrın 17-də ümummilli liderimizin rəhbərliyi ilə keçən Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Ali Sovetinin birinci sessiyasında «Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adının dəyişdirilməsi haqqında», «Naxçıvan Muxtar Respublikasının ali dövlət hakimiyyət orqanları haqqında», «Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında» tarixi qərarlar qəbul olunmuşdur. O zamankı Azərbaycan rəhbərliyinin Sovet Sosialist Respublikaları İttifaqının qorunub saxlanmasına dair göstərdiyi təşəbbüslərin əksinə olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 1991-ci il 14 mart tarixli qərarı ilə SSRİ-nin saxlanmasına dair ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikasının iştirakının yolverilməz olduğunu bəyan etmişdir. 1991-ci ilin oktyabrında «Keçid dövründə SSR İttifaqının dövlət hakimiyyət və idarəetmə orqanları haqqında» SSRİ qanununun müzakirəsi zamanı da Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan dövlət hakimiyyət orqanlarından fərqli mövqe tutaraq SSRİ-nin yenidən bərpasına və unitar ittifaq dövlətinin möhkəmləndirilməsinə yönəldilən cəhdləri rədd etmiş, Azərbaycan Ali Sovetindən də müvafiq qərarların qəbul olunmasını xahiş etmişdir.

Naxçıvanın muxtariyyət statusu bu dövrdə erməni işğalı təhlükəsinin aradan qaldırılması, ağır blokada şəraitində adamların yaşayışının təmin olunması sahəsində də taleyüklü qərarların qəbul edilməsinə şərait yaratmış, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi, ümummilli lider Heydər Əliyev qonşu İran və Türkiyə respublikaları ilə əlaqələr quraraq bu ölkələrdə səfərlərdə olmuş, müxtəlif sahələrdə əməkdaşlığa dair protokollar imzalamışdır.

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 6 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin ölkəmizdə geniş şəkildə və yüksək səviyyədə qeyd olunması muxtar respublikaya göstərilən dövlət qayğısının daha bir parlaq ifadəsidir.

Möhtərəm Prezident, Naxçıvan Muxtar Respublikasının 85 illik yubileyinin keçirilməsi haqqında sərəncamınıza, qayğınıza və bu əlamətdar bayramı naxçıvanlılarla bir yerdə qeyd etdiyinizə görə Sizə muxtar respublikanın bütün əhalisi adından və öz adımdan dərin minnətdarlığımı bildirirəm.

Ümummilli lider Heydər Əliyevin şah əsəri bu gün dünya birliyində öz layiqli yerini tutan müasir, müstəqil Azərbaycan Respublikasıdır. Həyatının mənası hesab etdiyi Azərbaycanı dirçəltmək, tərəqqiyə qovuşdurmaq böyük öndərimizin müqəddəs amalı idi. O, bu yolda bütün enerjisini sərf edir və deyirdi: «Mən istəyirəm ki, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin». Ulu öndərimiz arzularının həqiqətə çevriləcəyi günün çox da uzaqda olmadığını qəti əminliklə bəyan edir və bildirirdi.

Əgər ümummilli liderimiz ötən əsrin 70-ci illərində geridə qalmış aqrar Azərbaycan Respublikasını müttəfiq respublikalar içərisində lider respublikaya çevirdisə, bu gün bu siyasi kursun davamçısı hörmətli İlham Əliyev müstəqil Azərbaycanı lider dövlətə çevirdi. Ölkə prezidentinin Naxçıvan Muxtar Respublikasına etdiyi səfərlər zamanı 40-dan çox mühüm əhəmiyyətli obyektin istifadəyə verilməsi, uzun fasilədən sonra muxtar respublikaya təbii qazın nəqlinin bərpa olunması muxtar respublikanın inkişafına göstərilən dövlət qayğısının ifadəsidir.

İqtisadiyyatın inkişafı muxtar respublikanın xarici iqtisadi əlaqələrinin də artmasına səbəb olmuşdur. 5 il ərzində xarici ticarət dövriyyəsinin həcmi 3 dəfə artaraq 39 milyon ABŞ dollarından 104 milyon ABŞ dollarına çatmışdır. 5 il ərzində yeni emal və istehsal müəssisələrinin yaradılması sənayenin inkişafına öz təsirini göstərmiş, 2004-cü illə müqayisədə 2008-ci ildə sənaye məhsulunun həcmi 26 milyon manatdan 164 milyon manata çataraq 6 dəfə artmışdır.

Məhsul istehsalının artımına birbaşa təsir göstərən amillərdən biri də özəl bölmənin inkişaf etdirilməsidir. Əgər 2004-cü ildə muxtar respublika sahibkarlarına 3 milyon manata yaxın kredit verilmişdisə, cari ildə maliyyə dəstəyinin həcmi 6 dəfə artırılaraq 19 milyon manata yaxın olmuşdur. Bunun nəticəsidir ki, 2004–2009-cu illər ərzində muxtar respublikada 184 yeni istehsal və xidmət sahəsi yaradılmışdır. İndi Naxçıvan Muxtar Respublikasında 87 növdə ərzaq, 148 növdə qeyri-ərzaq olmaqla, ümumilikdə, 235 növdə məhsula olan tələbat daxili imkanlar hesabına ödənilir.

Yeni istehsal sahələrinin istifadəyə verilməsi nəticəsində əhalinin məşğulluq səviyyəsi artmışdır. 2003-cü il oktyabrın 1-dən 2009-cu il avqust ayının 1-dək muxtar respublikada 40 028 yeni iş yeri açılmışdır ki, onun da 25 942-si, yaxud 65 faizi daimi iş yerləri olmuşdur.

Əhali gəlirlərinin həcmi 2004-cü illə müqayisədə 2008-ci ildə 3 dəfə artaraq 216 milyon manatdan 684 milyon manata çatmışdır. Adambaşına gəlirlərin həcmi 2004-cü ildəki 582 manata nisbətən 3 dəfə artaraq 1768 manata, orta aylıq əməkhaqqının məbləği isə 3,5 dəfə artaraq 68 manatdan 235 manata qalxmışdır. Cari ilin 6 ayında isə orta aylıq əməkhaqqının məbləği 260 manat təşkil etmişdir.

Əhalinin sosial rifahının yaxşılaşması şəxsi vəsait hesabına tikilən fərdi yaşayış sahələrinin də artmasına səbəb olmuşdur. Əgər 2004-cü ildə əhalinin şəxsi vəsaiti hesabına 28 min kvadratmetr yaşayış sahəsi tikilmişdirsə, 2008-ci ildə və cari ilin 6 ayında bu göstərici 6 dəfə artaraq 184 min kvadratmetr olmuşdur. Əldə olunan inkişaf öz növbəsində bir vaxtlar müxtəlif səbəblərdən muxtar respublikanı tərk etmiş vətəndaşların geri qayıtmasına, əhali artımına və məskunlaşmaya da öz təsirini göstərmişdir. Son 5 il yarım ərzində Naxçıvan Muxtar Respublikasının əhalisi 20 min nəfər artmış, əhalinin ümumi sayı isə 400 minə çatmışdır.

Göründüyü kimi, Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası uğurlu inkişaf yolu keçmişdir. Bu inkişafa öz

töhfəsini verənlərin əməyi yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 14 nəfər orden, 204 nəfər medallarla təltif edilmiş, 100 nəfər müxtəlif fəxri adlara layiq görülmüşdür. Həmçinin dövlətimizin başçısı tərəfindən 12 nəfər Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə, 33 nəfər isə Prezident mükafatına layiq görülmüşdür. Bundan başqa 160 nəfər Naxçıvan Muxtar Respublikasının fəxri adları ilə təltif edilmişlər.

Yubiley tədbirinin hörmətli iştirakçıları!

Naxçıvan Muxtar Respublikasının 85 il ərzində keçdiyi yol, ondan çıxarılan nəticə bir daha təsdiqləyir ki, xilasımız və inkişafımız ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur. Bu yolu uğurla davam etdirən ölkəmizin prezidenti cənab İlham Əliyevin dediyi kimi, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir.

Diqqətinizə görə sağ olun.

* * *

*Yubiley mərasiminin rəsmi hissəsindən sonra Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva, təntənəli mərasimdə iştirak edən qonaqlar konsert proqramına maraqla tamaşa etdilər.*

## ŞAHBUZ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*4 avqust 2009-cu il*

*Azərbaycan prezidenti İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində avqustun 4-də Şahbuz Rayon Mərkəzi Xəstəxanasının yeni binasının açılışında iştirak etmişdir.*

*Xəstəxananın tibb işçiləri və rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Azərbaycanda, o cümlədən Naxçıvanda səhiyyə sektorunun inkişafı ilə bağlı aparılan davamlı və kompleks islahatlar prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətin həyata keçirdiyi sosial siyasətin başlıca istiqamətlərindən birini təşkil edir.*

*Prezident İlham Əliyevə rayon mərkəzi xəstəxanasının yeni binası haqqında ətraflı məlumat verildi. Bildirildi ki, xəstəxana gözəl təbiəti ilə seçilən Şahbuz rayonunun səfalı guşələrindən birində tikilmişdir. Bu tibb ocağının ümumi ərazisi 1,5 hektardır. Xəstəxananın binasının sahəsi isə 5 min 764 kvadratmetrdir. Dördmərtəbəli binanın ətrafında yüksək səviyyədə abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.*

*Dövlətimizin başçısı binanın açılışını bildirən lenti kəsdi, xəstəxana ilə tanış oldu.*

*Məlumat verildi ki, 40 çarpayılıq xəstəxana binasının tikintisində yerli və xarici ölkələrin inşaat materiallarından istifadə olunmuşdur. Burada ən müasir lift quraşdırılmışdır. Xəstəxananın birinci mərtəbəsində doğuş-ginekologiya, qəbul və 3 təcili tibbi yardım avtomaşını ilə təmin edilmiş təcili yardım şöbələri fəaliyyət göstərəcəkdir. Palatalarda ideal şərait yaradılmışdır.*

*İkinci mərtəbədə cərrahiyyə, poliklinika və pediatriya şöbələri yerləşir. Poliklinika şöbəsində ultrasəs müayinə, stomatologiya, göz, LOR və digər kabinələr fəaliyyət göstərəcəkdir. Pediatriya şöbəsində palatalar uşaqların rahatlığına və zövqlərinə uyğun qurulmuşdur. Əməliyyat otağındakı müasir avadanlıq istənilən mürəkkəb cərrahi əməliyyatı uğurla aparmağa imkan verəcəkdir. Cərrahiyyə şöbəsində iki reanimasiya otağı vardır. Həmin otaqlarda ağır xəstələrin ürək-damar sisteminə yerindəcə nəzarət olunması üçün müvafiq avadanlıq və monitor quraşdırılmışdır.*

*Üçüncü mərtəbədə stasionar terapiya şöbəsi və inzibati bölmə yerləşir. Burada 80 nəfərlik iclas zalı da vardır. İnzibati şöbədəki otaqlarda tibbi heyətin səmərəli fəaliyyəti üçün hər cür rahatlıq yaradılmışdır.*

*Xəstəxana ilə yaxından tanış olan Prezident kollektivə uğurlar arzuladı.*

**İ l h a m Ə l i y e v:** Əziz şahbuzlular, mən sizi yeni, gözəl xəstəxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram. Burada ən müasir avadanlıq quraşdırılıb, çox keyfiyyətlə tikilib və yaxşı işləmək, xəstələrə yüksək tibbi xidmət göstərmək üçün hər cür şərait yaradılıb.

İndi Naxçıvan Muxtar Respublikasında, o cümlədən Naxçıvan şəhərində, demək olar ki, bütün rayonlarda belə gözəl xəstəxanalar açılır. Səhiyyə xidməti ən yüksək səviyyədə olmalıdır. Bu bizim sosial siyasətimizin əsas istiqamətidir.

Azərbaycanın bütün sosial məsələləri öz həllini tapacaqdır. Biz bunu Şahbuz rayonunun timsalında görürük. Mən keçən dəfə də burada olmuşam. Ondan əvvəlki dəfə Naxçıvanda olarkən kənd məktəbinin açılışında iştirak etmişəm. Görürəm ki, Şahbuz rayonu da gözəlləşir, abadlaşır, yeni binalar, evlər tikilir. Vaxtilə bu evlər yox idi. Rayon xəstəxanasının binası kimi köhnə evlər, əlbəttə ki, yararsız vəziyyətə düşmüşdü. Mənə məlumat verildi ki, xəstəxana çox yararsız vəziyyətdədir və orada müalicə

aparmaq üçün heç bir imkan yoxdur. Amma bu gözəl bina həm rayon mərkəzinə – Şahbuz şəhərinə əlavə yaraşıq verir, həm də ki, insanların sağlamlığı üçün böyük funksiyanı yerinə yetirir.

Bu gün biz Naxçıvan Muxtar Respublikasının 85-ci ildönümünü təntənəli şəkildə qeyd etdik. Bu, böyük bayramdır və bütün naxçıvanlıları bu gözəl bayram münasibətilə təbrik edirəm. Naxçıvanın çox böyük uğurları var, çox sürətli inkişaf gedir. Dünən və bu gün gördüyüm yeni müəssisələr, səhiyyə ocaqları, sosial obyektlər, sənaye sahələri məni çox sevindirir. Naxçıvan Muxtar Respublikası hərtərəfli inkişaf edir. Burada həm sosial məsələlərə böyük diqqət göstərilir, muxtar respublika, demək olar ki, özünü ərzaq məhsulları ilə təchiz edir, həm də enerji təhlükəsizliyi təmin olunmuşdur. Yeni yollar çəkilir, abadlıq işləri aparılır. İndi naxçıvanlılar haqlı olaraq qürur hissi ilə deyə bilərlər ki, onlar Naxçıvan Muxtar Respublikasının sakinləridir.

Mən sizin hamınızı gözəl hadisə münasibətilə, gözəl xəstəxananın açılışı münasibətilə ürəkdən təbrik edirəm, sizə yeni uğurlar arzulayıram. Sağ olun.

## Səfər başa çatdı

*Avqustun 5-də Azərbaycan prezidenti İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri başa çatmışdır.*

*Naxçıvan Beynəlxalq Aeroportunda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov və digər rəsmi şəxslər böyük ehtiramla yola saldılar.*

## *bp*-nin AXTARIŞ-KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*6 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 6-da bp-nin Axtarış-kəşfiyyat və hasilat işləri üzrə Baş icraçı direktoru Endi İnqlisin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə bp arasında uzun illər davam edən uğurlu əməkdaşlıqdan məmnunluq ifadə olundu. Əməkdaşlığın gələcəkdə də genişlənməsi üçün yaxşı imkanların mövcud olduğu vurğulandı.*

*bp-nin Axtarış-kəşfiyyat və hasilat işləri üzrə Baş icraçı direktoru Endi İnqlis «bp–Azərbaycan» şirkətinin vəzifəsini başa vurmuş rəhbəri Bill Şreyderin yerinə Rəşid Cavanşirin təyin olunduğunu bildirərək, bu təyinatın azərbaycanlı kadrların bp-nin fəaliyyətində yaxından iştirakının yaxşı nümunəsi olduğunu dedi.*

*Dövlətimizin başçısı Bill Şreyderin ölkəmizlə bp arasında əməkdaşlığın genişlənməsindəki xidmətlərini vurğulayaraq, ona gələcək fəaliyyətində uğurlar arzuladı. Prezident İlham Əliyev azərbaycanlı kadrın «bp–Azərbaycan» şirkətinin prezidenti vəzifəsinə təyin olunmasını Azərbaycan ilə bp arasında səmərəli əməkdaşlıq əlaqələrinin təzahürü kimi qiymətləndirdi.*

## LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VALDİS ZATLERSİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*10 avqust 2009-cu il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Latviya Respublikasının Prezidenti Valdis Zatlersin avqustun 10-da rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Latviya prezidenti Valdis Zatlersi və xanımı Lilita Zatlereni səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Latviya prezidentinə raport verdi.*

*Latviyanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri prezident Valdis Zatlersə, Latviya nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Prezidentlər və xanımları rəsmi foto çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*10 avqust 2009-cu il*

*Avqustun 10-da rəsmi qarşılanma mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın Latviya Respublikasının Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere ilə birgə görüşü olmuşdur.*

*Sonra Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Valdis Zatlersin təkbətək görüşü keçirilmişdir.*

*Görüşdə dövlət başçıları ölkələrimiz arasında əlaqələrin siyasi, iqtisadi və digər sahələrdə inkişafından məmnunluqlarını ifadə etdilər. Yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin genişlənməsinə töhfə verdiyi vurğulandı. Azərbaycan ilə Latviya arasında əlaqələrin daha da dərinləşməsi üçün geniş potensialın olduğu bildirildi və əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

*Görüşdə ikitərəfli münasibətlər, regional və beynəlxalq məsələlər müzakirə edildi.*

## DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Avqustun 10-da təkbətək görüş başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Valdis Zatlersin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda salamlayıram və ölkəmizdə görməkdən çox məmnunam. Ölkəmizə etdiyiniz rəsmi səfərə biz böyük önəm veririk. Əminəm ki, səfəriniz çox uğurlu olacaq və bu səfərdən sonra ölkələrimiz arasında əlaqələrin uğurlu inkişafı davam edəcəkdir. Ölkələrimiz arasındakı yüksək səviyyəli siyasi dialoqdan məmnunuq. Ümid edirik ki, səfəriniz ölkələrimiz arasında iqtisadi əməkdaşlığa təkan verəcək, xüsusilə də sabah keçiriləcək və əyani nəticələrə gətirib çıxaracaq biznes-forumdan böyük gözləntilərimiz vardır. Biz beynəlxalq təşkilatlarla uğurla əməkdaşlıq edirik. NATO və Avropa İttifaqı ilə əməkdaşlığımızda ölkənizin dəstəyini hiss edirik. Ümumiyyətlə, ölkələrimiz arasındakı əlaqələr hesab edirəm ki, çox yüksək səviyyədədir. Lakin biz əməkdaşlığımızı müxtəlif sahələrdə gücləndirmək və genişləndirmək üçün çox iş görməliyik və tərəfdaşlıq əlaqələrimizin inkişafını davam etdirməliyik. Əminəm ki, səfəriniz bu istiqamətdə önəmli bir addım olacaqdır.

Sizə və nümayəndə heyətinizə Bakıda uğurlu səfər arzulayıram.

**V a l d i s Z a t l e r s:** Çox təşəkkür edirəm, cənab Prezident. Ölkənizə səfərə dəvətinizə görə Sizə çox minnətdaram. Bu, Azərbaycana ilk səfərimdir. Ümid edirəm ki, bu səfər çox uğurlu olacaqdır.

Azərbaycan və Latviya arasındakı ikitərəfli münasibətləri iki ölkənin əlaqələrinin gözəl nümunəsi kimi xarakterizə edərdim. Adətən, biz bir-birimizdən məsafəcə nə qədər uzaq olduğumuzu ölçürük. Ən yaxşı ölçü təyyarə ilə birbaşa uçuş məsafəsinin nə qədər olmasıdır. Bu, 3 saat yarıma bərabərdir, güclü külək əsdikdə isə 4 saatdır, deməli, çox yaxındır. Bildiyiniz kimi, səfərim zamanı məni işgüzar adamlardan ibarət böyük bir qrup müşayiət edir. Son iki-üç, dörd-beş il ərzində ölkələrimiz arasında biznes əlaqələri sürətlə inkişaf etmişdir. Qlobal iqtisadi böhrana baxmayaraq, Azərbaycan və Latviyanın işgüzar adamları arasındakı əlaqələr daha da səmərəli olmuşdur. Hesab edirəm ki, biz gələcək üçün, xalqlarımızın rifahı və dövlətlərimiz üçün fayda gətirəcək bir çox yolları müəyyənləşdirməliyik. Burada olmaqdan çox şadam və nümayəndə heyəti adından sizə bir daha təşəkkür edirəm.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 avqust 2009-cu il*

*Avqustun 10-da geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan prezidenti İlham Əliyevin və Latviya prezidenti Valdis Zatlersin iştirakı ilə Azərbaycan–Latviya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Latviya Respublikasının Prezidenti Valdis Zatlers Birgə Bəyannamə imzaladılar.*

*«Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Latviya Respublikasının Patent İdarəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiyanın mübadiləsi haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin sədri Ramiz Həsənov və Latviyanın Patent İdarəsinin direktoru Ziqfrids Aumeistars imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti və Latviya Respublikasının Hökuməti arasında gənclər və idman sahəsində əməkdaşlıq haqqında Saziş»i – Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov və Latviyanın Xarici İşlər naziri Maris Riekstins imzaladılar.*

*«Azərbaycan Respublikasının Hökuməti və Latviya Respublikasının Hökuməti arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Latviyanın İqtisadiyyat naziri Artis Kampars imzaladılar.*

## ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

*Prezident sarayı*

*10 avqust 2009-cu il*

*Avqustun 10-da Azərbaycan–Latviya sənədlərinin imzalanması mərasimindən sonra Latviya prezidenti Valdis Zatlersin və Azərbaycan prezidenti İlham Əliyevin ali ordenlərlə təltif olunma mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev Latviya Respublikası ilə Azərbaycan Respublikası arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafındakı xüsusi xidmətlərinə görə prezident Valdis Zatlersə «Heydər Əliyev» ordenini təqdim etdi.*

*Prezident Valdis Zatlers ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafındakı müstəsna xidmətlərinə görə prezident İlham Əliyevə «Üç ulduz» ordeninin «Böyük xaç kavaleri» dərəcəsini təqdim etdi.*

## AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*10 avqust 2009-cu il*

*Avqustun 10-da ali ordenlərlə təltif olunma mərasimi başa çatdıqdan sonra prezidentlər İlham Əliyev və Valdis Zatlers mətbuat üçün bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Prezident!
Hörmətli qonaqlar!
Xanımlar və cənablar!

Mən Sizi – Latviya prezidentini bir daha Azərbaycan Respublikasında salamlamaq istəyirəm. Bu gün bizim çox məhsuldar müzakirələrimiz və ölkələrimiz arasındakı münasibətlərlə bağlı danışıqlarımız oldu.

Biz Latviya prezidentinin ölkəmizə səfərinə yüksək əhəmiyyət veririk və hesab edirəm ki, ikitərəfli münasibətlərimiz bu səfərdən sonra birmənalı olaraq ciddi şəkildə inkişaf edəcəkdir. Hazırda əlaqələrimiz bir çox sahələrdə inkişaf edir. Bizim yaxşı siyasi əməkdaşlığımız vardır. İqtisadi əməkdaşlığımızı artırırıq və əminəm ki, sabah keçiriləcək biznes-forum hər iki ölkənin iş adamlarına bir-birilərini daha yaxşı tanımağa və birgə layihələri həyata keçirməyə imkan yaradacaqdır.

Bizim münasibətlərimiz bir çox sahələri də əhatə edir. Bu gün biz informasiya texnologiyaları, turizm, mədəniyyət, nəqliyyat, energetika sahələrində əməkdaşlığı da nəzərdən keçirdik və perspektivlər haqqında danışdıq. Bu gün imzaladığımız sənədlər əminəm ki, əməkdaşlığımızın böyük qanunverici

əsaslarını daha da genişləndirəcəkdir. Başqa sözlə desək, Latviya ilə Azərbaycan arasındakı münasibətlər çox uğurla inkişaf edir. Əlaqələrimizin çox yaxşı gələcəyi vardır və əminəm ki, gələn illər ərzində bügünkü sazişlərin bir çox konkret nəticələrini görəcəyik.

Bizim NATO və Avropa İttifaqı ilə əməkdaşlığımıza Latviyanın verdiyi dəstəyə görə minnətdarıq. Azərbaycan NATO-nun Fərdi tərəfdaşlıq və əməkdaşlıq proqramında fəal iştirak edir. Biz Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramının üzvüyük və təşkilatlar çərçivəsində ölkələrimiz arasındakı əməkdaşlıq bizim müxtəlif sahələrdəki əlaqələrimizin inkişafına yardım edəcəkdir. Energetika əməkdaşlığı bizim Avropa İttifaqı ilə münasibətlərimizin əsas hissəsidir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Biz enerji ehtiyatlarımızı müxtəlif istiqamətlərdə nəql edən boru kəmərlərini çəkmişik, Avropa İttifaqının bazarlarına çıxışı əldə etmişik və gələcəkdə daşınan enerji ehtiyatlarının həcmi daha da artacaqdır. Bu, hər iki tərəfə imkan yaradacaq ki, məhsuldar əməkdaşlıqdan bəhrələnsinlər. Təbii ki, bütün sahələrdəki əməkdaşlıq tarazlı şəkildə aparılmalıdır və burada tranzit, istehlakçı və istehsalçı ölkələrin maraqları bərabər şəkildə təmin edilməlidir. Hesab edirəm ki, gələcəkdə Avropa İttifaqı ilə Azərbaycan arasında yeni əməkdaşlıq sahələri olacaq və Şərq tərəfdaşlığı buna zəmin yaradır. Əlbəttə ki, Latviya ilə Azərbaycan arasında ikitərəfli əlaqələr, o cümlədən Avropa təşkilatları ilə əməkdaşlıq çərçivəsindəki münasibətlərimiz uğurla davam edəcəkdir. Bu gün Prezidentin səfəri bu istiqamətdə atılan mühüm addımdır və əminəm ki, bu səfər gələcək əməkdaşlığımız üçün bir çox mühüm nəticələr verəcəkdir. Bir daha demək istəyirəm, cənab Prezident, ölkəmizə xoş gəlmisiniz!

## Latviya prezidenti Valdis Zatlersin bəyanatı

Zati-aliləri!

Xanımlar və cənablar!

Öncə Azərbaycana səmimi dəvətinə görə mən prezident Əliyevə minnətdarlığımı bildirmək istəyirəm. Apardığımız müzakirələr zamanı biz Latviya ilə Azərbaycan arasında münasibətlərin əla olduğunu qeyd etdik. Bu həqiqətdir, çünki hazırda qlobal və regional səviyyədə mövcud olan siyasi məsələlər üzrə mövqelərimiz üst-üstə düşür. Son 4-5 ildə iqtisadi münasibətlərimiz daha da genişlənib, ticarət dövriyyəsi 2 və hətta 3 dəfə artıb. Hesab edirəm ki, böhran zamanı daha böyük işlər görmək üçün imkanlar vardır. Biz yaxşı tərəfdaş olmalı, faydalı müqavilələrdə iştirak etməli və beləliklə, ölkələrimiz arasında əməkdaşlığın möhkəm əsasını yaratmalıyıq.

Əlbəttə ki, biz Sizin ölkə ilə NATO və Avropa İttifaqının üzvü kimi də əməkdaşlıq edirik. Avropa İttifaqı ilə Azərbaycan arasında daha geniş inteqrasiyanın baş tutmasına yönəlmiş bu təşkilatın Şərq tərəfdaşlığı proqramına mümkün qədər dəstək verəcəyik. Biz istəyirik ki, ölkəniz bizim istədiyimiz qədər və Sizin maraqlarınıza uyğun şəkildə inteqrasiya etsin. NATO ilə tərəfdaşlığa gəldikdə, biz Əfqanıstanda İSAF missiyası çərçivəsində əməkdaşlıq edirik.

Mən Azərbaycanın Cənubi Qafqazda vəziyyətin sabitləşdirilməsində oynadığı rolu xüsusilə qeyd etmək istəyirəm. Bir il əvvəl vəziyyətin gərginləşdiyi dövrdə Sizin müdrik siyasətiniz sayəsində bir çox nəticələrə nail olundu. Belə halda, özümüzü Qafqazda daha təhlükəsiz hiss edirik. Gələcəkdə vəziyyətin yaxşılaşması üçün daha aydın planlarımız vardır.

Bu mənim Sizin gözəl ölkənizə səfərimin yekun məqsədini təşkil edir. Mən səmimi qəbula görə Sizin ölkənizə, prezident Əliyevə olduqca minnətdaram. Hesab edirəm ki, xalqlarımızın və ölkələrimizin yaxşı gələcəyi vardır. Çox sağ olun.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**E l l a B a t m a n e («*Onlayn Media Apollo*»): Mənim sualım prezident Əliyevədir. Sizin fikrinizcə, Azərbaycanın iş adamları Latviyanın hansı sahələrinə sərmayə qoya bilərlər?**

**İ l h a m Ə l i y e v:** Bu, təbii ki, onlardan asılıdır. Biz ölkələrimizin işgüzar dairələrinə yardım etməyə çalışırıq ki, onlar bir-birini daha yaxşı tanısınlar, birgə layihələrdə iştirak etsinlər. Hesab edirəm ki, sabah keçiriləcək biznes-forum bu cür imkanları yaradacaqdır.

Hökumətlərarası iqtisadi komissiya bu səyləri əlaqələndirməli, prioritetləri müəyyən etməli, hüquqi baza haqqında lazımi təqdimatları verməli, sərmayə imkanları və mühiti, vergilər haqqında məlumatı təqdim etməli və ümumi iqtisadi vəziyyəti təsvir etməlidir. Hər iki ölkə arasında iqtisadi əməkdaşlıq müxtəlif sahələrə aid olmalıdır. Çünki iqtisadiyyatlarımız bir-birini dəstəkləyir. .

Əminəm ki, Azərbaycan və Latviya şirkətləri hər iki ölkədə sərmayədar, podratçı kimi işləyə bilərlər. İşgüzar dairələr arasında təmaslar yaxşı siyasi münasibətlərimizə dəstək verəcək və ümumilikdə ölkələrimiz arasında əlaqələr özəl sektorun dəstəyi ilə uğurla inkişaf edəcəkdir.

**N ə s i b M u x t a r o v (*Azərbaycan Televiziyası*): Sualım prezident Zatlersədir. Məlumdur ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi regional təhlükəsizliyə maneədir. Avropa İttifaqının üzvü kimi, ölkənizin münaqişənin nizamlanmasında mövqeyi nədən ibarətdir?**

**V a l d i s Z a t l e r s:** Bu münaqişə beynəlxalq hüququn və Birləşmiş Millətlər Təşkilatının prinsipləri əsasında dinc yolla həll edilməlidir. ATƏT-in Minsk qrupunun işi və Madriddə müəyyən edilmiş prinsiplər nəzərə alınmalıdır. Sülh danışıqlar yolu ilə əldə olunmalıdır. Latviya hər hansı bu cür münaqişəyə, o cümlədən Dağlıq Qarabağ münaqişəsinə belə yanaşır.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*10 avqust 2009-cu il*

*Latviya Respublikasının Prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlere avqustun 10-da Heydər Əliyev Fondunda olmuşlar.*

*Latviya dövlətinin başçısını və xanımını Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ali qonağa Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış fondun məqsədi və fəaliyyəti barədə məlumat verdilər. Bildirildi ki, fond bütün sahələrdə genişmiqyaslı layihələr həyata keçirir. Xüsusilə, uşaq evləri və internat məktəblərinin yenidən qurulması, maddi-texniki bazanın yaxşılaşdırılması, diabet və talassemiyadan əziyyət çəkən insanlara hərtərəfli qayğı göstərilməsi, müasir tələblərə cavab verən yeni məktəblərin tikilib istifadəyə verilməsi, zəngin mədəniyyətimizin öyrənilməsi və təbliği fondun əsas fəaliyyət istiqamətini təşkil edir.*

*Latviya prezidenti Valdis Zatlers və xanımı Lilita Zatlereyə ümummilli liderin iş otağının interyeri, müxtəlif dövrlərdə işlədiyi zaman aldığı fəxri fərman və sənədlər, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması ilə bağlı beynəlxalq təşkilatlarda çıxışlarını əks etdirən fotoşəkillər göstərildi.*

*President Valdis Zatlers və xanımı Lilita Zatlere fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdılar.*

*Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva Latviya prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

*Dövlət başçıları və xanımları fondun fəaliyyəti haqqında filmə baxdılar.*

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*«Gülüstan» sarayı*

*10 avqust 2009-cu il*

*Avqustun 10-da «Gülüstan» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın adından Latviya Respublikasının Prezidenti Valdis Zatlersin və xanımı Lilita Zatlerenin şərəfinə rəsmi qəbul təşkil edilmişdir. Dövlət başçıları qəbulda nitq söyləmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli cənab Prezident!
Hörmətli xanım Lilita Zatlere!
Xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayır və «Xoş gəlmisiniz!» deyirəm.

Bu gün Latviya ilə Azərbaycan arasında münasibətlərin yeni səhifəsi açılır, səmərəli siyasi dialoq aparılır. Mən Sizin Azərbaycana rəsmi səfərinizi yüksək qiymətləndirir, bu səfərin ölkələrimiz arasında münasibətlərin yeni mərhələsinə zəmin yaradacağına inanıram. Şübhə etmirəm ki, keçirdiyimiz görüşlər, apardığımız danışıqlar və fikir mübadiləsi, habelə imzalanmış sənədlər və iki ölkənin iş adamlarının sabah təşkil olunacaq biznes-forumu qarşılıqlı fəaliyyət üçün yeni sahələri müəyyən edəcək, əlaqələrimizin gələcək inkişafına öz töhfəsini verəcəkdir.

Mən Latviya ilə Azərbaycan arasında münasibətlərin inkişaf edərək genişlənməsinin tərəfdarıyam. Ölkələrimiz arasında ticarət-iqtisadi, sənaye və energetika, mədəniyyət

və turizm, təhsil, informasiya texnologiyaları və digər sahələrdə yaxşı əməkdaşlıq imkanları vardır. Bu əməkdaşlığı həyata keçirmək üçün ölkələrimizdə səfirliklər açılmış, Azərbaycan–Latviya hökumətlərarası komissiyası yaradılmış, müqavilə-hüquq bazasını təmin edən sənədlər imzalanmışdır.

Latviya ilə Azərbaycan arasında iqtisadi əməkdaşlığın indiki göstəriciləri təəssüf olsun ki, ölkələrimizin potensialına cavab vermir. İki ölkə arasında ticarət dövriyyəsi və sərmayə qoyuluşunun həcmi daha da genişlənməlidir. Əminəm ki, biz birgə səylərimizlə iqtisadi əməkdaşlığın səmərəsini artırmağa nail olacağıq. Bu indi, qlobal iqtisadi böhran şəraitində xüsusilə aktualdır.

Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz beynəlxalq terrorizmə, kütləvi qırğın silahlarının yayılmasına və müasir dövrün digər təhdid və təhlükələrinə qarşı mübarizə sahəsində uğurlu əməkdaşlıq edir. Beynəlxalq və regional təşkilatlar, o cümlədən Avropa İttifaqının «Yeni Qonşuluq Siyasəti» proqramı və NATO-nun Fərdi tərəfdaşlığın Fəaliyyət planı çərçivəsində əlaqələrimizdən razıyam. GUAM və Baltik dənizi Dövlətləri Şurası formatında əlaqələrimiz Xəzər, Qara dəniz, Baltik hövzəsi regionunda inteqrasiya proseslərini sürətləndirmək baxımından əhəmiyyətlidir. Avropa İttifaqının Şərq tərəfdaşlığı təşəbbüsü əməkdaşlığımız üçün yeni imkanlar açır və mən inanıram ki, ölkələrimiz həmin imkanlardan yetərincə istifadə edəcəklər.

Azərbaycan son illər ərzində sürətli inkişaf yolu keçmişdir. Ötən 5 ildə ölkəmizin iqtisadiyyatı 2,6 dəfə artmışdır, eyni zamanda irimiqyaslı beynəlxalq layihələrin həyata keçirilməsi nəticəsində Böyük İpək yolunun bərpası, Şərq–Qərb nəqliyyat dəhlizinin yaradılması, eləcə də Avropanın enerji təhlükəsizliyinin təmin olunması istiqamətində səylərimiz artıq öz bəhrəsini verməkdədir.

Azərbaycan regionda təhlükəsizliyin, sabitliyin təmin edilməsində və beynəlxalq əməkdaşlığın inkişafında mühüm rol oynayır. Lakin 20 ildir ki, Azərbaycan Ermənistanın

hərbi təcavüzünə məruz qalmışdır. Ermənistan Azərbaycanın ərazisinin 20 faizini işğal etmiş və etnik təmizləmə siyasəti aparmışdır. Nəticədə ölkədə bir milyondan çox qaçqın və məcburi köçkün yaranmışdır. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Bu münaqişə yalnız beynəlxalq hüquq normalarına uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Hörmətli cənab Prezident, icazə verin, Azərbaycana rəsmi səfərinizə böyük əhəmiyyət verdiyimi bir daha ifadə edim və bu badəni Sizin sağlığınıza, xanımınızın sağlığına, Latviya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırım.

**Latviya prezidenti Valdis Zatlersin nitqi**

Çox hörmətli cənab Prezident!

Hörmətli Mehriban xanım Əliyeva!

Zati-aliləri!

Xanımlar və cənablar!

Cənab Prezident, mən Sizin, eləcə də Sizin ölkənizin qonağı olmaqdan böyük sevinc və şərəf duyuram! İcazə verin, öz adımdan, eləcə də xanımım adından Bakıda – mədəniyyət və elm sahəsində uğurların əldə olunmasına ilham verən əsrarəngiz bir şəhərdə səmimi qəbula görə Sizə dərin təşəkkürümü bildirim.

XIX əsrin sonu – XX əsrin əvvəllərindəki milli dirçəliş, mətin mübarizə, müstəqilliyimizin və dövlətçiliyimizin itirilməsi və yenidən qazanılması kimi kəşməkəşli ümumi tarixi inkişaf yolumuz Latviya və Azərbaycanı bir-birinə sıx şəkildə bağlayır. Bildirmək istərdim ki, bir çox görkəmli latış mədəniyyət və incəsənət xadimlərinin həyatı məhz Azərbaycanla bağlıdır. Yazıçı Ernest Birzniek-Upit uzun müddət burada yaşamışdır. Yazıçılar Pavils Rozitis, Sudrabu-Ecus,

Yanis Vainovskis və Auqusts Bertse burada yaşayıb yaratmışlar. Rəssam Yazeps Qrosvalds öz yaradıcılığında Şərq motivlərinə üstünlük vermişdir. Azərbaycan Opera və Balet Teatrında böyük latış bəstəkarı Yazeps Medinş dirijorluq etmişdir.

Son 15 il Latviya–Azərbaycan münasibətlərində mühüm mərhələ olmuşdur. Bu müddətdə Latviya–Azərbaycan dostluq əlaqələri inkişaf etmişdir. Son illərdə fəal siyasi dialoqlar nəzərəçarpacaq dərəcədə böyümüşdür. Hər iki ölkənin məsul şəxslərinin, mütəxəssislərinin görüşləri və məsləhətləşmələri keçirilmiş, dövlətlərarası müqavilə-hüquq bazası inkişaf etdirilmiş, ticari-iqtisadi balans daha da təkmilləşdirilmişdir.

Biz əldə olunan nailiyyətlərlə kifayətlənmək niyyətində deyilik. Turizm, gənclər və idman sahəsində, eləcə də patent üzrə informasiya və sənədləşmə mübadiləsi buna misaldır.

İqtisadiyyat sahəsində də bir çox işlər görülmüşdür. Ondan çox Latviya–Azərbaycan müştərək müəssisəsi yaradılmışdır ki, bunlar da ölkələrimizə mənfəət və keyfiyyətli məhsullar gətirir. Hər iki ölkənin səfirliklərinin uğurlu fəaliyyəti, eyni zamanda, Riqa ilə Bakı arasında birbaşa hava yolunun açılması işgüzar münasibətlərin əhəmiyyətli dərəcədə inkişafına təkan verir. Hazırkı səfər zamanı sahibkarlardan ibarət böyük nümayəndə heyətinin Bakıya gəlişi qlobal maliyyə böhranının mövcud olduğu bir dövrdə Latviya və Azərbaycanın iqtisadi potensialının inkişafında ciddi maraqların olduğunu sübut edir.

Bundan əlavə, Azərbaycanın təbii sərvətlərinin zənginliyi, bazar potensialının, Latviyanın Avropa İttifaqı ilə birgə bazarının mövcudluğu ikitərəfli əlaqələrin səmərəli inkişafına yol açır.

Mən Azərbaycan xalqına bolluq, firavanlıq və müvəffəqiyyətlər arzulayıram.

Cənab Prezident, şəxsən Sizə cansağlığı və uğurlar arzu edirəm!

## AZƏRBAYCAN–LATVİYA BİZNES-FORUMU

*11 avqust 2009-cu il*

*Avqustun 11-də Bakıda, «Hyatt Regency–Naxçıvan» mehmanxanasında Azərbaycan–Latviya biznes-forumu keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və Latviya prezidenti Valdis Zatlers forumun işində iştirak etmişlər. Dövlət başçıları Latviya istahsalı olan məhsulların nümayiş etdirildiyi sərgiyə də baxmışlar. Biznes-forumda Azərbaycandan 120-dək şirkətin nümayəndəsi və Latviyadan 75 iş adamı iştirak etmişdir.*

*Dövlət başçıları biznes-forumda çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı Azərbaycanda salamlamaq istəyirəm. Latviya prezidentinə və rəhbərlik etdiyi nümayəndə heyətinə, Latviyanın iş adamlarına Azərbaycana gəldikləri üçün minnətdarlığımı bildirirəm. Bu bizim tərəfdaşlığımızın mühüm rəmzidir və münasibətlərimiz uğurla inkişaf edir. Latviya prezidentinin Azərbaycana səfəri birmənalı olaraq münasibətlərimizin gələcəkdə yeni səhifəsini açacaqdır. Dünən bizim çox məhsuldar danışıqlarımız və müzakirələrimiz oldu. Bir sıra hökumətlərarası sazişləri imzaladıq və bununla ölkələrimiz arasında münasibətlərin qanunvericilik əsaslarını genişləndirdik. Yaxşı siyasi münasibətlərin olması iki ölkənin işgüzar dairələrinin bütün sahələrdə daha səmərəli əmək-

daşlıq etməsinə imkan yaradır. Son bir neçə ildə bizim iqtisadi əməkdaşlıq sahəsində artıq gözəçarpan nailiyyətlərimiz olubdur. Birgə qarşılıqlı ticarət dövriyyəsinin rəqəmləri o qədər də yüksək deyildir. Buna baxmayaraq, yenə də addım-addım irəliləyiş əldə olunur və ölkələrimiz arasında bu dövriyyənin həcmi artmaqdadır. Ümidvaram ki, ölkələrimizin iş adamlarının bu görüşü, ümumiyyətlə, ölkələrimiz arasındakı münasibətlərin inkişafına töhfə verəcəkdir. Hökumətlərarası birgə iqtisadi komissiyanın da rolu çox vacibdir. Çünki biznesmenlərin bir-biriləri ilə təmaslarının qurulmasına, müxtəlif layihələrin əlaqələndirilməsinə və sərmayələrin daha çox cəlbedici sektorlara qoyulmasına yardım edəcəkdir. Müxtəlif əməkdaşlıq formaları mövcuddur və əlbəttə ki, əməkdaşlığın hansı formasını seçmək barədə qərarları iş adamlarının özləri qəbul edə bilərlər. Amma vacib məsələ ondan ibarətdir ki, biz geniş biznes imkanları, hüquqi çərçivə, vergi, sərmayə mühiti və ümumiyyətlə, iqtisadi inkişaf haqqında məlumatları verməliyik.

Dünən müzakirələrdən sonra belə bir qənaətə gəldik ki, bizim iqtisadiyyatlarımız bir-biri ilə rəqabət aparan iqtisadiyyatlar deyildir. Əksinə, iqtisadiyyatlarımız uğurlu şəkildə bir-birinə dəstək verə bilər. Burada söhbət nəinki iqtisadiyyatdan, o cümlədən mühitdən də, turizmin inkişafından da gedir. Dünən mən cənab Prezidentə məlumat verdim ki, biz çalışdıq burada elə bir iqlim zonası yaradaq ki, siz özünüzü evinizdəki kimi hiss edəsiniz. Çünki avqustda Bakıda hava çox qızmar olur və Azərbaycandakı insanlar bəzi hallarda elə bir yerə getməyə üstünlük verirlər ki, orada özlərini daha sərin mühitdə hiss etsinlər.

Həmçinin əminəm ki, Latviyadan gəlmiş qonaqlarımız çimərliklərimizdən, bütün digər imkanlardan bəhrələnəcəklər. Turizm, mədəni mübadilə, o cümlədən informasiya texnologiyaları sahəsində əməkdaşlıq, elm, təhsil üzrə işbirliyi vacibdir. Gündəliyimiz genişdir. İstərdik ki, şirkət-

lərimiz arasında iqtisadi fəaliyyət daha da artsın. Birgə iqtisadi komissiya buna dəstək verə bilər.

Azərbaycan İnvestisiya Şirkəti bir neçə il bundan əvvəl yaranmışdır, bu da potensial sərmayədarlara Azərbaycanda yardım edə bilər və müxtəlif layihələrdə həm də sərmayədar kimi iştirak edə bilər. Ümumiyyətlə, ölkəmizdə yaxşı sərmayə mühiti vardır və on milyonlarla dollar birbaşa sərmayə buna yaxşı nümunədir. Sürətli iqtisadi artımımız müxtəlif amillərin təzahürüdür. Enerji amili bizim üçün çox mühümdür. Neft və qaz hasilatının yüksəlməsi son 5 il ərzində bizim üçün ÜDM-in daha çox artımına nail olmağa imkan yaratdı. Biz iqtisadi islahatlar siyasəti aparırıq, Avropa strukturları ilə əməkdaşlıq edirik. Avropa İttifaqı da bu sahədə mühüm bir amildir və biz Avropa İttifaqına daha yaxın olmaq istəyirik. Şərq tərəfdaşlığı proqramında iştirakımız birmənalı olaraq Azərbaycanın iqtisadi inkişafına da töhfə verəcəkdir.

Ölkəmizdə özəl sektor ÜDM-in 85 faizini təşkil edir. Biz geniş özəlləşdirmə proqramını həyata keçirmişik və ümumi iqtisadi vəziyyət, Azərbaycandakı iqtisadi islahatlar, həmçinin Dünya Bankının qiymətləndirilməsində də əks olunubdur. Bu qurum ötən ilin «Douing Business» hesabatında Azərbaycanı ən islahatçı ölkə kimi tanımışdır və hesab edirik ki, bu illərdə, xüsusən də bu böhran dövründə biz əgər iqtisadi göstəricilərimizə baxsaq görərik ki, cari ilin ilk altı ayında iqtisadiyyatımız 3,6 faiz, sənaye istehsalı isə 4,1 faiz artmışdır. Biz infrastruktura, qeyri-enerji sektoruna böyük sərmayələr yatırmışıq. Dövlətimizin birbaşa qoyduğu sərmayələrin həcmi artmış və yerli sahibkarlara, şirkətlərə güzəştli, yəni aşağı faizlə kreditlər ayırırıq ki, iqtisadiyyatımız daha şaxələnmiş olsun. Bu il ölkəmizi kənd təsərrüfatı məhsulları ilə 100 faiz təmin edəcəyik. Çünki bizim əhalinin yarısı kənd yerlərində yaşayır. Ona görə kənd təsərrüfatı işçiləri, fermerlər dövlətin yardımından kifayət qədər istifadə edərək, iqtisadiyyatın şaxələndirilməsinə şərait yaradacaqlar.

Təbii ki, gələn illərdə enerji amili davamlı surətdə bizim iqtisadiyyatın vacib hissəsi olacaq və biz artıq nəzərəçarpan nəticələri əldə etmişik. Azərbaycan o ölkədir ki, bütün dünyada ilk dəfə olaraq burada neft hasil edilmişdir. Sovet İttifaqı dağıldıqdan sonra bizim hasilatımız olduqca aşağı düşdü, infrastruktur, demək olar ki, tam dağıldı. Böyük iqtisadi potensiala və ehtiyatlara malik olmuş ölkə çox çətin vəziyyətə düşdü. Biz çalışdıq ki, bir çox aparıcı enerji şirkətlərini Azərbaycana dəvət edək və buna nail olduq. Beləliklə, beynəlxalq səviyyədə vacib bir neft və qaz hasilatçısına çevrildik. Müstəqillik illəri ərzində bu hasilatın həcmi 5 dəfədən çox artmışdır və demək olar ki, bu il artıq 50 milyon tona çatır. Azərbaycan son 2 il ərzində təbii qaz ixracçısına çevrilmişdir. 2007-ci ilə qədər biz qazı digər ölkələrdən idxal edirdik. Hazırda isə biz qazı ixrac edirik və ixrac coğrafiyası artır. Biz yaxın gələcəkdə digər qonşularımıza da təbii qaz çatdıracağıq.

2006-cı ildə Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa dair Memorandum imzalanmışdır və bu, münasibətlərimizin inkişafı deməkdir. Hazırda Avropanın müxtəlif strukturlarında müzakirə edilən enerji dəhlizləri bizim tərəfimizdən təşəbbüs kimi irəli sürülmüşdür. Xəzərdə hasil olunmuş neft dünya tarixində ilk dəfə boru kəməri vasitəsilə məhz Qara dənizdə yerləşən limanlara daşındı. Bu qapıları biz açdıq. İndi isə qaz boru kəməri çəkiləndən sonra bizim təbii qazımız artıq qeyd etdiyim kimi, bütün istiqamətlərdə nəql edilir. İndi isə bizim 4 qaz boru kəmərimiz vardır. Onların ikisi Qərb istiqamətinə, biri Şimal, digəri isə Cənub istiqamətinə gedir. Təbii ki, enerji amili iqtisadiyyatın bir çox sahələrində vacib yer tutacaqdır. Biz informasiya texnologiyaları, turizm, infrastruktur və ölkəmizin şaxələndirilmiş inkişafına sərmayələr qoyuruq. Dövlətin yardımı ilə infrastruktur layihələri həyata keçirilir və biz nəticələri görürük. İnfrastruktur layihələri həyata keçirildikdən, məsələn, şoselər çəkiləndən, elektrik stansiya-

ları, hava limanları tikiləndən sonra məhz işgüzar dairələr həmin yerlərə gəlirlər. İnfrastruktur layihələri daha çox paytaxt şəhərdən 100 kilometrlərlə məsafədə yaşayan insanlara fayda gətirir.

Hesab edirəm ki, bu baxımdan Azərbaycandakı və dost ölkələrdəki işgüzar dairələr əməkdaşlığı inkişaf etdirmək üçün bir-biri ilə görüşməlidirlər. Latviya bizim üçün dost ölkədir. Bizim çox yaxşı siyasi münasibətlərimiz vardır və bunu gördükdən sonra əminəm, işgüzar dairələrimiz də çalışacaqlar ki, onlar arasında olan əlaqələr eyni səviyyədə, yəni siyasi münasibətlər səviyyəsində olsun. Bizim yaxşı sərmayə mühitimiz, imkanlarımız vardır, liberal iqtisadiyyat qurulubdur, sabit siyasi vəziyyət mövcuddur, yüksək səviyyədə şəffaflıq vardır. Bu, Birləşmiş Millətlər Təşkilatının Azərbaycana verdiyi mükafatda da öz təzahürünü tapmışdır. Bir daha bildirmək istəyirəm ki, Latviya və Azərbaycanın iqtisadiyyatları bir-birini uğurla dəstəkləyə bilər. Əminəm ki, bugünkü biznes-forum bu istiqamətdə vacib rolunu oynayacaqdır.

Bir daha bütün qonaqları salamlayıram və biznes-forumun işinə uğurlar arzulayıram.

## Latviya prezidenti Valdis Zatlersin çıxışı

Cənab Prezident!

Zati-aliləri!

Azərbaycan və Latviyanın iş adamları!

Xanımlar və cənablar!

Burada – Bakıda keçirilən Azərbaycan–Latviya biznes-forumunda çıxış etməkdən olduqca məmnunam və şərəf hissi duyuram. Mən bu cür qarşılıqlı surətdə konstruktiv səylərə və göstərilmiş səmimi qonaqpərvərliyə görə tədbir təşkilatçılarına şəxsən öz adımdan və Latviyanın nümayəndə heyəti adından minnətdarlığımı bildirmək istəyirəm. Biz elə bir dövrdə görüşürük ki, hökumətlərimiz mürəkkəb məsə-

lənin, maliyyə sabitliyinin qorunması ilə məşğuldur və çalışırlar biznes mühitini qısa müddət ərzində yaxşılaşdırsınlar.

Bu gün qlobal iqtisadiyyatda əsas struktur dəyişiklikləri müşahidə olunur və bizim üçün yeni imkanları müəyyən etmək və yeni çağırışları həll etmək vaxtı artıq yetişibdir. Keçmişə nəzər salmaq və bu günə qədər görülmüş işlərin nəticələrini qiymətləndirmək üçün münasib vaxtdır. Ümidvaram ki, hökumətlərimiz biznes sahəsi üçün mümkün qədər faydalı şəraitlərin yaradılması məqsədi ilə əlindən gələni edəcəklər. Şirkətlərimiz və hökumətlərimiz arasında sıx əməkdaşlıq zəngin və davamlı iqtisadiyyata aparan yolda mühüm amildir.

Xanımlar və cənablar!

Biznes tərəfdaşlığımızın daha da inkişaf etməsi üçün möhkəm bünövrə vardır. Əməkdaşlıq üçün səmərəli infrastruktur qurulmuşdur. Hazırda Latviyada 29 Latviya–Azərbaycan birgə müəssisəsi fəaliyyət göstərir. Ümid edirəm ki, bu rəqəm gələn bir neçə il ərzində nəzərəçarpacaq səviyyədə artacaqdır. Ötən il ərzində ticarət dövriyyəmizə nəzər yetirsək, böhran sözündən istifadə etmək düzgün olmazdı. Baxmayaraq ki, rəqəmlər o qədər yüksək deyildir, lakin Latviyanın ixracı iki dəfə, Azərbaycandan idxal isə 30 faiz artmışdır. 2009-cu ilin birinci rübündə ölkələrimiz arasında ticarət dövriyyəsi artmaqda davam etmişdir. Bu isə bizə məlum olan qlobal proseslərdən fərqlənir. Latviya iş adamlarının Azərbaycana marağı məni müşayiət edən böyük nümayəndə heyətinin olması ilə nümayiş etdirilir. Bu tərkibdə ərzaq sənayesi, nəqliyyat və logistika, informasiya texnologiyaları və telekommunikasiya, bank və konsaltinq xidmətləri, tikinti sənayesi, turizm, təhsil və digər sahələrin nümayəndələri vardır. Azərbaycanda artıq uğurlu fəaliyyət göstərən şirkətlər də təmsil olunub – Riqa Dairy, Laci, AirBaltic, Parex Bank, Baltikums Bank, BDO Invest Riqa, Riqa Beynəlxalq Hava Limanı, Hava Dispetçer və Tədris Mərkəzi və bir çox digərləri.

Ölkələrimiz arasında hüquqi əsasların qurulması müxtəlif sahələrdə uğurlu və uzunmüddətli əməkdaşlıq üçün mühüm platformadır. Dünən Latviya Res-publikası və Azərbaycan Respublikasının hökumətləri bir sıra sənədləri, o cümlədən idman və turizm sahələrində sazişləri imzalamışlar. Latviyanın Patent İdarəsi və Azərbaycanın Standartlaşdırma, Metrologiya və Patentlər üzrə Dövlət Komitəsi arasında sənaye mülkiyyətinin hüquqi mühafizəsi sahəsində informasiya mübadiləsi haqqında Anlaşma Memorandumu imzalamışlar. Hesab edirəm ki, bu sazişlər iqtisadi münasibətlərimizin daha geniş şəkildə inkişafına yeni və yüksək keyfiyyətli təkan verəcəkdir.

Azərbaycan Latviya üçün çox mühüm və perspektivli tərəfdaşdır. Biz Avropa ölkələri ilə Azərbaycan, o cümlədən Xəzər regionunun digər ölkələri arasında sıx əməkdaşlığı təşviq etməyə hazırıq. Latviya sizin üçün nəinki ticari tərəfdaş kimi, o cümlədən digər sahələrdə də mühüm rol oynaya bilər. Biz, həmçinin digər Avropa ölkələrində iş aparmaq üçün strateji keçid ölkəsi ola bilərik. Latviya Şərqi Avropa, Skandinaviya və Qərbi Avropanın kəsişdiyi yerdə yerləşir. Ölkəmiz əla quru və dəmir yolu infrastrukturuna, o cümlədən regionda mövcud olan əsas nəqliyyat dəhlizləri vasitəsilə tranzit malların daşınmasını mümkün edən limanlara malikdir. Siz Latviyadakı tərəfdaşlarınızın təcrübəsindən istifadə edə bilərsiniz, çünki Avropa İttifaqının iqtisadi və inzibati məkanına daxil olursunuz. Riqa ilə Bakı arasında birbaşa uçuşlar biznes tərəfdaşlığının inkişafında mühüm elementdir. Mən sizi Skandinaviya və Mərkəzi Avropaya səfəriniz zamanı Riqa hava limanından tranzit kimi istifadə etməyə dəvət edirəm. Mən qeyd etmək istəyirəm ki, Latviya şərq tərəfdaşları ilə ticari münasibətlərinin möhkəmlənməsini ənənəvi olaraq dəstəkləmişdir. Biz istəyirik ki, Şərq tərəfdaşlığı iqtisadi inteqrasiya üçün əlavə təkan versin və Avropa İttifaqı ilə Azərbaycan arasında əhatəli və dərin azad ticarət zonasının yaranması ilə nəticələnsin. Biz

Azərbaycanın mümkün qədər qısa müddətdə Dünya Ticarət Təşkilatına üzv qəbul olunmasını dəstəkləyirik. Beynəlxalq ticarət sisteminə inteqrasiya Azərbaycana öz ixrac strukturunu şaxələndirməyə imkan yaradacaqdır.

Qeyd etmək istəyirəm ki, ölkələrimiz enerji təhlükəsizliyi ilə bağlı çətinliklərə aid adekvat cavab tədbirlərini görməyə çalışır. Əminəm ki, Avropa İttifaqı ilə Xəzər dənizi regionu arasında yalnız sıx əməkdaşlıq vətəndaşlar üçün sabit və davamlı enerji təhlükəsizliyini təmin edə bilər. Latviya Avropanın enerji ehtiyatları ilə təchiz edilməsində Qara dəniz–Xəzər regionunda Azərbaycanı əsas ölkə hesab edir. Ümid edirik ki, gələcəkdə, Azərbaycanın təbii qaz ehtiyatları Nabukko boru kəməri ilə Avropaya çatdırılacaqdır. Latviya nəinki təbii qaz, o cümlədən neft sahəsində çatdırılma marşrutlarının və mənbələrin şaxələndirilməsində Avropanın səylərini dəstəkləyir. Brodını və Plotsku keçərək, Odessadan Qdanska qədər gedən neft boru kəməri Avropada enerji resurslarının şaxələndirilməsi sahəsində risklərin azaldılmasına mühüm töhfə ola bilərdi. Latviya Baltik dənizi–Qara dəniz–Xəzər dənizi regionu vasitəsilə tranzit konsepsiyasını dəstəkləyir və bu, Mərkəzi Asiyadan Avropaya enerji resurslarının daşınmasında gözəçarpan əlavə tranzit marşrutu ola bilər.

Xanımlar və cənablar! Cəsarət, möhkəm iradə və təşəbbüskarlıq biznesdə uğurun əsas meyarlarıdır. Əminəm ki, burada iştirakınız bir daha sübut edir ki, siz yeni imkanların tapılmasına açıq və fəal olmağa hazırsınız. Ümidvaram ki, rəsmi səfər yeni təmasların qurulmasında sizi çox həvəsləndirəcək və bu biznes-forum cari davamlı əməkdaşlıq və qarşılıqlı surətdə faydalı layihələr üçün uğurlu istinad nöqtəsinə çevriləcəkdir.

Sizə uğurlar arzulayıram. Diqqətinizə görə minnətdaram.

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Handlova şaxtasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə, bütün Slovakiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 avqust 2009-cu il*

## ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ MÜŞAVİRİ, ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də ABŞ Dövlət katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya regionu üzrə müşaviri, ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Mətyu Brayzəni qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar, Azərbaycan–ABŞ ikitərəfli münasibətləri, energetika sahəsində əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında geniş fikir mübadiləsi aparılmışdır.*

## ALMANİYANIN BADEN-VÜRTEMBERQ FEDERAL TORPAĞININ BAŞ NAZİRİ GÜNTER OETTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Almaniyanın Baden-Vürtemberq federal torpağının Baş naziri Günter Oettingerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu vurğulayan prezident İlham Əliyev həm siyasi, həm də iqtisadi sahələrdə əlaqələrimizin uğurlu inkişafından məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı əmin olduğunu bildirdi ki, Baden-Vürtemberq federal torpağının Baş nazirinin böyük tərkibdə nümayəndə heyəti ilə Azərbaycana səfəri səmərəli olacaq və Azərbaycan–Almaniya ikitərəfli münasibətlərinin daha da möhkəmlənməsi işinə öz töhfəsini verəcəkdir.*

*2 il əvvəl Berlində prezident İlham Əliyevlə görüşünü məmnunluqla xatırlayan Günter Oettinger siyasət, iqtisadiyyat, mədəniyyət və digər sahələri təmsil edən rəsmilərdən ibarət nümayəndə heyəti ilə Azərbaycana gəldiyini deyərək, ölkəmizə bundan sonra da inkişaf perspektivləri arzuladı.*

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Əl-Cəhra şəhərində keçirilən toy mərasimində baş vermiş yanğın nəticəsində çoxsaylı insan tələfatı xəbərindən son dərəcə kədərləndim.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Küveyt xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 avqust 2009-cu il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB DMİTRİ MEDVEDEVƏ**

Hörmətli Dmitri Anatolyeviç!

Nazranda törədilmiş və çoxsaylı insan tələfatı ilə nəticələnmiş terror aktı barədə xəbər məni dərindən sarsıtdı.

Sizə, həlak olanların doğmalarına və yaxınlarına, bütün Rusiya xalqına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verirəm. Xəsarət alanlara tezliklə sağalmağı arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 avqust 2009-cu il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Koreya Respublikasının keçmiş Prezidenti, görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Kim De Çjunun vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 avqust 2009-cu il*

**BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Braziliya arasında təşəkkül tapan münasibətlər daim dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

**VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUEN MİNH ÇİETƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Vyetnam arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Vyetnam xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

**KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ**

Hörmətli cənab Sədr!

Ölkənizin milli bayramı – Koreya Xalq Demokratik Respublikasının yaranması günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

**SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB İVAN QAŞPAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Konstitusiya günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Slovakiya münasibətləri qarşılıqlı maraqlarımıza uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Slovakiya xalqına sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Abduqəniyeviç!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, ortaq mənəvi dəyərlərə malik xalqlarımızın iradəsinə uyğun olaraq Azərbaycan–Özbəkistan dostluğunun, dövlətlərarası münasibətlərimizin möhkəmləndirilməsi, istər ikitərəfli qaydada, istərsə də beynəlxalq qurumlar çərçivəsində əməkdaşlığımızın genişləndirilməsi yolunda bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə, hörmətli İslam Abduqəniyeviç, möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Özbəkistan xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

**TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EMOMƏLİ RƏHMONA**

Hörmətli Emoməli Şərifoviç!

Tacikistanın milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Tacikistan arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı, əlaqələrimizin hərtərəfli genişləndirilməsi istiqamətində qarşılıqlı səylərimiz, həmçinin xalqlarımızın rifahına, regionda sülhün və təhlükəsizliyin təmin edilməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə, hörmətli Emoməli Şərifoviç, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Tacikistan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

**MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ**

Hörmətli Vladimir Nikolayeviç!

Milli bayram – Müstəqillik günü münasibətilə Sizi və dost Moldova xalqını Azərbaycan xalqı adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Moldova arasında mehriban dostluq və qarşılıqlı dəstək ənənələri, hərtərəfli əməkdaşlıq xalqlarımızın və ölkələrimizin mənafeləri naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Hörmətli Vladimir Nikolayeviç, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, səadət və uğurlar, dost Moldova xalqına sülh, həmrəylik və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

## LİVİYA İNQİLABININ RƏHBƏRİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

Zati-aliləri!

Liviyanın milli bayramı – Böyük İnqilab günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Liviya arasındakı dostluq münasibətləri əməkdaşlığımızın inkişaf etdirilməsi, əlaqələrimizin bütün sahələrdə genişləndirilməsi üçün daim möhkəm təməl olacaqdır.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Liviya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *26 avqust 2009-cu il*

## BAKIDA GİMNASTİKA KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*26 avqust 2009-cu il*

*Avqustun 26-da Bakıda Gimnastika Kompleksinin təməlqoyma mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak etmişlər.*

*Mərasim iştirakçıları – idman ictimaiyyətinin nümayəndələri və inşaatçılar prezident İlham Əliyevi və Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanı hərarətlə qarşıladılar. Mehriban xanım Əliyevaya gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev Gimnastika Kompleksinin layihəsi ilə tanış oldu. Məlumat verildi ki, tikinti üçün ayrılmış 3,5 hektar ərazidə möhtəşəm idman kompleksi inşa olunacaq, abadlıq və yaşıllaşdırma işləri aparılacaqdır. Ümumi sahəsi 15 min kvadratmetr olan üçmərtəbəli kompleksdə məşq və yarış zalları, ofislər, soyunub-geyinmə otaqları, kafe, restoran, emalatxana, anbarlar fəaliyyət göstərəcəkdir. Kompleks telekommunikasiya və nəzarət-idarəetmə sistemi ilə təmin ediləcəkdir. Bundan başqa, kompleksin ərazisində qazanxana, nasosxana, digər köməkçi bina və qurğular, 500 yerlik yeraltı, 100 yerlik yerüstü avtomobil dayanacağı olacaqdır. Kompleksdə keçiriləcək idman yarışlarını 6 min tamaşaçı izləyə biləcəkdir. İdman qurğusunun 2011-ci ildə istifadəyə veriləcəyi qeyd olunmuşdur.*

*Daha sonra dövlətimizin başçısına kompleksin yaxınlığında gələcəkdə inşası nəzərdə tutulan üzgüçülük üzrə ixtisaslaşacaq idman sarayı barədə də məlumat verildi.*

*Prezident İlham Əliyev sarayın eskizinə baxdı və layihə ilə yaxından tanış olduqdan sonra tikinti işlərinə başlanacağını bildirdi.*

*Mehriban xanım Əliyeva gilizi Gimnastika Kompleksinin təməlinə buraxdı və beton qarışığı tökdü. Dövlətimizin başçısı da təmələ beton qarışığı tökdü.*

*Sonra prezident İlham Əliyev və Mehriban xanım Əliyeva Azərbaycan gimnastlarının bir qrupu ilə görüşdülər. Gimnastlar onlar üçün yaradılan şəraitə və belə gözəl kompleksin tikilməsinə görə dövlətimizin başçısına və Azərbaycanın birinci xanımına təşəkkürlərini bildirdilər.*

*Xatırladaq ki, Azərbaycan Gimnastika Federasiyasının fəaliyyəti sayəsində ölkəmizdə idmanın bu növündə də ciddi nailiyyətlər əldə olunmuşdur. Azərbaycan bədii gimnastika üzrə Avropa və dünya çempionatlarına ev sahibliyi etmişdir. Bədii gimnastlarımız Azərbaycanı Olimpiya oyunlarında da layiqincə təmsil etmişlər. Federasiyanın prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısının nəticəsidir ki, indi nüfuzlu beynəlxalq gimnastika təşkilatları Azərbaycana yüksək maraq göstərirlər.*

*Prezident İlham Əliyev idman ictimaiyyətinin nümayəndələri ilə də görüşdü. Dövlətimizin başçısı Azərbaycan Boks Federasiyasının vitse-prezidenti Ağacan Əbiyevlə söhbətində gənclərdən ibarət boks üzrə yığma komandamızın Polşada keçirilən Avropa birinciliyində 7 medal qazanaraq, komanda hesabında birinci olmasını yüksək qiymətləndirdi. Bu yarışda boksçularımız yüksək əzmkarlıq göstərərək 1 qızıl, 2 gümüş və 4 bürünc medal qazanmış və medalların sayına görə 35 ölkə arasında birinci yeri tutmuşlar. Buradan da göründüyü kimi, ölkəmizdə idmana göstərilən qayğı, yeni idman obyektlərinin inşası bir məqsədə – gənc nəslin sağlam böyüməsinə xidmət edir.*

*Prezident İlham Əliyev bir daha mərasim iştirakçılarını təbrik etdi, kompleksin inşası ilə bağlı tövsiyələrini verdi, inşaatçılara işlərində uğurlar arzuladı.*

## ALMANİYANIN «RWE» ŞİRKƏTİNİN PREZİDENTİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də Almaniyanın «RWE» şirkətinin prezidenti Yurgen Qrossmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Almaniyanın «RWE» şirkəti arasında energetika sahəsində həyata keçirilən əməkdaşlığın hazırkı vəziyyəti ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmış, Azərbaycanın karbohidrogen ehtiyatlarının Avropaya nəql edilməsi istiqamətində ölkəmizlə «RWE» şirkətinin birgə fəaliyyətinin perspektivləri müzakirə edilmişdir.*

*Görüşdə Almaniya Federativ Respublikasının keçmiş Xarici İşlər naziri – vitse-kansleri Yoşka Fişer iştirak etmişdir.*

## ABŞ-ın AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 27-də ABŞ-ın Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi Riçard Morninqstarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə ABŞ arasında energetika sahəsində əməkdaşlıq, Avropanın enerji təhlükəsizliyi və regional əməkdaşlıq məsələləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## RUSİYA FEDERASİYASININ XALQ ARTİSTİ ANDREY KONÇALOVSKİYƏ

Hörmətli Andrey Sergeyeviç!

Atanız – rus ədəbiyyatının klassiki, görkəmli şair və dramaturq, böyük ictimai xadim Sergey Vladimiroviç Mixalkovun vəfatı ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı verirəm.

Həqiqi vətəndaşlıq və vətənpərvərlik Sergey Vladimiroviç Mixalkovun bütün həyat və fəaliyyətinin, onun bənzərsiz yaradıcılığının səciyyəvi cəhətləri idi. Bütün postsovet məkanında, o cümlədən Azərbaycanda da bir neçə nəsil onun yüksək əxlaq, mənəviyyat və humanizm ideallarını tərənnüm edən əsərləri ruhunda böyümüş və formalaşmışdır.

Sizə üz vermiş itkinin ağrı-acısına ürəkdən şərik olduğumu bildirir, Sizinlə bərabər kədərlənirəm. Sergey Vladimiroviçin bütün doğmalarına və yaxınlarına başsağlığımı və kədərlərinə şərik olduğumu çatdırmağınızı xahiş edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 avqust 2009-cu il*

## MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİ MƏRASİMİ

*29 avqust 2009-cu il*

*Avqustun 28-də Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açmışdır.*

*Azərbaycan prezidenti İlham Əliyev iftar mərasimində iştirak etmişdir.*

### Azərbaycan prezidenti İlham Əliyevin iftar mərasimində nitqi

Hörmətli şeyx həzrətləri!
Hörmətli din xadimləri!
Hörmətli xanımlar və cənablar!

Mübarək Ramazan ayında bizim görüşlərimiz gözəl ənənəyə çevrilibdir. Bu görüşlərdə biz öz ürək sözlərimizi deyir, fikir mübadiləsi aparırıq. Bu görüşlər əslində Azərbaycan cəmiyyətində hökm sürən inkişafdan xəbər verir, nə qədər vahid cəmiyyət olduğunu bir daha göstərir. Azərbaycanda din dövlətdən ayrıdır, eyni zamanda, dövlət və din arasında möhkəm birlik vardır. Bu birliyin təməlini ulu öndər Heydər Əliyev və hörmətli şeyx həzrətləri qoymuşlar. Onların dostluğu, bir-birinə olan münasibəti və Azərbaycan naminə gördükləri işlər bu gün də gözəl ənənə olaraq şeyx həzrətləri və mənim tərəfimdən davam etdirilir.

Azərbaycanda bütövlükdə Heydər Əliyev siyasəti bütün sahələrdə uğurla davam etdirilir. Bugünkü həyat, bugünkü Azərbaycanın reallıqları bunu əyani şəkildə sübut edir. Azərbaycan düzgün yolla gedir, hərtərəfli inkişaf edir. Din-

lərarası münasibətlərdə Azərbaycan dünya miqyasında nümunə sayıla bilər. Bu, Azərbaycan reallıqlarını dərindən bilən insanlar tərəfindən də bu cür qəbul edilir. Azərbaycan xalqı öz dini və milli ənənələrinə, milli mənəvi dəyərlərinə sadiq xalqdır. Azərbaycanda bütün dinlərin, bütün millətlərin nümayəndələri bir ailə kimi yaşayır. Dinlərarası münasibətlərin yüksək səviyyədə olması bizim dövlətçiliyimizi, müstəqilliyimizi möhkəmləndirir, Azərbaycanın dünya birliyinə inteqrasiya proseslərinə əlavə təkan verir. Eyni zamanda, Azərbaycan reallıqları və Azərbaycanda millətlərarası və dinlərarası münasibətlərin dərin təhlili onu göstərir ki, bu gözəl nümunə başqa ölkələrdə də istifadə oluna bilər.

Təsadüfi deyil ki, Bakı şəhəri 2009-cu ildə islam mədəniyyətinin paytaxtı seçilmişdir. Onu da qeyd etmək istəyirəm ki, bu şərəfli ad bir neçə il bundan əvvəl verilməyə başlamışdır. Azərbaycanın paytaxtı Bakı bu şərəfli ada layiq ola bilmişdir. Bu müddət ərzində Azərbaycan dövləti islam həmrəyliyinin möhkəmləndirilməsi üçün, islam dövlətləri arasında dostluq, qardaşlıq münasibətlərinin dərinləşməsi üçün çox böyük işlər görmüşdür. Bütün dinlərin nümayəndələri Azərbaycanda sərbəst, azad, bir ailə kimi yaşayır. Bizim ölkəmizdə sözün əsl mənasında vicdan azadlığı hökm sürür və bütün başqa azadlıqlar da Azərbaycanda mövcuddur.

Bizim inkişaf istiqamətlərimiz müxtəlifdir və onların hamısı bir-biri ilə bağlıdır. Güclü iqtisadiyyat, güclü sosial siyasət, vətəndaş cəmiyyətinin möhkəmləndirilməsi, qanunun aliliyinin bərqərar olunması, demokratiyanın inkişafı, siyasi islahatların aparılması və dərinləşməsi – bütün bunlar Azərbaycanı hərtərəfli inkişaf etdirmək üçün vacib amillərdir. Bizim ölkəmiz dünya miqyasında böyük hörmətə malikdir, dostlarımızın, tərəfdaşlarımızın sayı artır.

2009-cu ilin birinci yarısında və keçən ilin sonunda yaşanan və davam edən maliyyə böhranı bir daha onu göstərdi ki, kim nəyə qadirdir. Azərbaycan nadir ölkələrdəndir ki, çətinliklərə baxmayaraq iqtisadiyyatı bu ilin altı ayında

inkişaf etmişdir. İqtisadiyyat təxminən 4 faiz artıbdır və bu bir daha onu göstərir ki, ölkəmizdə 1993-cü ildən başlamış və hazırda davam etdirilən islahatlar öz bəhrəsini verir. Biz bir daha həm özümüzə, həm də dünyaya sübut edə bilmişik ki, Azərbaycan qüdrətli ölkədir.

Baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşübdür, bizim iqtisadiyyatımız inkişaf edir. Qeyri-neft sektoru inkişaf edir, sosial proqramlar icra edilir, onların icrasında yubanma yoxdur. Bu, bir daha bizim qüdrətimizi, gücümüzü göstərdi.

İctimai-siyasi vəziyyət, ölkəmizdə hökm sürən sabitlik, milli birlik, vahid ideya ətrafında birləşməyimiz, əlbəttə ki, Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açır. Bir daha demək istəyirəm ki, bütün bu nailiyyətlərlə bərabər, Azərbaycanda dinlərarası münasibətlərin, tolerantlıq abhavasının və tolerantlığın yüksək səviyyədə olması bizi daha da gücləndirir.

Biz beynəlxalq məsələlərin həllində də böyük uğurlar əldə etmişik. Bir daha demək istəyirəm ki, dostlarımızın sayı getdikcə artır və qarşılıqlı surətdə faydalı münasibətlərin dərinləşməsi həm bizim, həm də ki, bizə dost olan ölkələrin maraqlarına cavab verir. Xarici siyasətdə bizim qarşımızda yeganə böyük problem dayanıbdır. O da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllidir. Azərbaycan dövləti bu istiqamətdə bütün səyləri göstərir ki, məsələ tezliklə ədalətli və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunsun. Danışıqlar prosesi artıq ilk nəticələrini verməkdədir. Bu məsələ yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər. Dağlıq Qarabağda insanlar yüksək muxtariyyət statusu almaqla vahid Azərbaycan dövləti çərçivəsində yaşaya bilərlər. Bu gün bu prinsiplər əsas götürülübdür. Yəni danışıqlar bu prinsiplər əsasında aparılır və istənilən razılaşma ancaq bu prinsiplər əsasında ola bilər. Biz bütün dövrlərdə demişik və bu gün də deyirik ki, məsələ ancaq mərhələli yolla həll oluna bilər. Bu gün

danışıqlar mövzusu olan təkliflər məhz mərhələli həlli təmin edir. İşğal edilmiş bütün rayonlar ardıcıllıqla azad ediləcək, soydaşlarımız həmin rayonlara qayıdacaqlar. Orada bütün infrastruktur bərpa olunacaqdır və ondan sonra gələcək mərhələdə Dağlıq Qarabağın hüquqi statusu müəyyən ediləcəkdir. Dağlıq Qarabağın statusu olmalıdır, amma biz bu statusu Azərbaycanın ərazi bütövlüyündən kənarda görmürük və heç vaxt Azərbaycan dövləti buna razı olmayacaqdır. Bizim razılığımız olmadan heç vaxt heç kim heç bir statusu tanımayacaq və bir daha demək istəyirəm ki, danışıqlar prosesində əldə edilmiş bu mühüm nəticələr bizi daha da ruhlandırır. Biz, əlbəttə ki, bütün başqa imkanlardan da istifadə edərək, bu məsələnin tezliklə bizim xeyrimizə ədalətli şəkildə həll olunmasına nail olmalıyıq. Beynəlxalq hüquq prinsipləri tam şəkildə bizim mövqeyimizi müdafiə edir, iqtisadi potensial bizim tərəfimizdədir və bu böhranlı aylar bunu bir daha göstərir ki, kim nəyə qadirdir, kim öz hesabına yaşaya bilir, kimsə başqa tərəfdən yardım olmadan yaşaya bilmir.

Son illərdə Azərbaycanda hərbi potensial böyük dərəcədə gücləndirilibdir və bunu hamı bilir. Biz siyasi, diplomatik səylərimizi davam etdirəcəyik. Dünya miqyasında Azərbaycanın mövqeyi üstünlük təşkil edir. Biz informasiya mübarizəsində də üstünlük əldə etmişik. Biz istəyirik ki, məsələ tezliklə sülh yolu ilə həll olunsun, ancaq hər zaman olduğu kimi, bütün başqa variantlara da hazırıq.

Mən bu gözəl gündə hörmətli şeyx həzrətlərinə öz minnətdarlığımı bildirmək istəyirəm. Həm ona görə ki, bizi ənənəvi olaraq bu iftar süfrəsinə dəvət edib, həm də ona görə ki, şeyx həzrətlərinin ölkə daxilindəki və beynəlxalq müstəvidəki fəaliyyəti çox uğurludur, çox qiymətlidir. Mən bu fəaliyyəti yüksək qiymətləndirərək, iki gün əvvəl şeyx həzrətlərini Azərbaycan dövlətinin yüksək mükafatı olan «Şərəf» ordeni ilə təltif etmişəm. Müxtəlif dövlət başçıları ilə aparılan söhbətlərimdə hər zaman şeyx həzrətləri haqqında

qarşı tərəfdən səslənən müsbət fikirlər məni çox sevindiribdir. Bu, şeyx həzrətlərinin insani xüsusiyyətləridir, onun qabiliyyətidir, onun Azərbaycan xalqına, Azərbaycan dövlətçiliyinə nə qədər sadiq olduğunun bariz nümunəsidir. Sirr deyil ki, dinlərarası münasibətlərdə şeyx həzrətlərinin böyük rolu vardır. O, böyük hörmətə malikdir və istər müsəlman ölkələrinə, istər başqa ölkələrə səfər edərkən bir çox hallarda şeyx həzrətləri haqqında söhbət açılır və mən ona, sözün əsl mənasında, böyük rəğbət görürəm.

İki gün əvvəl şeyx həzrətləri öz yubileyini qeyd etmişdir. Mən onu hər il olduğu kimi, telefonla təbrik etmişdim, bu gün də şəxsən bir daha təbrik etmək istəyirəm. Hörmətli dostum, sizə gələcək fəaliyyətinizdə uğurlar, cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, belə görüşlər, bu gözəl ənənə davam etsin və hər il biz sizinlə bərabər bu gözəl, mübarək Ramazan ayını qeyd edək.

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ FERİDUN SİNİRLİOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 avqust 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 29-da Türkiyənin Xarici İşlər nazirinin birinci müavini Feridun Sinirlioğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyənin Xarici İşlər nazirinin birinci müavini Feridun Sinirlioğlu Türkiyə prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Sonuncu dəfə 2001-ci ildə Azərbaycanda səfərdə olduğunu bildirən qonaq ötən dövr ərzində ölkəmizdə çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Görüşdə ikitərəfli münasibətlər, beynəlxalq aləmdə birgə əməkdaşlıq, regional məsələlərə dair fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə prezidenti Abdullah Gülün və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyənin prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.*

## MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

Hörmətli cənab Prezident!

Mavritaniya İslam Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mavritaniya arasındakı münasibətlər dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Mavritaniya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 avqust 2009-cu il*

## BAKIDA DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN «SƏRHƏDÇİ» İDMAN OLİMPİYA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*31 avqust 2009-cu il*

*Avqustun 31-də Bakının Xətai rayonunda Dövlət Sərhəd Xidmətinin (DSX) «Sərhədçi» İdman Olimpiya Mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev Ali Baş Komandana raport verdi.*

*Sərhədçilərə göstərilən diqqət və qayğıya, yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkür edən DSX-nin rəisi bildirdi ki, «Sərhədçi» İdman Olimpiya Mərkəzi 3 hektar ərazidə inşa olunmuşdur və tikintinin ümumi sahəsi 37.300 kvadratmetrə bərabərdir. Mərkəz üçmərtəbəli universal zaldan, idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün 2 açıq meydançadan, üzgüçülük hovuzundan, avtomobil dayanacağından, yardımçı binalardan və mehmanxanadan ibarətdir. Ərazidə quraşdırılmış 4 ekran vasitəsilə Mərkəzdə eyni vaxtda keçiriləcək ayrı-ayrı yarışlar nümayiş etdiriləcəkdir. Ərazidə abadlaşdırma və yaşıllaşdırma işləri aparılmış, çəmənliklər salınmış, dekorativ ağac və kollar əkilmişdir. .*

*Mərkəzdə İtaliya istehsalı olan panoramalı iki lift quraşdırılmışdır. İşıqlandırma və yanğından mühafizə sistemləri də mükəmməlliyi ilə seçilir. «Qaraçay» şirkəti tərəfindən aparılmış inşaat işləri zamanı yerli və xarici ölkələrin tikinti materiallarından istifadə olunmuşdur. Burada eyni vaxtda 32 idman növü ilə məşğul olmaq mümkündür.*

*Mərkəzin xidmətlərindən sərhədçilərlə yanaşı, «Sərhədçi» idman klubuna üzv olacaq soydaşlarımız və paralimpiyaçı idmançılarımız da yararlana biləcəklər.*

*Dövlətimizin başçısı Mərkəzin açılışını bildirən lenti kəsdi, burada yaradılmış şəraitlə tanış oldu.*

*Prezident İlham Əliyevə baş plan əsasında İdman Olimpiya Mərkəzi barədə məlumat verildi. Qeyd olundu ki, tikintisinə 2007-ci ildə başlanan və qısa müddətdə başa çatdırılan bu idman qurğusunda 2500 nəfər tamaşaçı tutumu olan universal zalla yanaşı, birinci mərtəbədə hovuz, fitnes salonu, idmanın ağır atletika, bədii gimnastika, müxtəlif döyüş növləri üzrə məşq zalları, məşqçilər üçün otaqlar, sauna, anbarlar və camaşırxana vardır. Dövlətimizin başçısı ağır atletika və trenajor zalında yaradılmış şəraitlə tanış oldu, universal zalda yeniyetmə və gənc idmançıların nümunəvi çıxışlarına baxdı.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Mərkəzdəki universal zal xüsusi layihə əsasında inşa olunmuşdur. Burada bənzəri olmayan metal konstruksiyadan ibarət dayaqsız örtük tətbiq olunmuşdur. Bu günbəzin diametri 53 metr, çəkisi 360 tondur. Onun öz çəkisi ilə birlikdə yükgötürmə qabiliyyəti 900 tona çatır. Almaniya avadanlığı quraşdırılmış günbəz vasitəsilə bu zala avtomatik olaraq təbii hava da veriləcəkdir. Günbəzdə yerləşdirilmiş pəncərələr istənilən vaxt avtomatik qaydada açılacaq və bura təmiz hava daxil olacaqdır.*

*Mərkəzin ikinci mərtəbəsində kafe, güləş və Şərq döyüş növləri üzrə məşq zallarında, soyunub-geyinmə, məşqçilər və həkim heyəti üçün otaqlarda yaradılmış şərait xoş təəssürat doğurdu.*

*Üçüncü mərtəbədə komutator otağı, şahmat-dama, stolüstü tennis və bilyard zalları, konfrans salonu, muzey, fəxri qonaqlar üçün loja yerləşir.*

*Dövlətimizin başçısı konfrans salonu və muzeylə tanış oldu. Ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin idmançılara diqqət və qayğısını əks etdirən fotostendlər, sərhədçi idmançıların müxtəlif yarışlarda əldə etdikləri müka-*

*fatlar, dövlətimizin başçısının ölkədə idmanın inkişaf etdirilməsi və maddi-texniki bazasının gücləndirilməsi barədə sərəncamlarının surətləri muzeyin eksponatları sırasındadır. Prezident İlham Əliyev burada «Sərhədçi» İdman Olimpiya Mərkəzində tikinti-quruculuq işlərinin lentə alındığı video görüntülərə baxdı.*

*Universal zalla tanışlıqdan sonra dövlətimizin başçısı sərhədçiləri təbrik edərək dedi.*

Salam sərhədçilər!

Mən sizin hamınızı bu gözəl «Sərhədçi» İdman Olimpiya Mərkəzinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl idman qurğusu Azərbaycan xalqına xidmət edəcəkdir. Müasir üslubda, qısa müddətdə tikilmiş bu idman mərkəzi ən yüksək standartlara cavab verir. Burada müxtəlif idman növləri ilə məşğul olmaq, böyük, mötəbər beynəlxalq yarışları keçirmək mümkün olacaqdır. Azərbaycanın yeniləşən, yaradılan müasir idman infrastrukturunun inkişafına «Sərhədçi» Olimpiya Mərkəzinin çox böyük töhfəsi olacaqdır. Son illər ərzində Azərbaycanda idman infrastrukturu sürətlə yaradılıb, böyük idman qurğularımız vardır. Bu möhtəşəm olimpiya mərkəzinin imkanları da bizə tam kifayət edəcəkdir. Burada ən mötəbər idman yarışları keçirmək mümkündür.

Azərbaycanda ən böyük qapalı idman mərkəzi Heydər Əliyev adına İdman-Konsert Kompleksidir. Onun tutumu 8 min yerdən ibarətdir. Bu yaxınlarda Bakıda Gimnastika Kompleksinin təməl daşı qoyulmuşdur. O kompleksin tutumu 6 min yer olacaqdır. Burada isə 2500-ə qədər tamaşaçı iştirak edə bilər. Yəni gələcəkdə Azərbaycanda müxtəlif idman növləri üzrə mötəbər beynəlxalq yarışları keçirmək üçün bütün şərait vardır.

Burada məşqlər çox ciddi təşkil edilməli, idman bölmələrində uşaqlar, yeniyetmələr, gənc idmançılar öz məharətlərini artırmalıdırlar. Xətai rayonunun və Bakının digər rayonlarının sakinləri bu imkanlardan səmərəli istifadə et-

məlidirlər. Həm məşq etmək, həm də idmanla məşğul olmaq üçün burada gözəl idman qurğuları, qapalı, açıq meydançalar, futbol meydançası, üzgüçülük hovuzu, döyüş idman növləri üçün zallar, şahmat, stolüstü tennis zalları vardır. Yəni demək olar ki, burada bütün əsas idman növləri ilə məşğul olmaq mümkün olacaqdır. Əminəm ki, bu Mərkəzdə öz peşəkarlığını artıran gənclər gələcəkdə Azərbaycanın idman şöhrətini yüksəldəcəklər.

Azərbaycan idman dövlətidir. İdmançılarımız son Olimpiya oyunlarından böyük qələbə ilə Vətənə qayıtmışlar. İdmançılarımız Olimpiya oyunlarından sonra müxtəlif beynəlxalq yarışlarda, o cümlədən Avropa və dünya çempionatlarında, dünya kuboku uğrunda yarışlarda böyük qələbələr qazanmışlar. Avarçəkmə üzrə dünya çempionatında bizim idmançılarımız tarixdə ilk dəfə qızıl, gümüş və bürünc medallar qazanmışlar. Bu onu göstərir ki, Azərbaycanda idman hərtərəfli inkişaf edir. Mingəçevirdə müasir və bütün MDB məkanında nadir avarçəkmə bazası yaradılır. O da böyük bir mərkəzdir. Burada həm beynəlxalq yarışlar keçiriləcək, həm də idmançılar məşq edəcəklər. Azərbaycanda idman bundan sonra da sürətlə inkişaf edəcəkdir.

Sərhəd Xidmətinin infrastrukturunun, maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Azərbaycanda çox böyük işlər görülübdür. Ən müasir avadanlıq, döyüş texnikası alınıb, sərhəd bazaları yaradılıb. Dəniz sərhədlərimiz lazımi səviyyədə qorunur və yeni alınan texnika, avadanlıq, hərbi bazalar bu məqsədi təmin edir. Sevindiricidir ki, maddi-texniki bazanın möhkəmləndirilməsi ilə yanaşı, sərhədçilərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün də lazımi tədbirlər görülür. Bu gün gözəl idman mərkəzi istifadəyə verilir. Əminəm ki, sərhədçilər bundan sonra da Vətənə dəyərli xidmət göstərəcəklər. Bir daha bütün idmançıları, sərhədçiləri bu möhtəşəm Olimpiya Mərkəzinin açılışı münasibətilə təbrik edirəm.

## AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQININ BİNASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*1 sentyabr 2009-cu il*

*Sentyabrın 1-də Azərbaycan Bəstəkarlar İttifaqının Bakının Xaqani küçəsi, 27 ünvanında yerləşən binasının əsaslı təmir və yenidənqurmadan sonra istifadəyə verilməsi mərasimi keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva mərasimdə iştirak etmişlər. Mehriban xanıma və Leyla xanıma gül dəstələri təqdim olundu.*

*Prezident İlham Əliyev əvvəlcə ümummilli lider Heydər Əliyevin incəsənət xadimlərinə qayğısını əks etdirən fotostendə baxdı. Dövlətimizin başçısı binanın təmir və yenidənqurmadan əvvəlki görkəmini əks etdirən şəkillərlə tanış oldu.*

*Binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, 1912-ci ildə inşa olunmuş bu üçmərtəbəli memarlıq abidəsi əsaslı şəkildə yenidən qurulmuşdur. Bildirildi ki, əvvəllər bina dağ-mədən sənayesi işçilərinin mədəniyyət sarayı, sonralar isə pionerlər evi kimi fəaliyyət göstərmiş, 1964-cü ildə Bəstəkarlar İttifaqının istifadəsinə verilmişdir. 1991-ci ilin avqustundan burada əvvəlcə Türkiyə Respublikasının konsulluğu, sonra isə səfirliyi yerləşmişdir.*

*Azərbaycan prezidentinin tapşırığı ilə Nazirlər Kabinetinin 2008-ci il 14 aprel tarixli Sərəncamına əsasən bina Bəstəkarlar İttifaqının istifadəsinə verilmişdir.*

*Prezident İlham Əliyevin «Azərbaycan Bəstəkarlar İttifaqı üzvlərinin yaradıcılıq şəraitinin yaxşılaşdırılması haqqında» 2007-ci il 12 mart tarixli Sərəncamına uyğun olaraq, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən burada yüksək səviyyədə əsaslı təmir və yenidənqurma işləri aparılmışdır.*

*Təmir və yenidənqurma işlərinə Azərbaycan prezidentinin ehtiyat fondundan 2 milyon manat vəsait ayrılmışdır. Bundan əlavə, İttifaqa ayrılmış 1 milyon manat vəsait hesabına musiqi alətləri, müasir texniki avadanlıqlar alınmışdır.*

*Binada yaradılmış şəraitlə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, əsaslı təmir və yenidənqurmadan sonra burada 40-a yaxın müxtəlif təyinatlı otaq, müasir konsert salonu, konfrans zalı, kitabxana, musiqi fondu və inzibati otaqlar istifadəyə verilmişdir.*

*Təmir və yenidənqurma zamanı yerli və xarici tikinti materiallarından istifadə olunmuşdur. Binanın müasir havalandırma sistemi vardır. Otaqların tavanı, döşəmə yenidən qurulmuş, qapı və pəncərələr yeniləri ilə əvəz edilmişdir. Birinci və ikinci mərtəbələrin arasındakı pilləkən qəfəsində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli qoyulmuşdur.*

*Binanın üçüncü mərtəbəsində 120 nəfərlik kamera musiqisi salonu fəaliyyət göstərəcəkdir. Müasir avadanlıqla təchiz olunmuş salonda yaradıcılıq gecələri, müəllif konsertləri, beynəlxalq tədbirlər təşkil ediləcək, sənət adamları ilə görüşlər keçiriləcəkdir. Burada İttifaqın yeni yaradılmış beynəlxalq əlaqələr bölməsi və region şöbələri üçün otaqlar ayrılmışdır.*

*Prezident İlham Əliyevin İttifaqın maddi-texniki bazasının yaxşılaşdırılması ilə bağlı imzaladığı sərəncama əsasən bina müasir tələblərə cavab verən zəruri avadanlıqlarla təmin olunmuşdur. Yeni yaradılan böyük konsert salonu üçün əsasən Almaniya istehsalı olan musiqi alətləri alınmışdır. İlk dəfə olaraq rəqəmsal kompyuter musiqi sistemi ilə təchiz olunmuş səsyazma studiyası da yaradılmışdır. Bu, musiqişünasların yeni layihələr həyata keçirmələrinə, müxtəlif yaradıcı qurum-*

*larla mütəmadi görüşlər təşkil etmələrinə və səmərəli əməkdaşlıq əlaqələri qurmalarına yaxşı imkan yaradacaqdır.*

*Prezident İlham Əliyev kamera musiqisi salonunda Bəstəkarlar İttifaqı katibliyinin üzvləri – Aqşin Əlizadə, Ramiz Zöhrabov, Eldar Mansurov və Lalə Hüseynova ilə görüşdü. Gənc bəstəkarlar Əli Məmmədov və Vurğun Vəkilov öz əsərlərini fortepianoda məharətlə ifa etdilər.*

*Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə tarixi binanın yenidən onların istifadəsinə verilməsini və yüksək səviyyəli təmir-bərpa işlərinin aparılmasını bəstəkarların dərin razılıq hissi ilə qarşıladıqlarını bildirdi.*

**F i r ə n g i z Ə l i z a d ə:** Möhtərəm cənab Prezident!

Əziz və hörmətli Mehriban xanım!

Bu gün Azərbaycan paytaxtının mədəni, musiqi, ictimai həyatında əlamətdar bir gündür. Sizin tarixi sərəncamlarınızdan sonra gərgin və səmərəli işlər aparılmışdır. Nəhayət, Azərbaycan Bəstəkarlar İttifaqı uzun kəşməkəşli illərdən sonra öz doğma evinə, ocağına qayıtmışdır. Bütün bəstəkarlarımız və musiqişünaslarımız, bütün musiqisevərlər Sizə dərin minnətdarlıqlarını ifadə etmək istəyirlər.

Son illərdə Heydər Əliyev Fondunun təşəbbüsü, şəxsən Mehriban xanımın səyləri ilə Azərbaycan muğamı daim dünya səhnələrini fəth edir. Buna mart ayında keçirilmiş Birinci Beynəlxalq Muğam Festivalı parlaq bir nümunədir.

*Əlamətdar mədəni hadisə münasibətilə bəstəkarları təbrik edən prezident İlham Əliyev Azərbaycan klassik musiqi sənətinin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirərək dedi:*

– Mən sizi Bəstəkarlar İttifaqının binasının əsaslı təmirdən sonra açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu doğrudan da böyük hadisədir. Biz tarixi ədaləti bərpa etdik. Təxminən 20 ildən sonra bəstəkarlar öz doğma evinə qayıdıblar. Bina, əlbəttə ki, çox böyük tarixi məna daşıyır. Siz qeyd etdiniz, Azərbaycanın dahi bəstəkarları və musiqi aləmində dünyamiqyaslı şöhrətə sahib olan insanlar bu binada yaşayıblar, çalışıblar, yaradıblar, burada konsertlər, qurul-

taylar keçirilib və indi binaya yeni həyat verilir. Əminəm ki, bəstəkarlar bu binada səmərəli işləyəcəklər, çalışacaqlar, yeni gözəl əsərlərini yaradacaqlar və Azərbaycanın musiqi sənətini daha sürətlə inkişaf etdirəcəklər.

Bu yaxınlarda Rəssamlar İttifaqının binası təmir olunaraq təhvil verildi. Bu bina ilə yanaşı yerləşən Yazıçılar Birliyinin binasını da təmir etdik. Bakı gözəlləşir, Bakının bütün gözəl binaları öz tarixi simasını saxlamaqla yeniləşir, müasirləşir. Bu binanın isə xüsusi taleyi olmuşdur. Təxminən 20 il ərzində bəstəkarlar başqa yerdə məskunlaşmışlar. Ancaq biz tarixi ədaləti bərpa etdik, bina yenidən bəstəkarlara qayıdır və bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Bütövlükdə Bakının bu tarixi ərazisində çox abadlıq işləri aparılıb. Sahil bağı yenidən qurulub və bu yenidənqurma, abadlıq işləri nəticəsində bir tərəfdən Azərbaycan xalqına yad olan, bizim milli şüurumuza zidd olan vaxtilə qoyulmuş abidə buradan götürülüb və gözəl fəvvarələr kompleksi yaradılıb. Bu həm gözəllikdir, həm bizim tarixə olan ədalətli münasibətimiz, Azərbaycan xalqının iradəsi və tarixi ədalətin bərpasıdır. Bax, bu binanın yenidən bəstəkarlara verilməsi və ətrafda yerləşən bütün binaların bərpası da bu mənanı daşıyır. Mən bir daha sizi ürəkdən təbrik edirəm, cansağlığı, yeni uğurlar arzulayıram.

* * *

*Sonra dövlətimizin başçısı binanın birinci mərtəbəsində yerləşən konfrans zalı ilə tanış oldu. Burada quraşdırılmış monitorda Bəstəkarlar İttifaqının sədrləri haqqında videofilmə baxdı. Yaradılmış şəraitə görə prezident İlham Əliyevə minnətdarlıqlarını bildirən tanınmış musiqi xadimləri, bəstəkarlar bunu dövlətimizin başçısının Azərbaycan musiqisinə və incəsənətinə qayğısının nümunəsi kimi qiymətləndirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN HACIQABUL RAYONUNA SƏFƏRİ

*3 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Hacıqabul rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə rayon mərkəzindəki Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoymuşdur.*

*Prezident İlham Əliyevə məlumat verən rayon icra hakimiyyətinin başçısı Əhməd Muxtarov dedi ki, açılışı 2008-ci il mayın 10-na – ulu öndərin doğum gününə təsadüf edən parkın ümumi sahəsi 1,5 hektardır. Burada geniş abadlıq-quruculuq işləri aparılmış, yaşıllıq zolağı salınmış, fəvvarələr quraşdırılmışdır. Müasir formada işıqlandırılmış Heydər Əliyev parkında sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı rayonda aparılan abadlıq və yaşıllaşdırma tədbirləri ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

### Heydər Əliyev Muzeyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 3-də Hacıqabul şəhərində Heydər Əliyev Muzeyi ilə tanış olmuşdur.*

*Heydər Əliyev parkının ərazisində yerləşən muzey 2008-ci ildə inşa olunmuşdur. Ümumi sahəsi 204 kvadratmetr olan muzeydəki eksponatlar ulu öndərin müxtəlif dövrlərdə respublikamızın inkişafı ilə bağlı həyata keçirdiyi tədbirlərin ayrı-ayrı məqamlarını, xarici səfərlərini əks etdirir. Muzeydə ulu öndərin uşaqlıq və gənclik illərinə aid şəkillər, ötən əsrin*

*70–80-ci illərində və müstəqilliyini bərpa etdikdən sonra ölkəmizə rəhbərlik etdiyi dövrləri əhatə edən eksponatlar ayrı-ayrı bölmələrdə yerləşdirilmişdir. Muzeyə gələnlər burada quraşdırılan monitor vasitəsilə ümummilli liderin həyat və fəaliyyətini əks etdirən videoxronikaya da baxa bilirlər.*

*Dövlətimizin başçısı muzeylə tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

## Rayon Uşaq Tibb Mərkəzinin açılışı mərasimi

*Sentyabrın 3-də Hacıqabul Rayon Uşaq Tibb Mərkəzinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev Mərasimdə iştirak etmişdir.*

*Mərasimə toplaşan səhiyyə işçiləri, ictimaiyyətin nümayəndələri dövlətimizin başçısını böyük hörmət və ehtiramla, hərarətli alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev uşaq xəstəliklərinin qarşısının alınması, profilaktikası məqsədi ilə tikilən Mərkəzin açılışını bildirən lenti kəsdi və səhiyyə ocağı ilə yaxından tanış oldu.*

*Uşaq Tibb Mərkəzinin birinci mərtəbəsində poliklinika, stomatologiya, cərrahiyyə, oftalmologiya, travmatologiya şöbələri, nevropatoloq, LOR həkim kabinetləri, manipulyasiya, peyvənd, masaj, fizioterapiya və yeniyetmələr otaqları yerləşir. İkinci mərtəbədə isə qəbul, prosedur otaqları, yeməkxana vardır.*

*Mərkəzdə uşaqlar üçün əyləncə otağı və bufet də fəaliyyət göstərir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Uşaq Tibb Mərkəzində 17 həkim və 30 nəfərdən ibarət orta tibb heyətinin işləyəcəyi nəzərdə tutulmuşdur. Mərkəz Hacıqabul rayonu ilə yanaşı, qonşu rayonların da əhalisinə xidmət göstərəcəkdir.*

*Mərkəzin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı səhiyyə ocağının kollektivini təbrik etdi.*

**İ l h a m  Ə l i y e v:** Bu gözəl Uşaq Tibb Mərkəzinin açılışı münasibətilə sizi ürəkdən təbrik edirəm, uğurlar arzulayıram. Dünyada mövcud olan ən gözəl avadanlıq burada quraşdırılıb. Əminəm ki, uşaqlara bu Mərkəzdə çox gözəl tibbi xidmət göstəriləcəkdir. Hacıqabul rayonunda səhiyyə məsələlərinin həlli uğurla gedir. Xəstəxana istifadəyə verilibdir, indi isə Uşaq Tibb Mərkəzi. Elə etməliyik ki, Azərbaycanın bütün rayonlarında, bütün yaşayış məntəqələrində səhiyyənin səviyyəsi yüksək olsun və buna nail oluruq. Azərbaycanın müxtəlif yerlərində, müxtəlif bölgələrində ən müasir xəstəxanalar tikilir, ən gözəl avadanlıqla təchiz edilir və insanlara yaxşı tibbi xidmət göstərilir.

Azərbaycanda səhiyyə sistemində növbəti illərdə də vacib addımlar atılacaqdır. İldən-ilə səhiyyəyə ayrılan xərclər artır, infrastruktur yeniləşir, Bakıda və bütün bölgələrdə çox böyük elmi mərkəzlər yaradılır və bu proses davam edir. Biz elə etməliyik ki, növbəti bir neçə il ərzində Azərbaycanda səhiyyə sisteminin bütün infrastrukturunu lazımi səviyyəyə qaldıraq. Son illər ərzində görülmüş işlər deməyə əsas verir ki, biz buna nail olacağıq. Çünki görülən işlər göz qabağındadır. Azərbaycanın ən ucqar rayonlarında müasir, dünya səviyyəli tibb ocaqları yaradılır. Bu hər bir ölkənin ümumi inkişaf imkanlarını göstərir. Azərbaycanın səhiyyə sisteminə ayrılan vəsaitin və göstərilən diqqətin timsalında hamı görür ki, güclü iqtisadiyyat güclü sosial siyasətin təməlidir.

Son aylarda dünyanı maliyyə böhranı bürüməsinə baxmayaraq, Azərbaycan iqtisadiyyatı irəliyə gedir. Bu ilin altı ayında təxminən 4 faiz iqtisadi artım vardır. Büdcə gəlirlərimiz də lazımi səviyyədədir, büdcə xərcləri də vaxtında icra olunur. Sosial siyasətin uğurla davam etdirilməsi üçün Azərbaycanda iqtisadi islahatlar davam etdirilməlidir.

Son illərdə bütün bölgələrdə böyük quruculuq işləri aparılır. Bütün bölgələrdə müasir infrastruktur – məktəblər, tibb ocaqları, elektrik stansiyaları yaradılır, yollar, qaz xət-

ləri, su kəmərləri çəkilir, yəni insanın yaşaması üçün hər şey edilir. Biz bu inkişafı Hacıqabul rayonunun timsalında da görürük. Rayonda son 5 il ərzində müxtəlif məhsulların buraxılışı üç dəfə artıb, ümumi iqtisadi artım vardır. Bəzən bizdə – Azərbaycanda iqtisadi uğurlarımızı enerji sektoru ilə bağlayırlar. Amma baxın, Azərbaycanda qeyri-neft sektoru neft sektorundan daha böyük templərlə artır. Nə üçün?! Çünki biz öz imkanlarımızdan səmərəli istifadə edə bilmişik, infrastruktur layihələrinə vəsait ayırmışıq. Kənd təsərrüfatının, sahibkarlığın inkişafı üçün böyük vəsaitlər ayrılır, yardımlar edilir və beləliklə, Azərbaycan iqtisadiyyatı hərtərəfli inkişaf edir. Bu, hər bir ölkənin uğurunun təməlində dayanan məsələdir.

O ki qaldı sosial siyasətə, bu, artıq ölkələrin prioritetlərindən asılıdır. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq və bazar iqtisadiyyatının qanunları bəzən çox sərt olur. Ancaq biz bazar iqtisadiyyatının bütün prinsiplərini Azərbaycanda tətbiq etməklə yanaşı, elə etməliyik ki, güclü sosial müdafiə, sosial siyasət, insanlara qayğı olsun, belə gözəl tibb ocaqları tikilib istifadəyə verilsin. Bu da Azərbaycanda vardır və mən heç şübhə etmirəm ki, növbəti illərdə ölkəmiz daha da inkişaf edəcək, daha da güclənəcəkdir. Demək olar ki, dünyanı bürümüş maliyyə böhranı Azərbaycana çox az təsir göstərdi. Bunun da köklü səbəbləri var – düzgün iqtisadi siyasət, siyasi sabitlik, xalqla iqtidar arasında olan birlik və ölkəmizdə mövcud problemlərin vaxtında həlli.

Mən çox şadam ki, yenidən Hacıqabuldayam. Mən 2 il bundan əvvəl sizinlə bərabər bu gözəl Uşaq Tibb Mərkəzinin təməlini qoymuşam və çox şadam ki, 2 ildən sonra bu Mərkəzin açılışında sizinlə bərabər iştirak edirəm. Sizi bu əlamətdar hadisə münasibətilə bir daha ürəkdən təbrik edirəm və sizə uğurlar arzulayıram.

## Əsaslı bərpa və yenidənqurmadan sonra mədəniyyət evi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 3-də əsaslı yenidənqurma və bərpa işlərindən sonra Hacıqabul Rayon Mədəniyyət Evi ilə tanış olmuşdur.*

*Ötən əsrin ortalarında inşa olunan Hacıqabul mədəniyyət evinin binası əvvəllər dəmiryolçular klubu kimi fəaliyyət göstərmişdir. Uzun müddət baxımsızlıq üzündən yararsız vəziyyətə düşmüş mədəniyyət evi 10 il idi ki, fəaliyyət göstərmirdi. Prezident İlham Əliyev 2007-ci ilin avqustunda Hacıqabul rayonuna səfəri çərçivəsində bu mədəniyyət evinin yenidən qurulması layihəsi ilə tanış oldıqdan sonra Mədəniyyət və Turizm Nazirliyinə binanın əsaslı şəkildə təmir edilməsi ilə bağlı tapşırıqlarını vermişdir. 2008-ci ilin mayında başlanmış təmir-bərpa işləri qısa müddətdə başa çatdırılmışdır. İkimərtəbəli bina müasir tələblərə uyğun yenidən qurulmuşdur. Mədəniyyət evində xanəndəlik, rəqs və digər dərnəklər fəaliyyət göstərir. Binanın həyətyanı sahəsində yaşıllaşdırma işləri aparılmış, çoxlu ağac və dekorativ güllər əkilmişdir.*

*Mədəniyyət evində yenidənqurma və konstruksiya dəyişikliyi nəticəsində müasir tələblərə cavab verən 340 nəfərlik tamaşa zalı, qrim, rejissor və inzibati otaqlar tamamilə yeniləşmiş, müasir avadanlıqla təchiz edilmişdir. Tamaşa zalının səhnəsində müasir işıqlandırma və səs sistemləri quraşdırılmışdır. Avadanlıq Yaponiya, İtaliya, Almaniya və ABŞ-dan gətirilmişdir.*

*Prezident İlham Əliyev binanın foyesində ümummilli lider Heydər Əliyevə həsr olunmuş guşəyə baxdı. Foyedə Azərbaycan filmlərindən fraqmentləri əks etdirən fotoşəkillər asılmışdır.*

*Dövlətimizin başçısı mədəniyyət evindən səmərəli istifadə edilməsi ilə bağlı tövsiyələrini verdi.*

## Hacıqabul Kərpic zavodunun açılışı mərasimi

*Sentyabrın 3-də prezident İlham Əliyev Hacıqabulda kərpic zavodunun açılışında iştirak etmişdir.*

*Zavodun kollektivi dövlətimizin başçısını hərarətlə qarşıladı.*

*Azərbaycan prezidenti zavodu işə saldı, müəssisə ilə yaxından tanış oldu, istehsal prosesini izlədi.*

*Məlumat verildi ki, yeni zavodun inşasına «R–Turan» MMC-nin sifarişi ilə ötən ilin iyulunda başlanılmışdır. İnşaat işləri yerli şirkətlər tərəfindən yüksək səviyyədə həyata keçirilmişdir. Müəssisənin tikintisində ayda orta hesabla 220 işçi çalışmışdır. Zavodun ümumi sahəsi 5 hektardır. Buraya qapalı istehsalat korpusu, inzibati bölmə və mehmanxananın yerləşdiyi bina, avtomobil dayanacağı və digər yardımçı binalar daxildir.*

*Bölmənin foyesində ümummilli lider Heydər Əliyev və prezident İlham Əliyevin fəaliyyətləri barədə fotostendlər yaradılmışdır.*

*Müəssisənin fəaliyyətini Bakı ilə yanaşı, Çexiyadan da izləmək olar. Bu əməliyyatı mobil telefon vasitəsilə həyata keçirmək mümkündür.*

*Yeni zavodun inşasına 3,5 milyon, maşın və mexanizmlərin alınmasına 700 min manat vəsait xərclənmişdir. Yaponiya, İtaliya, Almaniya, Polşa və Çexiya istehsalı olan müasir avadanlığın quraşdırıldığı müəssisənin illik istehsal gücü 30 milyon şərti kərpicdir. Burada gündə 8 çeşiddə 300 ton bişmiş kərpic istehsal edilir. Gələcəkdə istehsal gücünün artırılması nəzərdə tutulur. İstehsalatda 75 nəfər daimi işlə təmin olunmuşdur. İkinövbəli iş rejimi tətbiq edildikdən sonra işçilərin sayını artırmaq nəzərdə tutulur. Xammalın götürüldüyü ərazinin zavoda yaxın olması hazır məhsulun maya dəyərinin aşağı olmasına imkan verir. Müxtəlif ölçülərdə kərpiclərin kəsilməsi və qəlibdən çıxan kərpiclərin qurğuya yığılması*

*proseslərini robotlar yerinə yetirir. Zavodun Almaniya istehsalı olan 4 yük avtomobili də vardır.*

*Azərbaycanda ilk dəfə bu müəssisədə istehsal ediləcək böyük ölçülərdə və yeni növ kərpiclər həm divar, həm də tavan üçün nəzərdə tutulur. Zavodun bütün fəaliyyəti mərkəzləşdirilmiş proqramla robotlar vasitəsilə həyata keçirilir. Zavodda avtomatik aerodinamika sistemi quraşdırılmışdır.*

*Prezident İlham Əliyev istehsal sexinin idarəetmə mərkəzi ilə də tanış oldu. Bildirildi ki, sexdəki bütün avadanlıq və robotların fəaliyyəti bu mərkəzdən idarə olunur.*

*Zavodun fəaliyyəti ilə tanış olan dövlətimizin başçısı kollektivlə görüşdü və onları təbrik etdi:*

– Kərpic zavodunun açılışı münasibətilə sizi təbrik edirəm. Azərbaycanda son illər ərzində bir neçə kərpic zavodu tikilmişdir. Amma bu kərpic zavodu o biri zavodlardan fərqlənir. Burada tam avtomatlaşdırma sistemi qurulub. Mən gəzdim, baxdım, gördüm ki, burada ən müasir texnologiya tətbiq olunub, müəssisə yüksək keyfiyyətlə tikilib. Burada quraşdırılan robotlar, yeni avadanlıq, kompyuter texnologiyaları müasirlikdir, yenilikdir, Azərbaycanın inkişafıdır, istehsal mədəniyyətidir.

Azərbaycanda istehsal artır, sənaye istehsalı bu il də artıb. Baxmayaraq ki, dünyada əksər ölkələrdə sənaye istehsalı aşağı düşür, Azərbaycanda isə artım vardır. Kərpic zavodunun tikintisi o deməkdir ki, inşaat sektorunun inkişafı davam edir. Əgər belə olmasaydı, kərpic zavodunun tikintisinə ehtiyac olmazdı. Çox şadam ki, belə gözəl zavod Hacıqabulda tikilib. Bölgələrin, regionların inkişafı sürətlə gedir və belə yeni, gözəl müəssisələrin yaradılması bizim regional proqramın uğurla icrasını təmin edir.

Azərbaycanda son illər ərzində minlərlə yeni müəssisə yaradılıb, yerli istehsal artıb, idxal azalıb. Biz özümüzü, demək olar ki, kənd təsərrüfatı məhsulları ilə maksimum dərəcədə təmin edirik. Azərbaycanda inşaat materialları istehsal olunur, yeni sənaye sahələri yaradılır. Çox sevindiricidir ki,

bu müddətdə, bu mərhələdə Azərbaycanda yaradılan yeni istehsal sahələri artıq dünyanın ən yüksək standartlarına cavab verir. Əminəm ki, bu kərpic zavodu dünyanın ən inkişaf etmiş ölkələrindəki oxşarlarından fərqlənmir. Burada yüksək istehsal keyfiyyəti, istehsal mədəniyyəti mövcuddur. Böyük investisiyalar qoyulub, bu maşınlar çox bahalı maşınlardır. Tikintiyə də böyük investisiyalar qoyulubdur. Bu onu göstərir ki, yerli sahibkarlar tam əmindirlər – Azərbaycanda iqtisadi inkişaf davam edəcək, Azərbaycanda ictimai-siyasi vəziyyət həmişəki kimi çox yüksək səviyyədə olacaqdır. Siyasi sabitlik iqtisadi inkişafın başlıca şərtidir. Ölkəmizin regionlarının inkişafı bizim bütün iqtisadi və siyasi potensialımızı gücləndirir.

Mən bir daha sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm və sizə işinizdə uğurlar arzulayıram.

## MƏŞHUR RUSİYALI MÜĞƏNNİ ALLA PUQAÇOVANIN KONSERTİNDƏ

*Heydər Əliyev sarayı*

*4 sentyabr 2009-cu il*

*Sentyabrın 4-də Heydər Əliyev sarayında Rusiya estradasının ulduzu, SSRİ-nin və Rusiya Federasiyasının Xalq artisti Alla Puqaçovanın konserti olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva konsertdə olmuşlar.*

*Saraya toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Bakıya növbəti səfərinə görə hədsiz xoşbəxt olduğunu deyən müğənni paytaxtımızda gəzintiyə çıxdığını, şəhərimizin daha da gözəlləşdiyini söylədi. «Siz xoşbəxtsiniz ki, Bakınız belə inkişaf edir, gözəlləşir. Bakıda müsbət mənada baş verən dəyişikliklər məni ürəkdən sevindirir. Vurğunu olduğum Bakının inkişafına görə prezident İlham Əliyevə minnətdarlığımı bildirirəm», deyən müğənni bu konsertin bakılı pərəstişkarları ilə sonuncu görüşü olduğunu bəyan etdi. Dedi ki, gələcəkdə fəaliyyətini kino, teatr və radioda davam etdirəcəkdir.*

*Konsertdən sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Alla Puqaçova ilə görüşdülər.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında mədəni əlaqələrin inkişafında xüsusi xidmətlərinə görə Alla Puqaçovaya respublikamızın ali mükafatını – «Dostluq» ordenini təqdim etdi.*

*Konsertin maraqlı keçdiyini qeyd edən dövlətimizin başçısı Alla Puqaçovaya gələcək fəaliyyətində uğurlar və cansağlığı arzuladı.*

*Məşhur müğənni ordenə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi.*

**BOLQARISTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB GEORGİ PIRVANOVA**

Hörmətli cənab Prezident!

Makedoniyanın Ohrid gölündə gəzinti gəmisinin qəzaya uğraması nəticəsində həmvətənlərinizin həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Bolqarıstan xalqına şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2009-cu il*

**MAKEDONİYA RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB GYORGE İVANOVA**

Hörmətli cənab Prezident!

Ohrid gölündə baş vermiş gəmi qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbərini kədər hissi ilə qarşıladım.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 sentyabr 2009-cu il*

## HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2009-cu il*

*Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Nərimanov rayonunda tikilən Heydər Əliyev Mərkəzində olmuşdur. Prezident inşaat sahəsini gəzmiş və aparılan tikinti-quraşdırma işlərinin gedişi ilə yaxından tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, Heydər Əliyev Mərkəzinin tikintisi ümumilikdə 15,25 hektar sahəni əhatə edir və artıq avtomobil dayanacağının dəmir-beton, elektrotexnika işləri tam başa çatdırılmışdır. Bildirilmişdir ki, Mərkəzin əsas binasının tikintisinə 2008-ci ilin əvvəlində başlanılmışdır və burada işlər davam etdirilir. Əsas binada dəmir-beton işləri 85 faiz yerinə yetirilmişdir. Mərkəzin zirzəmi hissəsində tamamlama, elektrotexnika işləri yekunlaşmaq üzrədir. Avtomobil dayanacağını əsas bina ilə birləşdirən dördmərtəbəli keçid tuneli, əsas binaya gedən yol, kommunikasiya mərkəzi və təchizat qalereyasında dəmir-beton, elektrik işləri tam başa çatdırılmışdır. Landşaft sahəsinin avtomobil parkı üzərindəki hissəsində tikinti-abadlıq işləri başa çatmaq üzrədir. Bu hissədə 5 min kvadratmetr yaşıllıq salınmış, 2 dekorativ hovuz tikilmiş, pilləkən və piyada yollarının dəmir-beton işləri başa çatdırılmışdır.*

*Məlum olduğu kimi, Azərbaycan Respublikasının keçmiş prezidenti ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi, onun dövlətçilik fəlsəfəsi və azərbaycançılıq ideyalarının dərindən öyrənilməsi və inkişaf etdirilməsi üçün «Heydər Əliyev Mərkəzinin yaradılması haqqında» 2006-cı il*

*29 dekabr tarixli və «Heydər Əliyev Mərkəzinin yaradılması ilə bağlı əlavə tədbirlər haqqında» 2007-ci il 24 yanvar tarixli sərəncamlar imzalamışdır.*

*Bakı şəhərinin Nərimanov rayonu ərazisində Heydər Əliyev Mərkəzinin yaradılması üçün torpaq sahəsi ayrılmışdır. Aidiyyəti dövlət qurumlarının, elmi təşkilatların, yaradıcılıq birliklərinin və ittifaqların nümayəndələrindən ibarət Heydər Əliyev Mərkəzinin layihəsi üzrə beynəlxalq müsabiqə komissiyası tərəfindən birinci yerə layiq görülmüş «Zaha Hadid Architects» və «İnnova Construction and Contractinq» şirkətlərinin təşkil etdikləri konsorsiumun təqdim etdiyi layihə əsasında tikinti işlərini «DİA Holding FZCO» şirkəti həyata keçirir.*

*Layihəyə əsasən Heydər Əliyev Mərkəzi üç başlıca tərkib hissəsindən və iki yardımçı strukturdan ibarət olacaqdır. Belə ki, Mərkəzin başlıca tərkib hissəsi nadir əsərlərdən ibarət və ümumdünya məlumat vasitələrinə «onlayn» rejimdə daxil olma imkanlarına malik kitabxana və media mərkəzindən, 1284 nəfər tamaşaçı tutumu olan konfrans zalından, milli və dünya təsviri sənət incilərini nümayiş etdirən sərgi-salonlar və ölkəmizin tarixi və mədəni irsindən bəhs edən multimedia və virtual sərgilərdən ibarət muzey və mədəni irs mərkəzindən ibarət olacaqdır.*

*Yardımçı struktura isə Mərkəzin iki girişi önündə yerləşən ümumi ictimai sahə – foye, günün bütün saatlarında fəaliyyət göstərəcək avtomobil dayanacaq-parkı və infrastruktur obyektləri daxil olacaqdır.*

*Müasir Azərbaycan dövlətçiliyinin banisi Heydər Əliyevin adını daşıyan memarlıq abidəsi kimi ucaldılacaq Mərkəz ölkənin ictimai-siyasi və mədəni həyatında böyük rol oynamaqla, beynəlxalq səviyyəli tədbirlərin, konfransların, müsabiqələrin, festivalların, sərgi, konsert və ziyafətlərin təşkilinə imkan verəcəkdir.*

*Dövlətimizin başçısı tikintinin davam etdirilməsi və başa çatdırılması ilə əlaqədar göstəriş və tapşırıqlarını verdi.*

## PAYTAXT YOLLARINDA APARILAN YENİDƏNQURMA VƏ TƏMİR-BƏRPA İŞLƏRİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2009-cu il*

*Sentyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı yollarında aparılan yenidənqurma və təmir-bərpa işləri ilə tanış olmuşdur.*

*Azərbaycanın hər bir yerində abadlıq və quruculuq işlərinin aparılması prezident İlham Əliyevin yürütdüyü siyasətin mühüm hədəflərindəndir. Paytaxtda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni yolötürücülərinin tikilməsi, magistral yolların salınması, yeraltı keçidlərin istifadəyə verilməsi sosial yönümlü tədbirlər olmaqla, həm də ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından əlverişli imkanlar yaradır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, asfalt örtüyünün üzərinə iki millimetr qalınlığındakı yol-nişanlama xətlərinin çəkilişində istifadə edilən boya Fransa istehsalıdır və uzunmüddətlidir. Qeyd olunmuşdur ki, bütün yolboyu səkilərə qranit döşənmişdir. Bu cür qranit paytaxt yollarında ilk dəfə istifadə olunur. Bu zaman Almaniya istehsalı olan avadanlıqdan istifadə edilmişdir. Küçələrdəki işıq dirəkləri təzələnmişdir. Cavanşir körpüsündə təmir-bərpa işləri aparılmışdır.*

*Üzeyir Hacıbəyli küçəsində aparılan təmir işləri ilə maraqlanan prezident İlham Əliyevə məlumat verildi ki, ətrafdakı binaların fasadları da milli ornamentlərə uyğun yenidən bərpa olunur.*

*Qeyd edilmişdir ki, təmir işləri Zərifə Əliyeva küçəsində, Neftçilər, Parlament və Hüseyn Cavid prospektlərində də aparılır.*

**MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA**

Hörmətli cənab Prezident!

Meksika Birləşmiş Ştatlarının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Meksika dövlətlərarası münasibətləri, ikitərəfli əlaqələrimiz daim inkişaf edərək dostluq və əməkdaşlığımızın möhkəmlənməsinə xidmət edəcəkdir.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Meksika xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2009-cu il*

## SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

Əlahəzrət!

Əziz qardaşım!

Səudiyyə Ərəbistanının milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Səudiyyə Ərəbistanını möhkəm dostluq və əməkdaşlıq münasibətləri birləşdirir. Əminəm ki, münasibətlərimizin bütün sahələrdə inkişaf etdirilməsi, əlaqələrimizin hərtərəfli genişləndirilməsi istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2009-cu il*

**SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA**

Əlahəzrət!

Əziz qardaşım!

Ölkənizin milli bayramı – Krallıq elan edilməsi günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Səudiyyə Ərəbistanının qardaş xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2009-cu il*

**MALİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB AMADU TUMANİ TUREYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Mali arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2009-cu il*

## MALTA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan–Malta münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim dostluq və əməkdaşlıq zəminində inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza sülh və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 sentyabr 2009-cu il*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Ölkənizdə baş vermiş irimiqyaslı təbii fəlakətin doğurduğu çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca sarsıtdı.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına, bütün Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 sentyabr 2009-cu il*

# AMEA-nın AKADEMİYA ŞƏHƏRCİYİNDƏKİ PARKIN ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2009-cu il*

*Sentyabrın 9-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycan Milli Elmlər Akademiyasının Akademiya şəhərciyindəki parkın əsaslı təmir və yenidənqurmadan sonrakı vəziyyəti ilə tanış olmuşlar.*

*Dövlətimizin başçısına parkda görülmüş işlər barədə ətraflı məlumat verildi.*

*Bildirildi ki, 2 hektara yaxın ərazisi olan parkda yenidənqurma işləri mükəmməl layihə əsasında reallaşdırılmış, milli memarlıq üslubu ilə beynəlxalq təcrübə böyük peşəkarlıqla uzlaşdırılmışdır. Buradakı rəngarənglik orijinal mənzərə yaradır. Parkın gəzinti sahələri tamamilə yenilənmiş, bu ərazilərə xaricdən gətirilmiş 950 kvadratmetrdən çox qranit və ağ mərmər döşənmiş, 870 kvadratmetr sahədə yaşıllaşdırma işləri görülmüşdür. Hollandiyadan gətirilmiş 10 mindən çox dekorativ güldən müxtəlif kompozisiyalar yaradılmışdır. İstirahət ocağının mərkəzində diametri 24 metr olan fəvvarə parka xüsusi yaraşıq verir. Fəvvarənin avtomatik qaydada işləyən su nasosu İtaliya və Almaniya istehsalıdır.*

*Parkda müasir işıqlandırma sistemi quraşdırılmış, yeni oturacaqlar qoyulmuşdur.*

*Yenidənqurma işlərini prezident İlham Əliyevin tapşırığı və tövsiyəsi əsasında Bakı Şəhər İcra Hakimiyyəti həyata keçirmişdir. Burada görülən işlər Azərbaycanda aparılan yenidənqurma tədbirlərinin miqyası, yüksək keyfiyyəti və ardıcıl xarakter daşıması barədə dolğun təəssürat yaradır.*

*Görülmüş işlərlə yaxından tanış olan prezident İlham Əliyev əlavə tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ BALET TEATRINDA APARILACAQ ƏSASLI TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN ESKİZ LAYİHƏSİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2009-cu il*

*Sentyabrın 9-da prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin eskiz layihəsi ilə tanış olmuşlar.*

*Prezident İlham Əliyevin tapşırığına əsasən teatr binasının tamamilə yenidən qurulması layihəsi hazırlanmışdır.*

*Dövlətimizin başçısına və xanımına binada aparılacaq əsaslı təmir və yenidənqurma işlərinin birinci mərhələsinin eskiz layihəsi təqdim olundu.*

*Bildirildi ki, layihəni İtaliyanın «Ekstra» şirkəti Mədəniyyət və Turizm Nazirliyinin Tikilən Obyektlərin Birləşmiş Müdiriyyəti ilə birgə hazırlamışdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva təmir-bərpa işlərində istifadə ediləcək İtaliya istehsalı olan tikinti materiallarının nümunələrinə baxdılar. Bir-birini tamamlayan rəngli materiallar binanı daha baxımlı edəcəkdir.*

*Sonra dövlətimizin başçısı layihənin maketinə və teatrın yenidənqurmadan sonrakı vəziyyətini əks etdirən videoçarxa baxdı. Videoçarxda binanın yeni görkəmi əks olunmuşdur.*

*Teatrın binası dünyanın ən tanınmış sənət ocaqları ilə müqayisə oluna biləcək səviyyəyə çatdırılacaqdır. İlkin layihə 6 ay ərzində təkmilləşdiriləcək və bundan sonra yenidənqurma işlərinə başlanacaqdır.*

*Prezident İlham Əliyev təmir-bərpa işlərinin yüksək keyfiyyətlə və vaxtında yerinə yetirilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## ERİCSSON ŞİRKƏTİNİN BİRİNCİ VİTSE-PREZİDENTİ HANS VESTBERQ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*10 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Ericsson şirkətinin birinci vitse-prezidenti Hans Vestberqi qəbul etmişdir.*

*Görüşdə Ericsson şirkətinin uzun illər Azərbaycanda uğurla fəaliyyət göstərdiyi qeyd olundu, ölkəmizin informasiya texnologiyaları sahəsindəki inkişafına görə keçmiş sovet ölkələri arasında ön sıralarda olduğu bildirildi. Vurğulandı ki, bu cür yüksək göstəricilərə dünya miqyasında da nail olmaq üçün Azərbaycanın böyük potensialı vardır.*

*Söhbət zamanı ölkəmiz ilə Ericsson şirkəti arasında əməkdaşlığın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ

*11 sentyabr 2009-cu il*

*Sentyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstana səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycan dövlətinin başçısını Aktau Beynəlxalq Hava Limanında Qazaxıstanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri qarşıladılar.*

*Milli geyimli qız Azərbaycan prezidentinə gül dəstəsi təqdim etdi.*

*Hava limanında Azərbaycan prezidenti İlham Əliyev, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Rusiya prezidenti Dmitri Medvedev və Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədov Aktau Beynəlxalq Hava Limanının yeni istifadəyə verilmiş binası ilə tanış oldular.*

## AZƏRBAYCAN, QAZAXISTAN, RUSİYA VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*11 sentyabr 2009-cu il*

*Sentyabrın 11-də Qazaxıstanın Aktau şəhərində Azərbaycan prezidenti İlham Əliyevin, Qazaxıstan prezidenti Nursultan Nazarbayevin, Rusiya prezidenti Dmitri Medvedevin və Türkmənistan prezidenti Qurbanqulu Berdıməhəmmədovun görüşü olmuşdur.*

**Nursultan Nazarbayev:** *(Qazaxıstan prezidenti)* Çox təşəkkür edirəm ki, Siz bu gün Qazaxıstanın Xəzər dənizinin yaxınlığında yerləşən daha bir guşəsini sizə qeyri-rəsmi şəraitdə göstərə bilmək, istirahət günlərini burada keçirmək, işlərimiz, ölkələrimiz arasında ticarət barədə söhbət etmək üçün mənim təklifimi qəbul etdiniz. Bu da çox vacibdir ki, Qazaxıstan buradan, Aktau ərazisindən Bakı, Mahaçqala, Türkmənbaşı ilə ticarət edir və biz dövlətlərimizin hamısının rifahı naminə bu işi gücləndirə bilərik. Bu gün biz Xəzər dənizi problemini müzakirə etmirik – təbii ki, bu, başqa mövzudur. Biz həmin mövzunu axırıncı dəfə Tehranda müzakirə etdik, növbəti görüşü Bakıda keçirmək qərara alındı. Ümid edirik ki, yaxın gələcəkdə hamımız, Tehran tərəfinin də iştirakı ilə, bir yerə toplaşacaq və hamımız üçün vacib olan bu məsələni müzakirə edəcəyik. Buna görə bu məsələ bizim bugünkü gündəlikdə yoxdur. Bu görüş qeyri-formal görüşdür. Biz burada ikitərəfli, çoxtərəfli məsələləri müzakirə edə və Xəzər sahilində vaxtımızı xoş keçirə bilərik.

**Dmitri Medvedev** *(Rusiya prezidenti):* Hörmətli həmkarlar, mən Sizin hamınızın yanında Nursultan Abişeviçə bizi burada vaxtımızı keçirməyə dəvət etdiyinə görə

təşəkkür etmək istəyirəm. Bura mənim üçün tamam təzə yerdir. Mən Aktauya və gedəcəyimiz başqa yerlərə məmnuniyyətlə tamaşa edəcəyəm. Söhbət üçün mövzular isə kifayət qədərdir. İndicə biz Orenburqda ikitərəfli görüş keçirdik. Bizim hamımızın ikitərəfli layihələrimiz vardır. Onları inkişaf etdirmək lazımdır.

Mən hesab edirəm ki, Xəzər mövzusu bu məsələyə aidiyyəti olan bütün dövlətlərin iştirakı ilə müzakirə olunmasını tələb edir. Bakıda keçiriləcək sammitə hazırlaşmaq səmərəli ideyadır. İlham Heydər oğlu bizi Vətəninə qonaq çağıracaqdır. Lakin əsas məsələ o vaxta qədər bu və ya digər baza parametrləri barəsində razılığa gəlməkdir.

Bugünkü görüşün gündəliyinə gəldikdə isə zənnimcə, həqiqətən kifayət qədər məsələ vardır. Bunlar həm ikitərəfli, həm də çoxtərəfli məsələlərdir. Qarşıda BMT-nin Baş Məclisi kimi, bir neçə iri beynəlxalq tədbir gözlənilir. Biz həmin tədbirdə bu və ya digər qisimdə iştirak edəcəyik. Baş Məclisdən sonra dünyanın ən iri iqtisadiyyata malik olan 20 ölkəsinin liderlərinin görüşü keçiriləcəkdir. Bu məsələyə dair Rusiyanın mövqeyi, bizim nə təklif etməyə hazırlaşmağımız, hansı mərhələdə olmağımız barədə sizə yoldaşcasına məlumat vermək istərdim. İqtisadiyyatlar gərgin vəziyyətdən çıxmağa başlayır, lakin arxayınlaşmaq hələ tezdir və çox vacibdir ki, dünya birliyi, ən iri iqtisadiyyatlar beynəlxalq maliyyə sistemində islahatlar və onun yenidən qurulması istiqamətində növbəti addımlar atsınlar.

Mən hiss edirəm ki, bu gün heç də hamı buna çalışmır. Bəziləri istəyir ki, bütün bu vəziyyəti olduğu kimi donduraq və deyək ki, hər şey yaxşı idi. Deməli, heç kəsin heç bir təqsiri yoxdur və gələcəkdə daha yaxşı olacaqdır. Əslində heç də belə deyildir. Beynəlxalq maliyyə sisteminin əsaslı şəkildə yenidən qurulmasına bizim hamımızın ehtiyacı var və dünya maliyyə böhranının təsirini ölkələrimiz öz üzərlərində hiss edir. Hamımızın çətinlikləri vardır. Buna görə də mən məsələyə öz yanaşmalarımızı sizinlə müzakirə etmək və

ola bilsin ki, müəyyən ümumi mandata malik olub, iyirmilərin görüşündə bu mövqeni müdafiə etmək istəyirəm.

**Q u r b a n q u l u B e r d ı m ə h ə m m ə d o v**: (*Türkmənistan prezidenti)* Nursultan Abişeviç, dəvətinizə görə, bu gün gözəl Qazaxıstan torpağında olmağımıza görə sağ olun. Həqiqətən burada deyildiyi kimi, Xəzər dənizi məsələlərini beştərəfli formatda, yəni İranın iştirakı ilə nəzərdən keçirmək yaxşı olardı. Onu da düzgün dedilər ki, bizim aramızda həm dövlətdaxili, həm də regional xarakterli çoxlu məsələlər yığılıb qalmışdır. Mənim fikrimcə, bizim görüşümüz prinsip etibarilə əməkdaşlıq məsələlərində çox yaxşı nəticələr verəcəkdir.

**İ l h a m Ə l i y e v** (*Azərbaycan prezidenti):* Hörmətli Nursultan Abişeviçə bizi qardaş Qazaxıstana dəvət etdiyi üçün təşəkkürümü bildirmək istəyirəm. Mən Sizin ölkəyə gələrkən – həm ünsiyyətdə olmaq, həm də yeni şəhərlərlə tanışlıq imkanına görə – həmişə çox yaxşı hisslər keçirirəm. Biz müxtəlif tədbirlərdə, o cümlədən MDB-nin formal və qeyri-formal sammitlərində tez-tez görüşürük. Sizin təşəbbüsünüzlə keçirilən bugünkü görüş də qarşılıqlı maraq doğuran məsələlərə dair, qeyri-formal şəraitdə, gündəliyi təsdiq edilməmiş, istər çoxtərəfli, istərsə də ikitərəfli formatda, sadəcə, fikir mübadiləsi aparmaq üçün yaxşı imkan yaradacaqdır. Təbii ki, biz Xəzəryanı dövlətlərin Tehranda keçirilmiş axırıncı sammitində qərara alındığı kimi, növbəti sammiti Bakıda keçirməyə hazırlaşırıq. Fəal iş gedir, ekspertlər işləyir və əlbəttə, istərdik ki, biz Bakıda keçiriləcək sammitə konkret qərarlarla gedək, elə edək ki, bu sammit də Tehran sammiti kimi, irəliyə doğru böyük bir addım olsun. Tehran sammitinin qərarları çox vacibdir və əminəm ki, həmin qərarların həyata keçirilməsi nəticəsində Xəzər dənizinin delimitasiyası məsələləri dostluq, mehriban qonşuluq zəminində uğurla həll ediləcəkdir. Bu gün ölkələrimiz arasında başqa sahələrdə də mövcud olan məsələləri müzakirə etmək üçün sadəcə yaxşı imkan yaranmışdır.

Mən hörmətli həmkarlarımı bir daha salamlamaq və Nursultan Abişeviç, Sizə təşəkkür etmək istərdim ki, Siz ünsiyyət üçün bu cür gözəl şərait yaradırsınız.

**Nursultan Nazarbayev**: Əziz dostlar! İndicə Dmitri Anatolyeviçlə Orenburqdan, ikitərəfli regional görüşdən gəlmişik. Bizim Rusiya ilə, Türkmənistanla, Azərbaycanla çox səmimi, etimada əsaslanan münasibətlərimiz vardır. Bizim aramızda ciddi, böyük problem yoxdur. Yaranan digər problemləri danışıqlar yolu ilə həll edə bilərik və biz hamımız belə də edirik. Bu söhbət, sərbəst fikir mübadiləsi bizim hamımızın xeyrinə, xalqlarımızın xeyrinə olacaqdır! Çox sağ olun ki, buradasınız. Təşəkkür edirəm.

## Səfər başa çatdı

*Sentyabrın 11-də Azərbaycan prezidenti İlham Əliyevin Qazaxıstana səfəri başa çatmışdır.*

*Azərbaycan dövlətinin başçısını Aktau Beynəlxalq Hava Limanında yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün axşam Bakıya qayıtmışdır.*

*Azərbaycan prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## YEREVANDA KEÇİRİLƏN GƏNCLƏR ARASINDA CÜDO ÜZRƏ AVROPA ÇEMPİONATINDA İŞTİRAK EDƏN AZƏRBAYCAN KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 sentyabr 2009-cu il*

*Sentyabrın 14-də Azərbaycan prezidenti İlham Əliyev Yerevanda keçirilən gənclər arasında cüdo üzrə Avropa çempionatında iştirak edən Azərbaycan komandasının üzvlərini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, əziz idmançılar!

Vətənə xoş gəlmisiniz! Mən sizi ürəkdən salamlayıram və böyük qələbə münasibətilə təbrik edirəm. Siz bütün Azərbaycan xalqını bu qələbə ilə sevindirmisiniz. Birinci növbədə, bu qələbə onu göstərir ki, Azərbaycanda çox güclü gənc nəsil, gənc idmançılar yetişir. O idmançılar ki, gənc yaşlarından doğma Vətənimizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil edirlər. Gənclərimiz vətənpərvərlik ruhunda böyüyürlər, tərbiyə alırlar, dəyərli vətəndaşlar kimi, Azərbaycanın şöhrətini ucaldırlar. Bu qələbənin böyük mənası ondan ibarətdir ki, yarışda beş idmançı iştirak edib, beşi də Vətənə medalla qayıdıbdır.

Şübhəsiz ki, bu qələbənin Azərbaycanın idman tarixində xüsusi yeri vardır. Ona görə ki, bu qələbə Ermənistanda, İrəvanda keçirilən gənclər arasında cüdo üzrə Avropa çempionatında qazanılmışdır. Bu, böyük qələbədir. İrəvanda beş dəfə Azərbaycanın Dövlət bayrağı qaldırılmışdır, bir dəfə Azərbaycanın Dövlət himni səsləndirilmişdir. Ona görə

bu qələbənin çox böyük mənası vardır və şübhə etmirəm ki, bu qələbə Azərbaycanın idman tarixində əbədi yaşayacaqdır. İlk dəfədir ki, idmançılarımız Ermənistanda keçirilən beynəlxalq yarışlarda iştirak ediblər və Vətənə üzüağ qayıdıblar. Azərbaycanı təmsil ediblər, ölkəmizin gücünü, müasir Azərbaycanın nəyə qadir olduğunu göstəriblər. Sizin qələbəniz bütün Azərbaycan xalqının qəlbində yaşayır, hər bir Azərbaycan vətəndaşı üçün əzizdir. Bu qələbə Azərbaycan gəncliyinin, Azərbaycan xalqının qələbəsidir.

Azərbaycan idmançıları bu vaxta qədər heç vaxt Ermənistanda keçirilən beynəlxalq yarışlarda iştirak etmirdi. Yəqin ona görə ki, Ermənistanda beynəlxalq yarışlar çox nadir hallarda keçirilirdi. Biz öyrəşmişik ki, Azərbaycanda, Bakıda müxtəlif beynəlxalq yarışlar – dünya, Avropa çempionatları, Olimpiya oyunlarının təsnifat turnirləri mütəmadi qaydada keçirilir. Ancaq Ermənistanda bu, çox nadir hallarda müşahidə olunur. Bu qərarın qəbul olunması da asan məsələ deyildi. İlk növbədə, bizi idmançılarımızın təhlükəsizliyi düşündürürdü, narahat edirdi və məhz bu məqsədlə mənim göstərişimlə yarışdan qabaq Ermənistana nümayəndə heyəti göndərilmişdi. Bütün təhlükəsizlik tədbirləri təmin edilmişdi. Avropa Olimpiya Komitəsinin, Avropa Cüdo Federasiyasının üzvlərinin iştirakı ilə bütün lazımi sənədlər, müqavilələr bağlanmışdı və nəinki Ermənistan tərəfi, beynəlxalq idman qurumları bizə zəmanət vermişdilər ki, idmançılarımızın təhlükəsizliyi tam şəkildə təmin olunacaqdır.

Düzdür, yarışlar ərəfəsində bəzi etirazlar da səsləndi. Mənə demişdilər ki, bəzi qruplar, bəzi şəxslər etiraz ediblər, özlərini daha çox vətənpərvər kimi göstərmək istəyirdilər. Ancaq əsl vətənpərvərlik ondan ibarət deyil. Əsl vətənpərvərliyi siz nümayiş etdirmisiniz, orada Azərbaycan bayrağını qaldırmısınız. Bundan yüksək vətənpərvərlik, bəlkə də bundan yuxarı xidmət ola bilməz. Ona görə sizin qələbəniz bir daha onu göstərdi ki, bizim tərəfimizdən qəbul edilmiş qərar yeganə düzgün qərar idi. İdmançılar da çox ağır

psixoloji şəraitdə öz məharətlərini göstərərək böyük qələbə qazandılar. Getdilər, Azərbaycan bayrağını qaldırdılar, himnimizi səsləndirdilər və qəhrəmanlar kimi Vətənə qayıtdılar.

Siz indicə təyyarədən düşərək birbaşa bura, mənim yanıma gəlmisiniz. Sizin gəlişinizi Azərbaycan xalqı səbirsizliklə gözləyirdi. Bu qələbə hələ bundan sonra bir neçə gün ərzində, bəlkə aylar ərzində qeyd olunacaqdır. Bu qələbə böyük nailiyyət və böyük məsuliyyətdir. Artıq sizin adlarınız gənc yaşlarınızdan Azərbaycan tarixinə yazılıb. Həm Azərbaycanın idman tarixində, həm də müstəqil Azərbaycanın tarixində sizin qələbəniz yaşayacaqdır. Sizin qələbəniz gənc nəsil üçün, uşaqlar üçün, yeniyetmələr üçün örnək olmalıdır.

Mən bu gözəl hadisə, bu gözəl qələbə münasibətilə Cüdo Federasiyasını, məşqçiləri təbrik etmək istəyirəm. Azərbaycanda cüdonun inkişafı göz qabağındadır və Olimpiya oyunlarında Elnur Məmmədlinin gözəl qələbəsi – bütün yarışları, bütün döyüşləri təmiz qələbə ilə başa vurdu. Elmar Qasımovun qələbəsi – bütün döyüşlərdə təmiz qələbə çaldı. Digər idmançılarımızın medalları. Bütün bunlar məqsədyönlü, düşünülmüş işin nəticəsidir. Mən Cüdo Federasiyasını ürəkdən təbrik edirəm. Federasiyanın işçilərinə, məşqçilərə, bütün idmançılara öz minnətdarlığımı bildirmək istəyirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, həmişə olduğu kimi, gələcəkdə də beynəlxalq yarışlarda siz Azərbaycanın bayrağını yüksəklərdə saxlayacaqsınız.

Komanda hesabında kişilər arasında bizim komandamız ikinci yeri tutdu. Bu da böyük bir nailiyyətdir, böyük qələbədir. Düzdür, yarışın Ermənistanda keçirilməsi bütün başqa tərəfləri bir qədər kölgədə qoydu. Amma biz unutmamalıyıq ki, Avropa qitəsində kişilər arasında bizim gənc cüdoçularımız ikinci yerdədir. Birinci yerdə də ola bilərdilər. Cəmi beş idmançı və beş medal, beş gözəl qələbə və bütün Azərbaycan xalqının sevinci.

Vaxt gələcək və Azərbaycan əsgəri işğal olunmuş torpaqlarda, Dağlıq Qarabağda, Şuşada, Xankəndidə Azərbaycan bayrağını qaldıracaqdır. O vaxt gələcək. Azərbaycanın hərtərəfli inkişafı, iqtisadi və hərbi qüdrətimiz o günü yaxınlaşdırır.

Sizi bir daha ürəkdən təbrik etmək istəyirəm. Bütün idman qurumlarını – federasiyanı, idman cəmiyyətlərini, Gənclər və İdman Nazirliyini, Milli Olimpiya Komitəsini və ilk növbədə idmançıları bu gözəl qələbə münasibətilə bir daha təbrik edirəm. Sizə öz minnətdarlığımı bildirirəm. Azərbaycan xalqının sizə olan məhəbbətini ifadə edirəm və sizə yeni uğurlar, yeni qələbələr arzulayıram.

## BAKININ NƏSİMİ RAYONUNDAKI ELİTAR GİMNAZİYANIN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2009-cu il*

*Sentyabrın 15-də – «Bilik günü»ndə Təhsil Nazirliyinin Bakının Nəsimi rayonundakı elitar gimnaziyası əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva gimnaziyaya gəldilər. Məktəblilər Mehriban xanıma gül dəstəsi təqdim etdilər.*

*Təhsil naziri Misir Mərdanov məlumat verdi ki, Azərbaycanda son illər ərzində məktəb binalarının tikintisi və təmiri geniş vüsət almış və təhsil sisteminin maddi-texniki bazası möhkəmlənmişdir. Prezidentin tapşırığı ilə bu il iyulun 17-dən təmirinə başlanılmış bu gimnaziyada tədris üçün hər cür şərait yaradılmışdır. Burada 70-ə yaxın sinif otağı vardır. Min şagird yeri olan gimnaziyada yeni dərs ilində 958 məktəbli təhsil alacaqdır. Onların təlim-tərbiyəsi ilə 93 müəllim məşğul olacaqdır.*

*Paytaxtın qabaqcıl təhsil ocaqlarından olan gimnaziyanın binası ötən əsrin 30-cu illərində klassik üslubda inşa olunmuşdur. Müstəqillik illərində bina ilk dəfədir ki, əsaslı şəkildə yenidən qurulmuşdur. «Elnur-2» universal kommersiya şirkəti tərəfindən həyata keçirilmiş yenidənqurma zamanı Türkiyə, Rusiya, Kanada və digər ölkələrdən gətirilmiş tikinti materiallarından geniş istifadə edilmiş, bu işlərə 1 milyon 12 min manat vəsait sərf olunmuşdur. Gimnaziya ən müasir avadanlıq və əyani dərs vəsaitləri ilə təchiz edilmişdir.*

*2007/2008-ci tədris ilinin yekunlarına görə gimnaziya «Ən yaxşı ümumtəhsil məktəbi» müsabiqəsinin qalibi olmuşdur.*

*Gimnaziya binasının birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin dövlətçilik fəaliyyəti, Azərbaycanın dövlət rəmzləri ilə bağlı xüsusi guşələr yaradılmışdır.*

*Dövlətimizin başçısı ikinci mərtəbədə ayrı-ayrı sinif otaqlarına, fənn kabinetlərinə, müəllimlər otağına baxdı, tədris prosesi, dərs vəsaitləri ilə maraqlandı.*

*Bildirildi ki, kompyuter otağı yeni kompyuterlərlə təmin olunmuş və internet şəbəkəsinə qoşulmuşdur. Prezident İlham Əliyevə Azərbaycan təhsil portalında elitar gimnaziya ilə əlaqədar yaradılmış xüsusi səhifə barəsində ətraflı məlumat verildi. Həmin səhifədə gimnaziya ilə bağlı bütün məlumatlar toplanmışdır. Burada oxuyan V sinfin 24 şagirdinə dövlətimizin başçısı tərəfindən fərdi noutbuklar hədiyyə edildi.*

*Müəllimlər otağında yaradılmış şəraitlə tanış olan prezident İlham Əliyev buradakı pedaqoqları yeni dərs ilinin başlanması münasibətilə təbrik etdi, onlara uğurlar arzuladı.*

*İnformatika kabinetində dövlətimizin başçısına məlumat verildi ki, ilk interaktiv dərs «Əsrin müqaviləsi»nə həsr olunmuşdur. Müəllifi ümummilli lider Heydər Əliyev olan həmin müqavilənin xalqımızın rifah halının yaxşılaşmasında, dövlətimizin möhkəmlənməsindəki tarixi rolu şagirdlərə elektron dərsliklər vasitəsilə öyrədilir.*

*Gimnaziyanın kitabxanası ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, burada latın qrafikası ilə çap olunmuş 16300-dən çox dərslik və müxtəlif ədəbiyyat toplanmışdır.*

*Kimya kabineti ilə tanışlıq zamanı əməkdar müəllim, 2007/2008-ci tədris ilində «İlin ən yaxşı müəllimi» müsabiqəsinin qalibi, kimya elmləri namizədi Vəli Əliyev prezident İlham Əliyevə və xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya ölkədə təhsilin inkişafına, gənc nəslin təlim-tərbiyəsinə göstərdikləri qayğıya, müəllim əməyinə*

*verilən yüksək qiymətə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısına məlumat verildi ki, kimya laboratoriyası bu fənnin təkcə nəzəri deyil, həm də praktik baxımdan yüksək səviyyədə tədrisinə hərtərəfli imkan yaradır. Fizika laboratoriyası da zəngin avadanlığı ilə diqqəti cəlb edir. Burada da nəzəri biliklər praktik məşğələlərlə əlaqələndiriləcəkdir. Bütün bunlar tədrisin səviyyəsinin yüksəldilməsinə, beynəlxalq standartlara uyğunlaşdırılmasına imkan verəcəkdir.*

*Gimnaziyanın idman salonu ilə tanışlıq zamanı bildirildi ki, buradakı müasir şərait və müxtəlif avadanlıqlar bədən tərbiyəsi dərslərinin yüksək səviyyədə tədrisinə imkan yaradır. Həndbol, voleybol, mini futbol, stolüstü tennis və digər oyunlar üzrə yarışlar keçirmək mümkündür. Salonun duşxanası, soyunub-geyinmə otaqları da vardır.*

*Məktəbin akt zalı da genişdir, lazımi avadanlıqlarla təchiz olunmuşdur. Burada müxtəlif tədbirlər keçiriləcək, dərnəklər və musiqi qruplarına üzv yazılanlar bilik və bacarıqlarını təkmilləşdirəcəklər.*

*Gimnaziyanın işıqlandırılması, istilik, havalandırma sistemi müasir səviyyədə yenidən qurulmuşdur. Yanğından mühafizə sistemi də ən son texnologiyalar əsasında təzələnmişdir və fövqəladə halın qısa müddətdə aradan qaldırılmasına imkan verəcəkdir. Burada mini ATS də quraşdırılmışdır.*

*Dövlət başçısı yeni tədris ilinin başlanması münasibətilə kollektivi təbrik etdi.*

**İlham Əliyev:** Əziz dostlar, bu əlamətdar hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm. Bu məktəb deyə bilərəm ki, bir memarlıq abidəsidir. Şəhərimizə əlavə gözəllik verir. Həm şəraiti gözəldir, bütün imkanlar var, həm də xarici gözəldir. Bütün təmir işləri çox yüksək keyfiyyətlə aparılmışdır, özü də qısa müddət ərzində. İki-üç ay ərzində məktəb, demək olar ki, tamamilə öz görkəmini dəyişdi və bu gün şəhərimizin ən gözəl, ən müasir məktəblərindən biridir.

Bildiyiniz kimi, Azərbaycanda məktəb tikintisi sürətlə gedir. Son 6 ildə Azərbaycanda 1800-ə qədər yeni məktəb

tikilmişdir. Bununla bərabər, vaxtilə tikilmiş məktəblər əsaslı şəkildə təmir olunur. Mənə bu gün məlumat verildi ki, bu məktəb keçən əsrin 30-cu illərində tikilmişdir. Ondan sonra 70-ci illərdə yeni korpus əlavə edilmişdir. Ancaq bu gün məktəb elə səviyyədədir ki, dünyanın ən inkişaf etmiş ölkələrində olan məktəblərdən fərqlənmir və hətta onları üstələyir.

Bu gün mən gözəl hadisə münasibətilə bütün müəllimləri, şagirdləri, məktəbdə işləyən bütün insanları ürəkdən təbrik etmək istəyirəm. Bu məktəbdə ən qabaqcıl texnologiyalar tətbiq olunur. Kompyuterlər, elektron lövhələr, ən qabaqcıl mütərəqqi texnologiyalar. Mən görürəm ki, tədris prosesi də yüksək səviyyədə təşkil edilib. Bu çox vacibdir.

Məktəb tikmək olar, indi Azərbaycan dövlətinin imkanı genişdir, maddi imkanlarımız da artır və belə olmasaydı, 1800 məktəb tikilməzdi. Ancaq əsas odur ki, gözəl şəraitlə bərabər, tədris prosesi də müasir səviyyədə olsun, ən mütərəqqi texnologiyalar tətbiq edilsin, uşaqlar bilikli, savadlı olsunlar, gələcəkdə həyatda öz yerlərini tapa bilsinlər.

Sizi bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm və yeni uğurlar arzulayıram.

## GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Gürcüstanın Xarici İşlər naziri Qriqol Vaşadzeni qəbul etmişdir.*

*Gürcüstanın Xarici İşlər naziri Qriqol Vaşadze Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında əlaqələrin ayrı-ayrı istiqamətlərdə inkişaf etdiyi vurğulandı, münasibətlərin genişlənməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edildi, Gürcüstanın Xarici İşlər nazirinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərimizin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminlik ifadə olundu.*

*Dövlətimizin başçısı Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİEBALQS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Avropa İttifaqının Enerji məsələləri üzrə komissarı Andris Piebalqsı qəbul etmişdir.*

*Andris Piebalqs «Əsrin müqaviləsi»nin 15-ci ildönümü münasibətilə dövlətimizin başçısını təbrik etdi və Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun salamlarını prezident İlham Əliyevə çatdırdı.*

*Bu gün Azərbaycan prezidentinin Bakıda məktəb binasının açılışı ilə bağlı tədbirdə iştirakından məlumatlı olduğunu bildirən qonaq, ölkədə məktəblərin tikintisinə qoyulan vəsaitin gələcək üçün ən yaxşı investisiya olduğunu dedi.*

*«Əsrin müqaviləsi»nin əhəmiyyətinə toxunan dövlətimizin başçısı ötən 15 il ərzində ölkəmizin böyük inkişaf yolu keçdiyini və energetika sahəsindəki nailiyyətlərin bu uğurların əldə edilməsində önəmli rol oynadığını vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, Avropa qonşuluq siyasəti və Avropa İttifaqının Şərq tərəfdaşlığı proqramı, eləcə də enerji dialoqu bir-biri ilə sıx bağlı olan məsələlərdir və bu istiqamətlərdə yaxşı nəticələr əldə olunmuşdur. Prezident İlham Əliyev əminliklə bildirdi ki, Avropa İttifaqı ilə əlaqələrimiz daha da möhkəmlənəcək və yeni sahələri əhatə edəcəkdir.*

*Dövlətimizin başçısı Avropa Komissiyasının sədri Joze Manuel Barrozunun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Avropa Komissiyasının sədrinə çatdırmağı xahiş etdi.*

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

Hörmətli cənab Federal Prezident!

Ölkənizin milli bayramı – Alman birliyi günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Bu gün Azərbaycan–Almaniya münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir. Genişlənən ikitərəfli əlaqələrimiz, Avropa strukturları çərçivəsində əməkdaşlığımız münasibətlərimizin səciyyəvi amillərindəndir. Əminəm ki, dost ölkələrimiz arasında siyasi, iqtisadi əlaqələrin, humanitar sahədə əməkdaşlığımızın daha da dərinləşdirilməsi yolunda qarşılıqlı səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Almaniya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 sentyabr 2009-cu il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YUKİO HATOYAMAYA**

Hörmətli cənab Baş nazir!

Yaponiyanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan–Yaponiya münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq əlaqələri, bir çox sahələrdə qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 sentyabr 2009-cu il*

## BÖYÜK BRİTANİYANIN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ LORD HANTIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da Böyük Britaniyanın Enerji Məsələləri üzrə Dövlət naziri Lord Hantın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət naziri Lord Hant «Əsrin müqaviləsi»nin 15-ci ildönümü münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırdı və bu müqavilənin Azərbaycanın gələcək inkişafının təminatında önəmli rol oynadığını dedi. Lord Hant Azərbaycan prezidenti İlham Əliyevin bu il iyul ayında Londona rəsmi səfərinin Böyük Britaniya hökuməti tərəfindən yüksək qiymətləndirildiyini qeyd etdi.*

*Prezident İlham Əliyev Azərbaycanın Böyük Britaniya ilə energetika sahəsində əməkdaşlığa və bp-nin bu əməkdaşlıqda oynadığı rola önəm verdiyini vurğuladı. Dövlətimizin başçısı bp şirkəti ilə yeni layihələr üzrə aparılan işlərin ötən dövr ərzində inkişaf edən əlaqələrimizin yaxşı göstəricisi olduğunu dedi. Londona sonuncu rəsmi səfəri zamanı Azərbaycan Dövlət Neft Şirkəti ilə Böyük Britaniyanın bp şirkəti arasında imzalanan qarşılıqlı Anlaşma Memorandumuna toxunan prezident İlham Əliyev gələcəkdə də birgə layihələr üzərində işlərin davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Böyük Britaniyanın Enerji Məsələləri üzrə Dövlət naziri Lord Hant dedi*: «Biz Sizin *bp* şirkəti ilə strateji tərəfdaşlıqla bağlı söylədiyiniz fikirləri yüksək qiymətləndiririk və bu əməkdaşlığa bundan sonra da dəstək verəcəyik».

## MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 16-da müsəlman ölkələrinin Azərbaycanda fəaliyyət göstərən səfirlərini müqəddəs Ramazan bayramı münasibətilə qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli səfirlər, mən sizi ürəkdən salamlayıram və sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Xahiş edirəm, mənim səmimi təbriklərimi təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Mən çox şadam ki, Azərbaycanda müsəlman ölkələrini təmsil edən səfirliklərin sayı artır. Bu çox gözəl, əlamətdar haldır. Azərbaycan da müsəlman ölkələrində səfirliklərinin sayını artırır və bu proses davam edir. Ölkələrimiz arasında əlaqələr çox sürətlə inkişaf edir. Əlaqələr yüksək səviyyədədir və biz çalışmalıyıq ki, bu əlaqələri növbəti illərdə də hərtərəfli inkişaf etdirək, aramızdakı münasibətlər daha da güclü olsun. Həm siyasi və humanitar əlaqələrin, həm iqtisadi sahədə əməkdaşlığın dərinləşməsi bizim maraqlarımıza cavab verir.

Bildiyiniz kimi, bu il Bakı şəhəri islam mədəniyyətinin paytaxtı elan olunmuşdur. Mən çox şadam ki, Bakı bu şərəfli adı uğurla daşıyır. Bu müddət ərzində Bakıda islam dünyasının həmrəyliyinin gücləndirilməsi üçün çoxsaylı tədbirlər keçirilmişdir. Qeyd etdiyim kimi, ölkələrimiz ara-

sında əlaqələr ikitərəfli formatda uğurla inkişaf edir. Biz beynəlxalq təşkilatlarda da səmərəli əməkdaşlıq edirik. Xüsusilə, BMT-də və İslam Konfransı Təşkilatında əməkdaşlığımız bizim üçün çox önəmlidir. Bildiyiniz kimi, keçən il BMT Baş Məclisində Dağlıq Qarabağda yaranmış vəziyyətlə bağlı qətnamənin qəbul edilməsi müsəlman ölkələrinin böyük dəstəyi hesabına baş vermişdir.

Biz də öz növbəmizdə beynəlxalq tədbirlərdə, beynəlxalq təşkilatlarda islam həmrəyliyinin gücləndirilməsi üçün addımlarımızı atırıq. Bizim üçün qardaş olan islam ölkələrini bütün məsələlərdə dəstəkləyirik və bunu gələcəkdə də edəcəyik. İslam həmrəyliyinin gücləndirilməsi bizim üçün çox vacibdir. Çalışmalıyıq ki, ölkələrimizin qarşısında duran vəzifələri birgə səylərlə həll edək və müsəlman ölkələri arasında əməkdaşlığı, həmrəyliyi, qarşılıqlı dəstəyi daha da gücləndirək.

Azərbaycan xalqı hər birimiz üçün doğma, müqəddəs olan Ramazan bayramını bütün dövrlərdə qeyd edirdi. Ancaq ölkəmiz müstəqilliyini əldə etdikdən sonra rəsmi bayram kimi qeyd olunur. Azərbaycan xalqı müstəqilliyini əldə etdikdən sonra öz taleyinin sahibi oldu. Azərbaycanın müstəqilliyi bu gün daha da möhkəmlənir və ölkə qarşısında duran bütün məsələlər uğurla həll edilir. Mən çox şadam ki, Azərbaycan müstəqillik dövründə qardaş müsəlman ölkələri ilə çox səmərəli və qarşılıqlı surətdə faydalı əlaqələr qura bilmişdir. Əminəm ki, bu əlaqələr gələcəkdə daha da güclənəcəkdir.

İkitərəfli münasibətlərdə səfirlərin rolu çox əhəmiyyətlidir, çox böyükdür. Mən sizin fəaliyyətinizi yüksək qiymətləndirirəm və Azərbaycan ilə ölkələriniz arasında ikitərəfli münasibətlərin inkişafı işinə verdiyiniz töhfələrə görə sizə öz minnətdarlığımı bildirirəm. Bir daha sizi bu gözəl bayram münasibətilə təbrik edirəm və dünyada yaşayan bütün müsəlman bacı-qardaşlarımıza öz səmimi təbriklərimizi göndəririk.

## «ƏSRİN MÜQAVİLƏSİ»NİN 15-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*«Buta» sarayı*

*16 sentyabr 2009-cu il*

*Sentyabrın 15-də «Buta» sarayında «Əsrin müqaviləsi»nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasim keçirilmişdir.*

*15 il əvvəl – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və neft hasilatının pay bölgüsü haqqında» Azərbaycan Dövlət Neft Şirkəti ilə dünyanın inkişaf etmiş ölkələrinin tanınmış neft şirkətləri arasında müqavilə imzalanmışdır. Müstəqil ölkəmizin bu günü və gələcəyi üçün böyük əhəmiyyəti olan, xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış bu sənəd beynəlxalq aləmdə yüksək qiymətləndirilərək «Əsrin müqaviləsi» adını almışdır. Bu müqavilə müstəqil respublikamızın salnaməsinə qızıl hərflərlə həkk olunmuş və müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsini açmışdır. «Əsrin müqaviləsi»ndə dünyanın 8 ölkəsinin 13 ən məşhur neft şirkəti iştirak etmişdir. «Əsrin müqaviləsi» sonrakı illərdə dünyanın 19 ölkəsinin 40-dan çox neft şirkəti ilə 30-dək sazişin imzalanmasına imkan yaratdı. «Əsrin müqaviləsi» həm karbohidrogen ehtiyatlarının həcminə, həm də qoyulan sərmayələrin məbləğinə görə dünyada bağlanan ən böyük sazişlər siyahısına daxil olmuşdur.*

*1999-cu ilin noyabrında ATƏT-in İstanbul sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı–Tbilisi–Ceyhan (BTC) əsas neft ixrac kəmərinin çəkilməsi haqqında dövlətlərarası müqavilə imzalanmışdır. 2002-ci il sentyabrın 18-də Bakıda, Səngəçal terminalında ümummilli lider Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı–Tbilisi–Ceyhan neft kəmərinin təməli qoyulmuş və tikintisinə başlanılmışdır.*

*Ulu öndər bu hadisəni belə xarakterizə etmişdi:* «Əsrin müqaviləsi» ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır».

*7 il sonra – 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı–Tbilisi–Ceyhan əsas neft ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirilmişdir.*

*Prezident İlham Əliyev XVI Beynəlxalq Xəzər neft, qaz, neftayırma, neft kimyası sərgi və konfransındakı nitqində demişdir:* «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycanda yeni neft strategiyasının başlanması demək idi. Bu gün uğurla icra edilən neft siyasətimiz həm Azərbaycanın enerji təhlükəsizliyini təmin etdi, Azərbaycanı dünya birliyinə çox etibarlı ölkə və etibarlı tərəfdaş kimi təqdim etdi və bu gün bizim ölkəmiz və neft-qaz imkanlarımız geniş mənada qitənin enerji təhlükəsizliyi üçün əvəzolunmaz funksiyalar daşıyır».

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva «Əsrin müqaviləsi»nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişlər.*

*Salona toplaşanlar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev mərasimdə nitq söylədi.*

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi*

Hörmətli xanımlar və cənablar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, sizi və bütün Azərbaycan xalqını «Əsrin müqaviləsi»nin 15-ci ildönümü münasibətilə ürəkdən təbrik edirəm.

15 il əvvəl müstəqil Azərbaycanın tarixində çox əlamətdar və həlledici hadisə baş vermişdir. «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycanın qarşısında yeni imkanlar, yeni üfüqlər açmışdır. Azərbaycan o vaxt müstəqilliyinin üçüncü ilini yaşayırdı. Müstəqilliyimizin ilk illəri ölkəmiz üçün çox ağır keçirdi. 1991–93-cü illərdə ölkəmiz total böhran yaşayırdı. İqtisadi, siyasi, hərbi böhran Azərbaycanı çox ağır vəziyyətə salmışdı və daxili çəkişmələr, özbaşınalıq, anarxiya və xaos, demək olar ki, Azərbaycanın gələcəyini də şübhə altına qoyurdu. 1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasından sonra vəziyyət sabitləşməyə başladı, xoşagəlməz halların qarşısı alındı və Azərbaycan uğurla inkişaf yoluna qədəm qoydu. Bu hadisə – «Əsrin müqaviləsi»nin imzalanması Azərbaycanın uzunmüddətli uğurlu inkişaf imkanlarını gücləndirdi. Azərbaycan özünü dünyaya təqdim etdi. Dünyada ilk dəfə olaraq böyük transmilli konsorsium yaradıldı. Konsorsiumun iştirakçıları, müxtəlif ölkələri təmsil edən şirkətlər və Azərbaycan Dövlət Neft Şirkəti uğurlu əməkdaşlığa başlamışdır. İlk dəfə olaraq Xəzər dənizi beynəlxalq əməkdaşlıq üçün açıldı və bunu Azərbaycan etdi. «Əsrin müqaviləsi»nin

---

* «Əsrin müqaviləsi»nin 15-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti Rövnəq Abdullayev, «*bp*–Azərbaycan» şirkətinin prezidenti Rəşid Cavanşir, ABŞ Dövlət katibinin Avrasiya Enerji məsələləri üzrə xüsusi nümayəndəsinin müavini Daniel Ştayn və Avropa İttifaqının Enerji məsələləri üzrə komissarı Andris Piebalqs çıxış etdilər.

imzalanması imkan verdi ki, Xəzərin neft-qaz ehtiyatları dünyada ilk dəfə olaraq Qara dəniz və Aralıq dənizi ilə beynəlxalq bazarlara nəql edilsin. Yəni «Əsrin müqaviləsi»nin çox böyük tarixi əhəmiyyəti vardır.

Azərbaycana böyük investisiya axını başladı. O vaxt Azərbaycan böyük maliyyə imkanlarına malik deyildi. İmkanımız yox idi ki, «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərin hissəsini özümüz işləyək, özümüz investisiyalar qoyaq. Ona görə xarici kapitalın Azərbaycana gəlməsini təmin etmək çox mühüm bir vəzifə idi. O da həqiqətdir ki, o vaxt Azərbaycan çox riskli bir ölkə kimi tanınırdı. Azərbaycanda daxildə gedən xoşagəlməz hadisələr, vətəndaş müharibəsi, Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti Azərbaycanı çox riskli bir ölkə kimi dünyaya təqdim edirdi. Bunun qarşısını almaq, Azərbaycanı informasiya blokadasından çıxarmaq, ölkəmizi olduğu kimi dünya birliyinə təqdim etmək üçün «Əsrin müqaviləsi»nin əvəzsiz rolu olmuşdur.

Mən o günləri çox yaxşı xatırlayıram. 1994-cü ildə danışıqların son mərhələsi gedirdi və Azərbaycan tərəfi çalışırdı ki, Azərbaycanın milli maraqları maksimum dərəcədə təmin olunsun və ölkəyə böyük investisiya axını təşkil edilsin. 15 il keçəndən sonra, bu gün deyə bilərəm ki, bu 15 il ərzində Azərbaycanın milli maraqları tam şəkildə təmin olunmuşdur. Azərbaycan bu kontraktın icrası nəticəsində böyük və uğurlu yol keçmişdir. Bizim uğurlu gələcəyimiz 15 il əvvəl imzalanmış kontrakta söykənir. Bizimlə bərabər işləyən və o vaxt bizi yaxşı tanımayan xarici şirkətlər də gördülər ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan sərmayə qoyuluşu üçün çox gözəl bir ölkədir, burada işləmək xeyir gətirir. Onlar qoyduqları investisiyaları mənfəətlə qaytardılar. Bu gün də əminəm ki, əməkdaşlıqdan həm biz, həm də xarici tərəfdaşlar razıdırlar. Bu əslində beynəlxalq əməkdaşlığın çox gözəl nümunəsidir.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycanda xarici investisiyalar çox güclü qorunur. «Əsrin müqaviləsi» və

ondan sonra imzalanan bütün kontraktlar parlamentdə ratifikasiyadan keçərək prezident tərəfindən qanun şəklində imzalanmışdır və nə biz, nə xarici tərəfdaşlar kontraktın mətnində bir cümləni belə dəyişə bilmərik. Bu həm bizə xeyirdir, həm də xarici neft şirkətləri özlərini Azərbaycanda tam arxayın və əmin hiss edirlər. Kontrakt çərçivəsində 20 milyard dollardan çox investisiyaların qoyuluşu, qeyri-neft sektorunun inkişafına da böyük təkan verdi. Azərbaycanda yerli şirkətlər kontraktın icrasında fəal iştirak etməyə başlamışdır.

Kontraktın şərtlərinə əsasən azərbaycanlı kadrların sayı da faiz etibarilə müəyyən edilmişdi. Azərbaycan mütəxəssislərinin sayı tədricən artdı. Böyük investisiya layihələri Azərbaycanı dünya birliyinə tanıtdı. Ondan sonrakı dövrdə xarici neft şirkətləri ilə imzalanmış digər layihələr də Azərbaycana böyük uğurlar gətirdi.

Kontraktın müsbət nəticələri haqqında çox danışmaq olar. Bizim bugünkü inkişafımız, bugünkü nailiyyətlərimiz, Azərbaycanın həqiqətən müstəqil ölkə kimi dünya birliyinə qədəm qoyması «Əsrin müqaviləsi»nin imzalanması ilə bağlıdır. Bu çox cəsarətli və müdrik addım idi. Ulu öndər Heydər Əliyev tərəfindən atılan bu addım Azərbaycan xalqının rifah halının yaxşılaşmasına, hərtərəfli inkişafına xidmət edir. O çətin və ağır şəraitdə həm ölkə daxilində gedən çox mürəkkəb proseslər, Azərbaycanın ətrafında cərəyan edən mənfi meyillər Azərbaycanı çox ağır vəziyyətə qoya bilərdi. Əgər Heydər Əliyev cəsarət, uzaqgörənlik, müdriklik göstərməsəydi, Azərbaycan çox ağır vəziyyətə düşə bilərdi. Əgər kontrakt imzalanmasaydı indi təsəvvür etmək çətindir ki, Azərbaycanın bugünkü vəziyyəti necə ola bilərdi. Tam qətiyyətlə deyə bilərəm ki, bu gün biz indiki uğurlardan danışa bilməzdik.

Kontraktın icrası nəticəsində Azərbaycana milyardlarla, on milyardlarla xarici sərmayə qoyulmağa başlandı. Neft-qaz infrastrukturumuz yeniləşdi. Vaxtilə – XX əsrin 70-ci

illərində Heydər Əliyev tərəfindən göstərilən təşəbbüslər nəticəsində yaradılmış infrastruktur kontraktın sürətlə icra olunmasına xidmət göstərirdi. Əgər vaxtilə dərin özüllər zavodu tikilməsəydi bu gün kontraktın icrası çox yubana bilərdi. Belə böyük, nəhəng investisiya qoyuluşunu tələb edən kontraktın imzalanmasından ilkin neftin hasilatına qədər cəmi 3 ildən az vaxt keçdi. Dünya miqyasında misli görünməmiş sürətdir. Azərbaycanın coğrafi vəziyyəti belədir ki, bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Belə olan halda neft kəmərlərinin tikintisi gündəlikdə birinci yeri tuturdu. Neft kəmərlərinin tikintisinə investisiyaların qoyuluşu ancaq hasilatın artırılmasından sonra ola bilərdi. Bu iki prosesi paralel şəkildə aparmaq böyük məharət, böyük diplomatiya və böyük siyasi təcrübə tələb edirdi. Mən şadam ki, bu gözəl ənənələr indi də davam edir. Azərbaycan Dövlət Neft Şirkətinin və *bp* şirkətinin rəhbərliyi altında Beynəlxalq Konsorsium vahid komanda şəklində fəaliyyət göstərmiş və bütün prosesləri ardıcıllıqla və uğurla icra etməyi bacarmışdır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin işə düşməsi, istismara verilməsi ikinci tarixi hadisədir. Bu tarixi hadisə artıq təkcə Azərbaycan üçün deyil, region ölkələri üçün də böyük əhəmiyyət daşıyır. Bu gün Bakı–Tbilisi–Ceyhan neft kəmərinin əhəmiyyəti daha da artır. Çünki artıq Xəzər dənizinin şərq hissəsindən çıxarılan neft Bakı–Tbilisi–Ceyhan kəməri ilə Aralıq dənizinə nəql edilir. Azərbaycan başqa ölkələr üçün tranzit ölkəyə çevrilibdir. Düzdür, bizim çox böyük neft-qaz ehtiyatlarımız vardır. Biz Bakı–Tbilisi–Ceyhan kəmərini öz neftimizlə tam şəkildə doldura bilərik və bunu edirik. Amma gələcəkdə kəmərin genişləndirilməsi də mümkündür və bunu etmək üçün indidən praktiki işlər aparılır.

Bakı–Tbilisi–Ceyhan neft kəməri ətrafında çoxlu spekulyasiyalar, çoxlu söhbətlər gəzirdi. Kəmərin çəkilməsini istəməyən tərəflər var gücü ilə çalışırdılar ki, biz buna nail ola bilməyək. Müxtəlif yerlərdə, internet saytlarında kam-

paniyalar aparılırdı. Xatırlayıram, «Bakı–Tbilisi–Ceyhan kampaniyası» adlı bir hərəkat da başlamışdı və buna ekoloji nöqteyi-nəzərdən yanaşmaq istəyənlər də az deyildi. Biz, əlbəttə ki, bütün ekoloji məsələləri təmin edirik. Ancaq ekologiya adı altında kəmərin tikintisinə gizli və açıq şəkildə müxalif mövqedə dayanan tərəflər bu amildən istifadə etmək istəyirdilər və hətta onların səyləri müəyyən dərəcədə, müvəqqəti olaraq nəticə də vermişdi. Çünki Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi böyük dərəcədə xarici maliyyə qurumlarının resurslarından asılı idi. Bizim o qədər imkanımız yox idi ki, bu kəməri özümüz maliyyələşdirək. Belə olan halda müəyyən müddətdə yubanma da olmuşdur. Mən bunu da çox yaxşı xatırlayıram. Amma buna baxmayaraq, Azərbaycan dövlətinin iradəsi, xarici neft şirkətlərinin uğurlu fəaliyyəti, beynəlxalq dəstək nəticəsində Bakı–Tbilisi–Ceyhan neft kəməri müvəffəqiyyətlə tikildi, istismara verildi və bu gün Azərbaycan neftinin dünya bazarlarına çatdırılmasında mühüm rol oynayır.

Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisinə qədər Azərbaycan nefti iki başqa istiqamətlə beynəlxalq bazarlara nəql edilməyə başlamışdı. Bakı–Novorossiysk neft kəmərinin istiqamətinin dəyişdirilməsi və Bakı–Supsa neft kəmərinin tikilməsi nəticəsində bizim neft ixracımız çoxşaxəli şəkildə dünya bazarlarına çıxarılır. Bu gün həm Bakı–Tbilisi–Ceyhan, həm Bakı–Supsa, həm Bakı–Novorossiysk Azərbaycan neftini müxtəlif istiqamətlərlə dünya bazarlarına çıxarır. Azərbaycanın enerji təhlükəsizliyi tam şəkildə təmin olunub. Şübhə yoxdur ki, əgər «Azəri», «Çıraq», «Günəşli» yataqlar bloku üzrə kontrakt imzalanmasaydı və Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi, Bakı–Tbilisi–Ərzurum qaz kəmərindən söhbət belə gedə bilməzdi. 1996-cı ildə – «Əsrin müqaviləsi»nin imzalanmasından 2 il sonra – «Şahdəniz» qaz yatağı üzrə kontrakt imzalanmışdır və beləliklə, Azərbaycanın böyük qaz potensialına malik olduğu təsdiq edilmişdir. Bizim geoloqlarımız, təcrübəli mütəxəssislərimiz

həmişə deyirdilər və bu gün də həyat onların haqlı olduğunu bir daha sübut edir ki, Azərbaycanın neftlə bərabər, zəngin qaz ehtiyatları vardır. «Şahdəniz» yatağının işlənilməsi və böyük ehtiyatların üzə çıxarılması onu təsdiqləyir. «Şahdəniz» yatağının işlənilməsi nəticəsində Bakı–Tbilisi–Ərzurum qaz kəməri tikildi. Azərbaycan öz qazını bu kəmər vasitəsilə dünya bazarlarına ixrac edir. Onu da qeyd etməliyəm ki, Bakı–Tbilisi–Ərzurum qaz kəməri ilə bərabər, bizim əlavə üç qaz kəmərimiz vardır. Biri Rusiya istiqamətinə, biri Gürcüstan istiqamətinə, biri isə İran istiqamətinə. Bu kəmərlərdən biz səmərəli şəkildə istifadə edə bilərik və beləliklə, qaz ixracatımızı çoxşaxəli şəkildə, Azərbaycanın milli maraqlarına uyğun olan formada dünya bazarına nəql edə bilərik.

Bizim artıq 7 neft-qaz kəmərimiz vardır. Bu il neft hasilatı 45 milyon tondan çox olacaq, qaz hasilatı 30 milyard kubmetrə yaxın olacaqdır. Nəzərə alsaq ki, Azərbaycan artıq özünü tranzit ölkə kimi də təsdiqləyib, bu vaxta qədər bizim qarşımızda duran bütün vəzifələr uğurla icra edilib, gələcək illərdə bu rəqəmlər artacaqdır. Bu gün Azərbaycanın enerji siyasəti regional müstəvidən çıxıb qlobal müstəviyə daxil olubdur.

Azərbaycan neft-qaz ixrac edən etibarlı ölkə kimi, dünya birliyi üçün daha önəmli olubdur. Biz bu gün enerji təhlükəsizliyi məsələlərində çox fəal iştirak edirik. Ötən əsrin 90-cı illərində, hətta 2000-ci ilin birinci yarısında enerji təhlükəsizliyi məsələləri haqqında o qədər də söz-söhbət yox idi. Son illər ərzində bütün dünya və Avropa gördü ki, bu məsələlər nə dərəcədə böyük əhəmiyyət kəsb edir. Müqavilənin icrası nəticəsində Azərbaycan Dövlət Neft Şirkəti beynəlxalq şirkətə çevrildi. Şirkətin çox böyük imkanları vardır. Artıq Azərbaycan Dövlət Neft Şirkəti özü dənizin dərin laylarında qazma işləri aparır və əminəm ki, növbəti kəşfiyyat işini də biz görəcəyik.

Xarici şirkətlərlə uğurlu əməkdaşlığımız bu gün də davam edir və çox əlamətdar haldır ki, bu yaxınlarda üç yeni yataq üzrə yeni kontraktlar imzalanmışdır. «Abşeron», «Asiman», «Şəfəq» yataqları artıq işə salınır və xarici şirkətlər Azərbaycanın neft-qaz potensialına öz diqqətini əsirgəmir. Azərbaycan dövləti isə xarici şirkətlərlə hər iki tərəf üçün səmərəli əməkdaşlığı davam etdirir. Əminəm ki, növbəti illərdə Azərbaycanın neft-qaz potensialı haqqında yeni ümidverici rəqəmlər də səslənəcəkdir.

Qeyd etmək istəyirəm ki, bizim neft-qaz siyasətimiz 1994-cü ildə başlamışdır. Heydər Əliyevin neft strategiyası bu gün də davam edir. Dediyim kimi, biz artıq bu gün regional müstəvidən çıxıb qlobal məsələlərlə məşğuluq. Bununla bərabər, Azərbaycan öz islahatlarını bütün başqa sahələrdə davam etdirir. Əlbəttə ki, bizim maliyyə resurslarımız və təbii ehtiyatlarımız islahatların aparılması üçün daha da əlverişli şərait yaradır.

1994-cü ildə Azərbaycan kasıb bir ölkə idi, valyuta ehtiyatı sıfır dərəcəsində idi. Bu gün isə valyuta ehtiyatlarımız 18 milyard dollardan çoxdur. Son 5 il ərzində Azərbaycanın dövlət büdcəsi 10 dəfədən çox artıbdır. 2003–2008-ci illərdə Azərbaycanda iqtisadiyyat, ümumi daxili məhsul 2,6 dəfə artıbdır. Son 5 il ərzində Azərbaycanda 800 minə qədər yeni iş yeri açılmışdır ki, onların tam əksəriyyəti qeyri-neft sektorundadır. Yoxsulluq şəraitində yaşayanların sayı 5 il ərzində 49 faizdən 13 faizə düşmüşdür. Bu da onu göstərir ki, Azərbaycanda neftdən əldə olunan gəlirlər ədalətli şəkildə bölünür. Azərbaycanda tam şəkildə şəffaflıq təmin edilibdir. 1999-cu ilin sonunda yaradılmış Azərbaycan Dövlət Neft Fondu çox müasir qurumdur, çox şəffaf təşkilatdır. Təsadüfi deyildir ki, Azərbaycan Dövlət Neft Fondu BMT-nin şəffaflıq üzrə mükafatı ilə təltif edilmişdir və Hasilat Sənayelərində Şəffaflıq Təşəbbüsünün fəal üzvüdür. Azərbaycan Dövlət Neft Fondunun təcrübəsi bir çox hallarda başqa yerlərdə də öyrənilir.

Azərbaycanda aparılan köklü islahatlar beynəlxalq qurumların hesabatlarında da öz əksini tapır. 2008-ci ildə Dünya Bankı Azərbaycanı dünyada bir nömrəli islahatçı ölkə kimi tanıdı. Bu il Dünya İqtisadi Forumu rəqabət qabiliyyətliliyinə görə Azərbaycanı 51-ci yerə layiq gördü. Bu da çox böyük nailiyyətdir. Bu onu göstərir ki, biz bu məqsədə çatacağıq. Məqsədimiz isə inkişaf etmiş ölkələrin sırasına daxil olmaqdır. Bunu etmək üçün islahatlarımız davam etdirilməlidir. Neftdən əldə olunan gəlirlər təhsilə, səhiyyə məsələlərinin həllinə, qaçqınların yeni evlərə köçürülməsinə sərf olunur. Yeni müasir infrastruktur, sahibkarlığa kömək, güzəştli kreditlərin verilməsi, hərtərəfli inkişaf – budur Azərbaycanın reallıqları. Baxmayaraq ki, dünyada hökm sürən maliyyə böhranı Azərbaycandan da yan keçməyib, bu ilin səkkiz ayında Azərbaycan iqtisadiyyatı 5 faiz artıbdır. Dünyada neftin qiyməti kəskin şəkildə aşağı düşüb, bu onu göstərir ki, Azərbaycan iqtisadiyyatı neft-qaz amilindən öz asılılığını böyük dərəcədə azalda bilibdir.

Bugünkü Azərbaycan müasir, güclü iqtisadiyyata malik sabit ölkədir, investisiyalar üçün çox məqbul bir ölkədir. Xarici tərəfdaşlarla bizim əməkdaşlığımız davam edir və bu çox sevindirici haldır. Biz öz sözümüzə həmişə sadiq olmuşuq, sözümüzlə əməlimiz arasında heç vaxt fərq olmamışdır.

Mən bu gün bir daha bütün Azərbaycan xalqını bu gözəl hadisə münasibətilə ürəkdən təbrik etmək istəyirəm. Azərbaycan neftçilərini qarşıdan gələn peşə bayramları münasibətilə təbrik etmək istəyirəm. Bilirsiniz ki, Azərbaycan qədim neft ölkəsidir. İlk dəfə olaraq dünyada sənaye üsulu ilə neft məhz Azərbaycanda çıxarılıbdır. İlk dəfə olaraq dünyada dənizdə neft məhz Azərbaycan neftçiləri tərəfindən çıxarılıbdır. Yəni Azərbaycan neftçilərinin çox böyük və şanlı tarixi var, təcrübəsi vardır. Ancaq neftçilər günü Azərbaycanda sentyabrın 20-də qeyd olunur. Bu, «Əsrin müqaviləsi»nə dövlət tərəfindən verilən qiymətdir. Çünki «Əsrin

müqaviləsi»nin imzalanması Azərbaycanın neft sənayesinin qarşısında yeni imkanlar açmışdır.

Mən bu gün həm Azərbaycan neftçilərinə öz minnətdarlığımı bildirmək istəyirəm, onları təbrik etmək istəyirəm. Həm də bizim xarici tərəfdaşlarımıza, beynəlxalq konsorsiumun üzvlərinə, xüsusilə *bp* şirkətinin bütün əməkdaşlarına Azərbaycana verdikləri töhfələrə görə, Azərbaycana inandıqlarına, sərmayə qoyduqlarına və uzun illər ərzində səmərəli əməkdaşlığa görə təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycan Neft Şirkətinin bütün xarici şirkətlərlə əməkdaşlığı gələcəkdə uğurla davam edəcək, Azərbaycana yeni imkanlar açacaq, ölkəmiz güclənəcək, qüdrətlənəcək və uğurla irəliyə gedəcəkdir.

* * *

*Daha sonra «Əsrin müqaviləsi»nin 15 illiyinə həsr olunan filmin nümayişi oldu və konsert proqramı təqdim edildi.*

## AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

Hörmətli həmvətənlər!

Sizi yəhudi xalqının milli Yeni il bayramı – Roş-Ha-Şana münasibətilə ürəkdən təbrik edir, hamınıza cansağlığı və xoşbəxtlik arzularımı yetirirəm.

Biz xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, nümunəvi tolerantlıq mühitinin hökm sürdüyü müasir Azərbaycan cəmiyyətində etnik-mədəni müxtəlifliyi milli dövlətçiliyimizin əvəzsiz nailiyyəti kimi qiymətləndiririk. Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsin insan hüquq və azadlıqlarının təminatı, o cümlədən ölkədə sabitlik, əmin-amanlıq və vətəndaş həmrəyliyi həyata keçirdiyimiz siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycan dövləti daim bu sahəyə xüsusi diqqət və qayğı ilə yanaşmış, respublikada bütün milli azlıqların, o cümlədən yəhudi icmasının etnik-mədəni özünəməxsusluğunun, adət-ənənələrinin qorunub saxlanılması, dil və mədəniyyətinin inkişafı üçün hərtərəfli demokratik, hüquqi şərait yaratmışdır.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, yəhudi əsilli vətəndaşlarımız hazırda böyük inkişaf və tərəqqi mərhələsini yaşayan ölkəmizin ictimai-siyasi həyatında, demokratik dövlət quruculuğu prosesində yaxından iştirak edirlər.

Əziz dostlar!

Roş-Ha-Şana yenilik, mənəvi saflıq, xoş müjdələr və həmrəylik bayramıdır. Qoy bu əziz gün həyatınıza sevinc, ailələrinizə səadət və firavanlıq gətirsin.

*Bayramınız mübarək olsun!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *17 sentyabr 2009-cu il*

## MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN CƏRRAHİYYƏ KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*17 sentyabr 2009-cu il*

*Sentyabrın 17-də Milli Onkologiya Mərkəzinin cərrahiyyə korpusunun açılışı olmuşdur.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva açılış mərasimində iştirak etmişlər.*

*Səhiyyə ocağının kollektivi və inşaatçılar dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Mehriban xanıma və qızı Leylaya gül dəstələri təqdim olundu.*

*Dövlətimizin başçısı cərrahiyyə korpusunun açılışını bildirən lenti kəsdi və bina ilə yaxından tanış oldu.*

*Binanın foyesində ulu öndər Heydər Əliyevin* «Səhiyyə cəmiyyətimizin müqəddəs sahələrindən biridir» *kəlamı yazılmışdır. Burada ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin səhiyyənin inkişafına diqqət və qayğısını əks etdirən fotoguşələr yaradılmışdır.*

*Foyedəki monitorda ulu öndərin həyatını əks etdirən fotolar və kadrlar nümayiş olunurdu.*

*Prezident İlham Əliyev Milli Onkologiya Mərkəzinin uşaq onkologiyası və stasionar şüa-terapiyası korpuslarının eskizlərinə baxdı.*

*Prezident yanında Xüsusi Tibb Xidmətinin rəisi, Milli Onkologiya Mərkəzinin Baş direktoru, akademik Cəmil Əliyev məlumat verdi ki, 2006-cı ilin iyunun 1-də dövlətimizin başçısının iştirakı ilə təməli qoyulmuş Mərkəzin cərrahiyyə korpusu ən müasir üslubda inşa olunmuşdur. Layihənin müəllifi gənc memar Vüqar Həsənovdur. «Xəzər» Gənclərin*

*Elmi-Texniki Yaradıcılıq Mərkəzi tərəfindən inşa olunmuş bina 7 mərtəbədən, kürsü qatından və texniki mərtəbədən ibarətdir. Binanın ümumi sahəsi 26 min kvadratmetrdir. Korpusda 190 çarpayılıq 110 palata, 8 əməliyyat otağı, 23 sarğı otağı vardır.*

*Birinci mərtəbədə qəbul şöbəsi, inzibati otaqlar, mühasibatlıq, dəftərxana, elmi hissə, kitabxana, kafe, aptek fəaliyyət göstərəcəkdir. İkinci mərtəbədə ümumi onkologiya, üçüncü mərtəbədə onkoginekologiya və torakal onkologiya, dördüncü mərtəbədə abdominal onkologiya, beşinci mərtəbədə baş-burun şişləri və onkourologiya şöbələri, altıncı mərtəbədə reanimasiya şöbəsi, yeddinci mərtəbədə iki əməliyyat bloku yerləşir. Kürsü qatında mərkəzi sterilləşdirmə şöbəsi, qan bankı, ambulator sarğı otaqları, təsərrüfat sahəsi və digər otaqlar vardır.Binada 520 nömrəlik ATS, 11 müasir lift quraşdırılmış, ərazidə 8 min 600 kvadratmetr sahədə abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.*

*Əməliyyat blokları ilə tanışlıq zamanı məlumat verildi ki, ən müasir standartlara uyğun yaradılan əməliyyat otaqlarında bütün qapılar avtomat idarə olunur. Paslanmaya, yanğına, rentgen şüalarına davamlı olan xüsusi metaldan üzlənmiş, divarların konstruksiyası maqnit yapışdırılması üsulu ilə hazırlanmışdır. Bu, sterillik üçün çox vacib amildir.*

*LED lampaları da Azərbaycanda ilk dəfə buradakı əməliyyat otaqlarında quraşdırılmışdır. Müxtəlif ölçülü lampalar 5 min kilolüksə qədər işıq verə bilir. Bu lampaların üstün cəhəti odur ki, işıqlandırma zamanı kölgə və istilik yaranmır. Blokdakı otaqların bütün mexanizm və avadanlıqları təlimatları Azərbaycan dilində yazılmış bir lövhədən idarə olunur. Əməliyyat otaqlarında anesteziologiya və elektrocərrahiyyə cihazları, xəstənin həyat fəaliyyətinə nəzarət etmək üçün xüsusi monitorlar və digər avadanlıqlar quraşdırılmışdır.*

*Əməliyyat üçün alətlər kürsü qatında yerləşən sterilləşdirmə şöbəsindən xüsusi lift ilə birbaşa əməliyyat blokuna gətirilir.*

*Reanimasiya şöbəsinin divarları şüşədəndir. Bu, cərrahiyyə əməliyyatından sonra intensiv terapiyanın yüksək səviyyədə həyata keçirilməsinə imkan yaradır. Bundan başqa, reanimasiya şöbəsində təcili analizlər aparan laboratoriya fəaliyyət göstərir.*

*Məlumat verildi ki, Milli Onkologiya Mərkəzinin uşaq onkologiyası korpusunda hazırda tikinti-quraşdırma işləri davam edir. Korpus gələn ilin əvvəlində istifadəyə veriləcəkdir.*

*Bina ilə tanışlıqdan sonra dövlətimizin başçısı kollektivi təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Bir daha sizi ürəkdən təbrik edirəm. Cərrahiyyə korpusu sözün əsl mənasında, dünyanın ən yüksək standartlarına cavab verir. Bəlkə də dünya standartlarından da yüksəkdir. Xəstəxanalar və cərrahiyyə korpusları, adətən, daha sadə şəkildə tikilir. Binanın həm gözəl memarlıq üslubu vardır, həm də istifadə olunmuş materiallar keyfiyyətlidir. Bina çox genişdir, işıqlıdır. Burada ən müasir avadanlıqlar quraşdırılmışdır. Bu korpus ən yüksək standartlara cavab verir. Bundan sonra Azərbaycanda tikiləcək bütün səhiyyə ocaqları gərək bu standartlara yaxın olsun.

Bildiyiniz kimi, Azərbaycanda səhiyyə sisteminin gücləndirilməsinə böyük diqqət göstərilir. Son 4 il ərzində Azərbaycanda 300-dən çox səhiyyə müəssisəsi tikilibdir. Onlardan 124-ü xəstəxanadır. Bakıda, bütün bölgələrdə yeni, müasir avadanlıqlarla təchiz edilmiş səhiyyə ocaqları tikilmişdir.

Onların arasında Milli Onkologiya Mərkəzi, əlbəttə ki, xüsusi yerə malikdir. Mən xatırlayıram, 3 il bundan əvvəl burada biz sizinlə bərabər bu korpusun təməl daşını qoyduq. O vaxt mən bilirdim ki, bu bina yüksək səviyyədə tikilib istifadəyə veriləcəkdir. Ancaq təsəvvür etmirdim ki, bu dərəcədə gözəl bir səhiyyə müəssisəsi yaradılacaqdır. 3 il keçdi və gözəl bir əsər yaradıldı. Həm yeni cərrahiyyə korpusu tikildi, həm də uşaq onkologiyası korpusu, terapevtik

korpus tikilməkdədir. Yəni bu, böyük bir cərrahiyyə və elmi mərkəzdir. Burada quraşdırılan bütün avadanlıqlar dünyanın aparıcı şirkətləri tərəfindən istehsal edilmişdir və dünyanın ən məşhur tibbi klinikalarında quraşdırılan avadanlıqlardan heç də geri qalmır. Bu onu göstərir ki, Azərbaycanda bütün sahələrdə, o cümlədən səhiyyə məsələlərinin həllində ən yüksək standartlar tətbiq edilir.

Bu korpusun tikintisinin də çox maraqlı tarixi vardır. Uzun illər idi ki, korpusun tikintisi ilə bağlı fəaliyyət göstərilirdi. Yəni, korpusun tikintisinə çox böyük ehtiyac var idi. Ancaq əvvəlki illərdə maliyyə imkanlarımız məhdud olduğuna görə biz xarici kreditlərə daha çox bel bağlayırdıq. Milli Onkologiya Mərkəzinin direktoru Cəmil Əliyev çox böyük səylər göstərirdi, müxtəlif şirkətlərlə, kredit təşkilatları ilə danışıqlar aparırdı. Ancaq o vaxt Azərbaycana, xüsusilə də səhiyyə sahəsinə kredit vermək istəyən tapılmadı. Ona görə biz qərar qəbul etdik ki, Azərbaycanın dövlət büdcəsi hesabına gözəl cərrahiyyə korpusu tikək və çox şadam ki, biz buna nail ola bildik. Şadam ki, bu korpusun tikintisində Azərbaycan şirkətləri iştirak ediblər. Bu da onu göstərir ki, Azərbaycan şirkətlərinin təcrübəsi və peşəkarlığı vardır. İstənilən müəssisəni, istənilən səhiyyə ocağını yaxşı tikə bilərlər.

Burada xəstələrə, əlbəttə ki, çox yaxşı tibbi xidmət göstəriləcəkdir. Bunu etmək üçün bütün şərait vardır. Həkimlərin iş şəraiti də ən yüksək səviyyədədir. Biz bunu da heç vaxt unutmamalıyıq ki, həkimlərin iş şəraiti yüksək səviyyədə olmalıdır.

Bir sözlə, mən sizin hamınızı bir daha bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm və fəaliyyətinizdə uğurlar arzulayıram.

## TÜRKSOY-un BAŞ DİREKTORU DÜSEN KASEİNOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*17 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də TÜRKSOY-un Baş direktoru Düsen Kaseinovu qəbul etmişdir.*

*Baş direktor TÜRKSOY ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini bildirdi. O dedi ki, «Bakı İslam mədəniyyətinin paytaxtıdır» proqramı çərçivəsində TÜRKSOY-un hazırladığı layihəyə əsasən «Üzeyir musiqi günü» münasibətilə dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin «Koroğlu» operasının sentyabrın 18-də Bakıda səhnəyə qoyulacağı planlaşdırılır. Qonaq bu əsərin Türkiyədə, Qazaxıstanda və Qırğızıstanda çox böyük maraqla qarşılandığını vurğuladı.*

*Dövlətimizin başçısı bu layihənin xalqların bir-birinə daha da yaxınlaşması, ölkələr arasında mədəni əlaqələrin möhkəmləndirilməsi baxımından yaxşı imkan yaradacağını qeyd etdi və onun əhəmiyyətini yüksək qiymətləndirdi.*

*Görüşdə Azərbaycan ilə TÜRKSOY arasında geniş perspektivlərə malik əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.*

## BAKININ PARLAMENT VƏ MEHDİ HÜSEYN KÜÇƏLƏRİNİN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*17 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 17-də Bakının Parlament və Mehdi Hüseyn küçələrinin əsaslı bərpa və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Bakı şəhərinin nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, yolların və prospektlərin abadlaşdırılması ilə bağlı dövlətimizin başçısının müvafiq göstərişlərinə uyğun olaraq paytaxtın Parlament və Mehdi Hüseyn küçələri əsaslı bərpa və yenidənqurmadan sonra istifadəyə verilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev Parlament və Mehdi Hüseyn küçələrinin təmirdən sonrakı vəziyyəti ilə tanış olmaq üçün buraya gəldi.*

*Dövlət başçısına məlumat verildi ki, təmir işləri qısa vaxt ərzində yüksək standartlara uyğun şəkildə başa çatdırılmışdır. Qeyd olundu ki, 1,6 kilometr yola yeni asfalt örtüyü döşənmişdir. Yolboyu səkilər – 3,2 kilometr ərazi qranit səki daşları ilə əvəzlənmişdir. Hər iki küçədə xüsusi materialdan hazırlanmış yol-nişanlama xətləri çəkilmişdir. Bu yol-nişanlama xətləri gecələr nəqliyyat vasitələrinin təhlükəsiz hərəkəti üçün çox əhəmiyyətlidir. Bildirildi ki, asfalt örtüyü döşənməzdən əvvəl bütün kommunikasiya quyularının avadanlığı tamamilə dəyişdirilmişdir. Almaniya istehsalı olan bu avadanlıq xüsusi maddələrin köməyi ilə quraşdırılmışdır. Küçələrdə işıq sistemi təzələnmiş və abadlıq işləri aparılmışdır.*

*Həyata keçirilən təmir və yenidənqurma işləri ilə tanış olan dövlətimizin başçısı müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müsəlmanların müqəddəs Ramazan bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi Qurani-Kərimin nazil olduğu mübarək Ramazan ayı insanları sülh, əmin-amanlıq və bərabərlik yoluna dəvət edir, mənəvi-əxlaqi saflığın, xeyirxah əməllərin təntənəsini nümayiş etdirir.

Xalqımız həmişə milli mənəvi və islami dəyərlərə sadiqliyi ilə seçilir. Təsadüfi deyildir ki, Bakı şəhəri 2009-cu ildə islam mədəniyyətinin paytaxtı elan edilmişdir. Ölkəmizin hər yerində Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin ölməz xatirəsi ehtiramla yad olunur. Bu mübarək Ramazan günlərində bütün xeyirxah niyyətlərinizlə həmrəy olduğumu bildirir, dualarınızın çin olmasını Uca Yaradandan arzu edirəm.

Əziz bacı və qardaşlarım!

Cəmiyyətimizdə dostluq, qardaşlıq və həmrəylik duyğularını daha da gücləndirən, insanların qəlbini və ruhunu ilahi hikmətlə nurlandıran mübarək Ramazan ayını hər il olduğu kimi, bu il də böyük qürur hissi və könül xoşluğu ilə yola salırıq. Bu əziz bayram günlərində bir daha hər birinizi səmimi-qəlbdən təbrik edir, ailələrinizə firavanlıq, süfrələrinizə bol ruzi və bərəkət arzulayıram.

*Allah orucunuzu qəbul etsin!*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 sentyabr 2009-cu il*

## BAKI–QUBA–RUSİYA FEDERASİYASI DÖVLƏT SƏRHƏDİ AVTOMOBİL YOLUNUN 16–134-cü KİLOMETRİNİN AÇILIŞI MƏRASİMİ

*18 sentyabr 2009-cu il*

*Sentyabrın 18-də prezident İlham Əliyev Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 16–134-cü kilometrinin açılışında iştirak etmişdir.*

*Yolun yenidən qurulmasına «Akkord» şirkətlər qrupu 2008-ci ilin mayında başlamışdır. Ötən ilin avqustunda Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yoluna daxil olan Bakı–Sumqayıt yolu, bu ilin fevralında isə yolun 11-ci kilometrində tunel tipli yol ötürücüsü və 16-cı kilometrində körpü tipli yol ötürücüsü dövlətimizin başçısının iştirakı ilə istifadəyə verilmişdi.*

*Bakı–Quba–Rusiya Federasiyası dövlət sərhədi avtomobil yolunun 16–134-cü kilometri beton örtük tikilməklə yenidən qurulmuşdur. Ötən dövrdə 118 kilometrlik yola 28-30 santimetr qalınlığında beton döşənmiş, yolla kəsişən kommunikasiya xətləri dəyişdirilmiş, suötürücü qurğular, körpü və keçidlərin tikintisi layihə üzrə həyata keçirilmişdir.*

*Ümumilikdə, 14,1 milyon kubmetr torpaq, 2,1 milyon kubmetr beton işləri görülmüşdür. Burada 20 körpü, 9 heyvan keçidi olacaqdır. Hərəkətin intensivliyindən asılı olaraq yol 2, 3, 4 və 6 zolaqlıdır.*

*Dövlətimizin başçısı yolun açılışını bildirən lenti kəsdi və inşaatçıları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Yeni yolun istifadəyə verilməsi münasibətilə sizi təbrik edirəm. Gördüyünüz işlərə görə sizə minnətdaram. Bu yol tikintisi hələ Rusiya Federasiyası sərhədinə qədər davam edəcəkdir. Əminəm ki, yaxın za-

manlarda biz bu yolun tam istifadəyə verilməsini qeyd edəcəyik. Sizə yeni uğurlar arzulayıram. Sağ olun.

* * *

*Hazırda yolun Dəvəçi şəhəri ərazisindən keçən hissəsində Dəvəçi çayı üzərində uzunluğu 544 metr, eni 23 metr, hündürlüyü 21 metr olan körpünün tikintisi sürətlə davam etdirilir.*

*Prezident İlham Əliyev körpüdə aparılan tamamlama işləri ilə tanış oldu.*

*Bildirildi ki, Azərbaycanda tikilən bu 16 aşırımlı ən uzun və ən hündür körpünün tikintisi üzrə işlərin əsas hissəsi müvəffəqiyyətlə həyata keçirilmişdir. Körpünün hər bir dayağının altında müvafiq olaraq 22 metr dərinliyində 30 svay vurulmuşdur. Körpünün quraşdırılmasında 33 metr uzunluğunda beton atmalardan istifadə edilmişdir. Körpü 8-9 ballıq antiseysmik sistemlərlə hesablanmışdır. Gələcəkdə baş verə biləcək sel və daşqın sularının tənzimlənməsi üçün burada dəmir-beton istinad divarları sistemi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev körpüdə işlərin vaxtında və keyfiyyətlə başa çatdırılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN QUBA–QUSAR RAYONLARINA SƏFƏRİ

*18 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 18-də Quba rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Quba şəhərinin mərkəzində salınmış Heydər Əliyev parkında ulu öndərin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Prezident İlham Əliyev parkda aparılmış yenidənqurma, abadlıq və yaşıllaşdırma işləri ilə tanış oldu.*

*Dövlətimizin başçısına parkda görülən işlər barədə məlumat verildi. Bildirildi ki, 7 hektar ərazini əhatə edən parkda abadlıq işləri davam etdirilir.*

### Heydər Əliyev Muzeyi üçün tikilən yeni binada inşaat işlərinin gedişi ilə tanışlıq

*Sentyabrın 18-də prezident İlham Əliyev Qubada Heydər Əliyev Muzeyi üçün inşa edilən yeni binanın tikinti işlərinin gedişi ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına muzeyin yeni binasının layihəsi təqdim edildi. Layihəni memar Toğrul Ruslanoğlu hazırlamışdır. Muzeyin girişində ulu öndərin büstü qoyulacaqdır. Orijinal layihə əsasında inşa olunan binada yaradılacaq bölmələrdə ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən çoxlu sayda eksponat yerləşdiriləcək, informasiya-kommunikasiya texnologiyalarının da geniş tətbiqinə xüsusi diqqət yetiriləcəkdir.*

*Prezident İlham Əliyev muzeyin inşası və tərtibatı ilə bağlı tövsiyə və tapşırıqlarını verdi.*

**Müalicə-Diaqnostika Mərkəzinin açılışı mərasimi**

*Prezident İlham Əliyev sentyabrın 18-də Qubada Müalicə-Diaqnostika Mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərasim iştirakçıları prezident İlham Əliyevi hərarətlə qarşıladılar.*

*Dövlətimizin başçısı açılışı bildirən lenti kəsdi, səhiyyə ocağında yaradılmış şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, təməli 2006-cı ilin martında qoyulan və ümumi sahəsi 1,3 hektar olan Quba Müalicə-Diaqnostika Mərkəzi Dövlət Neft Şirkətinin vəsaiti hesabına tikilmişdir. Quba ilə yanaşı, qonşu rayonların da əhalisinə xidmət göstərəcək Mərkəzdə 150 həkim və orta tibb işçiləri işlə təmin olunmuşlar.*

*4 mərtəbədən ibarət olan Mərkəzin əsas binasının sahəsi 7 min 220 kvadratmetr, yardımçı binaların sahəsi isə 805 kvadratmetrdir. Əsas binanın birinci mərtəbəsində konsultativ diaqnostika poliklinikası, qəbul otağı, laboratoriya və şüa diaqnostikası şöbələri yerləşir. Poliklinika oftalmologiya, LOR, ultrasəs müayinə, ginekologiya otaqlarından ibarətdir. Şüa diaqnostikası şöbəsində biokimyəvi laboratoriya, qastroskopiya və kolonoskopiya otaqları fəaliyyət göstərir.*

*İkinci mərtəbənin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Azərbaycanda səhiyyənin inkişafı sahəsində gördükləri işləri əks etdirən fotoguşə yaradılmışdır. Bu mərtəbədə 20 çarpayılıq cərrahiyyə və 10 çarpayılıq hemodializ şöbələri yerləşir.*

*Dörd bölmədən ibarət əməliyyat bloku, reanimasiya və anesteziologiya şöbələri üçüncü mərtəbədədir. Burada sterilləşdirmə bloku da fəaliyyət göstərir.*

*Mərkəzin fəaliyyəti ilə tanışlıqdan sonra prezident İlham Əliyev səhiyyə ocağının kollektivi və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü, onları təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Öncə sizi qarşıdan gələn müqəddəs Ramazan bayramı münasibətilə təbrik etmək istəyirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Quba Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə də sizi təbrik edirəm. Çox gözəl səhiyyə ocağıdır. Həm xarici gözəlliyi ilə seçilir, həm də ki, burada bütün lazımi avadanlıqlar vardır. Müayinə və müalicə etmək, cərrahiyyə əməliyyatlarını aparmaq üçün bütün şərait vardır. Mən çox şadam ki, Qubada müasir tibbi Mərkəz yaradılıb və insanlara xidmət göstərəcəkdir.

Azərbaycanın müxtəlif bölgələrində belə gözəl müalicə-diaqnostika mərkəzləri tikilir və insanlara xidmət göstərir. Çalışmalıyıq ki, Azərbaycanın hər bir yerində keyfiyyətli və səviyyəli tibbi xidmət göstərilsin. Bunu etmək üçün, əlbəttə ki, yeni xəstəxanalar tikilməlidir, tibbi kadrlar hazırlanmalıdır. O kadrlar ki, müasir avadanlıqla işləyə bilsinlər, yaxşı tibbi xidmət göstərsinlər. Azərbaycanda son 4-5 il ərzində 300-dən çox səhiyyə müəssisəsi yaradılıb. Onlardan 120-dən çoxu xəstəxanadır. Ancaq bu ay Azərbaycanda üç yeni tibbi müəssisə açılıb. Hacıqabulda, dünən Bakıda Milli Onkologiya Mərkəzinin cərrahiyyə korpusu, bu gün də Quba Müalicə-Diaqnostika Mərkəzi açıldı. Bu onu göstərir ki, səhiyyə sisteminin təkmilləşməsi sahəsində çox gözəl və praktiki işlər aparılır. Mən çox şadam ki, sosial sahənin bu istiqamətində yaxşı uğurlar vardır.

Quba da gözəlləşir, müasirləşir, gözəl binalar tikilir. Bir neçə il bundan əvvəl bu bölgədə heç nə yox idi. Birinci, 2003-cü ildə Olimpiya Mərkəzi, mehmanxana, ondan sonra bu gözəl müəssisə yaradıldı. İndi Heydər Əliyev parkında abadlıq işləri aparılır, çox böyük saray tikilir. O da yaxın zamanlarda qubalıların sərəncamına veriləcəkdir. Bakıdan

Qubaya gözəl beton yol tikilibdir, bu yolla çox rahat getmək mümkün olacaqdır.

Bu gün «Şahdağ» Elektrik Stansiyasının açılışı olacaqdır. Bu da şimal zonasının dayanıqlı enerji ilə tələbatını təmin etmək üçün tikilibdir, 100 meqavatdan çox gücü vardır. Bu nə deməkdir? Bu o deməkdir ki, həm elektrik enerjisi ilə təchizat yaxşılaşacaq, həm də gələcək inkişaf üçün lazımi tədbirlər görülür.

Qubanın təbii sərvətləri, iqlimi, turizm üçün də çox gözəl yerləri vardır. Beton yolun istifadəyə verilməsindən sonra Bakıdan buraya turist axını daha da çoxalacaqdır. Beləliklə, Azərbaycan və onun gözəl guşəsi olan Quba rayonu daha da inkişaf edəcəkdir. Mən sizi bir daha ürəkdən salamlayıram, Müalicə-Diaqnostika Mərkəzinin açılışı münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram!

## «Şahdağ» Elektrik Stansiyasının açılışı mərasimi

*Sentyabrın 18-də prezident İlham Əliyev Qubada «Şahdağ» Elektrik Stansiyasının açılışında iştirak etmişdir.*

*«Azərenerji» ASC-nin prezidenti Etibar Pirverdiyev məlumat verdi ki, ərazisi 14 hektar olan «Şahdağ» Elektrik Stansiyası ölkəmizin energetika sisteminə böyük töhfələrdən biridir. İnşasına 2008-ci ildə başlanan stansiyada tikinti-quraşdırma işlərini yerli «AZENKO» şirkəti həyata keçirmişdir. Stansiyanın elektrik avadanlığı İsveçrənin «ABB», güc avadanlığı isə Finlandiyanın «Vartsila» şirkətlərinin istehsalıdır. Ən son elmi-texniki yeniliklərin tətbiq olunduğu stansiyada ildə 700 milyon kilovat-saatdan çox elektrik enerjisi istehsal etmək mümkündür. «Şahdağ»da istehsal olunacaq enerjinin ötürülməsi üçün 110 kilovoltluq 2-ci Quba hava xəttinin stansiyaya giriş-çıxışının təmin edilməsi məqsədi ilə 2 kilometr uzunluğunda yeni xətt çəkilmişdir. Stansiyanın qaz təchizatı üçün 14 kilometr uzunluğunda boru kəməri çəkilmiş, qazpaylayıcı stansiya tikilmişdir.*

*Elektrik stansiyası «Sahdağ» Qış-Yay Turizm Kompleksinin, eləcə də Quba və Qusar rayonlarının elektrik enerjisi təchizatını əsaslı surətdə yaxşılaşdıracaqdır. «Şahdağ» Qış-Yay Turizm Kompleksinin elektrik enerjisinə tələbatı ilkin mərhələdə 50 meqavat təşkil edəcəkdir. Sonrakı mərhələdə bu göstəricinin 100 meqavata yüksələcəyi gözlənilir.*

*Prezident İlham Əliyev stansiyanın iş prinsipi ilə tanış oldu.*

*Qeyd edildi ki, ümumi gücü 105 meqavat olan bu energetika qurğusunda hər biri 8,7 meqavatlıq porşen tipli 12 aqreqat quraşdırılmışdır. Bir kilovat-saat elektrik enerjisinin istehsalı üçün şərti yanacaq vahidi ilə cəmi 0,23 kubmetr və ya 267 qram təbii qaz sərf ediləcəkdir. Faydalı iş əmsalı 46 faiz olan stansiyanın işləməsi üçün təbii qazın 6 bar təzyiqlə verilməsi kifayətdir. Bu, buxar-qaz turbinlərinə verilən qazın təzyiqindən təxminən 4 dəfə azdır.*

*Prezident İlham Əliyev idarəetmə məntəqəsindən stansiyanı işə saldı.*

*Dövlətimizin başçısına bu stansiya ilə bağlı perspektivdə görüləcək işlər barədə də məlumat verildi. Qeyd edildi ki, «Xaçmaz» Elektrik Stansiyası ilə «Şahdağ» Elektrik Stansiyası arasında 40 kilometrə qədər uzunluqda 110 kilovoltluq elektrik xəttinin və «Şahdağ» Qış-Yay Turizm Kompleksinin enerji təchizatı üçün 40 kilometrlik 2 elektrik xəttinin, həmçinin müvafiq yarımstansiyaların tikintisi nəzərdə tutulmuşdur.*

*Prezident İlham Əliyev ümumi sahəsi 530 kvadratmetr olan ikimərtəbəli inzibati bina ilə də tanış oldu. Buradakı fotoguşələrdə Azərbaycan elektroenergetikasının sürətli inkişafında müstəsna əməyi olan ulu öndər Heydər Əliyevin xalq və Vətən qarşısında xidmətlərindən, energetiklərlə görüşlərindən və müxtəlif tədbirlərdə iştirakından bəhs edən eksponatlar vardır. Bundan başqa, prezident İlham Əliyevin respublikamızın energetika potensialının möhkəmləndirilməsi və enerji təhlükəsizliyinin təmin olunması istiqamətində reallaşdırdığı*

*ardıcıl və fundamental tədbirlər də buradakı fotoşəkillərdə dolğun əksini tapmışdır.*

*Dövlətimizin başçısı respublikamızın energetika obyektlərinin əks olunduğu xəritəyə baxdı, ətrafı seyr etdi.*

*Stansiyanın iş rejimi və avadanlığı ilə yaxından tanış olan prezident İlham Əliyev energetiklərlə görüşdü, onlara uğurlar arzuladı.*

**İ l h a m Ə l i y e v:** Sizi yeni stansiyanın açılışı münasibətilə ürəkdən təbrik edirəm, uğurlar arzulayıram. Stansiyanın istifadəyə verilməsi çox böyük hadisədir. Həm bu bölgə üçün, həm də ümumiyyətlə, Azərbaycanın elektrik enerjisi potensialının gücləndirilməsi üçün stansiyanın çox böyük əhəmiyyəti vardır. 100 meqavatdan çox gücü olan stansiya, eyni zamanda, «Xaçmaz» Elektrik Stansiyası ilə birləşəcək, Qusar rayonu, Quba rayonu, ətraf rayonların elektrik enerjisinə tələbatını tam şəkildə ödəyəcəkdir. Tikilməkdə olan müasir «Şahdağ» Qış-Yay Turizm Kompleksinin dayanıqlı elektrik enerjisinə tələbatının ödənilməsi üçün stansiyanın əvəzolunmaz əhəmiyyəti vardır.

Son illər ərzində Azərbaycanda böyük sayda modul stansiyalar tikilibdir. Bu, sayca yeddincidir. Digər stansiyalar da tikilir və beləliklə, Azərbaycanın elektrik enerjisi potensialı tamamilə yeniləşir, güclənir, bunlar əlavə güc mənbəyidir.

Bilirsiniz ki, Azərbaycan çox sürətlə inkişaf edən ölkədir. Elektrik enerjisinə tələbat ildən-ilə artır, gələcək illərdə də artacaqdır. Çünki yeni müəssisələr, zavodlar, fabriklər, səhiyyə ocaqları tikilir, inkişaf gedir və əlbəttə ki, bütün bunlar elektrik gücü tələb edir. Bizim zəngin neft-qaz yataqlarımız vardır. Qaz istehsal edirik, neft istehsal edirik, emal edirik, yəni Azərbaycanın enerji təhlükəsizliyi daxili imkanlar hesabına tam şəkildə təmin edilir.

Biz Azərbaycanda qazlaşdırma prosesini davam etdiririk. Elektrik enerjisinə olan tələbat tam şəkildə ödənilir. Son illər ərzində görülən işlər və bu gün istifadəyə verilən bu stansiyanın əhəmiyyəti bu sahədə çox böyükdür.

Mən çox şadam ki, qısa müddət ərzində, haradasa 4-5 il ərzində Azərbaycanda 7 gözəl, müasir modul tipli elektrik stansiyası tikilibdir. Bununla bərabər, digər stansiyalar, su elektrik stansiyaları tikilir. Biz alternativ enerji mənbələrini tam şəkildə işə salmalıyıq və beləliklə, Azərbaycan uzunmüddətli inkişaf strategiyasını çox böyük səmərə ilə icra edəcəkdir.

Mən stansiyanın tikintisində iştirak etmiş bütün mütəxəssisləri, fəhlələri bir daha salamlayıram, sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycanın bütün energetiklərinə yeni uğurlar və cansağlığı arzulayıram. Stansiyanın açılışı münasibətilə sizi bir daha təbrik edirəm.

## Soyqırımı məzarlığını ziyarət

*Sentyabrın 18-də prezident İlham Əliyev Qubadakı soyqırımı məzarlığını ziyarət etmişdir.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu məzarlıq 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımının danılmaz sübutudur. Məzarlığın ümumi sahəsi 514 kvadratmetrdir, 494 kvadratmetr ərazidə qazıntı işləri aparılmışdır. Qalan hissə isə sübutedici fakt kimi, beynəlxalq tədqiqatçılar üçün saxlanılmışdır.*

*Aparılan qazıntılar nəticəsində burada insan cəsədləri qalaqlanan iki quyu və iki arx aşkar edilmişdir. Ermənilər Qubada azərbaycanlılarla yanaşı, ləzgiləri, yəhudiləri, tatları, avarları və digər etnik qrupların nümayəndələrini də amansızlıqla öldürmüşlər. Tədqiqat zamanı məzarlıqda 400-dən çox insan cəsədinin qalıqları aşkar edilmişdir. Onlardan 50-dən çoxu uşaq, 100-dən çoxu qadın, qalanları isə əsasən yaşlı kişilərdir.*

*Kütləvi məzarlıq 2007-ci ilin aprelində ərazidə torpaq işləri görülərkən aşkar edilmişdir. Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları burada 2007-ci il aprelin 8-dən 11-dək ilkin tədqiqat işləri*

*aparmışlar. Məzarlığın 1918-ci ildə ermənilərin yerli dinc əhaliyə qarşı törətdikləri soyqırımı ilə bağlı olduğu təsdiqlənmişdir. Arxiv sənədlərindən məlum olmuşdur ki, 1918-ci ilin aprel-may ayları ərzində ermənilər tərəfindən təkcə Quba qəzasında 36 min 782 nəfər qətlə yetirilmiş, 122 kənd tamamilə dağıdılmışdır.*

*Prezident İlham Əliyevə məzarlıqda inşa olunacaq muzey kompleksinin layihəsi haqqında məlumat verildi. Bildirildi ki, şüşədən inşa olunacaq kompleksin yaradılmasında məqsəd bura gələn turistləri soyqırımı haqqında məlumatlandırmaqdır. Ərazini süxur sularından qorumaq üçün drenaj sistemi yaradılacaqdır.*

*Dövlətimizin başçısı ermənilər tərəfindən törədilmiş qırğınları sübut edən faktlar və əşyalarla tanış oldu.*

## QUSAR RAYONUNUN MƏRKƏZİNDƏKİ HEYDƏR BAĞINI ZİYARƏT

*18 sentyabr 2009-cu il*

*Sentyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubaya səfərini başa çatdıraraq Qusar rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı əvvəlcə Qusar şəhərinin mərkəzindəki Heydər bağında ulu öndərin büstünü ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

### Qusarda salınacaq Heydər Əliyev parkı və muzey-kompleksinin eskiz layihəsi ilə tanışlıq

*Prezident İlham Əliyev sentyabrın 18-də Qusar rayonunda inşa olunacaq Heydər Əliyev parkı və muzey-kompeksinin eskiz layihəsi ilə tanış oldu.*

*Məlumat verildi ki, kompleks 10 hektar ərazidə yerləşəcəkdir. Dövlət Neft Şirkətinin vəsaiti hesabına inşa olunacaq kompleksin gələn ilin mayında istifadəyə verilməsi nəzərdə tutulmuşdur. Kompleksin ərazisində ulu öndərin abidəsi qoyulacaqdır. Qranitdən hazırlanacaq heykəlin hündürlüyü postamentlə birlikdə 23 metr olacaqdır. İnşa ediləcək ikimərtəbəli Heydər Əliyev Mərkəzi 1000 kvadratmetr sahəni əhatə edəcəkdir. Burada ümummilli liderin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, eksponatlar, kitablar sərgilənəcəkdir. Kompleksin ərazisində əhalinin istirahəti üçün hər cür şərait yaradılacaq, musiqili fəvvarə quraşdırılacaq, dekorativ gül və bəzək kolları əkiləcək, rahat oturacaqlar qoyulacaqdır.*

*Prezident İlham Əliyev layihə ilə bağlı tövsiyələrini verdi.*

## Qanlı dərə döyüşlərində qələbə çalan qəhrəmanların şərəfinə ucaldılan abidənin açılışı mərasimi

*Sentyabrın 18-də prezident İlham Əliyev 1918-ci ildə Qusardakı Qanlı dərədə erməni silahlı dəstələri üzərində qələbə çalmış Qusar və Quba qəhrəmanlarının şərəfinə ucaldılan abidənin açılışında iştirak etmişdir.*

*Bildirilmişdir ki, tarixin şanlı mərhələsinin gənc nəsillərə ötürülməsi məqsədilə ucaldılan abidə Azərbaycan gəncliyinin ata-babalarımızın qəhrəmanlıq salnaməsini daha yaxşı öyrənmələri və yadda saxlamaları üçün əsl mənbədir. Bu qəhrəmanlıq abidəsinin müəllifi əməkdar rəssam, heykəltəraş Şərif Şərifovdur.*

*Dövlətimizin başçısı abidənin üzərindəki ağ örtüyü açdı və bu münasibətlə Qusar ictimaiyyətinin nümayəndələrini təbrik etdi.*

**İlham Əliyev:** Mən sizi qarşıdan gələn Ramazan bayramı münasibətilə təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Bu gün Qanlı dərədə erməni quldur dəstələri üzərində qələbə çalmış qəhrəmanların şərəfinə Qusarda ucaldılmış çox gözəl, möhtəşəm abidənin açılışı mərasimidir. Son illər Qusarda abadlıq işləri aparılır. Rayonun problemlərinin həlli üçün əməli tədbirlər görülür. Bu gün «Şahdağ» Elektrik Stansiyasının açılışını qeyd etdik. Bu stansiya 100 meqavat enerji istehsal edəcək və beləliklə, bütün şimal zonasını keyfiyyətli və etibarlı enerji ilə təmin edəcəkdir.

Bildiyiniz kimi, artıq bir ilə yaxındır ki, Qusarda mərkəzi xəstəxana tikilir. Əminəm ki, xəstəxana gələn il istifadəyə veriləcək və beləliklə, rayonun səhiyyə problemlərinin həlli üçün praktiki tədbirlər görüləcəkdir.

Samur–Həzrə yolunun tikintisi ilə bağlı mənim sərəncamıma uyğun olaraq prezidentin ehtiyat fondundan vəsait ayrılıb və artıq işlərə başlanılmışdır. Digər məsələlər də öz həllini tapacaqdır. Biz sizinlə keçən il də, ondan əvvəlki

illərdə də görüşmüşdük. Keçən il Qusarda gözəl Olimpiya Mərkəzinin açılışını qeyd etdik. Bildiyimə görə, bu Mərkəz təkcə idman üçün deyil, turizm üçün də yararlıdır və buraya turistlər də gəlir. Bu gün «Şahdağ» Qış-Yay Turizm Kompleksinin təməl daşı qoyulacaqdır. Deyə bilərəm ki, bu, Azərbaycanda son illər ərzində qeyri-neft sektorunda investisiyaların həcminə görə ən böyük layihədir. Bu layihəyə 100 milyonlarla dollar vəsait qoyulacaqdır və Qusarda, Şahdağda dünya miqyaslı yay-qış kurortu, dağ-xizəyi kurortu tikiləcəkdir. Şübhə yoxdur ki, biz bunu yaradandan sonra həm minlərlə yeni iş yerləri açılacaq, həm də turistlərin sayı artacaqdır. Bir sözlə, Qusar beynəlxalq turizm mərkəzinə çevriləcəkdir.

Bunları biz ona görə edirik ki, Azərbaycanın bütün bölgələri inkişaf etsin, Azərbaycanın bütün problemləri öz həllini tapsın. Qusar da gözəlləşir, abadlıq işləri aparılır, parklar salınır. Bakıdan şimal istiqamətinə beton yol çəkilir. Bundan sonra da şimal zonasının inkişafı üçün əlavə tədbirlər görüləcəkdir. Əminəm ki, Qusar rayonunda bundan sonra da belə gözəl hadisələr çox olacaqdır. Bir daha sizi ürəkdən salamlayıram və sizə uğurlar, cansağlığı arzulayıram.

**B i n y a m i n  Z a l o v** (ağsaqqal): Möhtərəm Prezidentimiz, icazə verin, bütün qusarlılar adından Sizi salamlayım və Sizə «Xoş gəlmisiniz!» deyim. Siz hər dəfə Qusara gələndə qusarlılar üçün bir bayram olur, bir şənlik olur. Bu gün camaat Qusarın mərkəzində açılan bu abidənin önündə böyük bir fəxrlə yığılıb Sizi qarşılayır. Bu abidə özlüyündə böyük bir tarixi hadisədir. Bu abidə bizim doğma Azərbaycanımızın bütövlüyünün, burada yaşayan bütün xalqların dar gündə bir-birinə dayaq durmasının və düşmənə qarşı mübarizə aparmasının böyük bir rəmzidir.

Qusar inkişaf edir, tərəqqi edir. Sizin xeyir-duanızla bünövrəsi qoyulan və keçən il istifadəyə verilən Olimpiya İdman Kompleksi uğurla fəaliyyət göstərir. Bu gün orada

hətta Avropa çempionatı, yarışlar keçirilir. Bu bizim üçün böyük fəxrdir. Eləcə də, Qusarda Sizin keçən il təməlini qoyduğunuz xəstəxana binası tikilir, məktəblər tikilir, parklar salınır, küçələr gözəlləşir, yeni su, qaz xətləri çəkilir. Qusara böyük bir firavanlıq gəlib.

Rayonumuzda səhiyyə, mədəniyyət, maarif sahəsində böyük quruculuq işləri həyata keçirilir. Bu da Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın sayəsində baş verir.

Qusar ağsaqqallarının Sizə gözəl bir hədiyyəsi var. Mən çox xahiş edirəm ki, onu qəbul edəsiniz. Bu hədiyyə elə-belə bir hədiyyə deyildir. Bu xəncərdir, igidliyin, mərdliyin nişanəsidir. Cənab Prezident, Allahdan arzu edirik ki, sözünüz bu xəncər kimi kəsərli, apardığınız siyasətiniz bu xəncər kimi iti olsun.

**İ l h a m Ə l i y e v**: Çox sağ olun. Sizə söz verirəm ki, bundan sonra da sizin bütün xahişlərinizi yerinə yetirəcəyəm. Keçən il biz görüşəndə və siz mənə Samur–Həzrə yolu haqqında deyəndə artıq bir az gec idi. Çünki bu ilin büdcəsi, demək olar ki, hazır vəziyyətdə idi. Ona görə də biz bu ilin büdcəsinə bu yolu sala bilmədik. Ancaq bir yol tapdıq və prezidentin ehtiyat fondundan 6,5 milyon manat vəsait ayrıldı, artıq işlər başlanılmışdır.

Mən çox şadam ki, bu yolun tikintisi başlayıb və siz qeyd etdiyiniz kimi, 16 min əhali bu yoldan istifadə edir. Başqa yollar da tikiləcəkdir. Bu gün biz bütövlükdə Qusarın yol infrastrukturuna bir daha baxdıq, gördük ki, bu kəndləri birləşdirmək, insanlara rahatlıq vermək, rayonu gözəlləşdirmək üçün hələ çoxlu yollar çəkilməlidir. Biz nəyi deyiriksə, onu da edirik. Nəyi edirik? Onu edirik ki, insanların tələbatını ödəyir. İnsanlara nə lazımdır? Sabit şərait, təhlükəsiz vəziyyət. Bu, Azərbaycanda vardır və Azərbaycanda sabitlik tam şəkildə bərqərar edilib. Maddi rifah, insanların yaşayış səviyyəsi ildən-ilə yaxşılaşır. Tibbi xidmət – gözəl xəstəxana tikilir və mən göstəriş verdim ki, xəstəxana gələn

ilin axırına istifadəyə verilsin. Yaxşı məktəblər, turizm, idman, yollar, elektrik enerjisi. İstifadəyə verilmiş elektrik stansiyası bütün zonanın elektrik enerjisini təmin edəcək, «Xaçmaz» Elektrik Stansiyası ilə birləşəcək və beləliklə, bütün bölgə dayanıqlı elektrik enerjisi alacaqdır.

Bütün dövrlərdə qusarlılar Azərbaycan dövlətçiliyi uğrunda vuruşmuşlar. Bu gözəl abidə bunun bariz nümunəsidir. Bütün vətəndaşlar, bütün xalqlar bir ailə kimi düşmənə qarşı vuruşmuş, şəhid vermiş və tarixdə ucalmışlar. Bu birlik, bu qardaşlıq bu gün də vardır. Azərbaycanın xüsusiyyəti ondan ibarətdir ki, bütün xalqlar, bütün millətlər bir ailə kimi yaşayır. Heç bir ayrı-seçkilik yoxdur və olmayacaqdır. Bizim üçün hər bir vətəndaş əzizdir, doğmadır. Mən görəndə ki, Qusar simasını dəyişib, gözəlləşib, çox sevinirəm. Bizim görüşlərimiz hələ çox olacaqdır. Qusarda hələ açılışlar bundan sonra da olacaqdır. Əminəm ki, nəzərdə tutduğumuz bütün məsələlər öz həllini tapacaqdır. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

## Qusar Rayon Mərkəzi Xəstəxanasının yeni binasında tikinti işlərinin gedişi ilə tanışlıq

*Sentyabrın 18-də prezident İlham Əliyev Qusar Rayon Mərkəzi Xəstəxanasının yeni binasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur. Binanın təməli ötən ilin sentyabrında prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. Xəstəxana müasir tələblərə cavab verən tibbi müəssisə kimi layihələndirilərək inşa edilir.*

*Prezident İlham Əliyev xəstəxananın baş planına baxdı.*

*Bildirildi ki, 230 çarpayılıq xəstəxana 3,5 hektar ərazini əhatə edir. Burada cərrahiyyə, reanimasiya, diaqnostika, ultrasəs müayinəsi, stasionar diaqnostika, yoluxucu xəstəliklər və doğum şöbələri, vərəm dispanseri olacaqdır.*

*Tikinti işlərini Dövlət Neft Şirkətinin sifarişi ilə «Aristin» şirkəti həyata keçirir. Xəstəxana dördmərtəbəli əsas korpusdan və yeddi köməkçi binadan ibarət olacaqdır.*

*Səhiyyə ocağı gələn il istifadəyə veriləcəkdir.*

## Balıqçılıq təsərrüfatı ilə tanışlıq

*Sentyabrın 18-də prezident İlham Əliyev Qusardakı balıqçılıq təsərrüfatı ilə tanış olmuşdur.*

*Məlumat verilmişdir ki, ilin əvvəlində yaradılan müəssisənin ümumi ərazisi 11 hektardır. Burada 55 hovuz vardır. Qısa vaxtda müəssisədə yetişdirilən balıqların sayında artım müşahidə olunur. Müəssisədə il ərzində 250 ton forel yetişdirilir. Hazırda burada 500 mindən çox forel vardır. Gələcəkdə onların sayının 2 milyona çatacağı planlaşdırılır. Bu növ balığın xüsusiyyətləri nəzərə alınaraq müəssisəyə dağlardakı bulaqlardan su xətti çəkilmişdir.*

*Prezident İlham Əliyev müəssisənin fəaliyyətinə uğurlar arzuladı.*

## «Şahdağ» Qış-Yay Turizm Kompleksinin təməlqoyma mərasimi

*Qusar rayonuna səfəri çərçivəsində prezident İlham Əliyev «Şahdağ» Qış-Yay Turizm Kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*Kompleksin baş planı və eskiz layihəsi ilə tanış olan dövlətimizin başçısına məlumat verildi ki, «Şahdağ» Qış-Yay Turizm Kompleksi Qusar rayonunun mərkəzindən 30 kilometr şimalda yerləşəcəkdir.*

*Dövlətimizin başçısı gilizi kompleksin bünövrəsinə buraxdı, beton qarışığı tökdü.*

*Sonra prezident İlham Əliyev kompleksin maketinə baxdı.*

*Qeyd olundu ki, planlaşdırılan tikinti sahəsi Şahdağ Milli Parkının ərazisindədir. «Şahdağ» Qış-Yay Turizm Komplek-*

*sinin tikintisi dağ xizək idmanı, digər qış idman növləri ilə məşğul olmaq üçün geniş imkanlar yaradacaqdır. Kompleksin ərazisində tennis, futbol və basketbol meydançaları, örtülü idman qurğuları, aquapark və hovuzlar, əyləncə-oyun kompleksləri olacaqdır, istirahətə gələnlərə piyada və at ilə gəzinti və digər xidmətlər təklif ediləcəkdir. Kompleksdə müxtəlif uzunluqda 21 buraz yolu çəkiləcəkdir. Burada xizəkçilərin tam təchizatla xizək yolunun zirvəsinə çatdırılması üçün kürsü tipli qaldırıcı qurğulardan istifadə olunacaqdır. Xizək yolları müxtəlif mürəkkəblik dərəcələrində layihələndirilmişdir.*

*Ümumi sahəsi 2 min hektardan çox olan kompleksin tikintisi 4 mərhələdə həyata keçiriləcəkdir. Birinci mərhələdə vacib kommunikasiya xətləri çəkiləcək, 11 qaldırıcı, xizək yolları, süni göl və qar avadanlığı quraşdırılacaqdır. 312 yerlik beşulduzlu, 346 yerlik dördulduzlu, 282 yerlik üçulduzlu hotellərin və kiçik yaylaq evlərinin, kotteclərin tikilməsi planlaşdırılır. İkinci mərhələdə qaldırıcılar şəbəkəsinin və mədəni-idman qurğularının, kotteclərin tikintisi və bağların salınması nəzərdə tutulur. Üçüncü mərhələ isə, əlavə xizək yollarının salınmasını və yaşayış zonasının genişləndirilməsini əhatə edir. Avstriyalı mütəxəssislərin layihəsi əsasında bütün fəsillərdə qar yağdırmaq üçün xüsusi aparat və su anbarı yaradılacaqdır. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə tikiləcək Mərkəzdə 5 min işçi çalışacaqdır. Kompleksdə ticarət mərkəzləri, restoranlar, əyləncə, xidmət və məişət obyektləri, o cümlədən avtomobillər üçün yerüstü və yeraltı dayanacaqlar tikiləcəkdir.*

*Məlumat verildi ki, 2011-ci ildə başa çatacaq tikinti işlərinə nəzarəti Mədəniyyət və Turizm Nazirliyi həyata keçirəcəkdir.*

*Prezident İlham Əliyev kompleksə gələn yolun yüksək səviyyədə tikilməsi və kommunikasiya xətlərinin çəkilməsi, tikintinin müasir standartlar səviyyəsində aparılması ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## « Suvar» dağ turizm mərkəzi ilə tanışlıq

*Sentyabrın 18-də prezident İlham Əliyev Qusarda Şahdağın ətəyində mənzərəli bir məkanda yerləşən «Suvar» dağ turizm mərkəzinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, Mərkəzin ümumi ərazisi 5 hektardır. Dəniz səviyyəsindən 1850 metr hündürlükdə olan bu Mərkəzdə 3, 2 və 1 otaqlı 28 kottec vardır. Onların hamısı müasir tələblər səviyyəsində və yüksək zövqlə qurulmuşdur. Mərkəzdə iki yeməkxana, avtomobillər üçün xüsusi dayanacaq da vardır.*

*Eyni vaxtda 100 qonağı qəbul edə bilən Mərkəzin həyəti abadlaşdırılmış, gözəl şəlalə qurulmuşdur. Qonaqların mənalı istirahəti üçün ərazidən axan çayda balıq ovu ilə də məşğul olmaq mümkündür.*

## Samur–Həzrə yolunun plan-sxemi ilə tanışlıq

*Sentyabrın 18-də prezident İlham Əliyev Qusarda Samur–Həzrə yolunun plan-sxemi ilə tanış oldu.*

*Prezidentin 2009-cu il 27 avqust tarixli Sərəncamı ilə yolun yenidən qurulmasına prezidentin ehtiyat fondundan 6,5 milyon manat vəsait ayrılmışdır. Uzunluğu 23 kilometr, eni 6 metr olan yol 16 min nəfərə qədər əhalinin yaşadığı 27 kənd və qəsəbəni birləşdirir. Yol Samur qəsəbəsindən başlanır və Həzrə kəndindən sonra üç istiqamətdə – Həzrə–Mucuq, Həzrə–Sudur, Həzrə–Zuxul və Yuxarı Tahircal istiqamətlərində davam edir. Yolun artıq 7 kilometri yenidən qurulmuşdur.*

## Qırmızı qəsəbədə sakinlərlə görüş

*Sentyabrın 18-də Qusara səfərini başa çatdıran prezident İlham Əliyev Bakıya dönərkən yolüstü Qubanın Qırmızı qəsəbəsində yəhudi icmasının nümayəndələri ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını mehribanlıqla qarşılayan qəsəbə sakinləri Qubanın inkişafına göstərdiyi diqqət və qayğıya görə Prezidentə təşəkkür etdilər.*

**İ l h a m  Ə l i y e v**: Qubada gözəl, ən müasir səviyyədə xəstəxana, Müalicə-Diaqnostika Mərkəzi, yanında sizin istifadə etdiyiniz idman kompleksi istifadəyə verilmişdir. Bu gün elektrik stansiyası işə salındı.

**S a k i n l ə r**: Abadlıq işlərini görürsünüz.

**İ l h a m  Ə l i y e v**: Görürəm, yaxşıdır. Qəsəbə də abadlaşıb, meydan da dəyişib.

*Sakinlər Qubanın inkişafına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıq etdilər. Onlar prezident İlham Əliyevin tez-tez Qubaya səfər etməsindən, dövlətimizin başçısının hər səfərində rayonda yeni obyektlərin istifadəyə verilməsindən məmnunluqlarını bildirdilər.*

*Qubada quruculuq işlərindən razılığını bildirən prezident İlham Əliyev dedi ki, qəsəbədə də abadlıq işləri gedir. Təzə yaşayış binaları, banklar tikilir. Qəsəbə doğrudan da gözəlləşir. Elə bil ki, bu meydan da böyüyübdür. Bütün bölgələr çalışmalıdır ki, paytaxta oxşasınlar. Əlbəttə ki, öz xüsusiyyətlərini saxlamaqla.*

*Qəsəbə sakinləri dövlətimizin başçısını hərarətlə yola saldılar.*

## ÇEXİYA RESPUBLİKASI PARLAMENTİ SENATININ SƏDRİ PRJEMISL SOBOTKANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Çexiya Respublikası Parlamenti Senatının sədri Prjemısl Sobotkanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Çexiya Respublikası Parlamenti Senatının sədrinin böyük nümayəndə heyəti ilə Azərbaycana səfərinin önəmini qeyd edən prezident İlham Əliyev ölkəmizlə Çexiya Respublikası arasında ikitərəfli münasibətlərin inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu bildirdi. Dövlətimizin başçısı bu məsələlərin Çexiya prezidenti və Baş naziri ilə keçirdiyi görüşlər zamanı da müzakirə olunduğunu dedi. Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin geniş sahələri əhatə etdiyini vurğulayaraq «Şərq tərəfdaşlığı» proqramında ölkəmizin iştirakının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı Çexiya Respublikası Parlamenti Senatının sədrinin səfəri zamanı həm ikitərəfli, həm də Azərbaycan–Avropa İttifaqı əməkdaşlığına dair məsələlərlə bağlı məhsuldar müzakirələrin keçiriləcəyinə əmin olduğunu bildirdi.*

*Prjemısl Sobotka Azərbaycanın Çexiya üçün strateji tərəfdaş ölkə olduğunu vurğuladı. O, Çexiyanın region ölkələri ilə əlaqələrinin inkişafında Azərbaycanın mühüm rolunu qeyd etdi. Ölkəsinin Azərbaycanla bütün sahələrdə əməkdaşlığa maraqlı olduğunu deyən qonaq, ikitərəfli münasibətlərimizin bundan sonra daha da inkişaf edəcəyinə əminliyini bildirdi.*

## BAKININ BABƏK PROSPEKTİNDƏ YENİ YOL QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2009-cu il*

*Sentyabrın 24-də Bakının Babək prospekti ilə Məhəmməd Hadi və Mikayıl Əliyev küçələrinin kəsişməsində tikilmiş yeni yol qovşağı kompleksinin açılışı olmuşdur.*

*Azərbaycan prezidenti İlham Əliyev mərasimdə iştirak etmişdir.*

*Dövlətimizin başçısını inşaatçılar hərarətlə qarşıladılar.*

*Nəqliyyat naziri Ziya Məmmədov prezident İlham Əliyevə məlumat verdi ki, kompleks iki yolötürücüdən, hər biri beşaşırımlı iki körpüdən, üç avtomobil və iki piyada keçidindən ibarətdir.*

*Tikinti işlərini Nəqliyyat Nazirliyinin «Azəryolservis» ASC-nin sifarişi ilə bu sahədə ixtisaslaşmış, müasir standartlara uyğun çoxsaylı körpü və yol keçidləri ilə yanaşı, yüzlərlə kilometr yollar çəkmiş qabaqcıl müəssisələrdən biri olan «Gəncə Körpü Tikinti-2» Acıq Səhmdar Cəmiyyəti həyata keçirmişdir. Kompleksin layihəsi «Texnomost» şirkəti tərəfindən hazırlanmışdır.*

*Prezident İlham Əliyev paytaxtın Nizami və Xətai rayonlarının qovuşduğu ərazidə yerləşən kompleksin sxemi ilə tanış oldu, tikintinin gedişini əks etdirən fotoşəkillərə baxdı. Qeyd olundu ki, bir-birini tamamlayan iki yol ötürücüsünün yaratdığı bu kompleks mürəkkəbliyi və müasirliyi ilə digərlərindən fərqlənir və hərəkətin son dərəcə sıx olduğu bu ərazidə tıxacların aradan qaldırılmasında və piyadaların təhlükəsizliyində mühüm rol oynayacaqdır.*

*İnşasına 2006-cı ildə başlanılmış yol qovşağının ümumi uzunluğu 2116 metr, giriş və çıxışla birlikdə isə 2500 metrdən*

*artıqdır. Eni 23,4 metr olan yol kompleksinin iki enmə və iki qalxma zolağı vardır.*

*Yol qovşağı metronun «20 Yanvar» stansiyasındakı dairə, «Günəşli» yaşayış sahəsi və Bakıxanov qəsəbəsi, Böyük Şor qovşağı, Azadlıq meydanı, Heydər Əliyev Beynəlxalq Aeroportu və digər istiqamətlərdə nəqliyyatın rahat gediş-gəlişinə imkan verəcəkdir.*

*Yol qovşağının maketi dövlətimizin başçısına hədiyyə olundu.*

*Prezident İlham Əliyev yeni yol ötürücüsünün açılışını bildirən lenti kəsdi, nəqliyyatçıları və inşaatçıları bu münasibətlə təbrik etdi.*

**İ l h a m Ə l i y e v:** Sizi təbrik edirəm, yeni gözəl körpü tikilib istifadəyə verilmişdir. Bakı gözəlləşir, abadlaşır. Körpü bu bölgədə tıxacların aradan qaldırılması üçün çox gözəl bir infrastruktur layihəsidir. Bu körpünün tikintisi onu göstərir ki, yerli şirkətlər artıq beynəlxalq təcrübəyə malikdirlər. Yerli şirkətlər tərəfindən həyata keçirilən bütün gözəl infrastruktur layihələri məni çox sevindirir. Çünki əvvəllər xaricdən şirkətlər dəvət olunurdu, təcrübəmiz yox idi. Hətta bəzi hallarda işçi qüvvəsi də xaricdən gətirilirdi. İndi isə bu layihələri Azərbaycan dövlətinin vəsaiti hesabına yerli şirkətlər icra edir. Bu layihələri Azərbaycan fəhlələri, mütəxəssisləri gerçəkləşdirirlər. Bu, Azərbaycanın inkişafını göstərir, onu göstərir ki, biz istənilən layihəni uğurla icra edə bilərik. Bakıda son illər ərzində tikilən körpülər, yol qovşaqları, bütün yol infrastrukturu həm gözəllik, həm keyfiyyət, həm də funksional baxımdan ən yüksək səviyyədədir. Körpünün tikilməsində iştirak edən insanlara öz təşəkkürümü bildirmək istəyirəm. Nəqliyyat Nazirliyi, müxtəlif yerli şirkətlər bu gözəl işləri birlikdə görürlər, şəhərimizi gözəlləşdirirlər. Bir daha sizi təbrik edirəm və yeni uğurlar arzulayıram.

## BİLGƏH–SUMQAYIT AVTOMOBİL YOLUNUN YENİDƏN QURULMASI LAYİHƏSİNİN İCRASINA BAŞLANMASI MƏRASİMİ

*24 sentyabr 2009-cu il*

*Sentyabrın 24-də prezident İlham Əliyev Bilgəh–Sumqayıt avtomobil yolunun yenidən qurulması layihəsinin icrasına başlanması mərasimində iştirak etmişdir.*

*Nəqliyyat naziri Ziya Məmmədov dövlətimizin başçısına məlumat verdi ki, Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planına uyğun olaraq hazırda Heydər Əliyev Beynəlxalq Aeroportu, Mərdəkan dairəsi və Bilgəh qəsəbəsi istiqamətində avtomobil yolu yenidən qurulur. Layihələndirilən səkkiz zolaqlı avtomobil yolunun əsas məqsədi hava limanı, Mərdəkan dairəsi, Bilgəh qəsəbəsi istiqamətindəki yüz minlərlə əhalinin yaşadığı kənd və qəsəbələr, habelə istirahət zonaları arasında iqtisadi cəhətdən daha səmərəli, təhlükəsiz və rahat nəqliyyat əlaqəsi yaratmaqdır. Bu baxımdan Bilgəh–Sumqayıt avtomobil yolunun yenidən qurulması da mühüm əhəmiyyətə malikdir.*

*Prezident İlham Əliyevə Mərdəkan dairəsində həyata keçiriləcək yenidənqurma işləri barədə də məlumat verildi. Qeyd olundu ki, burada dizayn və işıqlandırma işlərinə xüsusi diqqət yetiriləcəkdir.*

*Bildirildi ki, perspektivdə dəniz kənarı ilə Sumqayıta gedən, yararsız hala düşərək fəaliyyətini dayandırmış dəmir yolunun yerində yeni magistral yolun çəkilməsi də nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı tikintidə çalışacaq inşaatçılarla görüşdü, onlara tövsiyələrini verdi.*

**İ l h a m  Ə l i y e v:** Bu yeni və gözəl yol sahilboyu kəndləri birləşdirəcəkdir. Sumqayıta qədər yeni, müasir, gözəl yol salınacaqdır. Bu gün bu yolun tikintisinin birinci günüdür. Elə bilin ki, biz bu yolun təməlini qoyuruq. Bu yolu tezliklə, yüksək keyfiyyətlə tikərsiniz ki, insanlarımız, kəndlərdə yaşayan əhali və bütünlükdə Bakı şəhərinin sakinləri belə gözəl yoldan istifadə etsinlər. Sizə uğurlar arzulayıram.

* * *

*Sonra Bilgəh–Sumqayıt avtomobil yolunun yenidən qurulması layihəsinin icrasına başlandı.*

*Prezident İlham Əliyev yolun yüksək keyfiyyətlə tikilməsi ilə bağlı bir daha tapşırıq və tövsiyələrini verdi.*

## MİLLİ MƏCLİSİN YENİ KORPUSUNUN İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*25 sentyabr 2009-cu il*

*Sentyabrın 25-də Azərbaycan prezidenti İlham Əliyev Milli Məclisin inzibati binasının yeni inşa olunmuş korpusunun istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlətimizin başçısını və xanımı Mehriban Əliyevanı Milli Məclisin rəhbərliyi qarşıladı.*

*Prezident İlham Əliyev açılışı bildirən lenti kəsdi və yeni korpus ilə yaxından tanış oldu.*

*Məlumat verildi ki, 2007-ci il noyabrın 3-də Milli Məclisin deputatlarının iş şəraitinin daha da yaxşılaşdırılması məqsədi ilə yeni korpusun təməli qoyulmuşdur. Dövlətimizin başçısının göstərişi ilə inşa olunan onbeşmərtəbəli yeni korpusun inşası vaxtından əvvəl başa çatdırılmışdır. Yeni korpusun layihəsini «Azərdövlətlayihə» İnstitutu hazırlamış, tikinti işlərini əsasən yerli mütəxəssislər həyata keçirmişlər. Korpusun tikintisində 700-dək işçi çalışmışdır. Binanın inşası zamanı milli ornamentlərdən geniş istifadə olunmuşdur. Korpusun tikinti sahəsi 1365 kvadratmetr, işçi sahəsi 1255 kvadratmetrdir. Binanın həm xarici görünüşü, həm də interyeri yüksək standartlara cavab verir. Korpusun fasadı Yaponiyadan gətirilmiş alkapon materialı ilə üzlənmişdir. İlk üç mərtəbə qranit tipli, qalan hissə isə metallik rəngli alkaponla örtülmüşdür. Bu da yeni inzibati binanı parlamentin əsas binasının və digər korpusunun ümumi görünüşünə uyğunlaşdırmışdır. Yeni inzibati binada sürətli liftlər quraşdırılmışdır. Bina bütünlüklə müasir sistemlərin köməyi ilə havalandırılacaqdır.*

*Yeni korpus parlamentin əsas binasının foyesi ilə birləşdirilmişdir. Birinci mərtəbədə korpusları əlaqələndirən şüşəli salon vardır. Salonda quraşdırılan monitordan Milli Məclisin*

*geniş iclaslarını izləmək mümkündür. Birinci mərtəbədə Milli Məclisin arxivinin saxlanması üçün hər cür şərait yaradılmış, yanğından mühafizə və müasir havalandırma sistemi quraşdırılmışdır.*

*Binanın ikinci mərtəbəsi müasir kitabxana üçün nəzərdə tutulmuşdur. Kompyuterləşdirilmiş iki oxu zalı olan yeni kitabxanada 100 mindən çox kitabın və 2000 qovluğun saxlanması üçün xaricdən zəruri avadanlıq gətirilmişdir.*

*İkinci mərtəbədə Milli Məclisin komitə iclaslarının və müxtəlif görüşlərin keçirilməsi üçün üç salon, üçüncü mərtəbədə isə komitələrin birgə iclaslarının, həmçinin ayrı-ayrı görüşlərin keçirilməsini nəzərdə tutan böyük iclas salonu vardır. Böyük salonda tədbirlərin sinxron tərcüməsi, videoçəkilişlərin aparılması üçün müasir avadanlıq quraşdırılmışdır. Bundan əlavə, üçüncü mərtəbədə 13 xidməti otaq vardır. Bu mərtəbədən də Milli Məclisin əsas binasına və keçmiş deputat korpusuna keçid inşa olunmuşdur.*

*Yeni korpusun qalan mərtəbələri isə bütünlüklə deputatlar üçün nəzərdə tutulmuşdur. 14 otaqdan ibarət hər mərtəbədə bir komitə yerləşəcəkdir.*

*Milli Məclisin yeni korpusunun nəinki MDB məkanında, hətta bir sıra inkişaf etmiş ölkələrdə belə, analoqu yoxdur.*

*Bina ilə tanışlıqdan sonra prezident İlham Əliyevə parlamentarizmin inkişafında və parlamentlərarası əlaqələrin möhkəmləndirilməsində müstəsna xidmətlərinə görə Azərbaycan Respublikası Milli Məclisinin Fəxri medalı təqdim edildi.*

*Parlamentarizmin inkişafında və parlamentlərarası əlaqələrin möhkəmləndirilməsində xidmətlərinə görə Milli Məclisin deputatı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya da Azərbaycan Respublikası Milli Məclisinin Fəxri medalı təqdim olundu.*

*Prezident İlham Əliyev Milli Məclisin yeni korpusunun inşasını, burada deputatların fəaliyyəti üçün yaradılan şəraiti yüksək qiymətləndirdi və qanunverici orqanın işinə uğurlar arzuladı.*

## YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ VERİLƏN AZƏRBAYCAN DÖVLƏT İNCƏSƏNƏT MUZEYİ İLƏ TANIŞLIQ

*25 sentyabr 2009-cu il*

*Sentyabrın 25-də Azərbaycan prezidenti İlham Əliyev yenidənqurma işlərindən sonra istifadəyə verilən Rüstəm Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi ilə tanış olmuşdur.*

*Məlumat verildi ki, XIX əsrin sonlarında tikilmiş binada ayrı-ayrı dövrlərdə müxtəlif idarə və təşkilatlar yerləşmişdir. İncəsənət Muzeyi kimi fəaliyyətə başladıqdan sonra çox sayda qiymətli sənət əsərlərinin yerləşdirilməsi və ekspozisiyanın ildən-ilə zənginləşdirilməsi bu sənət məbədinə marağı xeyli artırmışdır. Zaman keçdikcə nadir sənət nümunələrinin toplandığı bu binanın təmiri zərurəti yaranmışdı.*

*2006-cı ilin iyulunda prezident İlham Əliyev muzey binasının vəziyyəti ilə tanış olandan sonra dövlətimizin başçısının göstərişi ilə burada yenidənqurma və təmir işlərinə başlanmışdır. Əvvəllər binada belə genişmiqyaslı təmir işləri aparılmamışdı.*

*Hazırlanan layihəyə əsasən üçmərtəbəli binanın bütün mühəndis-texniki qurğuları əsaslı şəkildə yenidən qurulmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, bu qədim binanın fasadı əvvəlki memarlıq üslubunu saxlamaqla yenilənmiş, cilalanmış gülbax daşlarla Bakının tikinti arxitekturasına uyğun üzlənmişdir.*

*17 mindən çox eksponatın saxlandığı muzeydə boyakarlıq, qrafika, heykəltəraşlıq və tətbiqi sənət nümunələri vardır.*

*Prezident İlham Əliyev və xanımı binanın əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotostendə baxdılar.*

*Dövlətimizin başçısı yenidən qurulması nəzərdə tutulan muzey kompleksinin layihəsi ilə də tanış oldu. Qeyd edildi ki, muzeyin bir binasını digəri ilə birləşdirən şüşə konstruksiyalı keçid inşa ediləcəkdir. Təmir ediləcək digər bina üç yerüstü və iki yeraltı mərtəbədən ibarət olacaqdır. Yeraltı mərtəbələrdə bərpa emalatxanaları və əsərlərin saxlanılması üçün xüsusi bölmələr yerləşəcəkdir.*

*Birinci mərtəbə sağ və sol qanadlardan ibarətdir. Sağ qanadda XVIII əsrin sonları – XX əsrin əvvəllərini əhatə edən rus rəssamlıq məktəbi nümayəndələrinin əsərləri nümayiş olunur. Zalda tanınmış fırça ustası Vasili Vereşşaginin 1872-ci ildə çəkdiyi «Bakının dənizdən görünüşü» əsəri diqqəti xüsusi cəlb edir.*

*Sol qanadda isə Avropa incəsənətinin nümunələri sərgilənmişdir. Burada XVIII–XIX əsrlərə aid keramika nümunələri ilk dəfədir ki, nümayiş olunur. Muzeydəki dəyərli əsərlərdən biri sonuncu rus imperatriçası Aleksandra Fyodorovnanın Qarabağ xalçası üzərində təsviri olan əsərdir. Orta əsrlərə aid heykəltəraşlıq nümunələri, habelə intibah dövrü müəlliflərinin əsərlərinin məharətlə işlənilən surətləri də bu ekspozisiyanı zənginləşdirir.*

*İkinci mərtəbə Azərbaycan sənətkarlarının ekspozisiyasından ibarətdir. Ekspozisiyada Mirqədim İrəvani, Əlibəy Hüseynzadə kimi müxtəlif üslublu sənətkarların əsərləri vardır. Azərbaycanın ilk peşəkar rəssamı Bəhruz Kəngərli, Əzim Əzimzadə, Səttar Bəhlulzadə və Mikayıl Abdullayevin yaradıcılığını əhatə edən ayrıca zallar fəaliyyət göstərir.*

*Burada heykəllər qalereyası da yaradılmışdır. Qalereyada 20-dən çox əsər təqdim olunur.*

*İkinci mərtəbədə 100 nəfərlik konfrans salonu və xalçaların nümayiş olunduğu zal fəaliyyət göstərir. Muzeydə xalqımızın milli geyimləri, Qurani-Kərimin qədim nəşrləri, orijinal mis qablar da nümayiş olunur.*

*Əzim Əzimzadənin, Bəhruz Kəngərlinin əsərlərinin nümayiş edildiyi zallar ilə tanış olan dövlətimizin başçısına audiogid*

*göstərildi. Bu aparatda məlumatlar rəqəmli formatda saxlanılır. Muzeyin qonaqları audiogid vasitəsilə burada nümayiş olunan əsərlər barədə 25 dildə geniş məlumat əldə edə bilərlər.*

*Üçüncü mərtəbədəki ekspozisiyada avanqard üslubunda əsərlər nümayiş etdirilir. Burada Azərbaycanın müasir incəsənətinin tanınmış nümayəndələri – Cavad Mircavadov, Rasim Babayev, Altay Sadıxzadənin əsərlərindən ibarət ekspozisiya mövzu rəngarəngliyi ilə seçilir.*

*Dövlətimizin başçısı və xanımı kompyuter otağına baxdılar, zəngin kitabxana ilə tanış oldular.*

*Prezident İlham Əliyev binada aparılan yenidənqurma və tərtibat işlərini yüksək qiymətləndirdi.*

**İlham Əliyev:** Çox gözəl iş görmüsünüz və İncəsənət Muzeyi yüksək səviyyədə təmir olunub. İndi muzeyin yeni həyatı başlayır. Bu tarixi binada çox gözəl əsərlər nümayiş etdirilir. Şadam ki, muzeyin əsaslı təmiri yüksək keyfiyyətlə aparılıbdır. Bizim muzeyimiz dünyanın aparıcı muzeylərindən geri qalmır. Ona görə də mən inşaatçıların işini çox yüksək qiymətləndirirəm. Muzeyin təmirində və kolleksiyanın hazırlanmasında iştirak etmiş bütün insanları salamlayıram və öz minnətdarlığımı bildirmək istəyirəm.

Muzeyin yenidən açılması bir də onu göstərir ki, Azərbaycan dövləti öz incəsənətinə çox böyük qiymət verir. Burada nümayiş etdirilən əsərlərin bir hissəsi anbarlarda saxlanılırdı. Sənətkarlarımızın əsərləri, demək olar ki, nümayiş etdirilmirdi. Şərait yox idi. Ancaq belə gözəl şərait, şəhərin mərkəzində, tarixi binada Azərbaycan sənətkarlarının əsərlərinin nümayişi Azərbaycanın potensialını, Azərbaycan xalqının nə qədər böyük istedada malik olduğunu göstərir.

Bununla bərabər, tanınmış rəssamların dünya miqyasında böyük əhəmiyyətə malik olan əsərləri də burada nümayiş etdirilir. Muzeyin təmirinin birinci hissəsi başa çatmışdır. Növbəti mərhələdə başqa binanın təmiri nəzərdə tutulur. Çox gözəl, müasir giriş hissəsi tikiləcəkdir. Burada həm də Azərbaycanın, Bakının memarlıq üslubundan istifadə olu-

nub və bütün bu memarlıq elementləri saxlanılıbdır. İki gözəl binanın ortasında müasir şüşəli giriş hissəsi tikiləcəkdir. Bu da bugünkü Azərbaycanın rəmzidir, müasirlik, yenilik və tarixi keçmişimizə olan münasibətdir. Bu ərazidə belə gözəl elementlərin mövcudluğu bir də onu göstərir ki, biz bu yolu getməliyik. Metronun İstiqlaliyyət küçəsində yerləşən «İçərişəhər» stansiyasının yeni görkəmi də bunun təzahürüdür. Müasirlik, gözəllik qədim Qala divarının fonundadır. Əslində, bu anlayış bugünkü Azərbaycanın inkişafını təcəssüm etdirir. Yenilik, müasirlik güclü ənənəvi dəyərlər əsasında irəliyə atılan addımlardır.

Bir daha sizi muzeyin yenidən açılışı münasibətilə təbrik edirəm və gələcək işlərinizdə uğurlar arzulayıram. Sağ olun.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ MƏHMƏT ƏLİ ŞAHİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 sentyabr 2009-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Türkiyə Böyük Millət Məclisinin sədri Məhmət Əli Şahinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Türkiyə parlamentinin sədri Məhmət Əli Şahin prezident Abdullah Gülün və Baş nazir Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Avqust ayının 5-dən Türkiyə Böyük Millət Məclisinin sədri seçildiyini vurğulayan Məhmət Əli Şahin ilk xarici səfərlərindən birini Azərbaycana etməsindən məmnunluğunu bildirdi. Türkdilli Ölkələrin Parlament Assambleyasının Bakıda keçiriləcək birinci toplantısına toxunan qonaq parlamentlərarası münasibətlərin xalqlar arasında əlaqələrin inkişafındakı önəmini qeyd etdi.*

*Dövlətimizin başçısı Türkiyə Böyük Millət Məclisinin sədri kimi, Məhmət Əli Şahinin ilk xarici səfərlərindən birini Azərbaycana etməsinin önəmli olduğunu dedi. Bir neçə gündən sonra Naxçıvanda keçiriləcək türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşünə toxunan prezident İlham Əliyev bu cür əhəmiyyətli tədbirlərin keçirilməsini türkdilli xalqlar arasında dostluq və həmrəyliyin möhkəmlənməsi işinə xidmət edəcəyini vurğuladı.*

*Məhmət Əli Şahin Türkiyə–Ermənistan münasibətlərindən danışaraq dedi ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər razılaşmaya dair protokollar Türkiyə Böyük Millət Məclisindən keçməyəcəkdir.*

*Prezident İlham Əliyev bu mövqeyə görə təşəkkür etdi.*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN RUMINİYAYA RƏSMİ SƏFƏRİ

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rumıniyaya rəsmi səfərə yola düşmüşdür.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov yola saldılar.*

* * *

*Azərbaycanın və Rumıniyanın dövlət bayraqları ilə bəzədilmiş Henri Koande adına Buxarest Beynəlxalq Hava Limanında Azərbaycan dövlətinin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Rumıniyanın yüksək vəzifəli rəsmi şəxsləri qarşıladılar.*

## RƏSMİ QARŞILANMA MƏRASİMİ

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Buxarestdə Rumıniya prezidentinin iqamətgahında – «Kotroçen» sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Rumıniyanın və Azərbaycanın dövlət bayraqlarının dalğalandığı meydanda dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Rumıniya prezidenti Trayan Besesku və xanımı Mariya Besesku Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın önündə səmimiyyətlə qarşıladılar.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidenti İlham Əliyevə raport verdi.*

*Hərbi orkestrin ifasında Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndi.*

*Dövlət başçıları Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Prezident İlham Əliyev rumın əsgərlərini salamladı.*

*Rumıniyanın dövlət və hökumət nümayəndələri Azərbaycan prezidentinə, ölkəmizin nümayəndə heyətinin üzvləri Rumıniya prezidentinə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Rumıniyada rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev sentyabrın 28-də Buxarestdəki «Karol-1» xiyabanına gələrək, naməlum əsgərin məzarını ziyarət etmişdir.*

*Burada dövlətimizin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndirildi.*

*Prezident İlham Əliyev naməlum əsgərin məzarı önünə əklil qoydu və İkinci dünya müharibəsi zamanı həlak olmuş rumın əsgərlərinin xatirəsini yad etdi.*

*Dövlətimizin başçısı Xatirə kitabını imzaladı.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Buxarestdə Rumıniya prezidentinin iqamətgahında – «Kotroçen» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan və Rumıniya arasında siyasi, iqtisadi və digər sahələrdə əməkdaşlığın uğurlu inkişafından danışıldı və münasibətlərimizin Avropa İttifaqı çərçivəsində genişləndirilməsi baxımından əhəmiyyəti qeyd olundu. Həyata keçirilən yüksək səviyyəli səfərlərin əlaqələrimizin inkişafına təkan verdiyi vurğulandı. Enerji sahəsində davam edən əməkdaşlığımızın geniş perspektivləri olduğu bildirildi.*

*Görüşdə ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## DÖVLƏT RƏHBƏRLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Buxarestdə Rumıniya prezidentinin iqamətgahında – «Kotroçen» sarayında Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun təkbətək görüşü başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**T r a y a n B e s e s k u**: Cənab Prezident, əvvəlcə mənim dəvətimi qəbul etdiyinizə və ölkəmizə rəsmi səfərə gəldiyinizə görə Sizə və nümayəndə heyətinizə dərin minnətdarlığımı bildirmək istəyirəm. Bildirmək istəyirəm ki, bu günə qədər iki ölkənin hökumətləri çox yaxşı iş aparmışlar və bunun nəticəsində ölkələrimiz arasında bu gün bir neçə vacib sənəd imzalanacaqdır. Mən Sizə, Sizin həyat yoldaşınıza və nümayəndə heyətinizə bir daha ölkəmizə «Xoş gəlmisiniz!» deyirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, cənab Prezident! Mənə və nümayəndə heyətinə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz təşəkkürümü bildirirəm. Çox şadam ki, yenidən sizin gözəl ölkənizdəyəm və bu gün imzalanacaq sənədlər ikitərəfli münasibətlərimizin inkişafı üçün çox böyük əhəmiyyətə malikdir. Şadam ki, Rumıniya–Azərbaycan münasibətləri sürətlə inkişaf edir, yüksək səviyyədədir və gələcək inkişaf üçün də çox gözəl imkanlar vardır. Onu da qeyd etmək istəyirəm ki, mən son 4-5 ildə beşinci dəfədir ki, Rumıniyadayam və bu çox gözəl göstəricidir.

## SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də geniş tərkibdə danışıqlar başa çatdıqdan sonra Azərbaycan və Rumıniya prezidentlərinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılmasının razılaşması haqqında Birgə Bəyannamə»ni Azərbaycan prezidenti İlham Əliyev və Rumıniya prezidenti Trayan Besesku imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında transsərhəd mütəşəkkil cinayətkarlığa və beynəlxalq terrorçuluğa qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Daxili İşlər naziri Ramil Usubov və Rumıniya Xarici İşlər Nazirliyinin Dövlət katibi Boqdan Mazuru imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Rumıniya Hökuməti arasında fövqəladə halların nəticələrinin aradan qaldırılması, məhdudlaşdırılması və azaldılması sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov və Rumıniya Xarici İşlər Nazirliyinin Dövlət katibi Boqdan Mazuru imzaladılar.*

*«Azərbaycan Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti Nazirliyi arasında rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Rumıniyanın Rabitə və İnformasiya Cəmiyyəti naziri Qabriel Sandu imzaladılar.*

*«Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Rumıniyanın Ətraf Mühit Nazirliyi arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu»nu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Rumıniyanın Ətraf Mühit Nazirliyinin Dövlət katibi Dan Kırlan imzaladılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Buxarestdə Azərbaycan prezidenti İlham Əliyevin və Rumıniya prezidenti Trayan Beseskunun iştirakı ilə sənədlərin imzalanması mərasimi başa çatdıqdan sonra dövlət başçılarının birgə mətbuat konfransı olmuşdur.*

*Prezidentlər əvvəlcə bəyanatlarla çıxış etdilər.*

### Rumıniya prezidenti Trayan Beseskunun bəyanatı

Əvvəlcə sizin hamınızı salamlamaq istəyirəm. Mən hörmətli cənab prezident Əliyevə, xanımına və onları müşayiət edən nümayəndə heyətinə ölkəmizə səfər etdiklərinə görə öz minnətdarlığımı bildirmək istəyirəm. Cənab Prezidentə minnətdaram ki, dəvətimi qəbul edib ölkəmizə rəsmi səfərə gəlmişdir.

Hesab edirəm ki, cənab Prezidentin budəfəki səfəri bizim 4 ildən çox müddət ərzində gördüyümüz böyük işlərin bir növ yekunlaşdırıcı səfəridir. Son illər ölkələrimiz arasında prezidentlər və hökumətlər səviyyəsində görülmüş bir çox işlər ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət etmişdir.

Bu gün biz çox vacib bir sənədi imzaladıq. Bu, strateji tərəfdaşlığın yaradılmasının razılaşması haqqında Birgə

Bəyannamədir. Bundan əlavə, hökumətlər arasında digər mühüm sazişlər imzalandı. Bu sazişlər bizim siyasi dialoqumuza, həmçinin enerji sahəsində əməkdaşlığımıza, iqtisadi sahədə işbirliyimizə, sərmayə qoyuluşuna, təhlükəsizliklə bağlı əməkdaşlığımıza və beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı yardıma aiddir. Bizim enerji sahəsindəki əməkdaşlığımız təkcə Nabukko layihəsinin həyata keçirilməsi istiqamətində atılan addımlarla məhdudlaşmır, eyni zamanda, Rumıniyanın Konstansa limanında maye qaz terminalının yaradılması ilə də bağlı işbirliyi qurmuşuq və əməkdaşlıq edirik.

Biz regional məsələlərə də toxunduq. Regionda dondurulmuş münaqişələr, xüsusən də Dağlıq Qarabağ münaqişəsi məsələsini nəzərdən keçirdik. Bir daha bildirmək istəyirik ki, bununla bağlı Rumıniya hesab edir ki, dondurulmuş münaqişələrin həlli yalnız və yalnız dinc yolla, mövcud beynəlxalq hüquq norma və prinsipləri əsasında, dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşma əsasında baş tutmalıdır.

**Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı**

Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

Cənab Prezident, məni Rumıniyaya dəvət etdiyinizə görə, mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə Sizə öz təşəkkürümü bildirirəm. Rumıniya ilə Azərbaycan arasında ikitərəfli münasibətlər çox uğurla inkişaf edir və bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında Bəyannamə son illər ərzində görülmüş işlərin məntiqi nəticəsidir. Əminəm ki, bu gün imzalanmış bütün sənədlər gələcək əməkdaşlığın uğurlu inkişafı üçün də yaxşı əsas yaradır. İkitərəfli münasibətlərin inkişafı üçün çox gözəl imkanlar, çox böyük potensial vardır və biz gələcək illərdə bu potensialdan səmərəli şəkildə istifadə edəcəyik.

Bu gün həm təkbətək, həm də nümayəndə heyətlərinin iştirakı ilə keçirilmiş görüşdə bütün vacib məsələlər müzakirə edildi və gələcək əməkdaşlıq haqqında çox vacib qərarlar qəbul edildi. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. Əminəm ki, iqtisadi sahədə yeni, gözəl layihələr icra olunacaqdır. Neft-qaz sahəsində əməkdaşlığımız uğurludur. Azərbaycanın çox zəngin neft-qaz yataqları vardır və bu resurslar dünya və Avropa bazarlarına uğurla çıxarılır. Əgər tezliklə tranzit ölkələrlə beynəlxalq təcrübəyə əsaslanmış müqavilələr imzalanarsa, gələn ildən Azərbaycan qazı Avropa İttifaqının bazarına çıxarıla bilər.

Neft-qaz sahəsində əməkdaşlıq Azərbaycan ilə Avropa İttifaqı arasında imzalanmış strateji tərəfdaşlıq haqqında Memorandumda da öz əksini tapıb və Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrdə enerji amili çox mühüm yer tutur. Mən fürsətdən istifadə edərək, Avropa İttifaqı ilə Azərbaycan arasında münasibətlərin inkişafında xüsusi roluna görə Rumıniyaya və cənab Prezident, şəxsən Sizə minnətdarlığımı bildirmək istəyirəm.

Sizin qeyd etdiyiniz kimi, bütün dondurulmuş münaqişələrin, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq prinsiplərin rəhbər tutulması və ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşılması mövqeyi çox böyük əhəmiyyətə malikdir və buna görə mən Sizə minnətdaram. Dünyada bütün münaqişələr yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Əgər bütün tərəflər beynəlxalq hüquq normalarına riayət etsələr, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi tezliklə ədalətli həll oluna bilər və Azərbaycanın işğal olunmuş bütün torpaqları işğalçı qüvvələrdən tezliklə təmizlənə bilər.

Cənab Prezident, göstərdiyiniz qonaqpərvərliyə görə bir daha Sizə minnətdaram və əminəm ki, gələcək əməkdaşlığımız da çox uğurlu olacaqdır.

* * *

*Sonra dövlət başçıları jurnalistlərin suallarını cavablandırdılar.*

**Y u n i s  O r u c o v (*Azərbaycan Televiziyası*): Mənim sualım Rumıniya prezidentinədir. Cənab Prezident, Siz bu gün azərbaycanlı həmkarınızla strateji tərəfdaşlığın yaradılması haqqında Birgə Bəyannaməni imzaladınız. Sizcə bu sənəd ikitərəfli münasibətlərimizə hansı töhfəni verəcək? Bu sənədin perspektivlərini nədə görürsünüz? Təşəkkür edirəm.**

**T r a y a n  B e s e s k u**: Bildirmək istəyirəm ki, bizim strateji tərəfdaşlıq haqqında bu cür razılaşmamız cəmi iki ölkə ilə vardır. Bu tərəfdaşlıq siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə aparılır. Onlardan biri Birləşmiş Ştatlar, ikincisi isə Fransadır. Qeyd etmək istəyirəm ki, bu gün cənab Prezidentlə imzaladığımız bu bəyannaməni və digər mühüm razılaşmaları nəzərə alaraq, bundan sonra bizim hökumətlərimiz iki ölkə arasında qəbul olunacaq siyasi qərarların həyata keçirilməsi üzrə plan tərtib edəcəklər. Bir növ yol xəritəsi. Bu yol xəritəsinin gələcəkdə həyata keçirilməsini təhlil etdikdən sonra biz bir qənaətə gələ bilərik ki, atılmış bu addımlar uğurlu oldu, yoxsa yox?!

Bu gün prezident Əliyevlə imzaladığımız strateji tərəfdaşlıq haqqında bəyannamədə əks olunmuş müddəalar bir növ göstərici, bələdçi xarakteri daşıyır. Həmin sənəddə əks olunmuş müddəalar çox real müddəalardır və onlar hər iki ölkənin milli maraqlarına, o cümlədən Avropa İttifaqının maraqlarına uyğundur. Hesab edirəm ki, əgər biz həmin prioritetləri həyata keçirə bilsək, iki ölkə arasında strateji tərəfdaşlıq böyük uğura çevriləcəkdir. Rumıniya hesab edir ki, bu sənəd Avropa İttifaqının enerji və xarici siyasətinə də töhfə verir, Avropa İttifaqının Qara dəniz regionundakı, o cümlədən «Şərq tərəfdaşlığı» təşəbbüslərinə də xidmət edir.

**M ü x b i r (*Rumıniya*): Mənim sualım prezident İlham Əliyevədir. Siz mətbuat üçün bəyanatınızda Azərbaycanın**

**neft və qaz ehtiyatlarının daşınmasında tranzit məsələlərini də qeyd etdiniz. Sizin fikrinizcə, Nabukko layihəsinin həyata keçirilməsi Konstansa–Triest layihəsinin reallaşmasına nə kimi töhfə verə bilər?**

**İ l h a m Ə l i y e v:** Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycan tərəfindən irəli sürülmüş və həyata keçirilmiş layihələr başqa layihələrin icrasına da gətirib çıxarır. Əgər Bakı–Tbilisi–Ceyhan neft kəməri tikilməsəydi və bir sözlə, əgər bu dəhliz açılmasaydı, yəqin ki, Bakı–Tbilisi–Ərzurum qaz kəməri də tikilməzdi. Əgər Bakı–Tbilisi–Ərzurum qaz kəməri tikilməsəydi, bu gün Nabukko haqqında söhbət aparmağa dəyməzdi. Çünki Nabukko layihəsinin icrası Azərbaycanın bu gün mövcud olan qaz infrastrukturunun işə salınması ilə bağlıdır. Əgər Nabukko layihəsi uğurla icra olunarsa, regionda şaxələndirmə məqsədilə tikiləcək digər kəmərlərin inşasına da gətirib çıxaracaqdır. Bugünkü danışıqlarda həm Nabukko, həm də Konstansa–Triest layihələri müzakirə olundu. Azərbaycan tərəfi hər iki layihəyə öz dəstəyini vermişdir.

**T r a y a n B e s e s k u**: İcazənizlə, mən bu cavaba da əlavə şərhimi verim. Azərbaycanın Dövlət Neft Şirkəti Avropa İttifaqı ölkələrində öz fəaliyyətini Rumıniya vasitəsilə genişləndirmək fikrindədir. Bu layihənin həyata keçirilməsində Dövlət Neft Şirkəti hesab edir ki, Konstansada hazırda xam neftin saxlanılması üçün bizim tutumların genişləndirilməsi imkanı mövcuddur. Dövlət Neft Şirkəti bu sahədə işləmək arzusunu bildirmişdir. Beləliklə, Dövlət Neft Şirkəti öz resurslarını mövcud iki mümkün yol ilə nəql edə biləcəkdir. Bir variant o ola bilər ki, Azərbaycan Dövlət Neft Şirkəti Kontansada artıq tranzit olunmuş enerji daşıyıcılarının emalı üzrə Rumıniyadakı zavodlarında emal prosesləri ilə özü məşğul ola bilər və bunu rumın həmkarları ilə həyata keçirə bilər. İkinci variant isə Dövlət Neft Şirkəti Konstansada xam neftin saxlanılma tutumu həcminin daha da artırılması yolu ilə tranzit edib sonra onu Triestə istiqamətləndirə bilər.

Gürcüstanda – Supsa limanında böyük bir terminal vardır. Hazırda həmin terminalda yüksək tonnajlı tankerlər lövbər sala bilir. Mən xam neftin həmin tankerlərə doldurulmasını görmüşəm. Xam neft həmin tankerlərlə Bosfor və Dardanel boğazlarından keçməklə Avropa bazarlarına çatdırılır. Hesab edirəm ki, bu da düzgün yoldur.

## RUMINİYANIN BAŞ NAZİRİ EMİL BOK İLƏ GÖRÜŞ

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Buxarestdə Azərbaycan prezidenti İlham Əliyev Rumıniyanın Baş naziri Emil Bok ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycan ilə Rumıniya arasında iqtisadi, həmçinin energetika sahəsində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olundu. Qeyd edildi ki, ölkələrimiz arasında bu istiqamətdə əlaqələrin inkişafı üçün böyük potensial vardır.*

*Görüşdə Azərbaycan–Rumıniya iqtisadi əməkdaşlığının ölkəmizin Avropa İttifaqı ilə iqtisadi əlaqələri baxımından əhəmiyyəti vurğulandı.*

*Tərəflər əmin olduqlarını bildirmişlər ki, ölkələrimizin iqtisadi əlaqələri bundan sonra da inkişaf edəcəkdir.*

## AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*Buxarest*

*28 sentyabr 2009-cu il*

*Sentyabrın 28-də Buxarestdə Rumıniya prezidenti Trayan Besesku və xanımı Mariya Beseskunun adından Azərbaycan prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın şərəfinə rəsmi qəbul təşkil edilmişdir.*

*Əvvəlcə Azərbaycanın və Rumıniyanın dövlət himnləri səsləndirildi.*

*Dövlət başçıları qəbulda çıxış etdilər.*

### Rumıniya prezidenti Trayan Beseskunun çıxışı

Hörmətli cənab Prezident!

Hörmətli qonaqlar!

Prezident İlham Əliyevi və onu ölkəmizə rəsmi səfəri çərçivəsində müşayiət edən digər qonaqları Buxarestdə salamlamaqdan olduqca məmnunam. Keçirdiyimiz görüşlər, daimi siyasi dialoq Rumıniya–Azərbaycan əlaqələrinin ən yüksək səviyyədə olduğunu və yeni mərhələyə qədəm qoyduğunu əks etdirir. Dekabrın 11-də ikitərəfli münasibətlərimizin yeni ildönümünü qeyd edəcəyik. Hesab edirəm ki, əlaqələrimizin son 18 ili ərzində biz ölkələrimizin rifahı naminə bütün təmasları qurmuş və istənilən ümumi layihədə iştirak etmişik. Rumıniya ilə Azərbaycan arasındakı strateji tərəfdaşlıq aparılan xarici siyasətin uğurudur, Azərbaycan ilə Avropa və Avroatlantik strukturları arasında əlaqələrin gücləndirilməsinə töhfə verir.

Region dövlətləri ilə əla münasibətlərə malik olan Rumıniya öz təcrübəsinə əsaslanaraq Avropanın regionda daha qətiyyətli olmasına böyük səylər göstərmiş, region dövlətlərinin Avropaya inteqrasiyası perspektivlərini genişləndirmişdir. Lakin regionda dondurulmuş münaqişələrin olması həm regional səviyyədə, həm də Avropa səviyyəsində təhlükə mənbəyidir. Rumıniya ərazisində həll edilməmiş münaqişələr olan dövlətlərin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə dəstək verir.

Enerji təhlükəsizliyi, enerji daşıyıcılarının nəqli və Avropaya müxtəlif nəql marşrutlarının olması ilə bağlı rəylərimiz eynidir. Aydın faktdır ki, Avropa İttifaqı region ölkələri ilə enerji sahəsində əməkdaşlığını gücləndirərək, siyasi münasibətlərə və qonşuluq siyasətinə təkan vermişdir. Ümidvaram ki, Rumıniya ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlığa söykənən strateji tərəfdaşlıq və əla siyasi işbirliyi Avropa İttifaqının region dövlətləri ilə münasibətlərini daha da möhkəmləndirəcəkdir.

Xanımlar və cənablar! Ümid edirəm ki, Azərbaycan və Rumıniya digər region dövlətləri ilə birgə vətəndaşlarımızın rifahına xidmət edəcək və regiona tərəqqi gətirəcək mühüm layihələrin həyata keçirilməsinə çalışacaqlar. Azərbaycan dünya ictimaiyyətinə dəfələrlə nümayiş etdirib ki, o, etibarlı tərəfdaşdır. Biz Azərbaycanın beynəlxalq terrorçuluğa qarşı mübarizəyə və təhlükəsizliyin təmin edilməsinə verdiyi töhfəni yüksək qiymətləndiririk. NATO-nun Əfqanıstandakı əməliyyatlarına verdiyi dəstək rəsmi Bakının bu istiqamətdə apardığı işlərin konkret nümunəsidir. Əminəm ki, ölkələrimiz arasındakı münasibətlər və bu səfər çərçivəsində imzalanan sənədlər əlaqələrimizə daha zəngin məzmun, apardığımız dialoqa töhfə verəcək.

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli cənab Prezident!
Hörmətli xanım Besesku!
Xanımlar və cənablar!

Cənab Prezident, məni ölkənizə rəsmi səfərə dəvət etdiyinizə görə Sizə təşəkkür edir, mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə minnətdarlığımı bildirirəm.

Bu mənim son 5 ildə Rumıniyaya beşinci səfərimdir. Siz də, cənab Prezident, son 3 ildə Azərbaycana 4 dəfə səfər etmisiniz. Belə səfərlər gözəl bir ənənənin əsasını qoyaraq, ölkələrimiz arasındakı münasibətlərin nə qədər dinamik inkişaf etdiyini göstərir. İnanıram ki, ikitərəfli əməkdaşlıq, regional və beynəlxalq məsələlər ətrafında apardığımız danışıqlar və imzalanmış sənədlər münasibətlərimizin gələcək inkişafına təkan verəcəkdir.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Rumıniya bizi tanıyan ikinci dövlət olmuşdur. Elə o vaxtdan ikitərəfli münasibətlər qarşılıqlı anlaşma, dostluq prinsipləri əsasında inkişaf etməyə başlamışdır. Müxtəlif sahələrdə əlaqələrimizin inkişafını təmin edən 40-dan çox sənəd imzalanmışdır. Bu gün imzalanmış strateji tərəfdaşlıq haqqında bəyannamə, demək olar ki, son illər ərzində görülən işlərin zirvəsi və məntiqi nəticəsidir. Siyasi əlaqələrimiz çox yüksək səviyyədədir. İqtisadi sahədə əməkdaşlığın dərinləşməsi üçün çox gözəl perspektivlər vardır. Regional əməkdaşlıq baxımından, Xəzər dənizi–Qara dəniz əməkdaşlığı baxımından Rumıniya–Azərbaycan əlaqələrinin çox böyük əhəmiyyəti vardır. BMT, ATƏT, Avropa Şurası, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində və GUAM formatında əməkdaşlığımız böyük məmnunluq doğurur. Avroatlantik təsisatlara inteqrasiyada, «Şərq tərəfdaşlığı» təşəbbüsü və NATO-nun Fərdi Tərəfdaşlığın Əməliyyat Planı çərçivəsində əməkdaşlıqda Rumıniyanın Azərbaycana dəstəyi əsl dostluq münasibətidir. Azərbaycan Avropa İttifaqının enerji

təhlükəsizliyi məsələlərinin həlli işində öz səylərini göstərir və gələcəkdə də bu səylər göstəriləcəkdir. Azərbaycanın təşəbbüsü ilə keçən əsrin 90-cı illərinin ortalarında başlanmış və uğurla icra edilən böyük transmilli layihələr, neft-qaz kəmərlərinin inşası bu gün yeni kəmərlərin, yeni layihələrin icrasına təkan verir. Bu gün biz Azərbaycanın neft-qaz resurslarının Avropa bazarlarına çıxarılmasına dair öz fikirlərimizi, öz qəti mövqeyimizi bir daha bildirdik.

Əfsuslar olsun ki, regionumuzda təhlükələr də mövcuddur. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması regionun inkişafında böyük maneə olaraq qalır. Dünya birliyi və beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyır və münaqişənin ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq normalarına uyğun həllinin tərəfdarıdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT, Avropa Şurası Parlament Assambleyası, NATO və digər beynəlxalq təşkilatların müvafiq qərar və qətnamələri vardır. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq prinsiplərinə uyğun həll olunmalıdır. Bu baxımdan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli istiqamətində Rumıniyanın mövqeyi xüsusi əhəmiyyət daşıyır. Bu gün, cənab Prezident, Siz bir daha Rumıniyanın ədalətli mövqeyini öz çıxışınızda qeyd etdiniz. Buna görə mən Sizə minnətdarlığımı bildirirəm.

Hörmətli cənab Prezident, dost ölkənizə səfərimdən məmnun olduğumu bir daha ifadə edir, Sizə cansağlığı, ölkənizə və xalqınıza daim inkişaf və tərəqqi arzulayıram. Bu badəni Sizin sağlığınıza, xanımınızın sağlığına, Rumıniya ilə Azərbaycan arasında səmimi dostluq və faydalı əməkdaşlıq əlaqələrinin inkişafının şərəfinə qaldırıram.

## RUMINİYA SENATININ SƏDRİ MİRÇA COANE İLƏ GÖRÜŞ

*Buxarest*

*29 sentyabr 2009-cu il*

*Sentyabrın 29-da prezident İlham Əliyev Rumıniya Senatının sədri Mirça Coane ilə görüşmüşdür.*

*Mirça Coane bildirdi ki, ölkəsi Azərbaycan ilə ikitərəfli münasibətlərə böyük önəm verir və əlaqələrimiz strateji xarakter daşıyır. Azərbaycan prezidentinin Rumıniyaya rəsmi səfərinin əhəmiyyətini vurğulayan Senatın sədri dedi ki, Azərbaycan bütün sahələrdə mühüm dövlətdir, bizə dost ölkədir.*

*Ümummilli lider Heydər Əliyevin Azərbaycanın inkişafında əvəzsiz xidmətlərini xüsusi qeyd edən Mirça Coane ölkəsinin Azərbaycan ilə əlaqələrinin bundan sonra da daim inkişaf edəcəyinə əmin olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan–Rumıniya ikitərəfli münasibətlərinin uğurla inkişaf etdiyini dedi. Siyasi, iqtisadi əlaqələrimizin genişləndiyini, enerji sahəsində əməkdaşlığın yaxşı perspektivlərinin olduğunu bildirən dövlətimizin başçısı səfər çərçivəsində prezidentlərin imzaladığı «Azərbaycan Respublikası və Rumıniya arasında strateji tərəfdaşlığın yaradılmasının razılaşması haqqında Birgə Bəyannamə»nin əhəmiyyətinə toxunaraq qeyd etdi ki, bu sənəd geniş sahələri əhatə edir, əlaqələrimizin ruhunu əks etdirir. Dövlətimizin başçısı ikitərəfli münasibətlər baxımından qarşıda böyük birgə layihələrin olduğunu dedi və bildirdi ki, Avropaya inteqrasiya məsələlərində Rumıniya Azərbaycana dəstək verir.*

*Görüşün sonunda Mirça Coane Rumıniya Senatının 140 illiyinə həsr olunmuş xatirə medalını prezident İlham Əliyevə təqdim etdi.*

*Azərbaycan prezidenti Senatın Xatirə kitabına ürək sözlərini yazdı.*

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*Buxarest*

*29 sentyabr 2009-cu il*

*Rumıniyada rəsmi səfərdə olan Azərbaycan prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 29-da Buxarestdəki «Tey» parkında ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmişlər.*

*Burada dövlətimizin başçısını və xanımını Buxarest şəhərinin 2-ci sektorunun meri Nikolay Ontsyanu qarşıladı.*

*Mehriban xanıma gül dəstəsi təqdim olundu.*

*Parka toplaşmış yüzlərlə şəhər sakini, məktəblilər, Azərbaycan diasporunun fəalları, Rumıniyada təhsil alan azərbaycanlı tələbələr dövlətimizin başçısını və xanımını alqışlarla qarşıladılar.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin parkdakı abidəsi önünə gül dəstələri qoydular.*

*Uşaqlarla xatirə şəkli çəkdirən dövlətimizin başçısı və xanımı «Tey» parkını gəzdilər, sakinlərlə və Azərbaycan diasporunun fəalları ilə söhbət etdilər.*

### Səfər başa çatdı

*Sentyabrın 29-da Azərbaycan prezidenti İlham Əliyevin Rumıniyaya rəsmi səfəri başa çatmışdır.*

*Azərbaycanın və Rumıniyanın dövlət bayraqları ilə bəzədilmiş Henri Koande adına Buxarest Beynəlxalq Hava Lima-*

*nında Azərbaycan dövlətinin başçısının şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Prezident İlham Əliyevi Rumıniyanın yüksək vəzifəli dövlət və hökumət nümayəndələri yola saldılar.*

* * *

*Dövlətimizin başçısı həmin gün Bakıya qayıtmışdır.*

*Azərbaycan Prezidentini Heydər Əliyev Beynəlxalq Aeroportunda Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## QEYDLƏR

**1. Təzəpir məscidi** – Azərbaycan memarlıq abidəsi. 1905–14-cü illərdə tikilmişdir (memarı Zivərbəy Əhmədbəyov). Kvadratplanlı Təzəpir məscidinin Baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı günbəzlə örtülmüşdür. İbadət zalının quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatmatağ formalarından istifadə olunmuşdur. Təzəpir Bakı–Abşeron dini tikililəri arasında xüsusi yer tutur. – 5–13,14–16.

**2. İslam Universiteti** – Qafqaz Müsəlmanları İdarəsinin nəzdində 1991-ci ildə Bakı İslam Mədrəsəsinin bazası əsasında yaradılmışdır. Hazırda universitetdə İslamşünaslıq və Şəriət fakültələri var. Universitetdə bakalavr səviyyəsində Dinşünaslıq ixtisası, magistratura səviyyəsində isə Dinlərin tarixi və İslamşünaslıq ixtisasları üzrə kadrlar hazırlanır. – 5,8.

**3. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi

və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6, 15, 16, 20, 26, 28, 65, 122, 124, 138, 139, 140, 141, 142, 143, 145, 148, 149, 198, 207, 209, 213, 217, 218, 224, 246, 256, 257, 260, 264, 268, 277, 278, 281, 326.

**4. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə M.Krasnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 6, 18, 19, 26, 42, 69, 110, 122, 123, 124, 125, 133, 137, 151, 154, 156, 157, 166, 193, 194, 209, 221, 233, 234, 245, 257, 268, 288, 299, 300, 306, 320, 326.

**5. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 6, 209, 268.

**6. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 6, 15, 98.

**7. Qurani-Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 8.

**8. İslam Konfransı Təşkilatı** (İKT) – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 12, 22, 28, 255.

**9. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 12, 28, 53, 169, 323.

**10. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 193 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür. Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 12, 22, 57, 255, 264, 322.

**11. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 12, 28, 40, 53, 58, 61, 72, 168, 256, 322.

**12. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min km$^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan

torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 12, 15, 23, 28, 30, 40, 44, 52, 53, 54, 56, 57, 58, 61, 62, 63, 66, 72, 74, 86, 165, 200, 201, 244, 255, 314, 315.

**13. Rusiya,** R u s i y a  F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,1 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 13, 15, 33, 40, 50, 56, 58, 60, 63, 73-78, 104, 121, 130, 183, 197, 221, 236–240, 263.

**14. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 14, 58, 322.

**15. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 16,50,70,105.

**16. Küveyt,** K ü v e y t d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 17,8 min km$^2$, əhalisi 3 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveyt şəhəridir. – 16, 182.

**17. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 17.

**18. Sergey Sidorski** (d.1954) – Belarus dövlət xadimi. 2003–2010-cu illərdə Belarusda Baş nazir olmuşdur. – 17.

**19. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. –17.

**20. Suriya,** S u r i y a Ə r ə b R e s p u b l i k a s ı – Asiyada dövlət. Sahəsi 185,2 min km$^2$, əhalisi 14,8 milyon nəfərdir. İnzibati ərazisi 10 mühafazaya (qubernatorluğa) və Dəməşq munisipalitetinə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Xalq Şurasıdır. Paytaxtı Dəməşq şəhəridir. – 18–36.

**21. Bəşşar əl-Əsəd** (d.1965) – 2000-ci ildən Suriya Ərəb Respublikasının Prezidentidir. – 18–36.

**22. H a f i z Ə s ə d** (1930–2000) – Suriyanın siyasi, hərbi və dövlət xadimi. 1970–71-ci illərdə Baş nazir, 1971–2000-ci illərdə isə Suriya Ərəb Respublikasının Prezidenti olmuşdur. – 20, 28.

**23. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 21, 74, 160, 311, 312.

**24. Yaqub Eyyubov,** Yaqub Abdulla oğlu (d.1945) – inşaat mühəndisi, texnika elmləri doktoru, professor. 1999–2003-cü illərdə Azərbaycan Respublikası Nazirlər Kabinetində Baş nazirin müavini, 2003-cü ildən Azərbaycan Respublikası Baş nazirinin birinci müavinidir. – 21.

**25. Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi** – BMT-nin əsas orqanlarından biri. BMT üzvü olan bütün dövlətlərdən ibarətdir. BMT üzvlərinə və ya BMT Təhlükəsizlik Şurasına hər cür məsələlərə və işlərə tövsiyələr vermək səlahiyyəti var.

Baş Məclisin qərarları tövsiyə xarakteri daşıyır, yəni hüquqi cəhətdən üzv-dövlətlər üçün məcburi deyil. Məclisin hər il növbəti sessiyası olur. Baş Məclisin nəzdində onun funksiyalarını həyata keçirmək üçün 7 əsas komitə var. – 23, 53, 238, 255.

**26. İmadəddin Nəsimi,** əsl adı Seyid Əli (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə öldürülmüşdür. – 24, 28.

**27. Fələstin dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli qərarına əsasən B.Britaniya mandatlığı ləğv edilərək Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948 və 49-cu illərdə, 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. – 25.

**28. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 26, 125, 133,166, 246, 288, 300.

**29. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 28, 49, 257, 261, 262, 317.

**30. Bakı–Tbilisi–Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir. – 28, 33, 50, 262, 263, 317.

**31. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. Yolun uzunluğu 826 km-dir. – 28.

**32. Avropa Şurasının Parlament Assambleyası** (AŞPA) – 2004-cü ildə təşkil olunmuşdur. AŞPA-da 25 Avropa ölkəsinin 732 deputatı fəaliyyət göstərir. – 28, 169, 232.

**33. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 28, 52, 158, 163, 164, 169, 321, 322, 323.

**34. İpək yolu**, B ö y ü k İ p ə k y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o

zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 29,131.

**35. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 33,34,50,56,95,249,256,257,263.

**36. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,5 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 33, 34, 35, 55, 56, 62, 63, 95, 130, 203, 209, 256.

**37. Misir Ərəb Respublikası** – Afrikanın şimal-şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 88,5 milyon nəfərdir. Dövlət başçısı prezident,

qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 34,37.

**38. Hüsnü Mübarək,** S e y i d M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 37.

**39. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min $km^2$, əhalisi 11,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüssel şəhəridir. – 38.

**40. II Albert** (d.1934) – 1993–2013-cü illərdə Belçika kralı. Sakson-Koburq sülaləsindəndir. III Leopoldun oğludur. – 38.

**41. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min $km^2$, əhalisi 5,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 39.

**42. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliyinin Prezidentidir. – 39.

**43. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqi-

şəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 40, 54, 74,165,180.

**44. Mətyu Brayzə** (d.1964) – Amerika diplomatı. 2001–2005-ci illərdə ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi, sonra isə Dağlıq Qarabağ, Abxaziya və Cənubi Osetiya konfliktlərinin sülh yolu ilə həll olunması işi ilə məşğul olmuşdur. 2011–2012-ci illərdə ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 40, 74, 180.

**45. Merzlyakov Yuri** (d.1949) – Rusiya Federasiyasının Fövqəladə və Səlahiyyətli səfiri. 2003–2010-cu illərdə ATƏT-in Minsk qrupunda Dağlıq Qarabağ məsələsinin nizamlanması üzrə həmsədrlərindən biri olmuşdur. – 40, 74.

**46. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,3 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 40, 41,60, 180, 196, 217, 256, 316.

**47. Fransa,** F r a n s a   R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 66,7 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 40, 316.

**48. ABŞ Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 41.

**49. Hillari Klinton** Rotxem (d.1947) – hüquqşünas, siyasi xadim. Prezident Klintonun həyat yoldaşı. 2001-ci ildən Nyu-York ştatından Amerika Senatına üzv seçilmişdir. 2009–2013-cü illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 41, 61.

**50. Böyük Britaniya,** B ö y ü k  B r i t a n i y a  v ə  Ş i m a l i  İ r l a n d i y a  B i r l ə ş m i ş  K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 64 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 42–69, 79, 253.

**51. London,** B ö y ü k  L o n d o n – Böyük Britaniyanın paytaxtı. Dünyanın ən böyük şəhərlərindən və limanlarından biri. Əhalisi 8 milyon nəfərdir. İdarəçilik funksiyalarının çoxunu Böyük Londonun Bələdiyyə Şurası və dairə şuraları həyata keçirir. XI əsrin sonu XII əsrin əvvəlində London rəsmən İngiltərənin paytaxtı olmuşdu. – 42–69, 79.

**52. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının

«İstiqlal» ordeni ilə təltif edilmişdir. – 42, 69, 73, 78, 236, 240.

**53. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin 1-ci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. – 42, 69, 73, 236, 240, 306.

**54. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-riyaziyyat elmləri doktorudur. – 42, 69, 73, 78, 236, 240, 306, 327.

**55. Qordon Braun** (d.1951) – Böyük Britaniya siyasətçisi, leyborist. 2007–2010-cu illərdə Böyük Britaniyanın Baş naziri olmuşdur. – 43–44, 51.

**56. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına bir çox dövlətlər də daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildən vahid valyuta–avro işlənir (Danimarka və Böyük Britaniya istisna olmaqla), vahid pul-kredit siyasəti aparılır. – 43, 52, 58, 80, 158, 163, 164, 165, 174,177, 178, 250, 309, 315, 316, 321, 323.

**57. Toni Heyvord** (d.1957) – britaniyalı iş adamı. 1982-ci ildən *bp* şirkətində müxtəlif vəzifələrdə çalışmışdır. 2007–2010-cu illəpdə *bp*-nin icraçı direktoru olmuşdur. – 45.

**58. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 48, 173, 265.

**59. *bp*,** «B r i t i ş h  P e t r o l e u m» – dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 48, 49, 68, 155, 253.

**60. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ; beynəlxalq adı SOCAR – State Oil Compani of Azerbaijan) – Azərbaycan Respublikası ərazisindəki neft sərvətlərindən istifadəni vahid siyasəti əsasında həyata keçirən, neft sənayesinin idarəetmə strukturunu təkmilləşdirən, yanacaq enerji kompleksinin inkişafını təmin edən şirkət. ARDNŞ respublikanın bütün ərazisində (o cümlədən quru və dənizdə) neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənməsi, emalı və nəqli, həmçinin onlardan alınan məhsulların daxili və xarici bazarlarda satışı ilə məşğul olur. ARDNŞ 1992-ci ildə «Azneft» Dövlət Konserninin və «Azərneftkimya» İstehsalat Birliyinin bazasında yaradılmışdır. ARDNŞ Azərbaycan Respublikasının təmsilçisi kimi, dünyanın tanınmış neft şirkətləri ilə hasilatın pay bölgüsü sazişi üzrə 30-a qədər neft müqaviləsi imzalamışdır.

ARDNŞ 2008-ci ildən mühasibat hesablarının beynəlxalq standartlarına keçmişdir. – 49,56,60,63,68,92,93,96,258,261, 266,278,285,317.

**61. Qazaxıstan,** Qazaxıstan Respublikası– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon $km^2$, əhalisi 17,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Astana şəhəridir. – 49, 76, 77, 236–240, 256.

**62. Dmitri Medvedev** (d.1965) – Rusiyanın dövlət və siyasi xadimi, 2008–2012-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur, 2012-ci ilin may ayından Rusiyanın Baş naziridir. – 58, 75, 77, 104, 121, 183, 236–240.

**63. BBC,** Britiş Brodkastinq Korporeyşn – Böyük Britaniya radio və televiziya verilişləri korporasiyası. Əsası 1927-ci ildə Londonda qoyulmuşdur. 1936-cı ildə televiziya ilə verilişlərə başlamışdır. 1932-ci ildən xarici veri-

lişlər şöbəsi bütün sutka ərzində ingilis və 37 xarici dildə dünyanın hər yerinə xəbərlər yayır. – 59.

**64. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 59, 60, 63, 64, 236–240, 256, 305.

**65. Barak Obama** (d.1961) – ABŞ-ın 44-cü prezidenti (2008–2016-cı illərdə). 2004–2008-ci illərdə Demokratlar Partiyasından ABŞ Senatının üzvü olmuşdur. 2009-cu ildə Nobel Sülh mükafatına layiq görülmüşdür. ABŞ-da ilk afroamerikalı prezidentdir. – 61, 63.

**66. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,1 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 63, 181, 195, 217, 218, 219, 233, 251.

**67. Böyük Britaniya parlamenti** – Böyük Britaniyada qanunvericilik hakimiyyəti. Parlament 3 hissədən ibarətdir; dövlət başçısı (monarx), Lordlar Palatası və İcmalar Palatası. Burada qanun layihəsi hər iki palata tərəfindən qəbul və monarx tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.

Dövlət başçısı (monarx) qanunvericilik təşəbbüsü hüququna malikdir, lakin qanun layihələrinin böyük əksəriyyəti hökumətin təşəbbüsü ilə qəbul edilir.

İcmalar Palatası 651 üzvdən ibarətdir. Lordlar Palatasının tərkibi və üzvlərinin sayı dəyişkəndir. Bu palata əsasən irsi əlamət üzrə təşkil olunur. – 66.

**68. II Elizabet** (d.1926) – Böyük Britaniya kraliçası. Vindzor sülaləsindəndir. 1952-ci ildə atası VII Georgun ölümündən sonra taxt-taca sahib olmuşdur. – 69.

**69. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 70,105.

**70. Maldiv,** Maldiv Respublikası – Cənubi Asiyada Maldiv adalarında dövlət. Sahəsi 298 min $km^2$, əhalisi 393 min nəfərdir. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Şurasıdır. Paytaxtı Male şəhəridir. – 71.

**71. Məhəmməd Naşid** (d.1967) – 2008–2012-ci illərdə Maldiv Respublikasının prezidenti olmuşdur. – 71.

**72. İrəvan –** qədim Azərbaycan şəhəri. Azərbaycan Milli Şurasının 1918-ci il 29 may tarixli qərarı ilə «bir siyasi mərkəz» olaraq ermənilərə güzəşt edilmiş və o dövrdə Cənubi Qafqazda yaradılmış ilk erməni dövlətinin – Ermənistan Respublikasının paytaxtına çevrilmişdi. İrəvan müxtəlif dövrlərdə Sasani dövlətinin (III–VII əsrlər), Ərəb xilafətinin (VII–IX əsrlər), Səlcuq dövlətinin (XI–XIII əsrlər), Monqol imperiyasının (XIII–XIV əsrlər), Azərbaycan Qaraqoyunlu (1410–1468), Ağqoyunlu (1468–1501), Səfəvilər (1501–1736) dövlətlərinin, Nadir şahın (1736–47) imperiyasının tərkibində olmuşdur. Nadir şahın ölümündən sonra Azərbaycan torpaqlarında müstəqil dövlətlər – xanlıqlar meydana gələrkən, burada İrəvan xanlığı (1747–1828) yarandı.

Bütün tarixi dövrlərdə azərbaycanlılar İrəvan əhalisinin etnik tərkibində əsas yer tutmuşdur. Rusiyanın İrəvanı işğal etdiyi dövrdə İrəvanın 9700 nəfərlik əhalisinin 75,6%-i Azərbaycan türkləri idi. Çarizmin erməniləri İran və Türkiyədən kütləvi şəkildə Şimali Azərbaycan torpaqlarına köçürməsi nəticəsində ermənilərin sayı artmağa başladı. – 62.

**73. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.

1992-ci ildə erməni işğalçıları Şuşanı işğal etdilər. Hazırda Şuşa yadellilərin tapdağı altındadır. – 62, 244.

**74. Riçard Morninqstar** (d.1945) – ABŞ Dövlət katibinin Avrasiya enerji məsələləri üzrə xüsusi nümayəndəsi (2009–2012), ABŞ-ın Azərbaycan Respublikasında Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur (2012–2014). – 63, 196.

**75. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 86,7 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 63.

**76. Nursultan Nazarbayev,** Nursultan Abiş oğlu (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildən eyni zamanda, Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının Prezidentidir. – 76, 77, 236–240.

**77. Tacikistan,** Tacikistan Respublikası – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min $km^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 77, 190.

**78. Emoməli Rəhmon,** Emoməli Şərif oğlu (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. – 77, 190.

**79. Moldova,** Moldova Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 33,8 min $km^2$, əhalisi 3,5 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 77,191.

**80. Vladimir Voronin** (d.1941) – Moldova siyasi və dövlət xadimi. 2001–2009-cu illərdə Moldova Respublikasının Prezidenti olmuşdur. – 77,191.

**81. İsveç,** İsveç Krallığı – Şimali Avropanın Skandinaviya yarımadasında dövlət. Sahəsi 447,4 min $km^2$,

əhalisi 9,8 milyon nəfərdir. İnzibati ərazisi 24 lenə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı parlamentdir (Riksdaq). Paytaxtı Stokholm şəhəridir. – 80.

**82. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,9 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 81.

**83. Hans-Rudolf Merts** (d.1942)– İsveçrə siyasətçisi. 2009-cu ildə İsveçrənin prezidenti olmuşdur. – 81.

**84. Makedoniya,** M a k e d o n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 25,3 min km$^2$, əhalisi 2 milyon nəfərdir. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Məclisdir. Paytaxtı Skopye şəhəridir. – 82, 223.

**85. George İvanov** (d.1960) – Makedoniyanın dövlət və siyasi xadimi. 2009-cu ildən Makedoniya Respublikasının Prezidentidir. – 82, 223.

**86. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 191,8 min km$^2$, əhalisi 82,5 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər

işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 95, 122–132, 137–151.

**87. Qırğızıstan,** Qırğızıstan Respublikası – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200,0 min km$^2$, əhalisi 6,0 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir şəhəridir. – 106,114.

**88. Kurmanbek Bakiyev** (d.1949) – Qırğızıstanın siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının Prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. –106, 114.

**89. İndoneziya,** İndoneziya Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 1919,4 min km$^2$, əhalisi 257,5 milyon nəfərdir. İnzibati ərazisi 24 əyalətə, əyalət statusu olan 2 xüsusi inzibati əraziyə, 1 paytaxt mahalına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlament – Xalq Nümayəndələri Şurasıdır. Paytaxtı Cakarta şəhəridır. – 107,119.

**90. Susilo Bambanq Yudhoyono** (d.1949) – istefada olan general-leytenant. 2004-2014-cü illərdə İndoneziya Respublikasının Prezidentidir. – 107, 119.

**91. Ukrayna,** Ukrayna Respublikası – Cənub-Şərqi Avropada dövlət. Sahəsi 603,5 min km$^2$, əhalisi 42,4

milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Radadır. Paytaxtı Kiyev şəhəridir. – 112.

**92. Viktor Yuşşenko** (d.1954) – Ukrayna dövlət və siyasi xadimi. 2005–2010-cu illərdə Ukrayna Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 112.

**93. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 9,8 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir şəhəridir. – 113.

**94. Laslo Şoyom** (d.1942) – macar hüquqşünası, Macarıstan Elmlər Akademiyasının müxbir üzvü. 2005–2010-cu illərdə Macarıstan Respublikasının Prezidenti olmuşdur. Hazırda hüquq müdafiəsi və ekologiya təşkilatlarının işi ilə məşğul olur. – 113.

**95. Sinqapur,** Sinqapur Respublikası – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 719 km$^2$, əhalisi 5,3 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Sinqapur şəhəridir. – 115.

**96. Sellapan Ramanatan** (1924–2016) – 1999–2011-ci illərdə Sinqapur Respublikasının Prezidenti olmuşdur. – 115.

**97. Əfqanıstan,** Əfqanıstan İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 116.

**98. Həmid Kərzai** (d.1957) – 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 116.

**99. Pakistan,** Pakistan İslam Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 804 min $km^2$, əhalisi 194 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 117.

**100. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan Respublikasının Prezidenti olmuşdur. – 117.

**101. Hindistan,** Hindistan Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon $km^2$, əhalisi 1 milyard 300 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dehli şəhəridir. – 118.

**102. Pratibha Patil** (d.1934) – hind hüquqşünası, siyasətçi. 2007–2012-ci illərdə Hindistanın Respublikasının prezidenti olmuşdur. – 118.

**103. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min $km^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 120.

**104. Anatoli Serdyukov** (d.1962) – 2007–2012-ci illərdə Rusiya Federasiyasının Müdafiə naziri olmuşdur. – 121.

**105. Naxçıvan Muxtar Respublikası** (1920–23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923–24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924–90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət.

Muxtar respublikanın sahəsi 5,5 min $km^2$, əhalisi 440 min nəfərdir. Hazırda 7 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur, Kəngərli), 4 şəhəri (Naxçıvan, Ordubad, Culfa, Şərur), 9 qəsəbəsi, 160 kəndi vardır. – 122–154.

**106. Vasif Talıbov,** V a s i f  Y u s i f  o ğ l u (d.1960) – Azərbaycanın dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 122,123,144,145–151.

**107. Atabəylər dövləti** – Azərbaycanda Eldənizlər sülaləsinin idarə etdiyi qüdrətli feodal dövlət (1136–1225). Azərbaycan Atabəyləri Dövlətinin əsasını Şəmsəddin Eldəgəz qoymuşdur. Azərbaycan Atabəyləri Dövlətinin yaranma tarixi Sultan Məsudun (1135–52) Arranı (Bərdəni) bir iqta kimi Şəmsəddinə verməsi ilə bağlıdır. Paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan, Təbriz olmuşdur. – 146.

**108. Moskva müqaviləsi** (1921) – RSFSR ilə Türkiyə arasında bağlanmış «Dostluq və qardaşlıq haqqında» müqavilə. Moskva müqaviləsinin 3-cü maddəsi bütünlüklə Naxçıvan məsələsinə həsr edilmiş və orada aydın şəkildə göstərilmişdir ki, danışıqlarda iştirak edən hər iki tərəfin razılığı ilə hazırkı müqavilənin I maddəsinin V əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir

üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. – 147.

**109. Qars müqaviləsi** (1921) – Cənubi Qafqazın sovet respublikaları ilə Türkiyə hökuməti arasında sovet Rusiyasının iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və III əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sənədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir». Qars müqaviləsi beynəlxalq müqavilə kimi, Naxçıvanın Azərbaycanın tərkibində muxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-in təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla onun taleyinin qarantı kimi gündəliyə gəlir. – 147.

**110. Sədərək** – Naxçıvan MR-də inzibati rayon. Sərhəd bölgəsinin sosial-iqtisadi inkişafını daha da sürətləndirmək və gücləndirmək məqsədi ilə, həmçinin ərazinin geostrateji mövqeyi nəzərə alınaraq 1990-cı il avqustun 28-də Azərbaycan SSR Ali Sovetinin Fərmanı əsasında yaradılmışdır. Sahəsi 0,15 min $km^2$, əhalisi 15,3 min nəfərdir. – 131.

**111. Şahbuz** – Naxçıvan MR-də inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi əvvəl Naxçıvana (1978), sonra Babək rayonuna verilmişdir. 1965-ci ildən yenidən müstəqil rayondur. Sahəsi 0,92 min $km^2$, əhalisi 21,8 min nəfərdir. – 143, 152–154.

**112. Endi İnqlis** (d.1960) – britaniyalı mühəndis. 2004–2007-ci illərdə *bp*-nin əvəzedici direktoru, kəşfiyyat və istehsalat biznesi üzrə Baş direktoru olmuşdur. – 155.

**113. Latviya,** L a t v i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 64,5 min km$^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 156–178.

**114. Valdis Zatlers** (d.1955) – 2007–2011-ci illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. Peşəsi həkim travmatoloq-ortopeddir. 2011-ci ildən Reforma Partiyasının lideridir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 156–178.

**115. Azad Rəhimov,** A z a d  A r i f  o ğ l u (d.1964) – 2006-cı ildən Azərbaycan Respublikası Gənclər və İdman naziridir. – 160.

**116. Slovakiya,** S l o v a k i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 49 min km$^2$, əhalisi 5,4 milyon nəfərdir. İnzibati cəhətdən 3 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Milli Şuradır. 1992-ci ilin noyabrına qədər Çexoslovakiyanın tərkibində olmuşdur. Paytaxtı Bratislava şəhəridir. – 179, 188.

**117. İvan Qaşparoviç** (d.1941) – Slovakiya dövlət xadimi, hüquqşünas-alim, 2004–2014-cü illərdə Slovakiya Respublikasının Prezidenti olmuşdur. – 179, 188.

**118. Cabir əl-Sabah** (d.1929) – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 182.

**119. Koreya,** K o r e y a  R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon

nəfərdir. İnzibati ərazisi 9 əyalətə və mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 184.

**120. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 184.

**121. Kim De Çjun** (1924–2009) – 1997–2003-cü illərdə Koreya Respublikasının prezidenti olmuşdur. Milli Konqres Yeni Siyasətdə Partiyasının lideri. Demokratiya və insan hüquqlarının müdafiəçisi. Həmçinin Şimali Koreya ilə sülh və barışığa görə Nobel mükafatı laureatı olmuşdur. – 184.

**122. Braziliya,** B r a z i l i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Cənubi Amerikada dövlət. Sahəsi 8,5 milyon $km^2$, əhalisi 205,8 milyon nəfərdir. Braziliya federasiyası 26 ştata və 1 federal dairəyə bölünür. Dövlətin və hökumətin başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. Paytaxtı Brazilia şəhəridır. – 185.

**123. Luis İnasiu Lula da Silva** (d.1945) – 2003–2011-ci illərdə Braziliya Federativ Respublikasının Prezidenti olmuşdur. – 185.

**124. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b l i k a s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min $km^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı prezident, dövlətin və qanunvericiliyin ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 186.

**125. Nquen Minh Çiet** (d.1942) – Vyetnam dövlət xadimi. 2006–2011-ci illərdə Vyetnam Respublikasının Prezidenti olmuşdur. – 186.

**126. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 24,7 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 187.

**127. Kim Çen İr** (1941 və ya 1942–2011) – 1994–2011-ci illərdə Koreya Xalq Demokratik Respublikasının başçısı, Koreya Əmək Partiyasının Baş katibi, Koreya Xalq Ordusunun Baş Komandanı, KXDR-in Dövlət Müdafiə Komitəsinin sədri olmuşdur, «Dahi rəhbər» Kim İr Senin oğlu. – 187.

**128. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 31,8 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 189.

**129. İslam Kərimov,** İslam Əbduqəni oğlu (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 189.

**130. Liviya,** Liviya Ərəb Xalq Sosialist Cəmahiriyyəsi – Şimali Afrikada dövlət. Sahəsi 1759,5 min km$^2$, əhalisi 6,5 milyon nəfərdir. Liviyanın rəhbər orqanı inqilabi rəhbərdir. Qanunverici orqanı Ümumi Xalq Konqresidir. Dövlətin funksiyasını Ali Xalq Komitəsi yerinə yetirir. Paytaxtı Tripoli şəhəridir. – 192.

**131. Müəmmər əl-Qəddafi** (1942–2011) – Liviyanın dövlət və siyasi xadimi, 1970–2011-ci illərdə Liviyanın prezidenti olmuşdur. – 192.

**132. Yoşka Fişer** (d.1948) – alman siyasətçisi. 1998–2005-ci illərdə Almaniya Xarici İşlər naziri və vitse-kansleri olmuşdur. – 195.

**133. Andrey Konçalovski** (d.1937) – Rusiya kino və teatr rejissoru, ssenarist. Seygey Mixalkovun və Natalya Konçalovskaya oğlu, tanınmış rejissor Nikita Mixalkovun qardaşı. Rusiya Federasiyasının Xalq artisti. – 197.

**134. Ramazan ayı** – Qurani-Kərimin nazil olduğu ay. – 198.

**135. Abdullah Gül** (d.1950) – Türkiyə dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 203, 232, 305.

**136. Rəcəb Tayyib Ərdoğan** (d.1954) – Türkiyə dövlət və siyasi xadimi. R.T.Ərdoğan 1980-ci ildən siyasi fəaliyyətə başlamışdır. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri, Ədalət və İnkişaf Partiyasının lideri olmuşdur. 2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Ərdoğan TBMM-də Türkiyənin Baş naziri, 2014-cü ilin sentyabrında Türkiyə Cümhuriyyətinin Prezidenti seçildi. – 203, 305.

**137. Üzeyir bəy Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 210, 211.

**138. Aqşin Əlizadə,** A q ş i n Ə l i q u l u o ğ l u (1937–2014) – Azərbaycan bəstəkarı, professor. Əsas əsərləri «Babək», «Qafqaza səyahət» baletləri, 5 simfoniya və s. 50-dən artıq bədii film, cizgi filmi, tamaşaya musiqi yazıb. Azərbaycan Dövlət mükafatı laureatı Azərbaycanın Xalq artisti. Azərbaycan Respublikasının «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 211.

**139. Ramiz Zöhrabov,** R a m i z F ə r z u l l a o ğ l u (d.1939) – sənətşünas, professor, sənətşünaslıq doktoru. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi və Xalq artisti Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 211.

**140. Eldar Mənsurov,** E l d a r B ə h r a m o ğ l u (d.1952) – Azərbaycan bəstəkarı. Bir çox simfonik, kamera və xor əsərlərinin müəllifidir. Azərbaycan Respublikasının Xalq artisti, Əməkdar incəsənt xadimidir. – 211.

**141. Firəngiz Əlizadə,** F i r ə n g i z Ə l i a ğ a q ı z ı (d.1947) – pianoçu, bəstəkar. Azərbaycan Respublikasının Xalq artisti. 2007-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının sədridir. 2008-ci ildə YUNESKO tərəfindən dünyanın artisti adlandırılmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 211.

**142. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 217, 218, 252.

**143. Bolqarıstan,** B o l q a r ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min $km^2$, əhalisi 7,2 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 222.

**144. Georgi Pırvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2002–2012-ci illərdə Bolqarıstan Respublikasının prezidenti olmuşdur. – 222.

**145. Meksika,** M e k s i k a B i r l ə ş m i ş Ş t a t l a r ı – Şimali Amerikanın cənubunda dövlət. Sahəsi 1973 min $km^2$, əhalisi 121 milyon nəfərdir. Meksika federasiyadır, inzibati ərazisi 31 ştata və federal mərkəzi əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı ikipalatalı Milli Konqresdir. (Deputatlar Palatası və Senat). Paytaxtı Mexiko şəhəridir. – 227.

**146. Felipe Kalderon İnoxosa** (d.1962) – Meksika siyasi xadimi. 2006–2012-ci illərdə Meksikanın prezidenti olmuşdur. Prezident seçildikdən sonra narkotik mafiyaya qarşı qətiyyətlə mübarizə aparmışdır. – 227.

**147. Səudiyyə Ərəbistanı,** S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon $km^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı ər-Riyad şəhəridir. – 228, 229.

**148. Abdullah ibn Əbdüləziz,** A l S ə u d (1924–2015) – 2005–2015-ci illərdə Səudiyyə Ərəbistanı əmiri. 1962-ci ildən Səudiyyə Ərəbistanı Milli Qvardiyasının komandiri olan birinci əmir Abdullah ibn Səudun oğludur. 1982-ci ildən Baş nazirin müavini, 1996-cı ildən 2005-ci ilə qədər Baş nazir olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 228.

**149. Mali,** M a l i R e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 1240 min $km^2$, əhalisi 16 milyon nəfərdir. İnzibati ərazisi 8 vilayətə və Bamako rayonuna bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Bamako şəhəridir. – 230.

**150. Ture Amadu** (d.1948) – general. 2002–2012-ci illərdə Mali Respublikasının prezidenti olmuşdur. – 230.

**151. Malta,** M a l t a R e s p u b l i k a s ı – Cənubi Avropada, Malta arxipelaqında dövlət. Sahəsi 316 $km^2$, əhalisi 430 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Valletta şəhəridir. – 231.

**152. Qurbanqulu Berdiməhəmmədov** (d.1957) – Türkmənistan dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 236–241.

**153. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 246, 250, 253, 256–266.

**154. Joze Manuel Barrozu** (d.1956) – Portuqaliya və Ümumavropa siyasi və dövlət xadimi. 2002–2004-cü illərdə Portuqaliyanın Baş naziri, 2004–2014-cü illərdə Avropa Parlamenti Komissiyasının sədri olmuşdur. – 250.

**155. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı-politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004–2010-cu illərdə Almaniya Federativ Respublikasının Prezidenti olmuşdur. – 251.

**156. Quba soyqırımı** – 1918-ci ildə ermənilər tərəfindən törədilən soyqırım. 2007-ci ildə Quba şəhər stadionunun təmiri üçün qazma işləri aparılarkən kütləvi qəbiristanlıq aşkar edilmişdir. Qəbiristanlıqda insan başları və bədənləri ayrı-ayrı basdırılmışdır. Sümüklərin antropoloji tədqiqatı onların müsəlmanlara aid olduğunu təsdiqləmişdir. Bu məzarlıq Qüdyalçayın sağ sahilində iki quyuda aşkarlanmışdır. Ermənilər bu qətliamın izini itirmək üçün belə etmişlər. – 283–284.

**157. Azərbaycan Dövlət İncəsənət Muzeyi –** (R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzey). 1936-cı ildə Azərbaycan Dövlət Muzeyinin incəsənət şöbəsi əsasında yaradılmış və 1937-ci ildə açılmışdır. Muzeyin fondunda 10 minə qədər incəsənət əsəri qorunub saxlanılır. Ekspozisiyasında Azərbaycan, rus sənətkarlarının, Qərbi Avropa və Şərq ölkələrinin boyakarlıq, qrafika, heykəltəraşlıq və s. əsərləri nümayiş etdirilir. – 301–304.

**158. Əlibəy Hüseynzadə,** Əlibəy Hüseyn oğlu (1864–1940) – Azərbaycan yazıçısı, jurnalist, filosof, tərcüməçi, ictimai xadim. Rusiyada 1905–07-ci illər inqilabının təsiri ilə çarizmi, feodal-patriarxal geriliyi, Şərq istibdadını, ətaləti və dini mövhumatı tənqid edən Ə.Hüseynzadə Azərbaycanda burjua ideologiyasının başçılarından biri, «Füyuzatçılar» ədəbi-fəlsəfi cərəyanının əsas nəzəriyyəçisi olmuşdur. Fəaliyyətində «türkləşmək, islamlaşmaq, müasirləşmək» şüarına əsaslanırdı. – 302.

**159. Bəhruz Kəngərli,** Bəhruz (Şamil) Şirəlibəy oğlu (1892–1922) – Azərbaycan rəssamı, boyakarı və qrafiki. Azərbaycan incəsənətində realist dəzgah boyakarlığının təşəkkülü, portret və mənzərənin müstəqil janr kimi formalaşması Kəngərlinin adı ilə bağlıdır. Onun portretləri canlılığı, reallığı və psixoloji ifadəliliyi ilə fərqlənir. Kəngərlinin yaradıcılığında mənzərə janrı mühüm yer tutur. – 302, 303.

**160. Əzim Əzimzadə,** Əzim Aslan oğlu (1880–1943) – rəssam. Ə.Əzimzadə Azərbaycan təsviri sənətində tənqidi realizmin və realist qrafika sənətinin banisidir. Satirik qrafika, illüstrasiya, siyasi plakat, teatr-dekorasiya sahəsində fəaliyyət göstərmişdir. Əzimzadənin sənətkarlığı orijinal və çoxcəhətlidir. Onun təsvir üslubunda yığcamlıq, obrazlılıq, səlislik kimi cəhətlər üstünlük təşkil edir. – 302, 303.

**161. Səttar Bəhlulzadə,** Səttar Bəhlul oğlu (1909–1974) – görkəmli Azərbaycan rəssamı, müasir Azərbaycan boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərbaycan Respublikası Əməkdar incəsənət xadimi, Azərbaycanın Xalq rəssamı. S.Bəhlulzadə yaradıcılığa «Kommunist» qəzetində Əzim Əzimzadənin rəhbərliyi ilə başlamışdır. Onun əsərlərində doğma torpağa və onu

dəyişdirən zəhmət adamlarına hədsiz məhəbbət motivləri başlıca yer tutur. Azərbaycanın səfalı guşələri onun lirik mənzərələrində real əksini tapmışdır. S.Bəhlulzadənin mənzərələrində poetik əhval-ruhiyyə və kompozisiya quruluşu, işlətdiyi boyalarda isə kolorit gözəlliyi çox güclüdür. Əsərlərində real mənzərə motivlərini rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti əsas yer tutur. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı idi. – 302.

**162. Mikayıl Abdullayev,** M i k a y ı l H ü s e y n o ğ l u (1921–2002) – görkəmli Azərbaycan rəssamı. Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət və Beynəlxalq Nehru mükafatları laureatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 302.

**163. Rumıniya,** R u m ı n i y a R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 306–327.

**164. Trayan Besesku** (d.1951) – Rumıniya siyasi və dövlət xadimi. 2004–2014-cü illərdə Rumıniya Respublikasının Prezidenti olmuşdur. – 306–327.

**165. Bosfor** – Avropa ilə Kiçik Asiya arasında boğaz. Qara və Mərmərə dənizlərini birləşdirir. Uzunluğu təqribən 30 km, eni 750 m-dən 3,8 km-dək, dərinliyi ən dayaz yerdə 33 m-dir. Qara dənizdən yeganə çıxış yolu olan Bosforun mühüm iqtisadi və strateji əhəmiyyəti var. – 318.

## Şəxsi adlar göstəricisi

**Abdullayev Mikayıl** – 302
**Abutalıbov Hacıbala** – 42,69,73,78,236,240, 306,327
**Abela Corc** – 231
**Al Səud Abdullah bin Əbdüləziz**–228
**Al Səud Sultan bin Əbdüləziz** – 229
**II Albert** – 38
**Amodu Ture** – 230
**Aumeistars Zigfrids** – 160
**Babayev Rasim** – 303
**Bakiyev Kurmanbek** – 106,114
**Barrozu Joze** – 250
**Berdıməhəmmədov Qurbanqulu**– 236-240
**Berdıyev İsmayıl** – 15
**Bertse Auqusts** – 170
**Besesku Mariya** – 307,320
**Besesku Trayan** – 307-327
**Bəhlulzadə Səttar** – 302
**Bildt Karl** – 80
**Billah şah Tuanku** – 120
**Birzniek-Upit Ernest** – 169
**Bok Emil** – 319
**Börns** – 63
**Braun Qordon** – 43-44,51
**Brayzə Mətyu** – 40,74,180
**Cavanşir Rəşid** – 155
**Cabbarlı Cəfər** – 102
**Coane Mirça** – 324
**Da Silva Luis** – 185

**De Brişambo Mark** – 72
**II Elizabet** – 69
**Endry (York hersoqu)** – 69
**Eyyubov Yaqub** – 21
**Əbiyev Ağacan** – 194
**Əbiyev Səfər** – 131
**Əhmədinejad Mahmud** – 70,105
**Əl-Fəllah Adil** – 16
**Əl-Dərdəri Abdullah** – 21
**Əl-Qəddafi Müəmmər** – 192
**Əl-Muallem Valid** – 21
**Əl-Nəhəyyan Abdullah** – 39
**Əl-Nəhəyyan Xəlifə bin Zaid** – 39
**Əl-Əsəd Bəşşar** – 18-36
**Əl-Əsəd Əsma** – 18,19,26,27
**Əs-Sabah Əl-Əhməd Cabir** – 182
**Əsəd Hafiz** – 20,28
**Əliyev Cəmil** – 268
**Əliyev Heydər** – 6,15,16,20,26,28,65,122, 124,138,139,140,141,142, 143,145,148,149,198,207, 209,213, 217,218,224,246, 256, 257,260,264,268,277, 278,281,326
**Əliyev Vəli** – 246
**Əliyeva Leyla** – 6,209,268
**Əliyeva Mehriban** – 6,18,19,26,42,69,110,122, 123,124,125,133,137,151, 154,156,157,166,193,194, 209,221,233,234,245,257, 268, 288,299, 300,306,320, 326
**Əlizadə Aqşin** – 211
**Əlizadə Firəngiz** – 211

**Ərdoğan Rəcəb Tayyib** – 203,305
**Əzimzadə Əzim** – 302,303
**Fasye Bernar** – 40,74
**Fişer Yoşka** – 195
**Fol Brayan** – 46
**Fyodorovna Aleksandra** – 302
**Gül Abdullah** – 203,232,305
**Hacıbəyli Üzeyir** – 210,272
**Hant ( lord )** – 253
**Hatoyama Vukio** – 252
**Heyvord Toni** – 45
**Heydərov Kəmaləddin** – 311
**Həsənov Ramiz** – 160
**Həsənov Vüqar** – 268
**Hüseynova Lalə** – 211
**Hüseynzadə Əlibəy** – 302
**İnqlis Endi** – 155
**İnoxosa Felipe** – 227
**İrəvani Mirqədim** – 302
**İvanov George** – 82,223
**Kampars Artis** – 160
**Kaseinov Düşen** – 272
**Kəngərli Bəhruz** – 302,303
**Kərimov İslam** – 189
**Kərzai Həmid** – 116
**Kırlan Dan** – 312
**Kim De Çjun** – 184
**Kim Çen İr** – 187
**Klinton Hillari** – 41,61
**Konçalovzki Andrey** – 197
**Köler Horst** – 251
**Qaşparoviç İvan** – 179,188
**Qettinger Günter** – 181

**Qeyps Maykl** – 66
**Qəzai Əhəd** – 16
**Qordon Filip** – 41
**Orossman Vurgen** – 195
**Quliyev Elçin** – 205
**Lemos Cerard** – 67
**Li Men Bak** – 184
**Luder Alderman** – 79
**Lukaşenko Aleksandr** – 16
**Makfol** – 63
**Mansurov Eldar** – 211
**Mazuru Boqdan** – 311
**Medvedev Dmitri** – 58,75,77,104,121,183, 236-240
**Mehdiyev Ramiz** – 42,69,73,236,240,306
**Milibənd Ed** – 68
**Merts Hans-Rudolf** – 81
**Merzlyakov Yuri** – 40,74
**Məmmədov Ə.** – 6
**Məmmədov Əli** – 211
**Məmmədov Ziya** – 295
**Məmmədyarov Elmar** – 21,74,160,311,312
**Mixalkov Sergey** – 197
**Mikayılzadə E.** – 6
**Miralayev F.** – 6
**Mircavadov Cavad** – 303
**Mirzəyeva Hafizə** – 126
**Morninqstar Riçard** – 63,196
**Muxatrov Əhməd** – 213
**Mübarək Hüsnü** – 37
**Nalbaldyan Edvard** – 74
**Naşid Məhəmməd** – 71
**Nazarbayev Nursultan** – 76,77,236-240

**Nəsimi İmaməddin** – 24,28
**Nquen Minh Çiet** – 186
**Obama Barak** – 61,63
**Orucov Yunis** – 316
**Paşazadə Hacı Allahşükür** – 6,15,198
**Patil Pratibha** – 118
**Piebalqs Andris** – 250
**Pırvanov Georgi** – 222
**Puqaçova Alla** – 221
**Rasizadə Artur** – 42,69,73,78,236,240
**Rəhimov Azad** – 160
**Ramanatan Sellapan** – 115
**Rəhmon Emoməli** – 77,190
**Riektins Maris** – 160
**Rozitis Pavils** – 169
**Ruslanoğlu Toğrul** – 277
**Saakaşvili Mixeil** – 249
**Sadıxzadə Altay** – 303
**Sandu Qabriel** – 311
**Sarkisyan Serj** – 62,74,75
**Serdyukov Yuri** – 121
**Sidorski Sergey** – 17
**Sinirlioğlu Feridun** – 203
**Sobotka Prjemısl** – 294
**Staynberq Ceyms** – 41
**Şoyom Laslo** – 113
**Şahin Məhmət Əli** – 305
**Şreyder Bill** – 155
**Talıbov Vasif** – 122,123,144,145-151,154
**Uld Əbdüləziz Məhəmməd** – 204
**Usubov Ramil** – 311
**Vanota Eduard** – 99
**Veraşşagin Vasili** – 302

**Verstberq Hans** – 235
**Vəkilov Vurğun** – 211
**Voronin Vladimir** – 77,191
**Yudhoyono Susilo** – 107,119
**Yuşşenko Viktor** – 112
**Zalov Binyamin** – 287-288
**Zatlere Lilita** – 156,157,166,167
**Zatlers Valdis** – 156-178
**Zərdari Asif** – 117
**Zöhrabov Ramiz** – 211

## Coğrafi adlar göstəricisi


**Abşeron (*yarımada*)** – 93
**Aktau** – 236-240
**Almaniya** – 63,181,195,217,218,219,233, 251
**Amerika Birləşmiş Ştatları** – 40,41,60,180,196,217,256, 316
**Aralıq dənizi** – 35
**Asiya** – 29,41,51
**Aşqabad** – 63
**Avrasiya** – 60,196
**Avropa** – 14,29,30,41,44,51,64,111, 163,173,177,178,196,208, 251, 315,321,324
**Baden-Vürtemberq** – 181
**Bakı** – 10,13,37,38,47,61,62,63,70, 71,81,82,93,97,99,102,104, 105,106,107,110,111,112, 113,114,115,116,117,118, 119,120,138,158,170,177, 178, 182,183,184,185,186, 187,188,189,190,191,192, 197,204,212,218,221,222, 223,227,228,229,230,231, 232,237,238,239,251,252, 267, 274,304
**Balkan (yarımada)** – 29
**Baltik dənizi** – 168,178
**Belarus** – 17
**Belçika** – 38
**Bilgəh** – 109
**Birləşmiş Ərəb Əmirlikləri** – 39

**Bolqarıstan** – 222
**Bosfor** – 318
**Böyük Britaniya** – 42-69,79,253
**Braziliya** – 185
**Brodı** – 178
**Buxarest** – 306-327
**Buzovna** – 109
**Ceyhan** – 257
**Cənubi Qafqaz** – 12,60,164,180
**Culfa** – 128
**Çexiya** – 99,218,294
**Dağlıq Qarabağ** – 12,15,23,28,30,40,44,52,53, 54,56,57,58,61,62,63,66,72, 74,86,165,200,201,244,255, 314,315
**Əfqanıstan** – 116
**Ərəb körfəzi** – 34,35
**Fələstin** – 25
**Fransa** – 40,316
**Gəncə** – 96
**Gürcüstan** – 33,34,50,56,95,249,256,257, 263
**Hacıqabul** – 213-220,279
**Hələb** – 28
**Holan təpələri** – 25
**Hindistan** – 118
**Xankəndi** – 244
**Xəzər dənizi** – 13,34,47,50,59,60,63,168, 177,178,237,238,239,256
**Xırdalan** – 100
**İndoneziya** – 107,119
**İran** – 16,50,70,105
**İrəvan** – 62
**İsveç** – 80
**İsveçrə** – 81
**İtaliya** – 217,218,233

**Kəlbəcər** – 63
**Kəngərli** – 131
**Konstansa** – 317
**Koreya XDR** – 187
**Koreya Respublikası** – 184
**Küveyt** – 16,182
**Qala** – 109
**Qafqaz** – 12,13,14,25,29,30,60,164
**Qara dəniz** – 34,168,178
**Qazaxıstan** – 49,76,77,236-240,256
**Qdansk** – 178
**Qərbi Avropa** – 177
**Qəzzə** – 25
**Qırmızı qəsəbə** – 293
**Qırğızıstan** – 106,114
**Quba** – 277-284,286
**Qusar** – 285-292,293
**Latviya** – 156-178
**Liviya** – 192
**London** – 42-69,79
**Macarıstan** – 113
**Mahaçqala** – 237
**Makedoniya** – 82,223
**Malayziya** – 120
**Maldiv** – 71
**Mali** – 230
**Malta** – 231
**Masazır** – 100
**Mavritaniya** – 204
**Meksika** – 227
**Mərdəkan** – 109
**Mərkəzi Asiya** – 178,180
**Məşhəd** – 105
**Mingəçevir** – 208
**Misir** – 34,37
**Moldova** – 77,191

| | |
|---|---|
| **Moskva** | – 73-78 |
| **Naxçıvan** | – 95,122-132,137-151 |
| **Naxçıvan Muxtar Respublikası** | –122-154 |
| **Nazran** | – 183 |
| **Odessa** | – 178 |
| **Orta Asiya** | – 15,30 |
| **Özbəkistan** | – 189 |
| **Pakistan** | – 117 |
| **Plotsk** | – 178 |
| **Polşa** | – 218 |
| **Riqa** | – 170,177 |
| **Rostov (vilayət)** | – 77,104 |
| **Rumıniya** | – 306-327 |
| **Rusiya** | – 13,15,33,40,50,56,58,60,63, 73-78,104,121,130,183,197, 221,236-240,263 |
| **Sabunçu** | – 109 |
| **Sədərək** | – 131 |
| **Səudiyyə Ərəbistanı** | – 228,229 |
| **Sinqapur** | – 115 |
| **Skandinaviya** | – 177 |
| **Slovakiya** | – 179,188 |
| **Suriya** | – 18-36 |
| **Şahbuz** | – 143,152-154 |
| **Şərqi Avropa** | – 177 |
| **Şərur** | – 128,131,133-134,135-136 |
| **Şimali Qafqaz** | – 12,15 |
| **Şuşa** | – 62,244 |
| **Tacikistan** | – 77,190 |
| **Tehran** | – 237 |
| **Triest** | – 317 |
| **Türkiyə** | – 33,34,35,55,56,62,63,95,130, 203,209,256 |
| **Türkmənbaşı** | – 237 |
| **Türkmənistan** | – 59,60,63,64,236-240,256,305 |
| **Ukrayna** | – 112 |

**Vyetnam** – 186
**Yaxın Şərq** – 25,29,30
**Yaponiya** – 217,218,252
**Yunanıstan** – 33,56
**Zabrat** – 109
**Zəngəzur** – 138

MÜNDƏRİCAT

TƏZƏPİR MƏSCİD KOMPLEKSİNİN ƏSASLI YENİDƏNQURMA VƏ GENİŞ TİKİNTİ İŞLƏRİNDƏN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*6 iyul 2009-cu il*........................................................................5

TƏZƏPİR MƏSCİD KOMPLEKSİNİN AÇILIŞINDA İŞTİRAK EDƏN XARİCİ ÖLKƏLƏRİN DİN XADİMLƏRİ İLƏ GÖRÜŞ

*6 iyul 2009-cu il*......................................................................14

BELARUSUN BAŞ NAZİRİ SERGEY SİDORSKİ İLƏ GÖRÜŞ

*7 iyul 2009-cu il* .....................................................................17

SURİYA ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*8 iyul 2009-cu il*......................................................................18

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ SURİYA PREZİDENTİ BƏŞŞAR ƏL-ƏSƏDİN TƏKBƏTƏK GÖRÜŞÜ

*8 iyul 2009-cu il*......................................................................19

AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏRİNİN GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*8 iyul 2009-cu il*......................................................................20

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*8 iyul 2009-cu il*............................................................................*21*

AZƏRBAYCAN VƏ SURİYA PREZİDENTLƏ-RİNİN MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLARI

*8 iyul 2009-cu il*............................................................................*22*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*8 iyul 2009-cu il*............................................................................*26*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏT

*8 iyul 2009-cu il*............................................................................*27*

AZƏRBAYCAN–SURİYA BİZNES-FORUMU

*9 iyul 2009-cu il* ..........................................................................*31*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*9 iyul 2009-cu il*............................................................................*37*

BELÇİKA KRALI ƏLAHƏZRƏT II ALBERTƏ

*9 iyul 2009-cu il*............................................................................*38*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR NAZİRİ ŞEYX ABDULLAH BİN ZAİD AL-NƏHƏYYANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*9 iyul 2009-cu il*............................................................................*39*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ
VƏ ATƏT-in HAZIRKI SƏDRİNİN XÜSUSİ
NÜMAYƏNDƏSİ ANJİ KASPİRŞİK İLƏ GÖRÜŞ

*10 iyul 2009-cu il ............................................................................ 40*

ABŞ DÖVLƏT DEPARTAMENTİ KATİBİNİN
BİRİNCİ MÜAVİNİ CEYMS STAYNBERQ İLƏ
GÖRÜŞ

*10 iyul 2009-cu il ............................................................................ 41*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN BÖYÜK BRİTANİYA VƏ
ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞINA
RƏSMİ SƏFƏRİ

*12 iyul 2009-cu il ............................................................................ 42*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
VƏ BÖYÜK BRİTANİYANIN BAŞ NAZİRİ
QORDON BRAUNUN GÖRÜŞÜ

*13 iyul 2009-cu il ............................................................................ 43*

*bp* ŞİRKƏTİNİN İCRAÇI DİREKTORU İLƏ GÖRÜŞ

*13 iyul 2009-cu il ............................................................................ 45*

KRAL BEYNƏLXALQ MÜNASİBƏTLƏR
İNSTİTUTUNDA GÖRÜŞ

*13 iyul 2009-cu il ............................................................................ 46*

BÖYÜK BRİTANİYA PARLAMENTİNİN XARİCİ
MÜNASİBƏTLƏR KOMİTƏSİNDƏ GÖRÜŞ

*14 iyul 2009-cu il ............................................................................ 66*

«BRİTİSH COUNCİL»İN HAZIRKI SƏDRİ
SER CERARD LEMOS İLƏ GÖRÜŞ

*14 iyul 2009-cu il* ........................................................................ *67*

BÖYÜK BRİTANİYANIN ENERGETİKA VƏ
ƏTRAF MÜHİT MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT
KATİBİ ED MİLİBƏND İLƏ GÖRÜŞ

*14 iyul 2009-cu il* ........................................................................ *68*

BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA
KRALİÇASI ÜLYAHƏZRƏT II ELİZABET İLƏ
GÖRÜŞ

*14 iyul 2009-cu il* ........................................................................ *69*

İRAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
MAHMUD ƏHMƏDİNEJADA

*15 iyul 2009-cu il* ........................................................................ *70*

MALDİV RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD NAŞİDƏ

*16 iyul 2009-cu il* ........................................................................ *71*

ATƏT-in BAŞ KATİBİ MARK PERREN DE
BRİŞAMBONUN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 iyul 2009-cu il* ........................................................................ *72*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUSİYA FEDERASİYASINA
İŞGÜZAR SƏFƏRİ

*17 iyul 2009-cu il* ........................................................................ *73*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ SERJ SARKİSYANIN GÖRÜŞÜ

*17 iyul 2009-cu il* .................................................................. *74*

AZƏRBAYCAN, RUSİYA VƏ ERMƏNİSTAN PREZİDENTLƏRİNİN ÜÇTƏRƏFLİ GÖRÜŞÜ

*18 iyul 2009-cu il* .................................................................. *75*

QAZAXISTAN PREZİDENTİ NURSULTAN NAZARBAYEV İLƏ GÖRÜŞ

*18 iyul 2009-cu il* .................................................................. *76*

RUSİYA PREZİDENTİNİN MÜKAFATI UĞRUNDA CIDIR YARIŞLARI

*18 iyul 2009-cu il* .................................................................. *77*

LONDON SİTİNİN MERİ ALDERMAN İAN LUDERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 iyul 2009-cu il* .................................................................. *79*

İSVEÇ KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KARL BİLDT VƏ ONUN BAŞÇILIQ ETDİYİ AVROPA İTTİFAQI «ÜÇLÜYÜ»NÜN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 iyul 2009-cu il* .................................................................. *80*

İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HANS-RUDOLF MERTSƏ

*22 iyul 2009-cu il* .................................................................. *81*

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GYORGE İVANOVA

*22 iyul 2009-cu il* ........................................................................ *82*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN NAZİRLƏR KABİNETİNİN 2009-cu İLİN BİRİNCİ YARISININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASINDA GİRİŞ NİTQİ

*22 iyul 2009-cu il* ........................................................................ *83*

YEKUN NİTQİ ........................................................................ *87*

ÇEXİYANIN MALİYYƏ NAZİRİ EDUARD YANOTANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 iyul 2009-cu il* ........................................................................ *99*

BAKI–QUBA–RUSİYA SƏRHƏDİ AVTOMOBİL MAGİSTRALINDA KÖRPÜNÜN AÇILIŞI MƏRASİMİ

*23 iyul 2009-cu il* ........................................................................ *100*

PAYTAXTIN DƏMİRYOL VAĞZALININ QARŞISINDAKI YERALTI PİYADA KEÇİDİNDƏ GÖRÜLMÜŞ ƏSASLI YENİDƏNQURMA İŞLƏRİ İLƏ TANIŞLIQ

*23 iyul 2009-cu il* ........................................................................ *101*

BAKI DAİRƏVİ AVTOMOBİL YOLUNUN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*23 iyul 2009-cu il* ........................................................................ *103*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*25 iyul 2009-cu il* ........................................................................ *104*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*25 iyul 2009-cu il* ........................................................................ *105*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*27 iyul 2009-cu il* ........................................................................ *106*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ
YUDHOYONOYA

*27 iyul 2009-cu il* ........................................................................ 107

BAKIDA APARILAN ABADLIQ İŞLƏRİ VƏ YENİ
YOLLARIN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*27 iyul 2009-cu il* ........................................................................ *108*

FƏVVARƏLƏR MEYDANINDA YENİDƏN-
QURMA VƏ NİZAMİ KÜÇƏSİNDƏKİ TARİXİ
BİNALARDA APARILAN BƏRPA İŞLƏRİ İLƏ
TANIŞLIQ

*29 iyul 2009-cu il* ........................................................................ *110*

UKRAYNANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VİKTOR YUŞŞENKOYA

*31 iyul 2009-cu il* ........................................................................ *112*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB LASLO ŞOYOMA

*31 iyul 2009-cu il* ........................................................................ *113*

QIRĞIZISTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB KURMANBEK BAKİYEVƏ

*31 iyul 2009-cu il* ........................................................................ *114*

SİNQAPUR RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SELLAPAN RAMANATANA

*31 iyul 2009-cu il* ........................................................................ *115*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİ-
DENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏMİD KƏRZAİYƏ

*31 iyul 2009-cu il* ........................................................................ *116*

PAKİSTAN İSLAM RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB
ASİF ƏLİ ZƏRDARİYƏ

*31 iyul 2009-cu il* ........................................................................ *117*

HİNDİSTAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM PRATİBHA DEVİSİNQH
PATİLƏ

*31 iyul 2009-cu il* ........................................................................ *118*

İNDONEZİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SUSİLO BAMBANQ
YUDHOYONOYA

*31 iyul 2009-cu il* ........................................................................ *119*

MALAYZİYANIN ALİ BAŞÇISI ƏLAHƏZRƏT TUANKU MİZAN ZEYNAL ABİDİN İBNİ ƏL-MƏRHUM SULTAN MAHMUD ƏL-MÜKTƏFİ BİLLAH ŞAHA

*31 iyul 2009-cu il* ........................................................ *120*

RUSİYANIN MÜDAFİƏ NAZİRİ ANATOLİ SERDYUKOV İLƏ GÖRÜŞ

*1 avqust 2009-cu il* ........................................................ *121*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA SƏFƏRİ

*3 avqust 2009-cu il* ........................................................ *122*

ŞƏRURDA OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*3 avqust 2009-cu il* ........................................................ *133*

RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*3 avqust 2009-cu il* ........................................................ *135*

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*4 avqust 2009-cu il* ........................................................ *137*

ŞAHBUZ RAYON MƏRKƏZİ XƏSTƏXANASININ YENİ BİNASININ AÇILIŞI MƏRASİMİ

*4 avqust 2009-cu il* ........................................................ *152*

*bp*-nin AXTARIŞ-KƏŞFİYYAT VƏ HASİLAT İŞLƏRİ ÜZRƏ BAŞ İCRAÇI DİREKTORU ENDİ İNQLİSİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*6 avqust 2009-cu il* ........................................................................ *155*

LATVİYA RESPUBLİKASININ PREZİDENTİ VALDİS ZATLERSİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*10 avqust 2009-cu il* ...................................................................... *156*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ LATVİYA PREZİDENTİ VALDİS ZATLERSİN TƏKBƏTƏK GÖRÜŞÜ

*10 avqust 2009-cu il* ...................................................................... *157*

DÖVLƏT BAŞÇILARININ GENİŞ TƏRKİBDƏ GÖRÜŞÜ

*10 avqust 2009-cu il* ...................................................................... *158*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*10 avqust 2009-cu il* ...................................................................... *160*

ALİ ORDENLƏRLƏ TƏLTİF OLUNMA MƏRASİMİ

*10 avqust 2009-cu il* ...................................................................... *161*

AZƏRBAYCAN VƏ LATVİYA PREZİDENTLƏRİNİN MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*10 avqust 2009-cu il* ...................................................................... *162*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*10 avqust 2009-cu il* ........................................................................ *166*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*10 avqust 2009-cu il* ........................................................................ *167*

AZƏRBAYCAN–LATVİYA BİZNES-FORUMU

*11 avqust 2009-cu il* ........................................................................ *171*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*11 avqust 2009-cu il* ........................................................................ *179*

ABŞ DÖVLƏT KATİBİNİN CƏNUBİ QAFQAZ VƏ
MƏRKƏZİ ASİYA REGİONU ÜZRƏ MÜŞAVİRİ,
ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI
HƏMSƏDRİ MƏTYU BRAYZƏ İLƏ GÖRÜŞ

*12 avqust 2009-cu il* ........................................................................ *180*

ALMANİYANIN BADEN-VÜRTEMBERQ
FEDERAL TORPAĞININ BAŞ NAZİRİ GÜNTER
OETTİNGERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*12 avqust 2009-cu il* ........................................................................ *181*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*17 avqust 2009-cu il* ........................................................................ *182*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB DMİTRİ MEDVEDEVƏ

*18 avqust 2009-cu il* ........................................................................ *183*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*20 avqust 2009-cu il* .................................................................. *184*

BRAZİLİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB LUİS İNASİU LULA DA SİLVAYA

*26 avqust 2009-cu il* .................................................................. *185*

VYETNAM SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NQUYEN MİNH ÇİETƏ

*26 avqust 2009-cu il* .................................................................. *186*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI DÖVLƏT MÜDAFİƏ KOMİTƏSİNİN SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB KİM ÇEN İRƏ

*26 avqust 2009-cu il* .................................................................. *187*

SLOVAKİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İVAN QAŞPAROVİÇƏ

*26 avqust 2009-cu il* .................................................................. *188*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA

*26 avqust 2009-cu il* .................................................................. *189*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EMOMƏLİ RƏHMONA

*26 avqust 2009-cu il* .................................................................. *190*

MOLDOVA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR VORONİNƏ

*26 avqust 2009-cu il ........................................................................ 191*

LİVİYA İNQİLABININ RƏHBƏRİ, BÖYÜK LİVİYA ƏRƏB SOSİALİST XALQ CƏMAHİRİYYƏSİNİN BAŞÇISI ZATİ-ALİLƏRİ CƏNAB MÜƏMMƏR ƏL-QƏDDAFİYƏ

*26 avqust 2009-cu il ........................................................................ 192*

BAKIDA GİMNASTİKA KOMPLEKSİNİN TƏMƏLQOYMA MƏRASİMİ

*26 avqust 2009-cu il ........................................................................ 193*

ALMANİYANIN «RWE» ŞİRKƏTİNİN PREZİDENTİ YURGEN QROSSMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 avqust 2009-cu il ........................................................................ 195*

ABŞ-ın AVRASİYA ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ RİÇARD MORNİNQSTARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*27 avqust 2009-cu il ........................................................................ 196*

RUSİYA FEDERASİYASININ XALQ ARTİSTİ ANDREY KONÇALOVSKİYƏ

*28 avqust 2009-cu il ........................................................................ 197*

MÜQƏDDƏS RAMAZAN AYI MÜNASİBƏTİLƏ İFTAR SÜFRƏSİ MƏRASİMİ

*29 avqust 2009-cu il ........................................................................ 198*

TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN BİRİNCİ MÜAVİNİ FERİDUN SİNİRLİOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 avqust 2009-cu il*.................................................................203

MAVRİTANİYA İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD ULD ƏBDÜLƏZİZƏ

*31 avqust 2009-cu il*.................................................................204

BAKIDA DÖVLƏT SƏRHƏD XİDMƏTİNİN «SƏRHƏDÇİ» İDMAN OLİMPİYA MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİ

*31 avqust 2009-cı il* .................................................................205

AZƏRBAYCAN BƏSTƏKARLAR İTTİFAQININ BİNASININ ƏSASLI TƏMİR VƏ YENİDƏNQUR-MADAN SONRA İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*1 sentyabr 2009-cu il*................................................................209

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN HACIQABUL RAYONUNA SƏFƏRİ

*3 sentyabr 2009-cu il*................................................................213

MƏŞHUR RUSİYALI MÜĞƏNNİ ALLA PUQAÇOVANIN KONSERTİNDƏ

*4 sentyabr 2009-cu il*................................................................221

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GEORGİ PIRVANOVA

*7 sentyabr 2009-cu il*.................................................................222

MAKEDONİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB GYORGE İVANOVA

*7 sentyabr 2009-cu il*.................................................................223

HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ TİKİNTİ-QURAŞDIRMA İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2009-cu il*.................................................................224

PAYTAXT YOLLARINDA APARILAN YENİDƏN-QURMA VƏ TƏMİR-BƏRPA İŞLƏRİ İLƏ TANIŞLIQ

*7 sentyabr 2009-cu il*.................................................................226

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB FELİPE KALDERON İNOXOSAYA

*8 sentyabr 2009-cu il*.................................................................227

SƏUDİYYƏ ƏRƏBİSTANININ KRALI ƏLAHƏZRƏT ABDULLAH BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*8 sentyabr 2009-cu il*.................................................................228

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ VƏLİƏHDİ, BAŞ NAZİRİN MÜAVİNİ, MÜDAFİƏ VƏ AVİASİYA NAZİRİ, BAŞ MÜFƏTTİŞ ƏLAHƏZRƏT SULTAN BİN ƏBDÜLƏZİZ AL SƏUDA

*8 sentyabr 2009-cu il*.................................................................229

MALİ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB AMADU TUMANİ
TUREYƏ

*8 sentyabr 2009-cu il*......................................................................230

MALTA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB CORC ABELAYA

*8 sentyabr 2009-cu il*......................................................................231

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*9 sentyabr 2009-cu il*......................................................................232

AMEA-nın AKADEMİYA ŞƏHƏRCİYİNDƏKİ
PARKIN ƏSASLI TƏMİR VƏ YENİDƏNQUR-
MADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2009-cu il* .....................................................................233

AZƏRBAYCAN DÖVLƏT AKADEMİK OPERA VƏ
BALET TEATRINDA APARILACAQ ƏSASLI
TƏMİR VƏ YENİDƏNQURMA İŞLƏRİNİN ESKİZ
LAYİHƏSİ İLƏ TANIŞLIQ

*9 sentyabr 2009-cu il*......................................................................234

ERİCSSON ŞİRKƏTİNİN BİRİNCİ VİTSE-PRE-
ZİDENTİ HANS VESTBERQ İLƏ GÖRÜŞ

*10 sentyabr 2009-cu il*....................................................................235

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN QAZAXISTANA SƏFƏRİ

*11 sentyabr 2009-cu il*....................................................................236

AZƏRBAYCAN, QAZAXISTAN, RUSİYA VƏ TÜRKMƏNİSTAN PREZİDENTLƏRİNİN GÖRÜŞÜ

*11 sentyabr 2009-cu il*............................................................... *237*

YEREVANDA KEÇİRİLƏN GƏNCLƏR ARASINDA CÜDO ÜZRƏ AVROPA ÇEMPİONATINDA İŞTİRAK EDƏN AZƏRBAYCAN KOMANDASININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*14 sentyabr 2009-cu il*............................................................... *241*

BAKININ NƏSİMİ RAYONUNDAKI ELİTAR GİMNAZİYANIN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRA AÇILIŞI MƏRASİMİ

*15 sentyabr 2009-cu il*............................................................... *245*

GÜRCÜSTANIN XARİCİ İŞLƏR NAZİRİ QRİQOL VAŞADZE İLƏ GÖRÜŞ

*15 sentyabr 2009-cu il*............................................................... *249*

AVROPA İTTİFAQININ ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ KOMİSSARI ANDRİS PİEBALQS İLƏ GÖRÜŞ

*15 sentyabr 2009-cu il*............................................................... *250*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

*16 sentyabr 2009-cu il*............................................................... *251*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB YUKİO HATOYAMAYA

*16 sentyabr 2009-cu il*............................................................... *252*

BÖYÜK BRİTANİYANIN ENERJİ MƏSƏLƏLƏRİ ÜZRƏ DÖVLƏT NAZİRİ LORD HANTIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 sentyabr 2009-cu il*..................................................................253

MÜSƏLMAN ÖLKƏLƏRİNİN AZƏRBAYCANDA FƏALİYYƏT GÖSTƏRƏN SƏFİRLƏRİ İLƏ GÖRÜŞ

*16 sentyabr 2009-cu il*..................................................................254

«ƏSRİN MÜQAVİLƏSİ»NİN 15-ci İLDÖNÜMÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ MƏRASİM

*16 sentyabr 2009-cu il*..................................................................256

AZƏRBAYCANIN YƏHUDİ İCMASINA

*17 sentyabr 2009-cu il*..................................................................267

MİLLİ ONKOLOGİYA MƏRKƏZİNİN CƏRRAHİYYƏ KORPUSUNUN AÇILIŞI MƏRASİMİ

*17 sentyabr 2009-cu il*..................................................................268

TÜRKSOY-un BAŞ DİREKTORU DÜSEN KASEİNOV İLƏ GÖRÜŞ

*17 sentyabr 2009-cu il*..................................................................272

BAKININ PARLAMENT VƏ MEHDİ HÜSEYN KÜÇƏLƏRİNİN ƏSASLI BƏRPA VƏ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*17 sentyabr 2009-cu il*..................................................................273

RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN XALQINA TƏBRİK

*18 sentyabr 2009-cu il*.................................................................274

BAKI–QUBA–RUSİYA FEDERASİYASI DÖVLƏT
SƏRHƏDİ AVTOMOBİL YOLUNUN 16–134-cü
KİLOMETRİNİN AÇILIŞI MƏRASİMİ

*18 sentyabr 2009-cu il*.................................................................275

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
QUBA–QUSAR RAYONLARINA SƏFƏRİ

*18 sentyabr 2009-cu il*.................................................................277

QUSAR RAYONUNUN MƏRKƏZİNDƏKİ
HEYDƏR BAĞINI ZİYARƏT

*18 sentyabr 2009-cu il* ...............................................................285

ÇEXİYA RESPUBLİKASI PARLAMENTİ
SENATININ SƏDRİ PRJEMISL SOBOTKANIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*24 sentyabr 2009-cu il*.................................................................294

BAKININ BABƏK PROSPEKTİNDƏ YENİ YOL
QOVŞAĞININ AÇILIŞI MƏRASİMİ

*24 sentyabr 2009-cu il*.................................................................295

BİLGƏH–SUMQAYIT AVTOMOBİL YOLUNUN
YENİDƏN QURULMASI LAYİHƏSİNİN İCRA-
SINA BAŞLANMASI MƏRASİMİ

*24 sentyabr 2009-cu il*.................................................................297

MİLLİ MƏCLİSİN YENİ KORPUSUNUN
İSTİFADƏYƏ VERİLMƏSİ MƏRASİMİ

*25 sentyabr 2009-cu il................................................................299*

YENİDƏNQURMADAN SONRA İSTİFADƏYƏ
VERİLƏN AZƏRBAYCAN DÖVLƏT İNCƏSƏNƏT
MUZEYİ İLƏ TANIŞLIQ

*25 sentyabr 2009-cu il................................................................301*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ
MƏHMƏT ƏLİ ŞAHİNİN BAŞÇILIQ ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*26 sentyabr 2009-cu il................................................................305*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN RUMINİYAYA RƏSMİ SƏFƏRİ

*28 sentyabr 2009-cu il................................................................306*

RƏSMİ QARŞILANMA MƏRASİMİ

*28 sentyabr 2009-cu il................................................................307*

NAMƏLUM ƏSGƏRİN MƏZARINI ZİYARƏT

*28 sentyabr 2009-cu il................................................................308*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
VƏ RUMINİYA PREZİDENTİ TRAYAN
BESESKUNUN TƏKBƏTƏK GÖRÜŞÜ

*28 sentyabr 2009-cu il................................................................309*

DÖVLƏT RƏHBƏRLƏRİNİN GENİŞ TƏRKİBDƏ
GÖRÜŞÜ

*28 sentyabr 2009-cu il................................................................310*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*28 sentyabr 2009-cu il*................................................................311

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUMINİYA PREZİDENTİ TRAYAN BESESKUNUN BİRGƏ MƏTBUAT KONFRANSINDA BƏYANATLARLA ÇIXIŞLARI

*28 sentyabr 2009-cu il*................................................................313

RUMINİYANIN BAŞ NAZİRİ EMİL BOK İLƏ GÖRÜŞ

*28 sentyabr 2009-cu il*................................................................319

AZƏRBAYCAN PREZİDENTİNİN VƏ XANIMININ ŞƏRƏFİNƏ RƏSMİ QƏBUL

*28 sentyabr 2009-cu il*................................................................320

RUMINİYA SENATININ SƏDRİ MİRÇA COANA İLƏ GÖRÜŞ

*29 sentyabr 2009-cu il*................................................................324

ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ABİDƏSİNİ ZİYARƏT

*29 sentyabr 2009-cu il*................................................................326

*QEYDLƏR*................................................................328

*Şəxsi adlar göstəricisi* ................................................................367

*Coğrafi adlar göstəricisi* ................................................................373

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompyuter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.